Kütləvi informasiya vasitələrinin qarşısına qoyulan məqsədin həyata keçirilməsində təkcə məzmun dolğunluğu kifayət deyil. KİV-də yer alan materialların inandırıcı, maraqlı bir şəkildə oxucuya təqdim olunması da əsas şərtlərdəndir. Oxunaqlı bir dildə yazılmış hər bir yazı oxucu diqqətini cəlb edir. Əksinə, zəif, sönük, quru bir dildə hazırlanan material isə diqqətdən kənarda qalır. Ona görə də KİV-in dil-üslub xüsusiyyətlərinin tədqiqi məsələsi indi ən zəruri problem kimi qarşıda dayanır və bu, çox mühüm nəzəri-təcrübi əhəmiyyətə malikdir.

"...Qəzetinizin əsas məziyyətlərindən biri ifadənin gözəlliyi, ibarələrin zərifliyi və aydınlığı, orfoqrafiyanın düzgünlüyü olmalıdır. Çünki qəzetiniz başqa məsələlərlə yanaşı, Azərbaycan yazısını düzgün olmayan ifadələrdən təmizləməyə çalışmalı, bu dildə yazan bütün adamlar üçün nümunə olmalıdır. Orfoqrafiyaya gəlincə, sizin gələcəkdə təyin edəcəyiniz mühərrir mənim Azərbaycan dilində olan komediyalarımın orfoqrafiyasına riayət etməlidir." (M.F.Axundov. Əsərləri III cild, səh.387). Azərbaycan oxucularının ixtiyarına buraxılacaq qəzetin dil-üslubu qarşısına qeyd etdiyimiz tələbləri qoyan bu məktub ünvanına yetişəndə hələ 1875-ci ilin 21 apreli idi. Böyük mütəfəkkir Mirzə Fətəli Axundov həmin tələbləri milli mətbuatımızın qaranquşu sayılan "Əkinçi" qəzetinin nəşrə başlaması ərəfəsində, milli mətbuatımızın banisi Həsən bəy Zərdabiyə ünvanlayırdı. M.F.Axundovun mətbuat dilinin xüsusi rolu, onun ədəbi dil sistemində tutduğu özünəməxsus yer, mətbuatın dilin təmizliyi uğrunda mübarizədə fəal iştirakı, qəzetin bu dildə yazanların hamısına nümunə göstərməsi, qəzet dilinin vəzifələri haqqında fikirləri bu qısa məktubda əks olunur. Axundovdan başqa digər maarifpərvər ziyalılarımız da qəzet dilinin təmizliyi, saflığı uğrunda ardıcıl mübarizə aparır, mətnləri əcnəbi sözlər və tərkiblərlə dolduran müəllifləri və mətbuatı tənqid edirdilər. Bu cəhətdən "Əkinçi" qəzetində dərc edilən materialların həm savadlı, həm də azsavadlı oxucular tərəfindən düzgün və asan qavranılmasına nail olmaqdan ötrü dil-üslub səlisliyinə diqqət yetirən Həsən bəy Zərdabinin "Molla Nəsrəddin" jurnalının ilk sayının ilk yazısında "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!" söyləyib, müsəlman qardaşlarla "türkün açıq ana dilində" danışan Cəlil Məmmədquluzadənin, Üzeyir Hacıbəyovun və digər ziyalılarımızın qətiyyəti, əzmkarlığı xüsusi qeyd olunmalıdır.

Dil jurnalist üçün böyük məsuliyyətdir, çünki ədəbi dilin orfoqrafik, qrammatik, leksik normalarının inkişafı bir çox hallarda mətbuatdan asılı olur. Əgər bu gün yeni bir anlayış yaranırsa, o, sabah qəzetdə öz dil ifadəsini tapır. Hərtərəfli götür-qoy etməyə, mütəxəssislərlə, yəni dilçilərlə məsləhətləşməyə macal tapmadan bəzi qəzetçilər geniş oxucu auditoriyasına özlərinin "yeni dil məhsullarını" təqdim edirlər ki, bu da dil normalarının pozulması ilə nəticələnir. Mətbuatda dil normalarının pozulması isə savad və təhsil fəaliyyətinə, eyni zamanda, nitq mədəniyyətinin yüksəlişinə mənfi təsir göstərir.

Dilçilik ədəbiyyatlarında isə üslub "... ədəbi dilin funksional ixtisaslaşması nəticəsində tarixən yaranmış, cəmiyyət üzvləri tərəfindən dərk edilmiş, ekspressivliyi və rəngi ilə fərqlənən mürəkkəb struktur tərz sistemi" kimi qəbul edilir. Dilçi-alim Ə.Dəmirçizadənin fikrincə, ədəbi dildən müxtəlif məqsədlərlə istifadə zamanı məqsəddən asılı olaraq, ifadəlilik vasitələrinin müxtəlif sistemindən çeşidli formalar, ayrı-ayrı təzahür şəkilləri meydana çıxır. Bu təzahür şəkilləri isə danışanın və ya yazanın məqsədindən,

danışılan və yaxud yazılan fikirlərin nə məqsədlə yazılmasından, danışanın və ya yazanın ona münasibətindən asılı olaraq istifadə edilən spesifik vasitə və üsullarla bağlı olur. Beləliklə, ədəbi dilin müxtəlif qolları yaranır ki, belə qollara da üslub deyilir.

Publisistik üslub, mətbuat üslubu, qəzet dili anlayışları ilə yanaşı, jurnalist leksikonunda "qəzetin üslubu" deyilən bir ifadə də var. Yaradıcılıq prosesində hər bir jurnalist-publisist fərdi üslubla çıxış etdiyi kimi, ayrı-ayrı qəzetlər də özünəməxsus üsluba malikdir. İstənilən qəzet mətbuat dünyasına yeni üslubla qədəm qoyur, öz fikirlərini bu üslubla cəmiyyətə ünvanlayır və oxucu auditoriyası da həmin qəzeti ən çox üslubuna görə digər çoxsaylı mətbuat orqanlarından fərqləndirir. Qəzetin üslubunu bir növ ayrı-ayrı mətbuat orqanlarında üzə çıxan əsas əlamətlərin məcmusu kimi də qəbul etsək, yanılmarıq. Bu əlamətlər qəzetin üslubunu, qəzetin üslubu isə həmin əlamətləri formalaşdırır. Qəzetin üslubunu həmin qəzetdə çalışan qələm sahiblərinə məxsus ayrı-ayrı fərdi üslubların bir üsluba tabe etdirilməsi kimi başa düşmək yanlış fikirdir. Lakin təəssüf ki, bəzən üsluba bu istiqamətdən yanaşanlar da olur.

Mətbuatdakı aparıcı jurnalist-publisistlərdən birinin və yaxud qəzetdə gedən materiallar üzərində düzəliş aparan redaktorun fərdi üslubu qəzetin ümumi üslubuna çevrilir, ayrı-ayrı müəlliflərin həmin üsluba meyl etmələri və yaxud redaktorun bütün materialları öz qələmindən keçirməsi fərdi üslubları eyni qəlibdə əridir. Nəticədə, mətbuatdakı üslub təkrarçılığı aşkar nəzərə çarpır, bu təkrarçılıq müəyyən yeknəsəklik yaradır və qəzetdə gedən materialların dəyərdən düşməsinə, ümumilikdə isə həmin qəzetə qarşı oxucu marağının zəifləməsinə gətirib çıxarır.

Publisistik üslubdan danışarkən əsas məqamlardan biri də üslubi normalar məsələsidir. Üslubi normalar bir sistemdir və dilçi-alim T.Hacıyevin yazdığı kimi, dil sistemində mövcud olan üslubi variantların ən məqbulunun seçilib işlədilməsini tələb edir. Mətbuat dilində əməl olunması vacib hesab edilən üslubi normalar bunlardır:

1. Aydınlıq
2. Yığcamlıq
3. Səlislik
4. Düzgünlük
5. Dəqiqlik
6. Təbiilik
7. Təmizlik
8. Əlvanlıq.

Müasir dövrdə mövcudluğu qəzet bazarından asılı olan və fəaliyyətini bu bazar əsasında istiqamətləndirən müstəqil qəzetlər yeni cümlə tiplərinə, informasiyaların başqa qəzet materiallarının oynaq, şirin, anlaşıqlı bir dildə oxucuya çatdırılmasına, bu informasiyalara fərqli jurnalist münasbətinin bəslənilməsinə daha çox meyllidirlər. Həmin keyfiyyət Azərbaycanın mətbuat

aləmindəki durumunu bir şox xarici ölkələrdəki vəziyyətə oxşar edir. Bir sıra ölkələrdə qəzetlərin iki kateqoriyası mövcuddur: əhalinin savadlı təbəqələri üçün elitar nəşrlər və "xalq üçün mətbuat". Onları çox zaman keyfiyyətli və kütləvi nəşrlər də adlandırırlar (Xarici ölkələrin Kütləvi İnformasiya Vasitələri. Bakı,1997, səh.218).

Mətbuatın elitar yaxud kütləvi nəşrlər sırasına aid edilməsindən asılı olaraq, onun dil-üslub xüsusiyyətləri formalaşır. Birincilər, adətən çox yüksək, ikincilər isə aşağı, xalqın anlayacağı üslubda olur. Birincidən fərqli olaraq, aşağı üslubda dilin sadəliyinə üstünlük verilir və o qədər də dərin savada malik olmayan oxucu kütləsi nəzərə alınır. Ümumiyyətlə, üslub mətbuatda mühüm əhəmiyyətə malikdir.

Bu gün kütləvi informasiya vasitələrində üzə çıxan xarakterik dil-üslub xətalarını isə belə sıralamaq olar:

1. Korrektura səhvləri (orfoqrafik səhvlər)
2. Söz sırasının pozulması
3. Qrammatik əlaqələrin pozulması
4. Məntiqsizlik
5. Terminlərdən yerli-yersiz istifadə
6. Söz, ifadə yanlışlığı
7. Təkrarçılıq
8. Dəqiqlik normasının pozulması
9. Sözçülük
10. Dəftərxana üslubunun təsiri
11. Söz yaradıcılığına verilən tələblərin pozulması
12. Alınma sözlərdən yerli-yersiz istifadə
13. İxtisar tələblərinin pozulması.

Qeyd etdiyimiz səhv növlərini ayrı-ayrılıqda təhlil etmək imkanından uzaq olduğumuz üçün onların yalnız adlarını çəkmək məcburiyyətində qaldıq.

Yuxarıda dediklərimizi ümumiləşdirsək, konkret şəkildə aşağıdakı nəticələrə gələ bilərik:

1. Üslubun yaradılması dil materialının seçilməsi ilə bağlıdır. Onu daim dil müəyyənləşdirir, sənətkarın varlığa, həyat həqiqətlərinə münasibəti və bu münasibətin fəallıq dərəcəsi də məhz onun üslubu ilə üzə çıxır.

2. Mətbuat janrlarının hər biri özünəməxsus dil-üslub keyfiyyətlərinə malikdir. Janrlar bir-birindən həm də dil-üslub özünəməxsusluğuna görə fərqlənir.

3. Publisistik üslub, ictimai-siyasi, elmi, iqtisadi, mənəvi-əxlaqi və s. aktual problemlərin elmi-məntiqi dəlil və sübutlar, obrazlı, ehtiraslı mühakimələr, lirik düşüncələr, konkret xarakterlər vasitəsilə ifadə formasıdır.

Publisistikanın inkişafı, publisistik üslubun polemik, təşviqat-natiqlik, analitik-tənqidi, pozitiv-təbliği, satirik və s. növlərini formalaşlırıb.

4. Ədəbi dilin formalaşması, nəsillərdən-nəsillərə ötürülməsində kütləvi informasiya vasitələrinin böyük rolu vardır.

Kütləvi informasiya vasitələrində dil-üslub məsələləri jurnalist peşəkarlığının, təxminən, yarı faizini təşkil etsə də təəssüf ki, haqqında bəhs etdiyimiz mövzu elmi ədəbiyyatlarımızda tam tədqiq olunmayıb. Halbuki KİV-lər nitq mədəniyyətinin təbliğində möhtəşəm rol oynayaraq, bir növ, normalaşdırıcı qismində çıxış edir. Müasir cəmiyyətdə nitq fəaliyyətinin istiqamətlərinin formalaşması və yayılmasında KİV-lərin rolu və imkanlarını düzgün dəyərləndirmək zəruridir. Bu baxımdan, media mətnlərinin təhlili ön plana çıxır, çünki onlar müasir mili dilin bütün özəlliklərini əks etdirir.

Y.M.Lotman qeyd edirdi ki: «Hadisənin mətnə çevrilməsi onun bu və ya digər dilin sistemində açıqlanması, yəni həmin struktur təşkilatlanmaya tabe edilməsidir. Dilin vasitlərilə nəql olunan hadisə mütləq struktur vəhdəti qazanır. Yalnız ifadə səpkisinə məxsus olan bu vəhdət qaçılmaz olaraq məzmun səpkisinə də şamil olunur. Beləliklə, hadisənin mətnə çevrilməsi faktının özü onun təşkilatlanmasını artırır. Üstəlik, dil əlaqələri sistemi qaçılmaz olaraq real aləmin şərhinə şamil edilir» (4, 99). Mətn fəaliyyəti zamanı meydana çıxan yeni məna çalarları və dəyərləndirmələr isə bu gün çox mürəkkəb və ziddiyətli olan real aləmdə cərəyan edən hadisələrə istiqamətlənir. Odur ki, hazırda dilin mövcüd normalarına daxil edilə bilən yeni dil normalarının yaradılması zərurəti yaranmışdır. Bu modellər isə auditoriyanın şüuruna KİV-lər vasitəsilə aşılanır.

Ədəbiyyat:

1. Axundov A.A. Ümumi dilçilik (dilçiliyin tarixi, nəzəriyyəsi və metodları). Bakı: Maarif, 1988.
2. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri, Bakı 1999.
3. Akif Bayramov, Ziyəddin Məhərrəmov, Mustafa İsgəndərzadə. Azərbaycan dili və nitq mədəniyyəti (Dərs vəsaiti). Baki, 2015.
4. Будагов Р.А. Литературные языки и языковые стили. М., 1967.
5. Брандес М,П. Стилистика текста. М., Прогресс-Традиция, 2004
6. Вакуров В.Н. О языке радио и телевидения. М., 2000
7. Лотман Ю.М. Текст и функция//Избр.статьи в 3-х тт. Т.1. Таллин, 1992. с.99
8. Социальная практика и журналистский текст/Под ред. Я.Засурского и Е.Пронина.- М., 2000

А.Алигейдар

Некоторые вопросы языка и стилистики современных сми

Резюме

В статье говорится о требованиях, предъявляемых к языку средств массовой информации. Автор отмечает, что в них необходимо соблюдение фонетических, лексических и грамматических норм языка. Указываются тенденции, имеющие место в языке материалов средств массовой информации Азербайджана. Отмечается, что при отображении происходящих в реальном мире событий. Подчеркивается необходимость исследования вопросов языка и стиля при отображении событий реального мира. Приводится примерный перечень характерных ошибок и недостатков, к числу которых относятся недостаточно богатый словарный запас, повторы, нарушение порядка слов, наличие орфографических ошибок и пр. Автор приходит к выводу, что возникновение стиля связано с выбором языкового материала, существующие в СМИ жанры обладают языковым и стилистическим своеобразием, СМИ играют важную роль в формировании литературного языка и передаче его следующим поколениям.

A.Aligaydar

Some issues of language and stylistics of modern media

Summary

The article refers to the requirements for the language of the media. The author notes that they need to observe the phonetic, lexical and grammatical norms of the language. The tendencies that take place in the language of the materials of the media of Azerbaijan are indicated. It is noted that when displaying events occurring in the real world. The necessity of studying questions of language and style in the mapping of real-world events is emphasized. An approximate list of characteristic errors and shortcomings is given, including insufficiently rich vocabulary, repetitions, violation of word order, spelling mistakes, etc. The author comes to the conclusion that the emergence of a style is associated with the choice of language material, the genres existing in the media have linguistic and Stylistic originality, the media play an important role in the formation of the literary language and its transfer to the next generations.

Rəyçi: Talıblı Etibar
filologiya üzrə fəlsədə doktoru, dosent

QIZILGÜL ABDULLAYEVA
Baki Dövlət Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
gizilgulabdullayeva@gmail.com

ZƏRF XVII ƏSRİN DİL MƏNZƏRƏSİNDƏ

Açar sözlər: Zərf, adverbiallaşma, arxaizmlər, inteqral, diferensial, variantlılıq, məna tutumu, leksik paralellər, diferensiativ, adverbiallaşma, morfoloji struktur, sabitlik.
Ключевые слова: Наречие, адвербиализация, архаизмы, интеграл, дифференциал, вариативность, объем значения, лексическая параллель, дифференциативность, морфологическая структура, стабильность.
Key words: Adverb, adverbialization, archaisms, integral, differential, variability, value volume, lexical parallel, differentiability, morphological structure, stability.

XVII əsr Azərbaycan ədəbi dilində sabitlik nümayiş etdirən nitq hissələrindən biri də zərfdir. Zərfin inkişaf tarixi elə əslində feilin inkişaf tarixidir. Bu inkişafın paralel gedişi, təbii ki, zərfin feillərlə əlaqələnməsi ilə bağlıdır. Hərəkət bildirən bir nitq hissəsinin zərf vasitəsi ilə müxtəlif yöndən izahı diferensiativ məna növlərinin

XVII əsrdə də qorunuşunu təmin edir. XVII əsr Azərbaycan ədəbi dilinin morfoloji strukturunda yer alan zərfin araşdırılması bu nitq hissəsinin aşağıdakı dil mənzərəsinin reallığını təqdim edir:

İlk növbədə onu deyək ki, ədəbi dilimizin bu tarixi mərhələsində zərfin, demək olar ki, bütün mənaca növləri öz təzahürünü tapır. XVII əsrin dil materialından seçilən nümunələrə söykənmə də bunu təsdiq edir:

Tərzi-hərəkət zərfi: Abbas ağlar *arsız-arsız*, Dünya olub e'tibarsız (Aşıq Abbas, 16, s.323); Ta qucağımızdan *irağ* düşdün, təni-bican bənəm (Təsir., 16, s. 318)...

Birinci nümunədəki zərf bu gün ədəbi dil səviyyəsində işlək vəziyyətdədir, amma ikincidə yer alan zərf canlı danışıq faktıdır. Onun normativlik qazanan paraleli isə eyni semantik yükü daşıyan *uzaq* leksik vahididir.

Zaman zərfi. XVII əsr Azərbaycan ədəbi dilinin qrammatik sistemində zaman zərfləri də müəyyən işlənmə əhatəsi ilə diqqət çəkir:

Dedi sultan: «Mənə gəl həmnişin ol,
Gecə-gündüz bizimlə həmqərin ol» (Fədai, 7, s.122).

Nümunədə təqdim olunan *gecə-gündüz* leksik vahidi də ədəbi dil faktı olaraq müasir dildə ünsiyyətə xidmət etməkdədir. Bu mürəkkəb quruluşa

malik zərfin yaradıcıları olan antonim komponentlərin hər birinin müasir Azərbaycan ədəbi dilində müstəqil şəkildə işləkliyi də obyektiv reallıqdır.

XVII əsr Azərbaycan ədəbi dilində zaman zərflərindən biri də müasir dilimizdə normativlik qazanan *indi* zərfidir (Gəl *indi* doğru söylə sən həqiqət – Fədai, 7, s.149).Bu zərf XVII əsr təmsilçilərinin dilində fonoparalelləri ilə qeydə alınır. Sözün *imdi* fonotərkibli variantı onlardan biridir:

Əcəb gündür, gəl *imdi*, Rəhməti, beytül-həzəndən çıq (Rəhməti Paşa,16,s.65)

Söz bu fonetik cildlə XVII əsrəqədərki klassik ədəbiyyatın dili üçün də işlək olan sözlərdən biri kimi diqqət çəkir (Allah ilə ol *imdi* niyaz eylə, Nəsimi –15,s. 29). Bu gün dilimizdə *indi* fonetik cildi ilə ədəbi dil faktına çevrilən *imdi* zərfinin ilkin fonoforması isə tarixən *amtı* şəklində olmuşdur:

Ol *amtı* anığ yok / Orada *indi* pis yoxdur − Kül tiqin$_{\text{kiçik}}$ abidəsi-Cənub.,3 (1, s. 24-25).

Görünür, sözün fonoloji strukturunda aşağıdakı istiqamətlənmə getmişdir:

amtı → *emti* → *imti* → *imdi* → *indi*

Onu da deyək ki, bu fonoformalar içindəki yer alan *imdi* zərfi yaşlı nəslin dilində hələ də qorunmaqdadır.

Kəmiyyət zərfi: Bəla zülfiylə saldın hər tərəf bir seyd toprağa, Düşür damın fəribi *çoxca*, rəhmi heç səyyadın (Məlik bəy Avçı, 16, s.273); Pay edəndə ədu qənimətini, *Çoxcacuq* səbr edən səfayə burax (Məczub, 16, s.196); Ona eylədilər *çox-çox* siyasət (Fədai, **7,** s.115)...

Təqdim olunan ilk iki nümunədə yer alan *çox* zərfi ədatla birləşdiyindən haqqında danışılan söz daxilində məna qüvvətlənməsi təmin edilir. Müasir dilimizdə *çoxca* işlənir, amma *çoxcaçıq* variantı qeydə alınmır. Bu da maraqlıdır ki, bu variant işlənməsə də, onun antonim komponenti olan *azaçıq* lüğəvi dil nümunəsi hal-hazırda kifayət qədər intensivlik nümayiş etdirir. Kəmiyyət zərfi kimi işləkliklə müşayiət olunan *çox* zərfinin özü isə bu gün də ümumxalq dilinin sayəsində normativlik qazanan lüğəvi dil nümunələri nizamında sıralanır.

Yer zərfi: Savaş düşdü *arayə* iki yandan, Boyandı lalə tək yer üzü qandan (Fədai, **7,** s.105); Durdu *oradan* pəs ol vəfadar, Məhzi od olub çü şö'leyi-nar (Məsihi, 14, s.64)...

Nümunələr vasitəsi ilə təqqdim olunan yer zərflərinin işlənmə fonovariantları eyni ilə müasir Azərbaycan türkcəsində olduğu kimidir.

Leksik fakt olaraq işləkliyini itirən və sırf arxaiklik nümayiş etdirən zərflər də XVII əsr Azərbaycan ədəbi dilində qeydə alınır. Təbii ki, arxaikləşərək dili tərk edib gedənlər də zərfin, demək olar ki, mənaca bütün növlərini əhatə edir. Müasir Azərbaycan ədəbi dili ilə müqayisədə tarixi fakt olaraq arxaik sayılan həmin zərflərdən bəzilərinin izahına ehtiyac duyuruq.

Onu da unutmayaq ki, XVI əsrin sonu XVII əsrin əvvəllərindən etibarən dildə gedən yeni proseslərin nəticəsi olaraq türk dili aparıcılığa doğru istiqamətlənsə də, fars dili hələ də onunla paralel olaraq addımlayırdı və bu yanaşı addımlamada ərəb dili də o qanalardan biri sayılırdı. Odur ki, arxaikləşən zərflər nizamında türk mənşəli lüğəvi dil nümunələri ilə yanaşı ərəb və fars mənşəli dil faktları da yer alır. Belə leksik vahidlərdən biri olaraq, *dərdəm* lüğəvi dil nümunəsi xüsusi maraq doğurur. Bu leksem məna növünə görə zaman zərfidir. Nadir bir dil faktı kimi diqqət çəkən bu söz (*dərdəm*) د رد م fonoforması ilə XVII əsrin dil materialında yer alır. Haqqında danışılan zaman kəsiyində bu lüğəvi dil nümunəsi epizodikliklə müşayiət olunur və intensivlik nümayiş etdirmir. Bu isə ona işarədir ki, *dərdəm* zərfi XVII əsr Azərbaycan ədəbi dilinin özündə belə arxaik sayılır. Amma hər halda fars mənşəli bu leksik vahidə XVII əsr ədəbi-bədii dil nümunələrində rast gəlinir və «dərhal, o saat, yubanmadan» məna tutumu ilə ekvivalentlik təşkil edir (5, s. 145):

Rəvani tutuban bağladı möhkəm,
Apardılar onu sultanə *dərdəm* (Fədai, **7,** s.115)

Dərdəm leksik vahidi əslində ikitərkiblidir, yəni *dər* və *dəm* hissələrindən ibarətdir. Ikinci komponent «hal», «vəziyyət», «zaman» (5, s.142), «vaxt» mənaları ilə ekvivalentləşir. Beləliklə, bu lüğəvi dil nümunəsi semantikasına gorə bu gün də dilimizdə işlənən «dərhal» anlamına uyğun gəlir. Bu zərfin yaxın məna tutumu daşıyan başqa bir fonoformasını da qeydə alırıq ki, bu da *birdəm* zərfidir:

Çatıb *birdəm* çağırdı övrətini
Qılıb tərif cavanın xislətini (Fədai, 8, s. 57).

Müasir Azərbaycan ədəbi dilinin nə lüğət tərkibində, nə də bir zərf olaraq qrammatik sistemində rast gəlinməyən dil faktlarından biri də *filhal* lüğəvi dil nümunəsidir:

Filhal çağırırdı bir ləbibi, Ta ol mərəzin ola təbibi (Məsihi, 14, s. 180).

Yuxarıdakı eyni izahat *filhal* فى الحا ل leksik vahidi üçün də keçərlidir. Mətnin təqdimatına əsasən o da müəyyənləşir ki, *filhal* dil faktı da *dərdəm* leksemi ilə cemantik uyum saxlayır, yəni bu söz də çağdaş dilimiz üçün işlək sayılan «dərhal», «tez», «cəld» mənaları ilə ekvivalentlik nümayiş etdirir. Bu gün bu dil vahidi Türkiyə türkcəsinin lüğət tərkibində oturmasa da, vaxtilə Osmanlı türkcəsində işləndiyi qeydə alınır. Müəyyənləşir ki, Çağdaş Azərbaycan və Türkiyə türkcələrinin arxaik leksik qatında yer alan *filhal* lüğəvi dil nümunəsi tarixən Osmanlı türkcəsində fi-l – hâl

فى الحال fonetik tərkibi ilə işləklik qazanıb və «bu anda, hemen, şimdi» məna tutumlarının ifadəçisi olub (17, s. 319).

Arxaikləşən zərflərdən biri də *şimdi* zaman zərfidir. Əslində bu, *indi* zərfinin leksik paralellərindən biridir:

Köhnə oldu dövrdə Fərhadü Şirin qissəsi,
Söylənür *şimdi* Zəfər eşqi bu günlər xəlq ara (Zəfər, 16, s.130).

Sözsüz, müasir Azərbaycan dilinin lüğət tərkibində bu dil faktı ilə rastlaşmırıq. Bu o deməkdir ki, tarixən klassik ədəbiyyatımızın dili üçün işlək sayılan *şimdi* zərfi (məsələn: *Şimdi* bizüm bu də' vimüz bürhana irdi, şükr ana! – Q.Bürhanəddin, 3, s. 121) indi arxaikləşmiş sözlər nizamında yerləşir. Amma Türkiyə türkcəsində hal-hazlrda da ədəbi dil faktı kimi işlənməkdə və «şu zamanda, içinde bulunduğumuz zamanda» məna tutumu ilə ünsiyyətə daxil olmaqdadır:

Şimdi daha bahtiyar bir haberi sevgili bir sesten bizzat duymaya imkân buluyoruz (18, s.1868).

Arxaikləşmiş zərflərə aid diqqət çəkən digər bir dil faktı da, bizə görə, yenə də nadir görünən *şim* zərfidir. Məna etibarilə *şimdi* sözü ilə paralelləşsə də, fonetik cild baxımından fərqlilik qazanan dil vahididir. Bəlkə də, bu həmin leksik vahidin (yəni *şimdi* sözünün) canlı daışıq dilində oturan fonoformalarındandır. Hər halda dildə rastlaşdığımızdan təqdiminə ehtiyac duyuruq:

Qurtulmadı vəsliylə daxi Sadiqi qəmdən,
Şimdən bəri yox çarəsi bu dərdə dəvanın (Sadiq bəy Əfşar, 16, s.57).

Bu söz yalnız XVI əsrin II yarısı, XVII əsrin əvvəllərində yaşamış, Səfəvilərin Dövlət kitabxanasının müdiri olmuş və «Sadiqi Kitabdar» adı ilə tanınmış (16, s.51) Sadiq bəy Əfşarın dilində qeydə alınır. Onu da qeyd edək ki, bu dil faktına nə Osmanlı türkcəsində, nə də müasir Türkiyə türkcəsində rast gəlinir.

Fars mənşəli *əndək* اندك zərfi də xüsusi maraq doğurur. «Bir az, azacıq» semantikası ilə lüğətlərdə yer alan (11, s. 166) bu arxaik zərfə Fədainin «Bəxtiyarnmə» əsərinin dilində rast gəlirik:

Var idi məndə ləşgər, bişümarə
Onu *əndək* görüb etdim nəzarə (Fədai, 7, s.107).

Mətndən də aydın görünür ki, *əndək* lüğəvi dil nümunəsi «az» semantikası ilə uyğunluq təşkil edir.

Arxaik zərflər içərisində *köp* leksik vahidi də qeydə alınır. Cümlədəki yerinə görə həm də say kimi işlənən bu söz XVII əsr ədəbi-bədii dil nümunələrində kəmiyyət zərfi ilə də ekvivalentlik təşkil edir:

Rəqiba, qürbə məğrur olma *köp* kim, şol səri-kudə
Sənin dik itləri xeylidə bihədd aşinamız bar (Əmani, 4, s.36)

Bu, təbii ki, leksik-semantik yolla bir nitq hissəsinə aid olan lüğəvi dil nümunəsinin adverbiallaşması ilə bağlı məsələdir. Bununla bağlı tədqiqat aparan S.Abdullayeva da qeyd edir ki, bu halda adverbiallaşan leksemlər feilə yanaşır və onu müxtəlif yöndən izah edərək zaman, tərz, kəmiyyət ,yer məzmununun ifadəçisinə çevrilir (**2,** s.42).

Orxon-Yenisey abidələrinin dilində də bu sözün sayla yanaşı zərf kimi işləndiyinə rast gəlinir:

Yok çığan bodunığ *kop* kobartdım / Yox (vəziyyətində olan) kasıb xalqı çox yüksəltdim − Kül tiqin$_{kiçik}$ abidəsi- C.,10 (**1,** s.38-39)

Göründüyü kimi, fərq yalnız fonetik səviyyədə görünür. Belə ki, XVII əsr Azərbaycan ədəbi dilində daha çox *köp* şəklində qeydə aldığımız bu leksemin qədim türk dilində fonotərkib etibarilə *kop* variantına rast gəlinir. Hansı ki, epizodik şəkildə bu da XVII əsr Azərbaycan ədəbi dilində işlənir. Unutmayaq ki, qədim türk dilində qalın samitlə yanaşı yalnız qalın sait işlənə bilər və yaxud da əksinə, qalın saitlə yanaşı qalın samit yer ala bilər. Bu leksik vahidin imlasında da [k '] samitinin yazıda ifadəçlərindən biri olan ↓ qrafemi yer aldığından (1> ↓) onun yanındakı sait [ö] deyil, qalın [o] saiti kimi oxunur, yəni belə: [k ' op] .

XVII əsr Azərbaycan türkcəsində qulaqlarımızın çox eşitməyə alışmadığı (təbii ki, biz klassik ədəbiyyatın dilinə əsasən bunu deyirik) *şitaban* zərfi ilə də qarşılaşırıq:

Dəlil oldu kişi ardınca oğlan,
Gecə-gündüz gedərdilər *şitaban* (Fədai, **7,** s.114).

Sözün kök morfemi fars mənşəli *şitab* lüğəvi dil nümunəsidir. Semantikasına gəlincə, «sürət, ceviklik» mənasını ifadə edir (12, s. 331). *Şitaban* sözü isə lüğətlərdə «tələsən, iti gedən, yüyürən» məna tutumu ilə təqdim olunsa da (12, s. 331), bu nümunədə «tez, tələsik, iti, sürətlə» mənaları ilə ekvivalentləşir.

Semantikasına görə kəmiyyət bildirən bir zərf də diqqət çəkir. Bu, *bunəhayət* zərfidir:

Buyurdu, döydülər çox *binəhayət* (Fədai, 7, s. 115)

Təqdim edilən leksik vahid əslində «xeyli, çox», «həddsiz dərəcədə» semantikası ilə şeirin məzmununa tarazlıq gətirir. Bu leksik vahidin qarşısında yer alan *çox* lüğəvi vahid isə məna qüvvətlənməsinə meydan verən ədatdır. Adətən sifətin qarşısında daha çox rast gəlinən bu leksik vahid (yəni *çox* ədatı), göründüyü kimi, zərf kimi qəbul etdiyimiz lüğəvi dil nümunəsinə də yanaşır və intonasiyanın artımını təmin edir. Əslində isə bu birləşmə «çox + çox» anlamını reallaşdırır.

XVII əsr Azərbaycan ədəbi dilində rastlaşdığımız *sənsizin* dil faktı da diqqətimizi çəkir:

Sənsizin, ey dilruba, hicran ara təskini-ğəm,
Bermədi heç növ ilə fəryad ilən əfğan mana (Əmani, 4, s.26).

T.Hacıyev bu zərfin *-sizin* morfoloji göstəricisi vasitəsilə reallıq qazandığını qeyd edir (9, s.188) və nəticədə bu leksik vahid quruluşuna görə düzəltmə sözlər sırasında yer alır. R.Əskər isə bu şəkilçinin tərkib etibarilə

iki hissədən ibarətdir olduğunu və burada zərf düzəltmənin *-ın*[2] morfoloji göstəricisinin payına düşdüyünü vurğulayır (6, s.242):

آمگیور آرنسزن *Ərənsizin* əmgəyür / Ərənsizlikdən əziyyət çəkər (Mahmud Kaşğari-1, 10, s.367-368).

Fikrimizcə, sifət düzəldən *-sız*[4] şəkilçi morfemi müxtəlif nitq hissələri düzəltmək baxımından omonimlik təşkil edir. Yəni o, ayrı-ayrılıqda həm adlardan sifət yaradan (məsələn: *-sız*[4] → yağsız, dadsız, duzsuz...), həm də zərf düzəltmək funksiyasının ifadəçisi olan şəkilçi morfemdir. Bizə görə, sözü zərfləşdirən elə bu şəkilçidir (diqqət yetirək: *Sənsiz yaşaya bilmirəm*; Yaxud: *Sənsiz gedə bilmərəm* və s.). Şəkilçinin daxilində yer alan *-in* morfoloji göstəricisi də dilimizdəki zərf düzəldən *-la*[2] şəkilçisinə uyğun gəlir. Fikrimizin təsdiqi üçün Cəbrayıl şivəsində işlənən «güc***lə**» məna tutumunu özündə daşıyan *güc**in*** (9, s.186) sözünü xatırlatmaq kifayətdir. Deməli, zərf düzəltmə prosesində hər iki şəkilçinin (*-siz* və *-in*) iştirakı reallıq kimi qəbul edilməlidir. Onu da qeyd edək ki, həm kök morfem (*sən*), həm də sözün deivatoloji sistemə girəndən sonra qazandığı yeni forma (*sənsiz*) bütün tarixi mərhələlərdə, eləcə də XVII əsr Azərbaycan ədəbi dilində ünsiyyətə xidmət edən sözlər sırasında nizamlansa da, *sənsizin* fonocildli leksik fakt işləklikdən qalaraq dili tərk etmiş sözlər sırasında qeydə alınır. Reallıq isə budur ki, bu forma artıq tam mənada XVII əsr Azərbaycan ədəbi dilinin özü üçün belə arxaikləşmiş lüğəvi dil nümunələrindən biri kimi qəbul edilir.

Adətən sifətin dərəcə kateqoriyasının morfoloji göstəricilərindən biri kimi daşlaşan *-raq*, *-pək* şəkilçisi XVII əsr mənbələrində zərflərə qoşulması ilə də diqqət çəkir. Zərflərə həm bitişik, həm də ayrı yazılması ilə qeydə alınan və əslində dildə heç bir funksionallıq nümayiş etdirməyən bu morfemin işlənmə tezliyinin epizodikliyə doğru istiqamətlənməsi də qabarıq şəkildə görünür. Elə buna rəğmən hiss olunur ki, *-raq* (راق), *-pək* (رک) dildə artıq son akkordlarını vurur:

عشقیدین هر نیجه دیدوم حالوم اولغای یخشیراق

Eşqidin hər nicə didüm halum olğay *yəxşiraq*;

ظلمت دکی خضر سوییدین خوبرک کورور

Zülmətdəki xızır suyidin *xubrək* görür (Məsihi «Divanı», 13, s.249).

XVII əsr Azərbaycan ədəbi dilinin morfoloji sistemində rastlaşdığımız *tezrək*, *ğəmginrağ* ... da bu leksik vahidlər sırasında nizamlanan lüğəvi dil nümunələridir:

tezrək (تزرک – F, s.49); *ğəmginrağ* (غمکینراغ – Məsihi «Divanı», 13,s.242)

Qeyd edək ki, bunlar da birbaşa hərəkətlə bağlı olduğundan zərf götürülür. Onu da vurğulayaq ki, biz sifətin dərəcə kateqoriyasının mövcudluğunun əleyhinəyik. Yəni dərəcə kateqoriyasını qəbul etmirik. Amma hələ ki bütün elmi ədəbiyyatlarda bu kateqoriyanın varlığı sabit olaraq qəbul

edildiyindən, biz də ənənəyə sadiq qalaraq qeydə aldığımız faktla bağlı bu məsələyə toxunuruq. Maraq doğuran cəhət bundadır ki, eyni mənzərə sifətlərdə qeydə alınanda o, dərəcə kateqoriyasının bir növü kimi qəbul edilir. Belə olan təqdirdə nədən zərflərdə görünən bu real fakt zərfə dərəcə kateqoriyası gətirmir? Çünki eyni şəkilcilər, eyni ədatlar zərflərdə də işləkdir. Əslində biz həm zərflərdə, həm də sifətlərdə dərəcə kateqoriyasının əleyhinəyik. Morfologiyada hər bir nitq hissəsi (həm əsas, həm də köməkçi nitq hissələri) ayrı-ayrı təhlil olunduğundan belə kateqoriyanın mövcudluğu qeyri-mümkündür. Tədqiqatçıların fikrincə, dərəcə kateqoriyasını yaradan əsasən ədatlardır ki, hər bir nitq hissəsi kimi onlar da ayrıca təhlilə cəlb olunur. Yəni təhlil zamanı «bu sifətdir, bu da ədatdır» deyirik. Ədatların funksiya və vəzifəsi isə mənanı qüvvətləndirməkdən ibarətdir. Yəni cümlə daxilində köməkçi nitq hissələrindən biri kimi ədatın gördüyü iş budur. O halda nə üçün bu köməkçi nitq hissəsi sifətə dərəcə kateqoriyası gətirməlidir? Əgər gətirirsə, onda bu, zərfə niyə aid edilimir? Təbii ki, bu, çox mübahisəli məsələdir. Digər bir qeyri-anlaşıqlı məsələ say və zərflərlə bağlı ortaq dil faktından ibarətdir ki, buna da XVII əsr Azərbaycan ədəbi dilində rast gəlirik. Bu da numerativ sözlərlə bağlıdır. Çöx maraqlıdır, müəyyən miqdar sayları ilə əşya arasına daxil olan sözlərin hamısı numerativ sözlər kimi qəbul edildiyi halda, bu yenə də zərflərə şamil edilmir. Məsələn:

Ey konül, yüz *kərrə* sürdilər səni ol qapundan
Getmək istərsən yenə, heç yoqmıdur arın sənin (Rəhməti Paşa, 16, s.63) —

nümunəsində eyni mənzərə ilə qarşılaşırıq. Amma buna (*kərrə* lekseminə) numerativ söz deyilimir. Təbii ki, biz heç bunun tərəfdarı da deyilik. Çünki bu da elmi reallıqla uyuşmur. Amma eyni hallı mənzərənin dilimizin qrammatik sistemində ziddiyyətli təqdimi bizi bunları deməyə vadar edir. Mübahisəsiz, «*yüz kərrə*» təqdim olunan nümunənin tərkibi quruluşa malik kəmiyyət zərfidir, yəni bunların hər ikisi birlikdə zərf kimi qəbul edilir. Təbii ki, bu elə belə də olmalıdır.

Fakt olaraq görünür ki, qeydə alınan zərflər əcnəbi və milliyindən asılı olmayaraq qəzəl dilinə də daxil olur, təhkiyə nitqinin aparıcısı olan məsnəviyə də. Amma onların əksəriyyətinin intensivliyi görünmür. Bir qismi ümümxalq dilindən uzaq düşdüyü səbəbindən dili tərk etdiyi, digər qisminin isə diferesasiya və sabitləşmə proseslərindən çıxaraq ədəbi dil norması səviyyəsində yer aldığı qeydə alınır. O da araşdırmanın reallığıdır ki, arxaikləşməyə doğru istiqamətlənmə XVI əsrin sonları və XVII əsrin əvvəllərindən kütləviləşir. Yekun olaraq ümumiləşmiş fikrə gəlincə, müasir Azərbaycan dili ilə müqayisə zərfi də sabitliyini qoruyub saxlayan nitq hissələri sırasında nizamlayır.

Ədəbiyyat

1. Abdullayeva Q. «Kül tiqin» abidəsi. Bakı: Azərnəşr, 2007, 214 s.
2. Abdullayeva S. Müasir Azərbaycan dilində zərf. Bakı: Maarif 1991, 122 s
3. Bürhanəddin Q. Divan (Tərtibçi Ə.Səfərlidir). Bakı: Azərnəşr, 1988, 656 s.
4. Əmani. Əsərləri (Tərtibçi Ə.Səfərlidir). Bakı: Yazıçı, 1983, 339 s.
5. Ərəb və fars sözləri lüğəti. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1967, 1035 s.
6. Əskər R. Mahmud Kaşğarı və onun «Divanü-lüğat-it-türk» əsəri. Bakı: «MBM» nəşriyyatı, 2008, 432 s.
7. Fədai. Bəxtiyarnamə (Tərtibçi Q.Məmmədlidir). Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1957, 155 s.
8. Fədai. Bəxtiyarnamə (Tərtibçi Q.Məmmədlidir). Bakı: Şərq-Qərb, 2004,168 s.
9. Hacıyev T. Zərf / Mirzəzadə H. Azərbaycan diliniun tarixi qrammatikası . Bakı: Azərb. Universiteti nəşriyyatı, 1990, s.179-194
10. Kaşğari M. Divanü lüğat-it türk. IV cilddə. I c. Bakı: Ozan, 2006, 512 s.
11. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. I c. Bakı: Şərq-Qərb, 2005, 416 s.
12. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. II c. Bakı: Şərq-Qərb, 2005, 472 s.
13. Məsıhi. Divan. (Əski qrafika ilə) (Tərtibçi Ə.Səfərlidir).Tehran, 1377 /1998, 434 s.
14. Məsihi. Vərqa və Gülşa (Tərtibçi Ə.Səfərlidir). Bakı: Azərnəşr, 1977, 288 s.
15. Nəsimi. Seçilmiş əsərləri (Tərtibçi H.Araslıdır). Bakı: Azərnəşr, 1973, 672 s.
16. XVII əsr Azərbaycan lirikası (Tərtibçilər P.Kərimov və M. Hüseynidir) Bakı: Nurlan, 2007, 340 s.
17. Osmanlıca-türkce lûğat (Tərtibçi Ferit Devellioğludur). Ankara, 1970, 1439 + 119 s.
18. Türkce sözlük. 10. Baskı. Ankara, 2005, 2243 s.

Г.Абдуллаева

Наречие в языковой картине XVII века

Резюме

В статье на основе примеров литературного азербайджанского языка XVII века прослеживается наречие как одна из основных частей речи. В первую очередь, наречие рассматривается с историко-лексикологической точки зрения.

Вниманию предоставляются архаичные наречия, выявляется, что большинство наречий, вышедших из языка, являются заимствованными, а также показывается семантика наречий, они группируются по значению.

В итоге на основе фактического материала наречия представляются как неизменная часть речи литературного азербайджанского языка XVII века.

G.Abdullayeva

Adverb in language picture of XVII century

Summary

In the article, on the basis of examples of the literary Azerbaijani language of the 17th century, an adverb is traced as one of the main parts of speech.

First of all, an adverb is considered from the historical-lexical point of view. Archaic dialects are given to the attention and it is revealed that the majority of adverbs who have left the language are borrowed.

Later semantics of adverbs are revealed and they are grouped by value.

In toga, on the basis of facts, adverbs are presented as an invariable part of the speech of the literary Azerbaijani language of the seventeenth century.

Rəyçi: Məhərrəm Məmmədli
professor

FƏRİDƏ HÜSEYNOVA
“Xarici Dillər1” kafedrasi”nın müdiri, dosent
farida@mail.ru

TEXNİKİ ALİ MƏKTƏBLƏRDƏ XARİCI DİL KURSUNUN ƏSAS MÜDDƏALARI

Açar sözlər: xarici dil, şifahi nitq, təlim prosesi, oxu, yazı, mərhələ, nitq fəaliyyəti
Key words: foreign language, verbal speech, learning process, reading, writing, stage, speech activity
Ключевые слова: иностранный язык, вербальная речь, учебный процесс, чтение, письмо, речевая деятельность

Ali məktəbdə ingilis dilinin tədrisi müstəqil və bitmiş kursdur, hər bir kursun isə öz məzmunu və strukturu vardır. Bu məqalədə biz ingilis dilinin texniki ali məktəblərdə öyrənilməsi, orta məktəb bilikləri əsasında inkişaf etdirilməsi yollarını nəzərdə tutmuşuq.

Belə ki, orta məktəb ingilis dilinin öyrədilməsi üçün bünövrə qoyur, ali məktəb isə gələcək mütəxəssisin ixtisas – meyilli istiqamətində onu inkişaf etdirir. Buradan belə nəticəyə gəlmək olar ki, dil və nitq materialının seçilməsi, əsas ixtisaslar üzrə bölünməsi xüsusiyyətləri, eləcə də ali məktəb metodikasının hazırlanması vəzifələri həll edilməlidir və inkişaf etdirilməlidir. Təlim yollarının təsviri və təlim materiallarının xasiyyəti ardıcıl fəaliyyət nöqteyi – nəzərindən qurulur. Bu cəhətdən təlimin müxtəlifliyi və fərqləndirilməsi, onların qarşılıqlı əlaqəsi baxımından həll edilməlidir. Texniki ali məktəblərdə ingilis dilinin öyrədilməsinin məqsədi tələbələri bu dildə ünsiyyətə hazırlamaqdır. Ünsiyyət dedikdə nitq fəaliyyətinin müxtəlif növləri üzrə elə bacarıq verməkdir ki kurs bitdikdən sonra tələbə ixtisası üzrə elə bacarıq verməkdir ki, kurs bitdikdən sonra tələbə ixtisası üzrə orjinal ədəbiyyatı oxuyub oradan informasiya almaq bacarığına yiyələnsin. Bununla yanaşı tədris prosesində nəzərdə tutulmuş material həcmində ingilis dilində şiifahi formada olmaqla ünsiyyətdə iştirak etməyi bacarsın. Praktik məqsədə yiyələnmək prosesində ingilis dilinin öyrənilməsinin təlim və tərbiyyə vəzifələri də yerinə yerinə yetirilir. İngilis dilinin öyrənilməsi tələbənin ümumi təhsil səviyyəsinin yüksəldilməsində kömək vətənpərvərlik və beynəlmiləlçilik ruhunda tərbiyyə əsas yer tutmalıdır və tədrisin vəzifəsini yerinə yetirməyə kömək edən ictimai-siyasi ədəbiyyat və dövri mətbuatın materialında da istifadə edilməlıdır.

Nitq ünsiyyətinin və təlim fəaliyyətinin situativ – rol şəraiti, ana və öyrənilən dillərin ikisinin müqayisəsi sistemi ilə aparılmalıdır. Şifahi nitq

tədris prosesi boyunca inkişaf etdirilir və bu iki formada danışma və dinləməklə - anlama bacarığı vəhdətində təklif edilir. Şifahi nitq bacarığı sadə formadan başlayıb, şifahi formada ünsiyyət saxlamaq üçün nitq modellərindən istifadə etməyi bacarığına çatdırılmalıdır. Beləliklə də, tələbə söhbətdə iştirak etməyə hazırlanılır. Bu məqsədlə təlim fəaliyyətinin ilk mərhələlərində oxu təlimindən geniş istifadə olunmalıdır. Oxu təlimində tələbələrin fəaliyyəti get – gedə mürəkkəbləşdirmə nəzərdə tutulur, yəni bu mərhələli şəkildə yerinə yetirilməlidir. Burada qeyri – fərqləndirmədən fərqləndirmə oxuya keçid məsələsi də önəm daşıyır. Sonrakı mərhələlərdə isə müxtəlif oxu növlərinə keçmək olar. Oxu təlimində müəyyən bir vəziyyətdə dəqiq vəzifənin həlli, tanış olmaq məqdsədini, axtarışlı və öyrədici (dərindən) oxu fərqləndirilməlidir. Ali məktəbdə oxu təlimi tələbənin ixtisası istiqamətində qurulmalıdır. Tələbə ardıcıl olaraq, mərhələlər üzrə öz ixtisası üzrə xarici dildə informasiya almaq bacarığını təkmilləşdirməlidir. Yazı da əsas təlim vasitəsidir və o nitq fəaliyyətinin müxtəlif növlərinin təlim etmək üçün çalışmaların yerinə yetirilməsində istifadə edilir. Bütün nitq fəaliyyətinin növləri qarşılıqlı surətdə biri – digəri ilə bağlıdır. Buna baxmayaraq təlimin mərhələlərində onların əlaqəsi və vəzifələri müxəlifdir.

Nitq fəaliyyətinin növlərinin əlaqəsi üzrə aşağıdakı hal və vəziyyət təklif olunur:I mərhələ: oxu 50 faiz, danışma 20 faiz, dinləməklə anlamaq 20 faiz, yazı 10 faiz.;II mərhələ: oxu 65 faiz, danışma 20 faiz, dinləməklə anlamaq 10 faiz, yazı 5 faiz.III mərhələ: oxu 70 faiz, danışma 15 faiz, dinləməklə anlamaq 10 faiz, yazı 5 faiz.

Oxu və şifahi nitq bütün mərhələrlərdə təlimin məqsəd və vasitəsidir. Təlimin birinci mərhələsində oxu üçün zəruri olan formalaşmış bilik və bacarıq səviyyəsi müəyyənləşdirilildikdən sonra tədris prosesi onun üzərində qurulur və mərhələnin məqsədi müəyyənləşdirilir: a) Oxu üzrə məktəbdə alınmış bacarıq və vərdişlərin ümumiləşdirilməsi b)oxunun müxtəlif növlərinin yerinə yetirilməsi üçün onları təkmilləşdirmək və inkişaf etdirmək.Birinci mərhələdə nitq bacarığı və vərdişlərinin bazası formalaşır, ikinci mərhələ ərzində bacarıq və vərdişlər inkişaf etdirilir, üçüncü mərhələdə oxu və şifahi nitq bacarıq və vərdişi tələbənin ixtisası üzrə müstəqil işləməklə xarici dil professional məqsədlə praktik öyrənilir.

Təlimin bütün mərhələlərində təlimin texniki geniş formada tətbiq olunur. Təlimin texniki vasitələrində təlim maşınları, EHM (elektron hesablayıcı maşınlar) və müxtəlif növ əyanilik də istifadə edilir. Təklif etdiyimiz xarici dil kursu orta məktəbdə öyrənilmiş bilik, bacarıq və vərdiş əsasında qurulur və inkişaf etdirilir. Dil və nitq materialının həcmi get – gedə genişləndirilir və nitq materiallarının xüsusiyyəti nəzərə alınır. Məzmunca bitmiş mətnlər nitq materiallarının əsasını təşkil etməlidir. Mətnlər tərbiyəedici olub,ali məktəbin profilinə uyğun,tələbələr üçün maraqlı, həm də

tələbənin faydalana biləcəyi informasiya əhatə etməlidir. Bundan ötrü dərsdənkənar sərbəst oxu növü cox fayda verə bilər.

Dərsdənkənar sərbəst oxunun vəzifəsi tələbənin nitq bacarığını genişləndirmək, təlimin praktik məqsədinə nail olmaq, ümumtəhsil və tərbiyə işlərini əhatə etmək vəzifələrini yerinə yertirməkdir. Nitq materialının xarakterik cəhətlərindən ən əsası isə mətnlərin maraqlı, auditoriyada öyrənilən materialın məzmununa uyğun olmalısıdır. Mətnlərin həcmi təxminən aşağıdakı kimi götürülə bilər: I mərhələ - həftədə 1-3 səhifə, II mərhələdə 2-3 səhifə, III mərhələdə həftədə 3 səhifədən az olmamalıdır.

Təlim fəaliyyətinə verilən tələblər də önəmli yerlərdən birini tutur. Tələbələr ardıcıl olaraq sərbəst ev oxusu üzrə yuxarıda göstərilən normada tapşırıq alır. Kafedranın təyin etdiyi oxu normasına qısa məlumat verməklə, seçmə tərcümə, referat, ingilis dilində müzakirə keçirtməklə nəzarət edilir. Yerinə yetirilən bütün bu işlər danışma və auditiv işlərin yerinə yetirilməsinə xidmət edir, təlimin bütün mərhələlərində önəmlidir. Təlimin I mərhələsində söhbətdə iştirak üçün orta məktəbdən, bacarıq və vərdişin səviyyəsi müəyyənləşdirilir. Mərhələnin vəzifələri aşağıdakılardan ibarətdir: Danışma və auditiv işlər üzrə orta məktəbdə alınmış bilik, bacarıq və vərdişlərin təkmilləşdirilməsi və inkişaf etdirilməsi. Dialoq formasında olan nitqdə inkişaf etmək və bu haqda qısa məlumat verməyi bacarmaq.

Nitq materialının xarakteri. Seçilmiş dil materialı əsasında monoloq formasında və dialoqun müxtəlif növlərində ifadə etmək. Nəzakət, arzu razılıq, etiraf, qiymətləndirmək, vəziyyətlə əlaqədar material da bura daxildir. Fikri şifahi formada ifadə etmək əsasən tələbənin hal-vəziyyətilə əlaqədar olmalıdır. Buraya onun institut həyatı, ölkəmizin həyatı və ölkəşünaslıq materialından istifadə olunmalıdır.

Dil materialı. Lüğət – minimum. I mərhələdə orta məktəbdə öyrənilmiş 800 söz və sözbirləşmələri tələbənin fəal lüğət minimumuna daxildir. **Qrammatik – minimum.** Orta məktəb qrammatik – minimumunda sadə cümlə (təsdiq və inkar) sualın əsas növləri, şəxsli və şəxssiz cümlə, modal fellər can, may, must və onların ekvivalenti. There (be) ifadəsi və s. nitqdə avtomatlaşmalı və şifahi formada olan nitqdən dinləməklə anlanılmalıdır. Öz fikrini xarici dildə ifadə etmək və xarici dildən şifahi formada olan nitqi dinləməklə anlamaq üçün tələbə artikl, təyin, ismin növləri, sifətin dərəcələri, say, əvəzlik,felin Present, Past, Future İndefinite, Present Continious (active) Present Perfect (active) cerundun sadə formasını bilməlidir.

Təlim nitq fəaliyyətinin məzmunu.Təlim fəaliyyəti tələbənin danışma və dinləmə - anlama üzrə müəyyən bir vəziyyət haqqında rollarda çıxış etməyini tələb edir. Danışma və dinləməklə - anlama işləri qarşılıqlı surətdə aparılır. Buraya tanış olmaq, nümunələr əsasında danışma, plan üzrə danışma, yaradıcı və sairə təsviri işlər daxildir. Bu zaman dialoq və monoloq

formasında olan mətnlər əhatə olunmalıdır. **Bacarığa verilən tələb.** Tələbə aşağıdakıları bacarmalıdır: a) xarici dildə şəxsən ünsiyyət zamanı, həmçinin fono yazılarından dinləməklə anlamağı bacarmaq, ali məktəbin ixtisası, ictimai – siyasi məsələlərə aid dəqiqədə 180-200 sözü olmaqla 3 dəqiqə davam edən mətni dinləyib anlamalıdır. b) qısa məlumatlar vermək, vəziyyətlə əlaqədar dialoqda fəal iştirak etmək, razılıq, narazılıq, mübahisədən çəkinməmək. Danışma və dinləməklə anlamanın həcmi 18-20 cümlə ola bilər.**Təlimin III mərhələsi.** Tələbənin formalaşmış bacarıq səviyyəsi elə olmalıdır ki, o, lazım olan məlumatla çıxış edib, söhbət və müzakirənin iştirakçısı olsun. **Mərhənin vəzifəsi.** III mərhələnin sonunda a) tələbə məruzəçi, dinləyici, aparıcı, müsahib və s. rollarda çıxış etməyi; b) ixtisası üzrə və ictimai – siyasi mövzuda məlumat verməyi bacarmalıdır. Material oxu və dinləməklə anlama yolu əsasında verilir. **Nitq materialının xarakteri.** Buraya monoloq formasında danışıq, dialoq, söhbət, müzakirə daxildir. Bütün bu işlər ixtisas istiqamətində və ictimai – siyasi ədəbiyyat əsasında aparılır. Tələbənin ixtisası üzrə jurnal məqalələri, monoqrafiyadan istifadə olunmalıdır.**Dil materialı. Lügət minimum.** I və II mərhələyə daxil olan 1200 söz və sözbirləşməsi daxil olmaqla, III mərhələnin sonuna kimi öyrənməlidir.**Qrammatik minimum.** I və II mərhələyə daxil olanları tək-milləşdirmək.**Tədris fəaliyyətinin məzmunu.** Danışma və dinləklə - anlama üçün müxtəlif növ söhbət, müsahibə, müzakirə, ixtisasa aid orijinal mən-bələrdən istifadə etməklə məruzə etmək kimi işlər daxildir. **Nitq bacarığına verilən tələblər.** a) tələbə dəqiqədə 220 heca olmaqla monoloq və dialoq formasında olan nitqi dinləməklə anlamalıdır. b) ixtisasına, ictimai – siyasi mövzular üzrə oxuduğu ədəbiyyat üzrə məruzə etməyi bacarmalıdır. Məlu-matın həcmi 10-12 cümlə, nitq surəti bir dəqiqədə təxminən 120 söz ol-malıdır. c) söhbət, müzakirədə iştirak etmək. Həcmi 18-25 cümlə ola bilər.

Yazı. İngilis dilində yazıya verilən tələblər köməkçi xarakter daşıyır. Yazı nitq fəaliyyətinin digər növlərinin inkişafına yönəldilir. Hər mərhələ üçün yazı norması müəyyənləşdirilir: a) tələbə ingilis dilində və lüğət minimumuna daxil olan söz və sözbirləşmələrini düzgün yazmağı; b) Yazılı tapşırıqları yerinə yetirməli; c) mətn əsasında öz fikrini yazı vasitəsi ilə qısa ifadə etməyi bacarmalıdır.

Ədəbiyyat

Ganschow, L. and Schneider, E. (2006). Assisting Students with Foreign Language Learning Difficulties in School.

From Perspectives on Language and Literacy, Special Edition 2006. Baltimore, MD: International Dyslexia Association.

F. Huseynova

Main procedures of foreign language course in high schools

Summary

Secondary school is a foundation for teaching English, and the higher school develops it in the direction of the future specialist. So, it can be concluded that the choice of language and speech material, the features of division of the main specialties, as well as the preparation of the higher school methodology should be solved and developed. The description of the training paths and the nature of the training materials are established from a consistent perspective. In this regard, the diversity and differentiation of the training should be addressed in terms of their mutual relationship. The aim of teaching English in technical high schools is to prepare students for communication in this language. Communication is to give skills to different types of speech activities.

Ф. Гусейнова

Основные процедуры иностранного языковского курса в высших школах

Резюме

Средняя школа - это основа преподавания английского языка, а высшая школа развивает ее в направлении будущего специалиста. Таким образом, можно сделать вывод, что выбор языка и речевого материала, особенности разделения основных специальностей, а также подготовка методологии высшей школы должны быть решены и разработаны.Описание учебных путей и характер учебных материалов устанавливаются с последовательной точки зрения. В этой связи необходимо учитывать разнообразие и дифференциацию обучения с точки зрения их взаимосвязи. Цель преподавания английского языка в технических вузах - подготовить студентов к общению на этом языке. Общение заключается в том, чтобы дать навыки различным видам речевой деятельности.

Rəyçi: **Gülnarə Əhmədova**
filologiya elmləri namizədi, dosent

ТАРАНА ХАЛИЛОВА
Доктор философии по филологическим наукам, доцент
Азербайджанского Государственного Экономического
Университета (UNEC)
t.xelilova0@gmail.com

ЭРГОНИМЫ КАК ОНОМАСТИЧЕСКИЕ ЕДИНИЦЫ

Açar sözlər: erqonimlər, onomastika, semantika, müasir linqvistika, təzahür
Ключевые слова: эргонимы, ономастика, семантика, современная лингвистика, проявление
Keywords: ergonics, onomastics, semantics, modern linguistics, manifestation

В современной лингвистике название городских объектов, коммерческих и бюджетных организаций все чаще становятся объектом исследований, что обусловлено социально-экономическими и культурными проявлениями.

Начало нового столетия в Азербайджане ознаменовалось относи--тельной стабилизацией экономики, что повлекло за собой расширение предпринимательской деятельности, а следовательно, появление коммерческих заведений, которым требовались удачные названия.

Эргонимика часть ономастики которая изучает названия коммерческих объектов, предприятий, объектов культуры и т.д.

Для изучения какого-либо эргонима важно анализировать его семантику. Один из основных методов изучения является лингвопсихологический метод. Он используется с целью определения прагматической значимости эргонима через выявление намерений номинатора и реакции реципиента на названии.

Языковой анализ дается применительно ко всем изучаемым эргонимических единицам как продуктов мыслеречевой деятельности, то есть в аспекте риторической концепции.

Эргоним являясь искусственно созданной единицей лингвистического пространства города, подчиняется законам риторики.

Под эргонимами понимаются лишь собственные имена предприятий, объектов различного функционального профиля делового объединения людей, коммерческого предприятия, объекта культуры, спортивного заведения и представляющие собой единицы лингвистического пространства города.

Эргонимы представляют собой единицы языка и речи, имеющие все признаки имени собственного:

а) служат для конкретного называния отдельных предметов действительности и выделяют единичный предмет из ряда однородных; б) у эргонима обычно отсутствует прямая связь с понятием, лежащем в основе;

в) в состав эргонимов, как и в состав собственных имен могут входить любые части речи (прилагательное, глагол, наречие, местоимение, предлог), которые в качестве онима приобретают грамматические характеристики имени существительного. В эргонимике языковая игра осуществляется при помощи лексических инноваций, графических окказионализмов, фразеологических трансформаций, синтаксических средств, тропов и т.д. Главное при этом: языковые знаки выводятся за рамки обычного употребления и создают эффект необычности, усиливая воздействие. Языковая игра разрушает ассоциативные стереотипы. Большинство случаев языковой игры в эргонимике основаны на нарушениях правил графики, орфографии, на использовании цитации, каламбуров.

Эргонимы делятся на семантические группы, таких как: а) названия, образованные от именований живых существ;

б) названия образованные от именований неодушевленных предметов;

в) названия образованные от наименований комплексных объектов;

г) названия образованные от слов – характеристик; д) группы названий с затемненной семантикой.

Эргонимы изучаются в нижеследующих аспектах:

1)семантический, представленный эргонимами – словами, словосочетаниями, предложениями;

2) собственно словообразовательный, представленный эргонимами, образованными такими деривационными способами, как аббревиация, сложение и материальная суффиксация.

Эргоним с позиций риторики как теория управления мыслеречевой деятельности человека представляет собой единицу, образованную в соответствии с основными ее законами. Эффективность полученной единицы, прагматическая ценность созданного эргонима подтверждается его экономической востребованностью.

При создании эргонимов выделяются три типа объектов: а) плоскостные, планарные; б) линейные; в) точечные, которые исключают наименования зданий, мостов, парков.

Эргонимикой начали заниматься в 20-м веке.

Специфические способы образования эргонимов выделяются в особую группы на основании того, что они употребляются в сфере рекламной номинации. Все они объединяются признаком необычности, с их помощью возникают наиболее оригинальные имена.

Каламбуры – также весьма интересный способ образования эргонимов. В частности это замена или введение какого-либо компонента слова с целью отразить объект номинации, а также специальное написание исконно иностранных слов латиницей, в результате чего оживляется внутренняя форма.

Гибридизация – образование эргонима из компонентов разных языковых систем:

Фонетический способ образования подразумевает образования слова непосредственно из фонем, без какой-либо опоры на морфемные элементы.

Комплексный способ образования представляет собой использование одновременно двух и более способов.

Инициализация – использование буквенных обозначений и названий букв в качестве самостоятельного средства создания эргонима или как дополнительного компонента.

Нумерализация – использование цифровых обозначений и числительных в качестве самостоятельного средства создания эргонима или дополнительного компонента.

Образование эргонимов, входящих в особую группу урбононимов, процесс непрерывный, заметно активизировавшийся в последние годы в связи с социально-экономическими переменами, происходящими в обществе и прежде всего в связи с интеграцией с западной экономикой, взаимодействием с западной культурой и влиянием других экстралингвистических факторов. Особенно значима необходимость изучения личностного начала в номинативном процессе, так как выявляется тенденция к его усилению в современном азербайджанском языке. Новые привлечения потребителей могут обеспечить успешность функционирование предприятия в коммерческой сфере: наименования предприятий являются одним из важнейших факторов воздействия на потенциальных клиентов и средством выделение предприятия из ряды подобных.

В силу специфики функционирования эргонимов их изучение не потеряет актуальность. Актуальным является и выявление специфики развития полисемии и омонимии у эргонимов, а также их тематическая стратификация.

Литература

1. И.В.Крюкова. Рекламное имя от изобретения до прецедентности. Волгоград, 2004.
2. A.Zabrodskaya. Proceedings. MIDP Colloquium. 2009.
3. М.Г.Курбанова. Ассоциативный аспект эргонимов современного русского языка. Москва, 2012.

T.Xəlilova

Erqonimlər onomastik vahidlər kimi

Xülasə

Müasir linqvistikada şəhər obyektlərinin, kommersiya təşkilatlarının adları daha tez-tez tədqiqat obyektlərinə çevrilir ki, bu, sosial-iqtisadi və mədəni təzahürlərlə bağlıdır.

Yeni yüzilliyin başlanğıcında Azərbaycanda iqtisadiyyatın stabilləşməsi təşəkkül edirdi ki, bu da sahibkarlıq fəaliyyətinin genişlənməsinə səbəb olurdu. Bu baxımdan kommersiya strukturlarının artması özlüyündə onların düzgün və müvəffəq adlandırılmasını tələb edirdi.

Erqonimika onomastikanın bir sahəsi olub, kommersiya obyektlərinin, təşkilatların, mədəniyyət obyektlərinin və s.-nin adlarını öyrənir. Hər hansı bir erqonimin tədqiqi üçün onun semantikasını bilmək vacibdir. Tətbiq edilən metodlardan daha səmərəlisi linqvistik metoddur. O, erqonimin proqmatik mənasının öyrənilməsinə xidmət edir. Dil baxımından bütün erqonimlərin tədqiqinə ritorik konsepsiya cəhətindən yanaşılır. Çünki erqonim süni surətdə yaradılan linqvistik vahiddir ki, ritorika qaydalarına tabe olur. Erqonimlər müxtəlif məna qruplarına ayrılırlar.

Adlandırma prosesində əsas əhəmiyyət ilkin mənaya verilir ki, bu da müasir Azərbaycan dilinin həmin tendensiyanın gücləndirilməsinə səbəb olur.

Erqonimlərin funksional cəhətdən öyrənilməsi uzun müddət öz aktuallığını itirməyəcək.

T.Khalilova

Ergonomics as onomastic units

Summary

In modern linguistics, the name of urban objects, commercial and budgetary organizations is increasingly becoming the object of research, which is due to socio-economic and cultural manifestations.

The beginning of a new century in Azerbaijan was marked by a relative stabilization of the economy, which entailed the expansion of entrepreneurial activity, and, consequently, the emergence of commercial institutions that required successful names.

Ergonomics is a part of onomastics which studies the names of commercial objects, enterprises, objects of culture, etc.

To study any ergonomics it is important to analyze its semantics. One of the main methods of study is the linguopsychological method. It is used to determine the pragmatic significance of the ergonum by identifying the intentions of the nominator and the recipient's response to the name.

Language analysis is given for all studied ergonimic units as products of thought-speech activity, that is, in the aspect of the rhetorical concept.

Ergonim being an artificially created unit of the linguistic space of the city, obeys the laws of rhetoric.

Under ergons are understood only the proper names of enterprises, objects of various functional profiles of the business association of people, a commercial enterprise, an object of culture, a sports institution and representing units of the linguistic space of the city.

Rəyçi: Nailə Yusifova
filologiya elmləri üzrə fəlsəfə doktoru

LEYLA MAHMUDOVA
Filologiya elmləri namizədi, dosent
mahmudova.1969@mail.ru

MÜASİR FARS DİİİNDƏ QARIŞIQ TİPLİ TABESIZ MÜRƏKKƏB CÜMLƏLƏR

Açar sözlər: mürəkkəb cümlələr, tabeli mürəkkəb cümlələr, tabesiz mürəkkəb cümlələr, bağlayıcılar,intonasiya, baş cümlə, budaq cümlə,
Ключевые слова: сложные предложения, сложноподчиненные предложения, сложносочиненные предложения, союзы, интонация, главное предложение, придаточное предложение.
Key words: complex sentences, subject clause, subordinate clausecomplex sentences with a subordinate clauses, principal clause.

Müasir fars dilində qarışıq tipli mürəkkəb cümlə problemi cümlə sintaksisinin mühüm bir hissəsini təşkil edir. Qarışıq tipli mürəkkəb cümlələrin tədqiqi sintaksisin mühüm bir probleminin öyrənilməsi deməkdir.

Fars dili sintaksisində qarışıq tipli tabeli mürəkkəb cümlə və qarışıq tipli tabesiz mürəkkəb cümlə problemi ən az öyrənilmiş sahədir. Fars dilçiliyində bu problem xüsusi qoyularaq tədqiq edilmədiyindən onun öyrənilməsi İran dilçiliyi üçün zəruri məsələlərdən biridir.

Məlumdur ki, eyni hüquq əsasında birləşən komponentlər tabesiz mürəkkəb cümləni, müxtəlif hüquq əsasında birləşən komponentlər tabeli mürəkkəb cümləni əmələ gətirir. Tabesiz mürəkkəb cümlədə komponentlər birbiri ilə eyni dərəcədə əlaqədə olur. Tabeli mürəkkəb cümlədə isə birləşən tərəflərin əlaqəsində fərq nəzərə çarpır.

Belə ki, komponentlərdən biri (baş cümlə) üstün mövqedə durur, digəri (budaq cümlə) ona tabe vəziyyətdə olur. Komponentlər arasındakı belə münasibət fərqləri mürəkkəb cümlənin iki növünü meydana çıxarır. (1, 355).

Çoxkomponentli tabeli mürəkkəb cümlələri və qarışıq tipli tabesiz mürəkkəb cümlələri nəzərdən keçirdikdə, məlum olur ki, onlarda ifadə olunan fikir qarşı-qarşıya duran iki tərəfdən – iki qütbdın ibarətdir. Məlumdur ki, hər bir mürəkkəb cümlədə birləşən komponentlər müəyyən məna münasibətləri ifadə edir və elə bu əsasda birləşirlər. Komponentlər arasında qarşılaşdırma, səbəb-nəticə, aydınlaşdırma və s. əlaqələr olur.

Hər hansı bir məna münasibətini yaratmaq üçün iki qütbün birləşməsi - vəhdət təşkil etməsi zəruri olur.

Doğrudan da, səbəbi nəticəsiz, nəticəni səbəbsiz, aydınlaşdırma əlaqəsini aydınlaşan və aydınlaşdıransız təsəvvür etmək olmaz.

Eləcə də iki qarşılaşdırılan tərəf olmadan ziddiyyət, güzəşt, fərqləndirmə, müqayisə kimi mənalar əmələ gələ bilməz.

Bunun nəticəsində də bir vahidin – mürəkkəb cümlənin qarşı-qarşıya duran iki qütbü meydana çıxır. Bu qütblər sadə olduğu kimi, mürəkkəb şəkildə də təşkil oluna bilir.

Mürəkkəb şəkildə qurulan bu komponentlər özlüyündə müəyyən məna əlaqələri də ifadə edə bilirlər. Qütblərdən biri sadə, digəri mürəkkəb, yaxud hər ikisi mürəkkəb ola bilər.

Bu o deməkdir ki, qütblər öz aralarında müəyyən məna əlaqəsi saxladığı halda, mürəkkəb quruluşlu qütb özü də əlavə məna münasibəti yarada bilər, yəni qütbün öz daxilində də qütblənmə hadisəsi baş verə bilər (2, 436).

Çox komponentli mürəkkəb cümlələrdə nə qədər sadə cümlə olur-olsun, onlar iki əsasda – ya tabesiz mürəkkəb cümlə, ya da tabeli mürəkkəb cümlə əsasında birləşir. Buna görə də onlar iki əsas hissəyə bölünür:

1.Qarışıq tipli tabesiz mürəkkəb cümlələr
2.Qarışıq tipli tabeli mürəkkəb cümlələr

Mürəkkəb cümlə növlərindən biri kimi dilçiliyimizdə işlədilən “tabesiz mürəkkəb cümlə” termininin mahiyyəti həmin terminin daxilindəki “tabesiz” sözünün lüğəvi mənası ilə əlaqədar deyildir.

Bu termin mürəkkəb cümlənin bir növü olmaq etibarilə yunanca “parataksis” terminin müasir dilçilikdəki mənasında, yaxud rus dilçiliyindəki “сложносочиненное предложение” mənasında düşünülməlidir.

Başqa sözlə desək, qarışıq tipli tabeli mürəkkəb cümlələrdən fərqli olaraq, qarışıq tipli tabesiz mürəkkəb cümlələrin arasındakı məzmun və qrammatik cəhətdən bağlılıq tərəflərdən birinin müstəqil, digərinin ondan asılı vəziyyətdə olması kimi deyil, onun daxilindəki cümlələrin qarşılıqlı surətdə bir-biri ilə əlaqədə olması prinsipinə əsaslanan bir sintaktik vahid kimi nəzərdə tutulmalıdır (3, 35).

Fars dilində qarışıq tipli tabesiz mürəkkəb cümlələr iki cürdür:

1.Sadə quruluşlu tabesiz mürəkkəb cümlələr
2.Mürəkkəb quruluşlu tabesiz mürəkkəb cümlələr

Sadə tipli tabesiz mürəkkəb cümlələr iki və daha artıq sadə cümlədən ibarət olur. Məsələn:

چند بچه اش در شیرخوارگی مرده بودند و بعدا ازدواج نکرده بود (ص.هدایت).

زمستان ها همان جا کرسی خود را مستقر می کرد و گوشهٔ پنجره را باز می گذاشت و قدری نور به درون می آمد و او
کتاب دعای خود را می خواند (افسانه ها).

Bunlar tabesiz mürəkkəb cümlənin nisbətən sadə quruluşlarıdır. Tabesiz mürəkkəb cümlələr daha mürəkkəb quruluşlarda da işlənə bilir. Belələrinin tərkibinə tabeli və tabesiz mürəkkəb cümlələr daxil ola bilir.

Fars dilində mürəkkəb quruluşlu tabesiz mürəkkəb cümlənin aşağıdakı variantlarına rast gəlinir:

1.Sadə və tabeli mürəkkəb cümlədən ibarət olan qarışıq tipli tabesiz mürəkkəb cümlə:

در مدت یک سال کار کرده ای، ولی می فهمم که با کار جدی مشغول نشده ای(به آذین).
تو غصه نخور، این خاصیت او است که اول جروجنجال می کند، بعد
ساکت می شود (افسانه ها).

2.Sadə və tabesiz mürəkkəb cümlədən ibarət olan qarışıq tipli tabesiz mürəkkəb cümlələr:

تو مرد متعمدی نیستی ، اثاثیه را جمع کن، هیچ وقت به آنجا باز نیا (افسانه ها).
اینجا برای پیشرفت شرایط خوبی هست ولی او از این استفاده نمی کند، از ماندن این جا می ترسد (به آذین).

Bəzən qarışıq tipli tabesiz mürəkkəb cümlənin bu növündə tabesiz cümlə komponenti üç və ya daha artıq cümlədən ibarət ola bilər.

پسرم سر پنهان خود را آشکار کرد: به آن شهر خواهم رفت، با آن دخترازدواج خواهم کرد، تو را
خوش حال خواهم کرد (افسانه ها).

3.Tabeli mürəkkəb cümlələrdən ibarət olan qarışıq tipli tabesiz mürəkkəb cümlə. اگر ترک این خانه کنی تورا فراموش خواهد کرد، و اگر
این جا بمانی در خدماتش را قدردانی خواهد شد (ص.هدایت).

4.Tabeli və tabesiz mürəkkəb cümlələrdən ibarət olan qarışıq tipli mürəkkəb quruluşlu tabesiz mürəkkəb cümlələr

با هدایای خوب بروی ، آنها هم تو را خیلی دوست دارند مادرت هم می فهمد که کار خوبی نکرده است
.5(به آذین).

Tabesiz mürəkkəb cümlələrdən ibarət olan qarışıq tipli tabesiz mürəkkəb cümlələr

من غزل را خوب نمی فهمیدم ، خاله ام نیز طرفدار شعرهای اندرز و تمثیلی بود، مادرم به آن علاقهٔ چندانی نشان نمی داد و همیشه تنها می نشست (ص.هدایت).

حیات آسان تو را خوش حال میکند، ولی چیزی نیاموزی، حیات سخت تو را غمگین می کند اما چیزهای زیادی میاموزی(افسانه ها).

Ədəbiyyat

1.Ə.Abdullayev. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı, 1964.

2. Ə.Abdullayev.Tabesiz mürəkkəb cümlənin komponentlərini əlaqələndirən vasitələr. Bakı,1981.

3.M.Şirəliyev, N.Mehdiyev. Müasir Azərbaycan dili. Bakı, 1981.

4.حمد شفائی. انواع جملات مرکب وابسته در فارسی معاصر. تهران ،۱ ۱۳۵۱

5.Azərbaycan dilinin sintaksisinə dair tədqiqlər. Bakı, 1963.

6.افسانه ها. باهتمام صبحی. تهران، ۱۳۲۳

7. به آذین. مهمان این آقایان. تهران، ۱۳۶۹

8.صادق هدایت. حاجی آقا. تهران، ۱۳۳۵

L.Mahmudova

Compound sentences with different types of link in modern persian language

Summary

The article is dedicated to the compound sentences with different types of link in modern Persian language.

The article points out that there are two kind of composite sentences with different types of link in Persian language:

1. Complex sentences with different types of link.
2. Compound sentences with different types of link.

Compound sentences with different types of link are divided into two types:

1. Simple compound sentences with different types of link.
2. Composite compound sentences with different types of link.

Л.Махмудова

Сложносочиненное предложения с разными видами связи в современном персидском языке

Резюме

Статья посвящена сложносочиненным предложениям с разными видами связи в современном персидском языке.
Автор статьи разделяет сложные предложения с разными видами связи в персидском языке на два вида:

1. сложносочиненные предложения с разными видами связи
2. сложноподчиненные предложения с разными видами связи

Утверждается что сложносочиненные предложения с разными видами связи бывают двух видов:

1. простое сложносочиненные предложения.
2. сложное сложносочиненные предложения

Простое сложносочиненные предложения с разными видами связи состоит из двух или более предложений.
Сложное сложносочиненные предложения с разными видами связи состоит из простых и сложных предложений с разными видами связи.

Rəyçi: Mənzərə Məmmədova
filologiya elmləri namizədi, dosent

НАИЛЯ ЮСИФОВА
Азербайджанский Государственный Экономический Университет (UNEC)
доктор филосовских наук по филологии
nailyayusifova.@yahoo.com

ОБЩЕСТВЕННАЯ СУЩНОСТЬ, РАЗВИТИЕ И ПРОИСХОЖДЕНИЕ ЯЗЫКА

Ключевые слова: язык, общество, речь, мышление
Açar sözler: dil, cəmiyyət, nitq, təfəkkür
Key words: language, society, speech, intellection

Что такое язык? Язык - общественное явление. Язык это средство, орудие, при помощи которого люди общаются друг с другом, обмениваются мыслями и добиваются взаимного понимания. Таким образом, язык представляет собою общественное явление именно потому, что он служит средством общения, обмена мыслями и взаимного понимания в человеческом коллективе. Такой коллектив может представлять собою и род, и племя, и народность, и нацию. Соответственно будем иметь языки: родовой, племенной, язык народности, национальный язык.

Во всех этих случаях язык используется в обществе, язык-достояние коллектива. Язык существует лишь в обществе, благодаря обществу: судьба языка связана с судьбой общества. Язык относится к числу общественных явлений, действующих за всё время существования общества. Он рождается и развивается с рождением и развитием общества. Он умирает вместе со смертью общества. Вне общества нет языка. Процесс речевого общения и его социальная основа. И как средство общения, и как средство обмена мыслями, язык представляет собой общественное явление.

В общении, в обмене мыслями участвуют две стороны: говорящий и слушающий (собеседник). Говорящий –это активная сторона, слушающий –пассивная. Каждое лицо, обладающее речью, выступает то как активная сторона (говорит), то как пассивная (слушает).

И в том и в другом случае речь протекает в отдельных лицах, в индивидуумах. Как согласовать положение, что язык – общественное явление, с тем фактом, что речевые процессы протекают в отдельных индивидуумах? Чтобы разобраться в этом, надо присмотреться ближе к процессу речи и его особенностям.

Отправным пунктом для собеседника служит услышанное: услышав содержание (или предложение), он уясняет себе соответствующее содержание, осмысливает услышанное. Услышанное может быть понятным или непонятным. Оно бывает понятным, если знаем, что оно означает, т.е. если, услышав слово (предложение), знаем какой факт действительности имеется в виду у говорящего. Наоборот, услышанное будет непонятным, если этого не знаем, если не в состоянии это уяснить. Нормальная работа коры головного мозга – необходимое условие для мышления и для речи, которая теснейшим образом связана с мышлением.

Но вследствие этого языка не становится не явлением индивидуальным, не явлением физиологическим (или психофизиологическим). Сущность языка не сводима не к психологии речи, не к физиологии речи. Сущность языка - социальная. Она определяется общественной функцией языка: быть средством общения, обмена мыслями и взаимопонимания.

Язык немыслим без говорящих лиц. Вне общества не языка. Язык проявляется в речевых процессах, которые протекают в отдельных лицах, индивидуумах. Но назначение речевых актов не индивидуальное, а межиндивидуальное и социальное. Речевые акты (слова, предложения) могут выполнять своё общественное назначение, могут быть средством общения, обмена мыслями и взаимного понимания лишь в том случае, если эти факты (слова, предложения) будут использованы не по прихоти индивидуума, а так, как это принято в данном языке, т.е. в данном обществе, в данном языковом коллективе. Отдельное лицо не может по своему усмотрению, произвольно ни использовать наличное в языке слово, ни создать и внедрить в язык новые слова, тем более изменить формулы грамматического строя.

Конечно, отсюда не следует, что все лица, говорящие на одном и том же языке, совершенно одинаково используют факты данного языка (слова, предложения): полное тожество, разумеется, здесь не достижимо; но в таком тожестве и нет необходимости: отклонения от общепринятых норм эмпирически допускаются в пределах, которое не затрудняют понимания.

Слова, предложения производятся отдельными лицами, но они имеют значимость для всего коллектива. Ценность фактов языка, как средства общения не индивидуальная, а общественная: в этом и находит выражение тот факт, что язык-явление общественное, что язык-создание и достояние коллектива, а не отдельного лица.

Монологическая речь и социальность языка. Язык, как средство общения, подразумевает, как сказано вше, говорящего и собеседника,

следовательно, речь диалогическую. Но отдельное лицо может говорить с самим собою, говорить наедине; помимо диалогической речи, возможна и речь монологическая.

Как совместить возможность монолога с общественной сущностью языка? Произнося монолог, разговаривая с самим собою, не создают какой-то особый, свой, индивидуальный язык: с самим собою разговаривают на том же языке, который служит для данного лица средством общения с другими лицами. Заменить обычный язык новым, специальным для данного случая, говорящему не удаётся. Особенно показательна в этом смысле письменная речь. Пишут для отсутствующего собеседника. Однако с этим отсутствующим собеседником приходится считаться больше, чем с присустствующим: в беседе можно быть кратким, можно опускать то, что ясно из контекста. В письменной речи такие сокращения нетерпимы. Пишущий старается выражаться так, чтобы написанное было правильно понято, не вызывало недоразумений. Следовательно, общественное назначение языка и в этом случае не только не снимается (не упраздняется), а, наоборот, резко подчёркивается, сильнее ощущается.

Итак: язык используется отдельным лицом, индивидуумом, но от этого он не становится индивидуальным. Речевые акты протекают как процессы психофизические и физиологические, но сущность языка не ими определяется. Язык, как средство общения, создан человеческим коллективом, создан для коллектива. Отдельное лицо не в состоянии ни создать язык, не изменить его, ни использовать наличные языковые факты по своему усмотрению, произвольно. Язык-явление не индивидуальное, а общественное.

Язык и мышление. Общаясь, люди обмениваются мыслями, чтобы добиться взаимного понимания. Мысли говорящего становятся доступным слушателю благодаря языку. Язык есть непосредственная действительность мысли. Реальность мысли проявляется в языке.

Обычно думают, что мысли существуют в нашем сознании в готовом виде, а наша речь внешне облекает уже расчленённую готовую мысль. Такое понимание не соответствует действительности. Процесс взаимоотношения мысли слова значительно сложнее. Готовых, определившихся расчленённых мыслей не бывает, пока они не найдут словесного выражения. Формируются мысли благодаря слову и в слове. Слово воплощает мысль, в словах расчленяется мысль, точнее - содержание мысли: то, что имеется в сознании до его выражения в речи, не что иное, как содержание мысли. Выступает оно обычно то в виде восприятия, то в виде представления (общего или нерасчленённого представления).

Расчленить цельное восприятие, выделить в нём предмет и его свойство, далее отнести свойство к предмету- невозможно без слов. Зелёную траву увидит и корова: она потянется к ней и начнёт её щипать. Но у коровы не будет мысли: это - зелёная трава или трава зелёная (тем более: трава зеленеет).

Выражая мысли мы расчленяем соответствующее содержание, устанавливает отношение между расчленёнными элементами. И то, и другое удаётся при помощи слов. Поэтому и говорят, что наше мышление дискурсивное (расчленяемое) и, будучи дискурсивным, вербальное (речевое).

Одно обстоятельство затрудняет ясно видеть роль языка в процессе членами мысли: в расчленении мысли обычно участвует так называемая внутренняя речь, т.е. «представления слов» - акустические, моторные, оптические (или их сочетание с преобладанием тех или иных представлений). С мышлением непосредственно связана именно внутренняя речь: внутренняя речь как бы «прорастает» в мышление.

Это давало повод отожествлять мышление с внутренней речью. Соответствующая формула гласила: мыслить - значит говорить без слов.

Единство языка и мышления – бесспорный факт. Но единство языка и мышления нельзя толковать, как их тожество. Допускающий такое тожество тем самым упраздняет проблему взаимоотношения мышления и речи.

Считать язык внешним выражением готовой, уже оформившейся расчленённой мысли, с одной стороны, и признавать тожеств внутренней речи и мышления, с другой стороны, - таковы два полярных понимания вопроса о взаимоотношении языка мышления. Оба понимания несостоятельны.

Мышление не равнозначно речи, но человеческое мышление не может обходиться без помощи речи, человеческое мышление в нормальном виде и есть речевое мышление: до воплощения в словах в сознании имеет содержание мысли, но не готовая мысль. Какие бы мысли ни возникли в голове человека и когда бы они ни возникли, они могут возникнуть и существовать лишь на базе языкового материала, на базе языковых материалов и фраз. Оголённых мыслей, свободных от языкового материала, свободных от языковой «природной материи» не существует.

Литература

1.Митридат – Общее языковедение,1806г.
2.Н.Марр. Языковая политика яфетической теории и удмуртский язык, Т.1,1930, стр.279.
3.Н.Марр. Язык и мышление,1931,Т.III,стр.106

4.Н.Марр. К Бакинской дискуссии о яфетидологии ,1932,стр.25
5.Н.Марр. Общий курс учения об языке, Т.II.1928,стр.107

Nailə Yusifova

Dil - onun ictimai mənşəyi, inkişafı və yaranması

Xülasə

Dil- insanlar, onun köməyilə bir-birləri ilə ünsiyyət qurduqları, fikirlərini bölüşdürdükləri və qarşılqı anlayışa nail olduqları, bir vasitədir.Dil cəmiyyət arasında ünsiyyət,danışıq vasitəsi,fikir bölüşməsi,fikir birliyi vasitəsidir.Belə cəmiyyət həm tayfa,həm nəsil, qəbilə,xalq və millət ola bilər.Bütün hallarda cəmiyyətdə istifadə olunan dil xalqın sərvətidir.Dil yalnız cəmiyyətin sayəsində mövcuddur və yalnız cəmiyyətə aiddir.Dilin taleyi ,cəmiyyətin taleyilə bağlıdır.

Dil cəmiyyətin varlığı ərzində baş verən ictimai hadisələr sırasına daxildir.Cəmiyyətdən kənarda dil yoxdur. Beləliklə, dil - məhz ünsiyyət,fikir mübadiləsi və qarşılqı anlayış vasitəsi olduğuna görə, o ictimai hadisədir.

Naila Yusifova

Language is an important means of communication among people

Summary

People communicate, share their thoughts and they try to understand each- other with its help. Language is opinion means of negotiations, the union and understand, each- other out, means of communication, share opinions in public. So the tribes and tribal people, and the nation and society and the generation could be. Thus, we will be able to achieve popular language and national languages. In all cases, the language used in society is the property of the people. Language in society there is only and only belongs to society.

Fate of the language is connected with the fate of society. Language belongs society events that occurred during the existence of the public There is no language outside of society.

Rəyçi: Təranə Xəlilova
filologiya üzrə fəlsəfə elmlər doktoru, dosent

MƏLAHƏT MUSTAFAYEVA
Bakı Slavyan Universiteti
Filologiya üzrə fəlsəfə doktoru
Mustafayeva1964@bk.ru

BAZAR MÜNASİBƏTLƏRİ VƏ MÜASİR SƏNƏDLƏŞMƏNİN TƏŞKİLİ: RƏSMİ İŞGÜZAR MƏKTUBLAR

Açar sözlər; rəsmi – işgüzar sənədləşmə, işgüzar məktublar, bazar münasibətləri, işgüzar sənədlərin dili.
Ключевые слова; официально – деловое документирование, деловые письма, рыночные отношения, язык деловых писем.
Key words; official – business documentation, business letters, market realtions, language of business documents.

XX əsrin sonu - XXI əsrin əvvəllərində Azərbaycanda gedən tarixi proseslər Respublika iqtisadiyyatında, elmində köklü dəyişikliklərlə müşaiyət olunmuşdur. Mövcud bazar münasibətləri müvafiq olaraq sahibkarlıq və təsərrüfatçılıq münasibətlərini formalaşdırmışdır.

Dövlətin iqtisadi, siyasi və elmi strukturlarında baş verən yeniliklər dövlətdaxili və beynəlxalq əlaqələrin qurulmasını rəsmiləşdirən sənədləşmə sferasında mövcud stereotiplərə və qaydalara yeni məzmun gətirdi. Bu cəhətdən Müstəqil Azərbaycanın dinamik inkişaf və yeniləşmə tələb edən sahələrindən biri məhz sənədləşmə işidir.

Sənədləşmə dövlətin diplomatik, qanunvericilik, idarəçilik, iqtisadi-siyasi və sosial fəaliyyətini əhatə edir. Dövlətlərarası və dövlətdaxili münasibətlər məhz sənədlərlə rəsmiləşdirilir və tənzimlənir. İstənilən təsərrüfat strukturunun öz istehsal və kommersiya fəaliyyətini sənədləşdirməsi zəruridir. Mülkiyyət formasından asılı olmayaraq istehsal və digər fəaliyyət sahələrinin sənədləşdirmə prosesi Azərbaycan Respublikasının müəyyən etdiyi mövcud normativ aktlara müvafiq şəkildə həyata keçirilir və bu normativ aktlar sənədləşmənin aparılması, mühavizəsi, qeydiyyata alınması və s. hallar üçün müvafiq qaydaların tətbiq edilməsini nəzərdə tutur.

Sənədlərlə işin düzgün, tez, peşəkar səviyyədə təşkili istənilən kommersiya, maliyyə, istehsal və digər sahələrdə qurulan münasibətlərin uğurlu nəticəsi deməkdir.Lakin sənədlərin tərtibində laqeydlik, süründürməçilik, qeyri-peşəkarlıq gərəksiz bürokratik əngəllərə və vaxt itkisinə gətirib çıxarır.

Bəzi mütəxəssislərin araşdırmalarına görə, idarəetmə sferalarında çalışan mütəxəssislər iş vaxtının 75% - ni sənəd işlərinə sərf edirlər. Əslində belə vəziyyət, yeni bazar münasibətlərinin yaranmasından əvvəlki dövrə xas idi. Məsələ burasındadır ki, yaxın keçmişdə işgüzar əlaqələrin qurulmasında

lazımi kommersiya məlumatlarının əldə edilməsi, reklam materialının hazırlanması, ünvan sahibinə çatdırılması, sənədləşmənin düzgün təşkili, bir sözlə, işgüzar yazışma mədəniyyəti diqqətdən kənarda qalırdı və ikincidərəcəli əhəmiyyət daşıyırdı.

Hesab olunurdu ki, hər bir etiket, o cümlədən yazı etiketi burjua cəmiyyətinə xasdır və keçmişin qalığıdır.

Sovet idarəetmə sistemində rəsmi-işgüzar sənədləşmənin təşkili "şaquli xətt" prinsipi üzrə, yəni inzibati - rəhbər orqanların göstərişlərinə əsasən həyata keçirilirdi və maddi mənfəətin güdülməsinə xidmət edirdi. Belə şəraitdə informasiyanın rəsmiləşdirilməsi, yəni sənədləşmənin mövcud qaydalara uyğun şəkildə aparılması işi ikinci dərəcəli əhəmiyyət daşıyırdı.

Müasir dünyada işgüzar münasibətlətrin qurulmasında əsas vasitə olan məktubların tərtib edilməsinə qoyulan tələblər, demək olar ki, hər yerdə eynidir. Bu gün bu tələblər istənilən ölkədə aktualdır və vacibdir.

Dünyanın bir çox ölkəsində, o cümlədən Amerika Birləşmiş Statlarında prezidentə, nazirə, senatora, səfirə və hətta onların xanımlarına düzgün müraciət və etiket qaydalarını tövsiyə edən xüsusi ədəbiyyat və məlumat kitabçaları nəşr olunur.

Bir çox sənədşünaslar İngiltərəni işgüzar korrespondensiyanın vətəni hesab edirlər və qeyd edirlər ki, digər qərb ölkələri ilə müqayisədə ilk dəfə burada işgüzar məktubların tərtib edilməsində xüsusi etiket qaydaları yaranmışdır. Böyük Britaniyanın ilk kapitalist ölkəsi olduğunu nəzərə alsaq, bunun təsadufi olmadığını başa düşmək olar.

Ümumiyyətlə, məktub mədəniyyətinin çoxəsrlik inkişafi dövründə bu sahədə xüsusi ənənələr və müəyyən texnologiya formalaşmışdır. Bu cəhətdən işgüzar məktubların məzmunları müxtəlif olsa da tərtib quruluşu vahid olaraq qalır.

İşgüzar məktublar öz təyinatlarına görə bir neçə vəzifəni yerinə yetirir:

1.Hər bir məktub müvafiq məna yükü daşıyır, konkret məqsədə xidmət edir, yəni funksional vəzifə daşıyır. Daşıdığı məzmundan asılı olaraq işgüzar məktub xahiş, müraciət, xatırlatma, razılıq, saziş, sığorta polisi, dəvət məktubu, şikayət və cavab məktubları ola bilər.

Öz ölçüsünə, ifadə tərzinə və janrına görə bu məktublar bir-birindən fərqlənir, lakin onların hər birində əsas açar fikir nəql olunur.

2.Hər bir işgüzar məktub öz növbəsində rəsmi sənəddir və müvafiq olaraq hüquqi vəzifə daşıyır. Hüquqi əhəmiyyət dərəcəsi məktubun təyinatından və məzmunun xarakterindən asılıdır.

Müxtəlif hüquqi münasibətlər sahəsinə müvafiq olaraq işgüzar və rəsmi məktublar özünəməxsus xüsusiyyətlərə, standartlara və ənənələrə

malik olur. Düzgün tərtib edilmiş məktub, düzgün müraciət, düzgün etiket formulları, düzgün leksika – bütün bunlar sonda məqsədinə nail olmağın şərtləridir.

3.Rəsmi – işgüzar məktub hər hansı şirkət və ya müəssisənin vizit kartıdır. Şirkətin emblemi, simvolu, zərflərin tərtibi, zövqlə hazırlanmış orijinal blanklar – şirkətin diqqəti özünə cəlb etməsini təmin edən şərtlərdəndir.

Məsələn, vizit kartlarının, emblemlərin, blankların hazırlanmasında ölkənin milli rənglərinin nəzərə alınması da xüsusi önəm daşıyır. Meksikada, Norveçd, İraqda qırmızı rəngə üstünluk verildiyi halda, İrlandiyada bu rəngi sevmirlər.

Müsəlman ölkələrində yaşıl rəngi böyük ehtiramla qarşılandığı halda, Fransada bu rəngi xoşlamırlar.

Ağ rəng bütun dünyada xoşbəxtlik rəmzi olduğu halda, ərəblərdə bu matəm rəngidir. Çində isə təhlükəyə işarədir. Sarı rəng Rusiyada xəyanət bildirir. Göy rəng dəniz rəngidir. Əsasən balıqçılıq, gəmiçilik fəaliyyəti ilə bağlı olan şirkətlərin emblemlərində rast gəlinir.

Beləliklə, iqtisadi və təsərrüfat münasibətlərinin qurulmasında işgüzar sənədləşmənin düzgün təşkili, şirkətlər arasında operativ işgüzar yazışma prosesinin sistemli şəkildə qurulması uğurlu sahibkarlığın əsasını təşkil edir. Bizim ölkəmizdə dövlət bayrağını əks etdirən üç rəngin, göy, qırmızı və yaşıl rənglərin hər birindən geniş şəkildə istifadə olunur.

Ədəbiyyat:

1. Мосеев Р.Н. Основы документационного обеспечения управления. – М.: Издательство «Институт практической психологии», Воронеж:НПО «МОДЭК», 1996. – 192 с.
2. Mustafayeva M.M. Azərbaycanda rəsmi - işgüzar üslub və sənədləşmə tarixindən//ELMİ ƏSƏRLƏR. – 2013.- N 1. – s. 173 – 179.
3. Hacıyev T.İ. Azərbaycan ədəbi dilinin tarixi. I hissə. Bakı: “Elm”, 2012, 476 səh.

М. Мустафаева

Рыночные отношения и организация современного документирования: официально деловые письма

Резюме

Данная статья посвящена вопросам документирования производственной деятельности в условиях рыночной экономики. Утвердившись в Азербайджане рыночные отношения внесли радикальные изменения в характер деятельности хозяйственных предприятий.

С учётом перемен в экономике, новое содержание получила деловая корреспонденция, которая требует во многом переоценки ранее существовавших в этой сфере стереотипов и правил.

Таким образом, установление экономических отношений между правильной организацией деловых документов, соответствием между оперативной деятельностью является основой успешного бизнеса в процессе создания системного пути. Национальный флаг нашей страны, три цвета, синий, красный и зеленый цвета, каждый из которых широко используется.

В рыночных условиях в корне изменились содержание, характер и цели деловой переписки, претерпели изменения оформления и реквизиты писем. В современных условиях официальный язык служебных документов требует выдержки и корректности, включая в себе такие особенности, как нейтральность тона изложения, унификация, стандартизация терминов.

С точки зрения правил этикета в языке писем широко распространены вежливые обращения и слова этикета. Все эти вопросы нашли свое отражение в данной статье.

M Mustafaeva

Market relations and organizing of modern documentation: Official – business letters

Summary

This article is devoted to issues and documentation of production activities in market economy. The market relations established in Azerbaijan brought radical changes in the nature of the activities of business enterprises.

Taking into account changes in the economy, new content was obtained by business correspondence, which in many respects requires reevaluation of previously existing stereotypes and rules in this sphere.

Thus, the proper organization of business documentation in the establishment of economic and economic relations, and the systematic establishment of the operational business correspondence between the companies constitute the basis of successful entrepreneurship. In our country there are widely used three colors, blue, red and green, reflecting the national flag.

In the market conditions the content, character and purpose of correspondence changed radically. Has been changed design and details of letters. In modern conditions, the official language of official documents requires expanse and correctness including in itself such features as unification , standardization of terms. From the point of view of the rules of etiquette in the language of letters, polite appeals are widespread . All these issues are reflected in this article.

Rəyçi: **Rafiq Novruzov**
filologiya elmləri doktoru, professor

ALİYƏ HACIYEVA
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Televiziya və Radio verilisləri
Qapalı Səhimdar Cəmiyyəti
aliya@mail.ru

RADİO DİLİ HAQQINDA

Açar sözlər: Radio yeni mədəniyyətdir. Səsli söz tribunası, efir dili, canlı danışıq dili, radio danışan qutudur, intonasiya, səs lövhələri, səs effektləri, radio dili ilə məşğul olan alimlər, aktual dil, radionun yaratdığı möcüzə.
Ключевые слова: Радио – современнфя культура, голосовая трибуна идео, языа эфира, язык живой речи, раздио - говорящая коробка, ---- эффекты звука, ученые занимающийся языком радио, актуалъный язык, чудо созданное, радио.
Key words: Radio is new culture, noisy word tribuna, the language of the radio, living speaking language, radio-is a speaking box, intonation, sound boards, sound effects, scientists dealing with the language of the radio, actual language, the miracle formed by the language of the radio.

Yaşadığımız dövrün əsas əlamətlərindən biri insanın informasiya bolluğuna düşməsidir. Sosioloqların informasiya cəmiyyəti haqqında dedikləri tədricən həqiqətə çevrilir: informasiya texnologiyalarının sürətli inkişafı, ilk növbədə isə internetin həyatımıza getdikcə daha dərindən nüfuz etməsi bu prosesə güclü təkan verir. Artıq sosial şəbəkələr də gündəlik məlumat mənbəyinə çevrilir, vətəndaş mediasının hüdudları genişlənir. Indi hər kəs axtardığı məlumatı zaman və texnoloji baxımdan özünə əlverişli olan kütləvi informasiya kanalından ala bilir. Bizim günlərdə artıq "ənənəvi media" adlandırılan kütləvi informasiya vasitələrinin (KİV) hər bir kanalı-qəzet, radio, televiziya insanların məlumatlandırılması missiyasını daha keyfiyyətli şəkildə yerinə yetirmək üçün özünün spesifik dilini formalaşdırmışdır. Buna görə də Qərb alimləri dilin linqvistik-sosial təbiətini məhz həmin KİV sisteminin ümumi xüsusiyyətlərinə istinadən izah edirlər.

KİV və dilin qarşılıqlı əlaqəsi. Kütləvi kommunikasiya və kütləvi informasiya sistemində dil anlayışı çoxmənalıdır. Yəni biz burada "radio dili", "qəzet dili", "televiziya dili", "kino dili", "internet dili" terminlərini işlədərkən üç əsas anlayışı nəzərdə tuturuq: 1) dövri mətbuat, televiziya, radioyayım, internet və kino sahələrinin spesifik xüsusiyyətlərini; 2) teleradio verilişlərinin, internet "məhsulu"nun, nümayiş etdirilən filmin dilini; 3)-qəzet və sayt materialının, televerilişin və radioyayımın, həmçinin kino əsərinin dil və üslub özünəməxsusluğunu.

Birinci halda qəzetə, radioya, televiziyaya və kinoya aidiyyətdə "dil" sözü metafora kimi işlədilir, yəni müstəqil mənada izah olunmur. "Radio, yaxud televiziya dilində", ya da "kino dilində" ifadəsi hər şeyin (hadisə, predmet və s.) radioyayımın, kino və televiziya sahələrinin təbiətinə uyğun şəkildə ifadə olunması deməkdir. Bu kanallar bir-birindən fərqlənməklə yanaşı, həm də kütləvi kommunikasiyanın xüsusi sahəsi kimi dövri mətbuatdan, eləcə də bədii ədəbiyyatdan seçilir: radio, kino və televiziya eyni tipə-audiovizual sahəyə aiddir. Amma bəzilərinə elə gəlir ki, bu prosesdə dil aydınlığı baxımından radionun vəziyyəti heç də qibtəediləsi deyil. Bu yanaşma nə dərəcədə doğrudur?

Radio yeni mədəniyyət və yeni dildir. Radio bəşər tarixində insan zəkasının yaratdığı möcüzələrdən biridir. Bu möcüzəni kəşf etmiş (1894) italiyalı mühəndis Q.Markoni radionu "Tanrının səsi" adlandırmışdı. Radionun təbiətini araşdırmış sosioloq M.Maklüen (ABŞ) isə onu elektrik cərəyanı ilə səsin birləşməsindən yaranmış möcüzə saymışdı. Bütün hallarda bu möcüzənin meydana çıxması hələ qədimdən insanların "danışan qutu" ilə bağlı xəyallarını gerçəkləşdirmişdir. Beləliklə, Tanrı möcüzəsi sayılan sözlə insan zəkasının məhsulu olan radiotexnikanın vəhdəti yüz ildən çoxdur ki, yeni dil situasiyası və yeni mədəniyyət yaradıb. Televiziya (TV) meydana çıxana qədər bəşəriyyətə misilsiz xidmət göstərmiş radio, müasir dövrümüzdə də texnoloji dəyişikliklərə çevikliklə uyğunlaşaraq cəmiyyəti məlumatlandırmaq və insanların estetik zövqünü oxşamaq missiyasını uğurla davam etdirir. TV yaranandan sonra "artıq radio yaşamağa qadir deyildir" tezisi özünü doğrultmadı. Çünki dünyanın səs yaddaşını ərsəyə gətirən radio heç də teletexnikanın inkişaf sürətindən geridə qalmadı. Əksinə, indi dünyanın ən aparıcı ölkələrində (ABŞ, İngiltərə, Fransa, Almaniya, Yaponiya və s.) kifayət qədər geniş auditoriyası olan və reklam üçün cazibədarlığını saxlamış radio az xərc tələb edən əlverişli informasiya vasitəsi hesab olunur; məsələn, 2010-cu ilin göstəricilərinə görə, Avropada radio stansiyalarının sayı getdikcə artır. Böyük Britaniya (London və Mançesterdə) və Almaniya (Bonn və Berlində), Fransa (Paris və Marseldə) kimi inkişaf etmiş ölkələrin iri şəhərlərində radiostansiyaların sayı telekanalların sayından 6 dəfə çoxdur. Dünyanın başqa iri şəhərlərində də radionun üstünlük təşkil etməsi tendensiyası özünü göstərir; məsələn, hazırda Nyu-Yorkda 112 televiziya kanalı fəaliyyət göstərirsə, radiostansiyaların sayı 740-dır. Tokioda 70 televiziya kanalı efirə çıxırsa, yerli radioşəbəkə 280 yayım stansiyasını birləşdirir. Radionun, xüsusən internet və televiziya ilə çətin rəqabətdə "sağ" qalmasının əsas səbəbi onun insan təxəyyülündə möcüzələr yaradan, haqqında danışılan hadisəni "bütün rəngləri ilə göstərən", bununla da dinləyicilərin diqqətini maqnit kimi özünə çəkən səsindədir. Bu media vasitəsi dediklərini göstərmək imkanından məhrum olsa da, səsi ilə insanın ağlına və şüuruna

nüfuz edərək onun təxəyyülündə qeyri-adi bir dünya yaradır. Təbii ki, radio buna, ilk növbədə, özünün fərqli ifadə vasitələrinin (nitq, musiqi və səs lövhələri) sayəsində nail olur. Həmin ifadə vasitələri isə haqqında danışdığımız və müəyyən qədər mücərrəd olan "radio dili" anlayışını formalaşdırır. Amma araşdırma "mücərrəd" və yayğın olmasın deyə biz bu vasitələrdən birinin- nitqin (sözün) üzərində daha geniş dayanmış, şifahi ədəbi dilin qanunlarına əsaslanan bu nitqi əsas tədqiqat predmetinə çevirmişik. Aydındır ki, tədqiqat məhz radionun səsli (akustik) təbiətinə, bu KİV kanalının özəl xüsusiyyətlərinə istinadən aparılmışdır. Təbii ki, predmet olaraq dil faktına belə yanaşma dilçiliyin ənənə və standartlarından bir qədər kənara çıxır. Hətta belə bir sual yaranır ki, hadisələri göstərmək imkanı olmayan, məlumatı yalnız səslə çatdıran radio dilini öyrənmək müasir dilçilik elmi üçün nə dərəcədə ciddi maraq doğurur.

***Radio dilini öyrənmək nəyə görə aktualdır*?** Bu gün çox ciddi problemləri həll etməli olan dilçilik elmi üçün belə bir sualın cavabı birbaşa efir dilinin təbiəti, burada səslənən nitqin xarakteri ilə sıx bağlıdır. Digər tərəfdən şifahi nitq tribunası sayılan radio dilini araşdırmaq, ilk növbədə, nitq mədəniyyətinin aktual məsələlərini gündəmə gətirmək deməkdir. Geniş bir auditoriya olan radio ədəbi dil normalarının təbliğatçısıdır, daha çox danışıq dilinə əsaslanır, dilin bir çox qatlarında , o cümlədən leksik layda və sintaksisdə gedən prosesləri dolğun əks etdirir. Məhz bu amillər dilçilik elminin efir dilini öyrənməsini zəruri edir. Digər tərəfdən efir dilinin araşdırılması danışıq dilinin öyrənilməsinə artan maraq, ehtiyac və tələblə bağlıdır. Bu maraq və tələbin artmasını kommunikasiya prosesinin danışıq dilinin aparıcı elementi olması ilə izah etmək olar. Həm də "normativ qrammatikalarda göstərilən və verbal kommunikasiya formasında mövcud olaraq fəaliyyət göstərən linqvistik təzahürlərin korpusları arasında olan ziddiyyətlər məhz danışıq dilində meydana çıxır". Efir, ədəbi dilin tətbiqinin yeni sahəsi olduğu, həm də sistemli öyrənilmədiyi üçün onun araşdırılması xüsusi aktuallıq kəsb edir. Yəni dilçilik elminin yeni istiqaməti kimi audiovizual dilin tədqiqini dərinləşdirmək, bu konteksdə həm yazılı dilin, həm də daha çox şifahi dilin problemlərini nəzərdən keçirmək eyni zamanda ədəbi dilin bu qollarının efirdə qeyri-adi şəkildə birləşərək yeni linqvistik mənzərə yaratmasını öyrənmək deməkdir.

Səsli söz tribunası. Efir təkcə dil materialından istifadə etmir, həm də dili cilalayır. Ədəbi dili, onun normalarını, qaydalarını təbliğ edir. Burada sözlər adi yazı kimi gözlə oxunmur, ucadan deyilir və hər hansı bir sözün məna tutumundan ta estetikasınadək səsdə, tələffüzdə güzgü kimi əks olunur. Verilişlərin dilində normaların pozulmasından irəli gələn nöqsanlarla bağlı narazılıqların çox olması da məhz bu sözlərin ucadan deyilməsi, aydın eşidilməsi ilə əlaqədardır. İnsan çox şey düşünüb yaza bilir, amma sözləri

ucadan deyəndə mütləq seçir, dəqiqləşdirir, fikrən redaktə edir, yalnız "deməli" olanı deyir. Bu baxımdan radio məhz ucadan deyilməyə layiq sözlərin, yəni mədəni nitqin, düzgün danışığın tribunasıdır.

Efir: yazılı, şifahi dil, yoxsa adi danışıq dili? Araşdırmalar bu suala dəqiq aydınlıq gətirməlidir ki, radio dili dedikdə nə başa düşülür? Efirdə eşitdiyimiz nitq, danışıq ədəbi dilin hansı qoluna aiddir: yazılı dilə, yoxsa şifahi ədəbi dilə? Problemin zahirən çətin görünən tərəfi burasındadır ki, radio dilində həm yazılı (kitab üslubu da daxil olmaqla), həm də danışıq dilinin müxtəlif elementləri birləşir. Verilişlər şifahi ədəbi dildə reallaşır, yəni radio nitqinin əsasını səs təşkil edir, lakin bununla yanaşı, onu sırf şifahi dil hesab etmək olmaz. Ümumiyyətlə, radio dilinin bütünlüklə danışıq dilindən ibarət olması mülahizəsi yanlışdır. Radio dili ayrılıqda yazılı dil də deyildir. Efirə gedən verilişlərin əksəriyyətinin mətninin (qəzetdə olduğu kimi) əvvəlcədən hazırlanıb redaktə olunması da radio dilini yazılı dil hesab etməyə əsas vermir. XX əsrin böyük linqvistlərindən olan A.Peşkovski ədəbi dil barəsində danışarkən qeyd edirdi ki, həm yazılı nitqin qanunlarına tam əməl etmək, həm də şifahi nitqin xüsusiyyətlərini nəzərə almaq ədəbi nitqin xüsusi, ayrıca bir növüdür. O, haqqında danışdığı bu xüsusi növü "yazılı nitqin şifahi təzahürü" kimi səciyyələndirirdi. Bu fikir sanki bütövlükdə radio nitqi haqqında deyilmişdir. Çünki radio danışğı struktur-konstruksiya baxımından yazılı, intonasiya, tələffüz baxımından isə şifahi nitqin xüsusiyyətlərini özündə əks etdirir. Radio jurnalisti, diktor, reportyor, bir sözlə, mikrofon qarşısında çıxış edən hər kəs bunu bilməli, düzgün deyim qaydalarına, orfoepiya prinsiplərinə əməl etməlidir.

Ədəbiyyat:

1. A.Axundov. Ümüumi dilçilik .Bakı., 1992. "Yazıçı" nəşriyyatı
2. İ.Məmmədov.Ekran, efir və dilimiz. Bakı., 1989 "Elm" nəşriyyatı
3 Q.Məhərəmmli.Televiziya dili Bakı., 2003 "Elm" nəşriyyatı
4. Q.Məhərəmmli. Kino, televiziya, radio terminləri Bakı., 2003
5. Q.Məhərəmmli. Televizya jurnalistikasının əsasları. BDU nəşriyyatı Bakı., 2005.
6. .Q.Məhərəmmli. Kütləvi Kommunikasiya və dil "Çaşıoğlu" nəşriyyatı Bakı, 2004

А.Гаджыева

О языке радио

Резюме

Эта статъе посвящается языку радио, основной радио, основной радио которой является донесты до слущателей ---- о современной кулътуре. Отмечаетъся актуалъностъ изучения этого языка во все времена. В статъе говорится о проделанностъ работе в данной сфере деятелъности различными учеными. А также освещаются многие качества языка радио. Радио - это говорящая коробка. Радио – это голосовая трибуна для идео. Радио – это друг и товарищ. Эфир не использует языковой материал, а также польский язык. Литературный язык, его правила и процедуры сообщаются. Слова читать невооруженным глазом, как обычно, письма, читает вслух любое слово означает Та емкость тома estetikasınadək, как это отражено в зеркале tələffuzdə. Жалобы по поводу нарушения норм, вытекающих из недостатков в программах, чтобы быть больше, чем просто слова, чтобы сказать вслух, должен быть отчетливо слышен.Радио – это член семъи. Радио – это донести гостъ нащей жизни.

A.Hacıyeva

About the language of the radio

Summary

The article is about the miracles formed by the language of the radio. It is said that, radio liking the tastes promotes new cultures. The article also mentions that, learning the language is always actual. The article speaks about the actions held by different scientists in this filed. Some characters of the radio are lightened. The following ideas are uplifted: Radio –is a speaking box. Radio- is a noisy word tribuna. Radio-is a friend and companion. The ehir does not only use language material, but also polish the language. It promotes the literary language, its norms and rules. Here the words are not readable as ordinary, they are spoken aloud and are reflected as a mirror in the sound, from the meaning of any word to the aesthetics of the word. There is also a lot of dissatisfaction with the deficiencies in the language of broadcasting, which is due to the fact that these words are loud and clear. Ниже иаписанное доносит до читателъя: Radio- is the standing guest of our life.

Rəyçi: İsmayıl Kazımov
filologiya elmləri doktoru, pbrofessor

ZÜLFİYYƏ ƏLİBƏYOVA
filologiya üzrə fəlsəfə doktoru
esmer12@mail.ru

ONOMASTİK VAHIDLƏRİN NORMALAŞDIRILMASININ ORFOFONİK MƏSƏLƏLƏRİ

Açar sözlər: orfoqrafiya, orfofoniya, fonetik, norma
Key words : orthography, orthophonie , phonetic, norm
Ключевые слова: Орфография, орфофония, фонетический, норма

Tələffüzün normalaşdırılması orfoepik və orfofonik səviyyələrdə gedir. Bu baxımdan orfoepiya ilə orfofoniyanın ortaq və fərqli aspektlərini aydınlaşdırmaq lazım gəlir. Orfoepiya həm ayrı-ayrı fonemlərin, həm də onların birləşmələr daxilindəki tələffüzünü nəzərdə tutur. Təcrid edilmiş fonemin tələffüzü fonem sisteminin qanunlarına tabe olur. Lakin fonemin başqa fonemlərlə birləşmələri artıq onun təcrid edilmiş şəkildəki tələffüzü olmur. Artikulyasiya aparatı bir səsin tələffüzündən digərinin tələffüzünə ahəngdar şəkildə keçir. Danışıq prosesində səs məxrəcinin dəyişməsi hiss edilmir. Halbuki söz tərkibindəki sonrakı səs əvvəlki səsin məxrəcinə təsir edir. Bütün bu cəhətlər orfoepiyadan orfofoniyaya keçidin zəruriliyini şərtləndirmişdir.

F.Veysəlli "orfoepiya" termininin ikinci komponentinin şifaihi nitqi nizamlamaqla heç bir bağlılığının olmadığını, "dünyanın bir sıra xalqları, binayi-qədimdən orfoepiya termini işlətmə"diyini qeyd edərək, anlayışın "orfofoniya" termininin düzgün ifadə etdiyini vurğulamışdır [1 s. 82].

Tələffüzün normalaşdırılmasının səhnə dili əsasında müəyyənləşdirilməsi ideyası aparıcı olmuşdur. Alman dilinin tələffüz lüğəti ölkənin tanınmış yaxşı aktyorlarının nitqi üzrə hazırlanmışdır. İlk belə lüğət 1898-ci ildə çap edilmişdir. Sonralar bu lüğət təkmilləşdirilmiş və təkrar-təkrar nəşr olunmuşdur [2; 3].

Bu tipli lüğət ("İngilis tələffüz lüğəti") ingilis dilində də hazırlanmış, təkrar çap olunmuşdur.

Ədəbi danışıq dilinin səhnə nitqi üzrə formalaşdırılması təcrübəsi Azərbaycanda da vardır. Ötən əsrin 40-cı illərində K.Ziyanın "Səhnə dili" kitabı çap edilmişdir [4]. Bu kitab aktyorların səhnə nitqinin normativləşmə məsələlərinə həsr olunmuşdur.

Orfofoniya iki komponentdən ibarətdir. Məlum olduğu kimi, tələffüz normasının iki tərəfi vardır. Birinci tərəf orfoepiya olub, sözün fonem tərkibinin normativləşməsi məsələlərini həll edir. İkinci tərəf isə orfofoniya adlanır və fonemlərin normativ reallaşması məsələlərini əhatə edir.

Bu məsələni bir qədər də aydınlaşdırmağa çalışaq. Orfoepiyada ayrı-ayrı səslərin müxtəlif mövqelərdə tələffüzü qaydaları (paradiqmatika), səs birləşmələrinin tələffüz qaydaları (sintaqmatika), səslərin bu və ya digər tələffüz qaydalarını müəyyənləşdirir. Deməli, orfoepiya hər bir sözün fonem tərkibini təyin edən elmi istiqamətdir. Orfofoniya isə hər bir fonemin nitq axınında reallaşmasını öyrənən sahədir.

Orfoepiya və orfofoniya üçün mərkəzi anlayış normadır. Norma bir dil formasının digəri ilə müqayisədə tarixən üstün sayılan (seçilmiş) qərarlaşmış qaydasıdır. Norma ədəbi kodlaşdırılmış dilə aiddir və ekstralinqvistik amillərlə tənzimlənir. Norma müəyyən cəmiyyətdə müəyyən dövrdə qəbul edilmiş dil vasitələri və onların işlənmə məcmusudur. Norma bu və ya digər dildə mənanı ifadə etmək imkanları sisteminə qarşı qoyulur. Norma variativliyi bir variantın seçilməsi ilə ədəbi dil səviyyəsində aradan qaldırır.

"Orfofoniya dildəki fonoloji qarşılaşmaların danışıqda reallaşması, bu zaman vurğu və intonasiya ilə bağlı ortaya çıxan tələffüz xüsusiyyətlərini sistemləşdirib öyrənməklə məşğul olur." [1, s.83]

Orfoepiya və orfofoniya arasında münasibət fonemin izahından asılı olaraq fərqli başa düşülür. Tələffüz normasının bu iki aspekti bir-birindən asılı deyil. Sözün normativ fonem tərkibi ilə tələffüzü zamanı fonemlərin səs realizasiyası təhrif oluna bilər. Əks hal da mümkündür. "Fonemlərin normativ səs realizasiyalarının saxlanması zamanı isə sözün fonem tərkibi pozulur. İki aspektdə normalar – orfoepiya və orfofoniya dialekt səhvlərinin düzəlişi və xarici dilin öyrənilməsi zamanı böyük əhəmiyyət kəsb edir. Belə ki, orfoepiyadan fərqli olaraq orfofoniyaya yiyələnmək yeni artikulyator vərdişlərin yaradılmasını, yeni tələffüz səriştələrinin tərbiyəsini tələb edir. Verbitskayanın fikrincə, orfoepiya və orfofoniyanın ardıcıl fərqləndirilməsi çox mühümdür. Belə ki, bu eyni bir funksional vahidin müxtəlif səs realizasiyaları ilə funksional vahidləri tutuşdurmağa imkan yaranır." [5, s.49]

Məlumdur ki, Azərbaycan dilində dialekt və şivələr 4 qrupa ayrılmışdır və hər bir qrupun özünə məxsus danışıq tərzi mövcuddur. Məs., dialekt və şivələrin cənub qrupunda sözün əvvəlində x səsinin h səsi ilə əvəzlənməsi (hazal, hurcun, horuz, hörəx́, hala), şimal qrupunda ə səsinin e səsi ilə əvəzlənməsi (eyləş, devşan, tezə, dedə, deyirman və s.) qərb qrupunda i səsinin ı səsi ilə əvəzlənməsi (ışıx, ılıx, qıymat, qıryat), şərq qrupunda o səsinin u səsi ilə, ö səsinin ü səsi əvəzlənməsi (dudaq, üküz, güdeg, urda, una, quşun və s.) baş verir [6, s.19-23]. Bu, orfoepik, "külək" tipli sözlərdə isə "küləy" tələffüzü orfofonik yayınmanın nəticəsi sayılır [7, s.85-86].

Azərbaycan dili dialekt və şivələrinin saitlərini nəzərdən keçirmiş olsaq, bunların hər şeydən əvvəl kəmiyyətə görə fərqləndiyini, yəni dialekt və şivələrimizdə adi saitlərdən başqa, onların uzun və qısa variantlarının da işləndiyini görəcəyik.

Bunlardan əlavə, dialekt və şivələrimizdə saitlərin burun variantlarına da təsadüf edilir:

1. Deyiliş yerinə görə:

a) ön sıra saitləri , i¯, ị), i (iˇ, i e (ē),), ü (ū̃, ŭ̃, ü ə(ə¯, ə0, ə¯ 0), ö (ö¯);

b) arxa sıra saitləri a(ā, ã, a¯ 0), ı(ī, ĭ, ĩ, ı¯ 0, ı), o (ō, õ, ō0), u (ū,ũ,ŭ, ū0,u),

2. Ağız boşluğunun vəziyyətinə görə:

a) açıq saitlər: a(ā, ã, a¯ 0), ə(ə¯, ə0, ə¯ 0), o (ō, õ, ō0), ö (ö¯);

b) qapalı saitlər ı(ī, ĭ, ĩ, ı¯ 0, ı), i (iˇ, , i¯, ị), i u (ū,ũ,ŭ, ū0,u), ü (ū̃), e (ē)

3. Dodaqların iştirakına görə:

a) dodaqlanan saitlər: u (ū,ũ,ŭ, ū0,u), ü (ū̃, ŭ̃, ü 0), o (ō, õ, ō0), ö (ö¯);

b) dodaqlanmayan saitlər: a(ā, ã, a¯ 0), ə(ə¯, ə0, ə¯ 0), ı(ī, ĭ, ĩ, ı¯ 0, ı), , i¯, ị), i (iˇ, i e (ē) [8, s.24].

Dialekt daşıyıcıları ədəbi dildən istifadə zamanı öz artikulyar vərdişlərindən çıxış edir və onun orfofonik qaydalarına xüsusi çalarlıq və ahəng verirlər. Nəticədə ədəbi dilin orfofonik layında dəyişiklik əmələ gəlir, bu dəyişikliklər hətta fonem sisteminin mövcud tarazlığını poza bilir. Məsələn, Qax rayonunda (r) və (l) fonemlərinin sözdə yerdəyişməsi (partal, şarval və s.) vardır.

Dilin fonetik sistemi onun danışıqda meydana çıxan xüsusiyyətlərinə əsaslanır. Orfofonik qaydalar buna əsasən təkmilləşir və dəyişir. Qeyd olunan cəhət dilin fonem sisteminə təsir göstərir. Deməli, orfoepiyanın orfofoniyadan ayrılmasına həm nəzəri, həm də praktik zəmin yaranır.

"Normaların orfoepik və orfofonik xüsusiyyətləri tələffüz tipindən asılıdır. Tələffüzün tam tipi seçilir, yəni sözün fonem tərkibində şübhə yaratmayan realizasiya və tam olmayan – qeyri-dəqiq, etinasız tələffüz aydınlaşdırılır. Bu zaman fonem tərkibi aydınlaşdırmaq üçün müvafiq kontekstin mövcudluğu önəmlidir. Ədəbi tələffüz normasından kənara çıxma doğma dilin və ya danışan insanın doğma dialektinin təsiri ilə baş verə bilər. Bəzən belə kənara çıxmalar loru xarakter daşıyır." [9].

Ümumiyyətlə, orfoepik və orfofonik normaların dialekt və şivə səviyyəsində pozulması ədəbi dil üçün məqbul deyildir. Lakin orfoepik və orfofonik qaydalar dialektin yayıldığı ərazidə danışıq dilinin ədəbi danışıq dilinə uyğunlaşmasını dərhal tənzimləyə bilməz.

Şifahi nitqin formalaşmasında sözlərdəki səslərin düzgün tələffüzü ilə bərabər, vurğunun da rolu mühümdür. Məsələn, Qarabağ sözünün Qaraba'ğ şəklində tələffüzü doğru hesab edilə bilməz. Vurğu qrammatik vasitələrdən biri olaraq qrammatikada xüsusi əhəmiyyət kəsb etdiyi kimi tələffüzlə də sıx əlaqədar məsələlərdəndir .Vurğu orfofonik qaydaların müəyyənləşdirilməsi prosesində nəzərə alınır.

"Xarici dilin tələffüzünü mənimsəyərkən doğma dilin interferensiyasına iki səviyyədə (fonoloji və fonetik) və iki planda (dərk etmə və təkrar etmə) baxılmalıdır. İnterferensiya problemini fərqli tələffüzün mənimsəmə şəraitlərindən asılı

olaraq keçirmək lazımdır: dil doğma mühit və ya daimi təmas, həmçinin öyrənilən dilin daşıyıcıları ilə münasibət şəraitində öyrənilir. Təlim strategiyası, ilk növbədə öyrənənlərin doğma dilinin fonoloji sistem xüsusiyyətlərindən asılı olmalıdır. Belə ki, məhz bununla öyrənilən dilin tələffüzündə aksentin tipologiyası müəyyən edilir. Doğma və xarici dilin fonoloji sistemlərinin müqayisəsi doğma dilin təsiri ilə yaranan mümkün tələffüz səhvlərini izah etməyə əsas verir." [10, s. 50].

Xarici dilin öyrənilməsi prosesində bu dilin tələffüz qaydaları da mənimsənilir. Onu da qeyd etmək lazımdır ki, xarici dilin onomastik vahidləri ilə tanışlıq daha əvvələ təsadüf edir. Bu, insanın ümumi dünyagörüşü və əvvəlki bilikləri ilə əlaqədardır. Doğma dilin orfofoniya qaydaları alınmaların tələffüzü barədə məlumatları da əhatə edir. Lakin alınmaların orfoepiya və orfofoniyası xarici dilin deyil, obyekt dilin qanunauyğunluqlarına əsaslanır.

Xarici dillərin tədrisində orfoepiya və orfofoniyanın fərqləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Xarici dilin öyrənilməsində uyğunsuzluqlar bu iki aspekti kəskin şəkildə fərqləndirilməsi ilə bağlıdır. Bəzən dil öyrənən sözün fonem tərkibini yaxşı bilir, bu sözdə işlənən fonemlərin ayrılıqda akustik və artikulyator əlamətlərini də pis mənimsəmir, amma onların canlı danışıqdakı xüsusiyyətlərini bilmədiyindən çaşır. İ.A.Boduen de Kurtenenin təbiri ilə desək, demişkən, tələffüzdə danışanın niyyəti ilə akustik effekt üst-üstə düşmür. Mövcud orfoepik lüğətlər fonemlərin variant xüsusiyyətlərini, demək olar ki, əks etdirmir. Orfofoniya yeni tələffüz vərdişlərinin yaranmasını və avtomatlaşdırılmasını tələb edir. "Öyrənilən dildə bunlar ana dilindəkindən köklü şəkildə fərqlənir. Onlara nail olmaq üçün uzun müddətli məşqlər tələb olunur. Məhz buna görə də öyrənilən dilin bütün məziyyətlərini ana dili işığında araşdırmalı, hər addımbaşı ana dilinə söykənərək öyrənilən dilin fonetik qurumunun və fonoloji sisteminin tədqiqində prosodiya və intonasiya kimi ağır mənimsənilən hadisələri subyektiv müşahidələrə əsaslanır." [7, s.87] Orfoepiya, eləcə də orfofoniya qaydalarının tənzimlənməsində də fonetikanın mühüm rolu vardır. Orfoepiya normaları, bir qayda olaraq, nitq vasitəsi ilə tənzimlənir. Ona görə də nitqin təsiri ilə fonetik vahidlərin dəyişməsi və yenidən normalaşması yollarını öyrənmək vacibdir. "Nitqin təsiri ilə sözün və ya şəkilçinin tərkibindəki fonemin dəyişməsi normalaşma ilə başa çatırsa deməli şifahi və yazılı nitq arasında bərabərləşmə yaranmasının bir üsulu da bu tipli dəyişmələrdən ibarətdir. Nəzərə almaq lazımdır ki, nitq çevikdir və dil strukturuna çox tez təsir göstərə bilir. Ona görə də nitqdə baş verən bütün dəyişiklikləri dil strukturuna tətbiq etmək norma fərqlərinin artması baxımından düzgün sayıla bilməz. Odur ki, artıq çoxdan normalaşmış variantları saxlamaqla nitqin özünə aid olan variantların da sabitliyini qorumaq gərəkdir [11].

Ədəbiyyat

1. Zərinəzadə H.H. Fars dilində Azərbaycan sözləri (Səfəvilər dövrü). Bakı: EA, 1962, 435 s.
2. Hacıyev Tofiq İ. Azərbaycan ədəbi dilinin tarixi. I hissə. Bakı: Elm, 2012, 476 s.
3. Hacıyeva Q.Ə. Dilimiz, tariximiz, yaddaşımız. Bakı: Araz, 2008, s. 12.
4. Fəxrəddin Yadigar. Fonetika və fonologiya məsələləri. Bakı: Maarif, 1993, 192 s.
5. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili. I cild (2 cilddə). Bakı: Nurlan, 2003, 450 s.
6. Qurbanov A. Azərbaycan dilçiliyi problemləri. 3 cilddə. I cild. Bakı: Nurlan, 2004, 444 s.
7. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: "Şərq-Qərb", 2007, 568 s.
8. Qurbanov A. Azərbaycan dilinin onomalogiyası. Bakı: Maarif, 1988, 596 s.
9. http://cyberleninka.ru/article/n/rol-yazykovoy-normy-v-praktike-obucheniya-russkomu-yazyku
10. Вербицкая Л.А. Роль языковой нормы в практике обучения русскому языку. // Вестник. Филологические науки. М.: Грамота, 2011, №1, с. 47-53.
11. http://tapemark.narod.ru/les/351a.html

З.Алибекова

Орфофонические задачи нормализации ономастических единиц

Резюме

В статье были отражены влияние диалекта и акцента на литературный язык, а также были затронуты некоторые проблемы орфографии и орфофонии. Для орфоэпии и орфофонии центральное понятие -это норма. Норма по сравнению с другой языковой формой считается исторически установленным правилом. Нарушение орфоэпических и орфографических норм на уровне диалекта и акцента не является приемлимым для литературного языка. Одним из ключевых вопросов в развитии навыков устной речи является обучение правильного произношения. Но орфоэпические и орфофонические правила не могут сразу регулировать приспособление разговорного языка на литературный, там где широко распространен диалект.Орфоэпические словари,в принципе не отображают особенности фонетических вариантов. Орфофония требует возникновение и автоматизацию новых

навыков произношения. Стратегия обучения, в первую очередь, должна зависеть от особенностей фонологической системы родного языка учащихся .Так как ,именно таким образом, определяется типология акцента в произношении обучаемого языка. Сравнение фонологической системы родного и иностранного языков дает основание определить ошибки в произношении, которые возникли под влиянием родного языка.

Носители языка, во время употребления литературного языка, исходя из собственных навыков, дают орфофоническим правилам языка специальный тонус и гармонию.Врезультате возникает изменение в орфофоническом слое литературного языка, и эти изменения могут нарушить баланс фонемной системы.

Z. Alibayova

Orthophonic issues of the restoration of onomastic units

Summary

The influence of dialects and accents to the literary language, some issues about orthography and orthophony are reflected in the article. The central notion for orthoepy and orthophony is norm. In the comparison of one language form with another, norm is historically preferred (selected) and fixed rule. Generally, for literary language being crossed out of orthoepic and orthophonic norms in dialect an accent level is not acceptable. But orthoepic and orthophonic rules can not immediately adjust the adaptation of language to literary language in the areas of dialect spreads. Almost, available orthoepic vocabularies are not reflect the version peculiarities of phenomenons. Orthophony demands the creation of new pronunciation habits. One of the main issue in correct development of oral speech is to learn right pronunciation habits. Training strategy, firstly should be dependent on the learners` phonology system. So that, the typology of accent of learning language is defined specially with this. The comparison of native and foreign language`s phonology system helps to explain possible mistakes which arises by the influence of native language. While using literary language carriers of dialects use their habits to give shades and harmony to orthophonic rules of language. As a result, in orthophonic layer of literary language arises changes, these changes even can disorder the ready balance of phonem system.

Rəyçi: Qara Məşədiyev
filologiya elmləri doktoru, professor

ŞƏFAQƏT MAHMUDOVA
Azərbaycan Dillər Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
shafagat.m@gmail.com

DEYKSİSİN VERBALLIĞI EMOSİONAL MÜNASİBƏTİN İFADƏSİ KİMİ

Açar sözlər: deyksis, emosional deyksis, emotiv söyləm, tədqiqat
Ключевые слова: дейксис, эмоциональный дейксис, эмотивный высказываний, исследование
Key words**:** deixis, emotional deixis, emotive speech, research

DD (*dil daşıyıcısı*) emosiyalarının sözlü ifadə prosesinin fərqləndirici xüsusiyyəti nitq subyektinin mühitində emosional narahatlığa qapalılıqdır. Bununla əlaqədar işarələmə rahatlığı üçün gələcəkdə biz ED-in oxşar izahı üsulunu nitq subyektinin emosional özünü ifadəsi kimi adlandıracağıq. İngilis dil daşıyıcısının özünü ifadə edən emosional deyksisinin tipologiyasını yaratmağa yol tapmaq üçün dil subyektinin bir sıra emosional təsir və emosiya ifadələri proseslərinin xüsusiyyətlərini müqayisə edək. Bunun üçün bir sxem yaradaq. Burada *M -emosiya modallığı, İ - emosiya istiqaməti, T - emosiya tonallığı, Eİ - emotiv intensiya, Qiymət 1 - ilk koqnikativ qiymət, Qiymət 2* - verballaşan qiymət ixtisarlarında istifadə edəcəyik.

Yada salaq ki, ilk koqnikativ qiymət, bizim fikrimizcə, hansısa bir halda tonallıq, istiqamətləndirmə və modallıq planında spesifik emosiya ilə yaranan"yaddaş, yaxud hissiyyatın" oyadılması müqayisəsidir. İkinci qiymət, verballaşma istifadə formasında nitq subyektinin gözləminə siyahıya alınan situasiyasının uyğunluq/uyğunsuzluq xüsusiyyətini əks etdirir.

Emosional hal və fərqləndirilməsi münasibətləri gözdən keçirərək biz bu iki fenomenin differensiya kriteriyalarına işarə etdik (8, s.39-42). EM (*emosional münasibət*) ifadəsi deyksisinin verballaşmasını biz gələcəkdə ED dil üsulları ilə müqayisə etmək üçün gözdən keçiririk. Qeyd edək ki, araşdırılan ED qarşıda gələn differensiyanı mümkün edir. Bu parametrləri gözdən keçirərək görürük ki, emotiv niyyət (subyektin öz emosiyalarını ifadə etmək) və istiqamət (emosiyaların istiqamətini ifadə etmə) kimi parametrləri bildirərək ED ifadəsinin ayrıca növləri tonallıq və modallıqla ayrıla bilər. Ətraflı gözdən keçirilən mövzu EM danışanın ED mənfi ifadəsi olmuşdur. Onun üçün (mənasını nəzərə alaraq) bunlar xarakterikdir:

1) özünü ifadənin niyyəti;

2) emosiyaların mənfi tonallığı;

3) ünvanlanmış emosiyaların ifadəsi, yəni birinci üç parametrin mənası dəyişilməz qalır.

Emosiya modallığının dəyişlməzliyinin verbal üsulda istifadə olunan ingilis DD-da öz əksini tapmağını gözdən keçirək. İntensiyası göstərilmiş

modallığın emosiyalarının eksplikasiyası olan emosional deyksisləri gözdən keçirməzdən əvvəl qeyd edək ki, verballaşma formasında onlar özlərini emotiv - qiymətləndirici münasibətdə olduğu kimi göstərir (8, s.134).

Həmçinin belə sayılır ki, onlar hamısı təriflənməməyin müxtəlif növləri kimi təqdim olunub. Bəyənilməyən ifadələrin ekstralinqvistik kontekstlərinin araşdırılması bunu göstərdi ki, çox hallarda residentlərin sosial statusları nitq subyektinin statusları ilə eyni olur, orta vəziyyətdə danışanın statusu aşağı olur, aşağı səviyyədə isə söyləm aşağı statusa malik residentin iştirakına uyğun gəlir. Bu miqdar müqayisəsi "özünü ifadə"yə baxmayaraq nitq subyektinin bir çox hallarda dinləyicilərin iştirakını unutmadığı və yuxarı olan həmsöhbətin yanında neqativ qiymət vermədən kənar olduğu bizim fikrimizə uyğun gəldiyini bildirir. Digər tərəfdən danışanın status cəhətdən bir neçə faiz üstün olması onun müəyyən /*Mən*/ obrazı, daha kateqorik cəhətdən təsdiq olunmalıdır (8, s.145).

Müzakirə olunan ED müxtəlifliyinin şərhi, iştirak edən üslubi və sintaktik leksik üsulların gözdən keçirilməsi müəyyən etdi ki, onun əsas obyektivləşdirilməsi və nitqi üsulu kateqorik olmayan mənfi qiymətdir. Sonuncu söyləm də həm ekplisit, həm də implisit şəkildə təqdim oluna bilər. Birinci halda bəyənməmə EM-in verballaşdırılması müxtəlif qiymətləndirici sözlər, ifadəli üslublar və stilistik üsulla (xüsusən leksik) həyata keçirilir. Qiymətləndirici leksikaya mənfi söyləmlərin ümumi miqdarından yarıdan az hissəsi mənfi qiymət semantikası olan isim və sifətlər aiddir, bundan başqa çox az hissəsi isə feil və söz birləşmələrinə aiddir. Mənfi qiymətləndirilən ED-in verballaşdırılması üçün istifadə olunan leksikanın fərqli xüsusiyyəti onun semantikasına daxil olan orta kateqorik mənfi qiymətin emosional və rasional ifadələridir /*impudent, extraordinary, right, wrong, rublish, waste*/. Aşağıda, mənfi - qiymətləndirici isimlə (birinci misal) və stilistik üsulla (ikinci misal) göstərilmiş misallar ED-in bu yarımnövünə uyğun EM-i bəyənməmə kimi eksplizasiya etməyə şərait yaradır.

Nümunələrə nəzər salaq:

/What a waste of time (1,s.132)*/ /You are thinking of the modern hybryds that now monoplize England. Hypocrites, Runbugs, Germans, Jews Yakkees, foreigners, Part Janers, cosmopolite/*(1,s.367).

(Bu nə vaxt itkisidir.Siz indi İngiltərəni əldə saxlayan yeni hibridlər haqqında düşünürsünüz. Hipokritlər, almanlar, xaricilər, kosmopolitlər)./

/"İ didn't," she cried recovering her speech "I did nothing deliberately. Well, go, if you please-get away...(1,s.234)/.

(Mən etməmişəm,o nitqini bərpa edərək qışqırdı. Mən qəsdən heç nə etməmişəm.Yaxşı, get, əgər istəyirsənsə çıx get...)

Kateqorik olmayan mənfi qiymət ED-nin gözdən keçirilən növünün verballaşdırılmasının üslubu kimi mənfi konstruksiyalarda istifadə olunanmüsbət qiymətləndirilən semantika ilə leksik vahidlərin (sifət, isim, fel, zərf, söz birləşmələri), qiymətləndirilməmiş leksika və kontekstual salınma nəticəsində-mənfi osmalar alan geniş semantik sözlərin cəlb olunması ilə reallaşa bilər.

Məsələn:

/Not good style at all (4, s.203)/ /Do you suppose I would read a book, sir/ (4, s.156).

(Heç də yaxşı üslub deyil. Ser, güman edirsiniz ki, mən kitab oxuyacaqdım?)

ED bəyənməmə ifadəsinin daha bir verballaşma üsulu implisit mənfi qiymətin yaradılmasıdır. Bunun üçün geniş və ekstralinqvistik kontekstlərin təhlili, bəzən isə söyləmin leksik - sintaktik xüsusiyyətləri köməklik göstərə bilər.

Məsələn:

/How that woman did talk!/

(O qadın necə də danışdı!).

Cümlənin nida strukturu emfatik /did/ və geniş kontekst EM bəyənməməyə işarə edir. Gözdən keçirilən ED yarımnövünün verballaşması üçün qəti olmayan ifadə ilə yanaşı onun bir sıra zəifləmə vasitəsinin istifadəsi xarakterikdir. Bu müxtəlifliyin ingilis DD-da istifadə olunan ED manifestasiyası istifadə olunan üsulların siyahısına /*I don't think \suppose\-see\believe\understand/* (*Düşünmürəm, güman etmirəm, inanmıram, başa düşmürəm*) və s. qiymətin subyektivliyini qeyd edən/ *a bit, rather və feil forması/* aiddir. Bundan əlavə müsbət qiymət semantikası olan leksik vahidlərin istifadəsi ilə yuxarıda qeyd olunmuş mənfi qiymət ifadəsi və /*very, too, so*/ tipli intensifikatorlar mənfi konstruksiyalarda zəifləmə üslublarına aid edilə bilər.

Sadalanmış dil üslubları ilə yanaşı ED bəyənməmə ifadəsinin obyektivləşdirilməsi zamanı sintaktik üsullardan istifadə olunur. 72% hallarda ED ilə xarakterizə olunan söyləmlər özlərini ayrı cümlə kimi göstərir (sadə, qəliz) və yalnız 28% halda onlar bir sıra cümlə daxil edən qəliz sintaktik komplekslərdə (QSK) genişlənir. Bununla belə 60,4% söyləmlərin quruluşunda nəqli cümlə (həmçinin təktərkibli və /*What a...!/ /How...!/* modellərində yaranmış), 15% - sual konstruksiyalı (informasiya sorğusunun intensiyası formal xarakter daşiyan - 8% sual-apelyativ strukturlar), 5% əmr cümlələr /*Let us go\not go, we mustn't go, we a better/* istifadə olunur. Yuxarıda göstərilən tiplərin təqribən 12% emliptik və natamam, 4% isə yönəlmiş emosiyanı təsvir edir.

ED bəyənməmə ifadələrin mənasında sintaktik - stilistik üsulların rolu azdır. Lakin qeyd etmək lazımdır ki, onların yaranması söyləmdə emotiv mənada öz əksini tapmış dil subyektinin istiqamətlənən/istiqamətlənməyən emosiyalarının ardıcıllığını bildirən ED modal strukturu yönəlməmiş emosiyalarla çətinləşə bilər. İstifadə olunan sintaktik-stilistik üsullara bunlar daxildir:

1*) paralel konstruksiyalar (5, 6%);*

2) təkrarlar (4, 8%);

3) inversiya (4%);

4) həmçinin sadalama və cümlənin xüsusiləşdirilmiş üzvləri (2,4%).

Aşağıdakı söyləmdə təkrarlar, emforik elementli (ever) sual - ap-

pelyativ struktur, nida konstruksiyalı /*What a ...!*/ bəyənməmə ilə yanaşı təəccüb və təxərrüs kimi emosiyları eksplizasiya etməyə şərait yaradır.

Nümunəyə nəzər salaq:

/*The porter? Snapped Josephine/ /Why ever the porter?/ /What a very extraordinary idea/*(4, s.105).

(*Hambal? Jozefina püskürdü! Niyə həmişə hambal?Bu nə qeyri – adi ideyadır?)* /

Oh: well/nidaları A.B.Selyayevin ardınca bizdə mənalı sözdən az ya çox desetantizasiya olunmuş derivatlar (məsələn:/ For heavens sake/ kimi tanıdığımız ekspletivlər (7,s.76) gözdən keçirilən verbalikada qısa şəkildə təqdim olunmuşdur.

Emotiv kontent - analiz aşağıdakı söyləmə uyğundur:

/*I know all about the honor of Yond, Mary Jane, but I think it's not at all honorable for the pope to turn the woman out of the chairs that have slaved there all their lives and put little whispers-snappers of boys over their heads. I suppose it is for the good of the church if the pope does it. But it's not just, Mary Jane and it's not right"//* (4,s.51).

(Meri Ceyn, mən Yondun şərəfi barədə hər şeyi bilirəm. Düşünürəm ki, bu heç də Roma Papası üçün şərəfli iş deyil ki, həyatı boyu qul olan qadını öz yerindən dartıb çıxartsın və onların başı üstündə balaca dedi – qodu deyən oğlanlar qoysun. Güman edirəm ki, Papa bunu edirsə kilsə xatirinə edir. Amma bu ədalət deyil, Meri Ceyn, bu ədalət deyil)

Bu aşağıdakı xəbəri dürüst ifadə etməyə imkan verir və danışanın bəyənməmə, məyus olma, kədərlənmə kimi hisslərini təsdiq edir.

/*I don't approve of the popes actions as they are somewhat incompatible with my moral and spiritual values I also feel a little bit dissappointed and upsel because some things turn out not. What they are expected\suppossed to be//.(9,s.123)*

(Mən papaların bu hərəkətini bəyənmirəm, cünki onlar mənim mənəviyyatıma və ruhi dəyərlərimə yaraşan deyillər. Mən də özümü bir qədər məyus və əhvalı korlanmış hiss edirəm, çünki bəzi şeylər düzgün alınmır, güman edilməsi gözlənildiyi kimi).

Bəzən adresat öz məhəbbət və ya təəssüf hissini emosiyaları ilə birgə sözlü ifadə etməyə zəruriyyət duyur.

Məsələn:

/Rain : It's useless, Mor… What am I doing in your life? I' ve often wondered this, you know, only I never told my doubts. You are growing tree. I am only a bird. You cannot break your roots and fly away with me/

(Reyn: Bu mənasızdır, Mor... Mən sənin həyatında neynirəm axı? Mən həmışə buna təəccüblənmışəm, amma heç vaxt sənə şübhələrim barədə bir söz deməmişəm. Sən böyüyən ağacsan. Mən isə sadəcə quşam. Sən hec vaxt öz kökünü kəsib mənlə birlikdə uçub getməzsən.)(11,s.134)

Kontekstdən göründüyü kimi gənc qadın öz məhəbbət və təəssüf hisslərini sözlə ifadə etmək üçün obrazlar yaradır: sevgilisini böyüyən ağaca

bənzədir, özünü isə quş hesab edir. Kontekstdə leksik vahidlərin belə mənada işlədilməsi adresata yönələn sözlü emosiyaya işarə edir.

Verbal səviyyədə bu emosiyaların siqnalı mənfi konstruksiyalardır. Belə ki, stilistik üsullar (xüsusən sintaktik – stilistik - antitez paralel konstruksiya) yönəlməmiş emosiyaları (məyus olma, kədərlənmə) açıb göstərməyə imkan verir. Müxtəlif dil ED - nin bəyənməmə ifadəsinin analizi onu bildirir ki, onun obyektivliyinin əsas üsulu kateqorik olmayan mənfi aksioloji (adətən etik) verballaşmadır, bu da müxtəlif zəiflədiciləri cəlb etmə və implisit qiymət yaratmaq üçün istifadə olunmuş leksik vahidlərdə və stilistik üsullarda işlənir. Aldığımız nəticə dilçilərin özündə rasionallaşmış ED, yəni çox yüksək olmayan emosiyanı bəyənmə fikri ilə uyğun gəlir.

Bu halın arqumenti, bizim fikrimizcə, bu istiqamətləndirilmiş emosiyanın istiqamətlənməmiş emosiyalarla birləşməsi yalnız söyləmlərin 27, 5% - də bilinir. Emotiv kontent - təhlilin nəticəsinə görə bəyənməmə ilə "bağlamada" ən çox orta intensiv (*təəccüb, şübhə, acıq),*gec isə yüksək intensiv emosiyalar (*məyus olma, ümidsizlik, dilxorluq və hiddət*)baş verir.

ED-in daha bir tərəfi nitq subyektinin emosiyalarının modallığı ilə seçilir, yəni daha yüksək intensivliyə malik, bəyənməmə variantını özündə bildirən pisləmə ilə. Söyləmlərdə bu modallığın emosiyalarının eyniləşdirilməsi üçün biz həmçinin T.A.Qrafovanın təqdim etdiyi prototipik situasiyanı istifadə etdik. Bu modelə əsasən pisləmə qiymət subyektinin arxayınlığını onda görür ki, onun obyekti ciddi pozuntuları bilərəkdən və yönəmli edir, yəni qanun, qayda və ənənələrə riayət etmir (8,s.94). Prototipik halın verilmiş təsviri bunu təsdiq edir ki, verilmiş EM aksioloji, çox hallarda etik qiymətə əsaslanıb. Yuxarıda qeyd olunduğu kimi ekplikasiya üsulu ilə kateqorik qiymətlənən ED pisləmə ifadəsinin verballaşdırması zamanı leksik vahid və stilistik üsullar iştirak edir. Birincilərə sifət, isim, feil, söz birləşmələri və yuxarıda qeyd olunmuş semantik xüsusiyyəti (qəti qiymət) olan neoloji sözlər və pis münasibət yaradan, inteksifikatorlarla uyğunlaşma şərti ilə, leksika aiddir.

Qiymətləndirici sifət və isimlərin yaranması 70% söyləmlərdə qeyd olunur. Digər leksik vahidlər cəmi 6, 7%-dir. Maraqlı odur ki, qiymətləndirici okkazionalizmlərin yaradılması nitq subyektinin yaşadığı emosiyaların intensiv olduğunu bildirir.

Məsələn:

/A party is like a sausage grinder: it mashes up clearheads, longheads, fatheads, blockheads-and what comes out? Meatheads!//(1, s.105)

(*Qonaqlıq lap sosis buterbroduna oxşayırdı: Onun tərkibində açıq başlar, uzunbaşlar, yağlıbaşlar, kilidlənmiş başlar qarışdırılmışdı, nəticədə nə əmələ gəlir? Ətli başlar).*

Ed(emosional deyksis) ifadəsinin reallaşdırılması üçün danışanın cəlb etdiyi stilistik üsullara antiteza, müqayisə, metafor, həmçinin alluziya, epitet, sarkazm və giperbola aiddir. Bununla belə qiymət inteksifikasiyası çox vaxt

qiymətləndirmə leksikası stilistik üsullarla (əsasən leksik) dubl edilməsi hesabına yaranır.

Qiymət inteksifikasiyası digər morfoloji və leksik üsullarla baş tuta bilər. Birincilərə emotiv "attraksiyalar" üsulu aiddir. Burada zərf əlamətin yüksək dərəcəsinə /*very, so, such, thoroughly*/, emfatik /*do, did*/ və invektiv intensifikatorların /*bloody, damnably*/ əlavəsinə işarə edir. Morfoloji üsullara sifətlərin üstün dərəcəsinin qrammatik formasının istifadəsi aiddir. Aşağıdakı misalda narahatlıq emosiyanın intensivliyi inteksifikasiyanın iki üsulu ilə qeyd olunur: leksik (emotilərin attraksiyası) və morfoloji.

Məsələn:

/*I have in my hand a copy of the most scandalous, the most mischievous, the most blackguardly book that ever escaped burning at the hands of the common hangman//.*

(Mənim əlimdə daha çox skandala malik, çox qaragüruhlu bir kitab nüsxəsi var ki, o da ümumi cəlladların əlində yanmaqdan güclə xilas ola bilib)(94,s.45).

Bütövlükdə müxtəlif inteksifikasiya üsullarının istifadəsi 44, 5% söyləmdə qeyd olunub.

Gözdən keçirilən ED növünün mənalaşdırılmasında sintaktik üsullar da iştirak edir. Burada 51% söyləm ayrıca cümlədir, 49% isə çətin sintaktik kompleks kimi çıxış edir. Yuxarıda qeyd olunan söyləm çərçivəsinin 54% - də nida cümlələri (həmçinin təktərkibli), 28,3% - nəqli cümlə, 16,5% - sual-appelyativ struktur, 9% - əmr konstruksiyası istifadə olunur. Yuxarıda araşdırdığımız spesifika EM-ə emosiyaların orta intensivliyinin xarakterik olduğunu göstərir, buna artırım işarə edir. Burada nida 24,5%, onların spektrinin genişlənməsi /*oh, eh, jah, tush, pooh, pshow, why, my dear*/ və ekpletitlərin istifadəsi 3,7% qədərdir. Qiymət kateqoriyasının gücləndirilməsi üçün nitq subyekti leksik /indeed, damn, wretched/, yaxud morfoloji (sifət müqayisəsi üstün dərəcəsinin qrammatik forması) intensifikatorların (11,3%) üstünlüyünü istifadə edə bilər.

Sonda qeyd edək ki, EM-in ED ifadəsi etotativ və istiqamətləndirilmiş emosiya kimi parametrlərin konstantlığını ayırır. Beləliklə, müəyyən emosiyanın modallığı tonallıqla birgə onun ayrıca hərəkətlərinin spesifik verbalikasını müəyyən edir. Bundan əlavə bu növün emotiv intensiyası üçün ED - yə illokutiv məqsədin hegemonluğu xarakterikdir.

Beləliklə, ingilis DD emosional münasibətin ED ifadəsinin verballaşmasında əsas rolu qiymətləndirici sözlər və leksik-stilistik üsullar oynayır. Istifadə olunan leksikanın, dil daşıyıcısı və stilistik üsulların xüsusiyyəti gözdən keçirilən hər bir ED-in spesifikasını yaradır.

Ədəbiyyat

1. Anderson, Stephen R. and Edward L. Keenan. Deixis. In Shopen, T. (ed.) vol.3. 1985, p.259-308
2. Brown P., Fraser C. Speech as a marker of situation // Social markers in Speech.- Cambridge, 1979, 33-62 p.
3. Brown P., Levinson S. Politeness. Cambridge University Press, Cambridge, 1987, 347 p.
4. Brugmann K. Die Demonstrative Pronomina der indogermanischen Sprachen. Leipzig: Gruyter, 1904, 256 p.
5. Bühler K. Sprachtheorie. Vena: 1934, 543 p.
6. Bühler K. Theory of Language: The representational function of language. Amsterdam. John Benjamins. 1990, 518 p.
7. Селяев А.В.Сопоставительный анализ лингвистических средств выражения положительных и отрицательных эмоций в британском и американском вариантах английского языка: Дис. … канд.-филол.наук. Нижний Новгород: 1995, 211 с
8. Графова Т.А. Смысловая структура эмотивных предикатов//-Человеческий фактор в языке: языковые механизмы экспрессивности. М.: Наука, 1991, 222 с.
9. Hemingway E. For whom the bell tolls. 1981, 569 p.
10. Hemingway E. Selected stories. M., 1971, 234 p.
11. Lindsay G. Betrayed Spring. 1953, 503 p.

Sh.Mahmudova

The verbalization of deixis as an emotional attitude

Summary

This article deals with the verbalization of deixis as an emotional attitude. Verbalization plays an important role between deixis and emotive speech, that is why some interesting information about emotional deixis and emotive speech is used. Here as a result we can see that in English the roles of emotional deixis in the study of emotive speech are of great importance.

Expressions of emotions and feelings are important and necessary for the language. Although they "motivate" organize and direct the perception of thinking and acting.

Emotional deixis is represented by the verbs with the semantics of emotion or feelings. They act together with a factor of amplification, which serve the pronoun "I".

Ш. Махмудова

Вербализация дейксиса как эмоциональное отношение

Резюме

В данной статье рассматривается вербализация дейксиса как эмоциональное отнощение в английском языке. Вербализация играет большую роль между дейксиса и эмотивной речи. По этому употребляется несколько интересных информаций об эмоциональном дейксисе и эмотивной речи. В результате мы видим что роли эмоционального дейксиса в изучении эмотивной речи имеет огромного значение.

Выражений эмоций и чувств важно и необходимо для языка. Хотя бы потому, что они «мотивируют» организуют и направляют восприятие мышление и действия.

Эмотивный дейксис представлен глаголами с семантикой эмоции или чувств. Они выступают вместе с фактором усилительности, коим служит местоимение “I”.

Rəyçi Məsmə Qazıyeva
Professor

NAILƏ GASIMOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
nailya.gasimova@gmail.com

THE PLAIN ENGLISH GUIDE TO WRITING REPORTS AND PROPOSALS

Açar sözlər: hesabat, təklif, bəyanat, obyektiv, xülasə, tövsiyə, məlumat, esneklik
Key words: report, proposal, statement, objective, conclusion, recommendation, information, flexibility
Ключевые слова: доклад, предложение, заявление, цель, заключение, рекомендация, информация, гибкость

Many different types of report are used in business-some quite short and informal, others fairly lengthy and formal. The ultimate purpose of any report is to provide the foundation for decisions to be made and action taken. Some reports contain no more than a simple statement recording an event, a visit or some circumstances, with a note of action taken. Other reports include detailed explanations of facts, conclusions, and perhaps recommendations for action.

More detailed reports require a lot of research. This may involve interviews, visits, questionnaires and investigations. The information may be presented in written, tabular or graphic form, and the writer needs to produce clear conclusions and recommendations.

The skills in writing a proposal are the same as in writing a report. However, there are certain differences between these two documents:

Reports

- contain information about what has happened in the past,
- aim mainly to provide information,
- record objective facts.

Proposals

- examine what may happen in the future,
- aim mainly to persuade the reader to make a specific decision,
- express opinions, albeit supported by objective facts.

A well-presented title page on your report will create a good impression.

Memorandum report

Memorandum report usually consists of arrangements made and arrangement still to be made. Arrangements made can be:

- accommodation has been arranged for a guest
- a taxi arranged for him/her

- meetings
- buffet lunch arranged in the guest room
- the boardroom booked for a conference

Arrangements still to be made can be:

- Up-to-date price lists, catalogues and some samples
- Staff will be informed about some events.

Never use too many different fonts or sizes in your report, as it will not be attractive and could confuse the reader.

Stand-alone report

In the stand-alone report we have to state who asked for the report and what we were asked to do; we also have to list the steps taken to gather the information; we have to state the findings in a logical order. We usually use reported speech in findings and make a logical conclusion from them (findings). We have to suggest action that should be taken. At the end of the stand-alone report we sign the document, state our names and titles, and include a reference and date.

Make sure all information in your report is well-researched and substantiated. Always consider carefully the format and section headings of your report.

A longer proposal

Let us consider the proposal about flexible working hours. This proposal must have the following steps:

- Objective: to identify the factors involved in introducing flexible working hours, to examine their benefits and disadvantages and recommend the best approach to take.
- Summary: to indicate hours of work. Example: "At present, almost all employees of…… work from 9.30 to 5.30. Many, though not all, staff are unhappy with this and would prefer a more flexible arrangement. Some are working mothers and would like to be able to take their children to and from school. Some, particularly the older employees, have sick or elderly relatives who make demands on their time which do not fit comfortably with their working hours. There are three basic options for the future:

1. Leave things as they are. This is obviously less demanding on resources than implementing a new system. At least we know it works even if it isn't perfect.
2. Highly flexible system.

- Proposal: introduce a system of limited flexibility for now, retaining the option of increasing flexibility later if this seems appropriate.
- Position: state the current working hours for most employees, with a few working…….

- Problem: indicate disadvantages (if the current system has), both for the organization and for some of the employees.
- Possibilities: since this report is looking at the principle and not the detail of a more flexible approach, the options available fall broadly into three categories: retaining the present system, introducing limited flexibility of working hours, and implementing a highly flexible system.

Let us describe them!

- Although **the present system** is not perfect, at least we know it works. The staff

All signed their contracts on the understanding that the company worked to standard hours of business, and while it may not be ideal for them it is at least manageable.

Limited flexibility: this would make asking employees to continue to work an eight hour day, but give them a range of ten hours to fit it into. They could start any time between 8.00 and 10.00 in the morning, so they would finish eight hours later-between 4.00 an 6.00.

- **Highly flexible system.** It would mean keeping the site open from 7.30 am to 8.00.

All staff are contracted to work a certain number of hours a week and time clocks are installed. Employees simply clock on and off whenever they enter or leave the building, until they have reached their full number of hours each week. This system has the obvious benefit that it can accommodate a huge degree of flexibility which should suit the various demands of all employees.

Before you start writing it is very important to

- plan reports and proposals very carefully,
- use sub-headings to organize your document into sections,
- use straightforward, everyday English,
- avoid jargon, and explain any technical terms that you must use,
- keep your sentences to 15-20 words, with one main idea in each sentence,
- use active verbs wherever possible,
- be clear and concise,
- write sincerely and personally, as if you are talking to the reader,
- draft your report first;

Some reports will need strict editing, rearranging, rewording. Ask someone else to read it through to check that your report meets all these objectives, and that it is readable and accurate.

Literature

1. MacCarter, S. (2003). Academic Writing practice. MacMillan.
2. Sahanaya, W. and Lindeck, J. (2009).Preparation and practice. Oxford University Press.
3. MacCarter,S. and Whitby, N. (2007). Improve your writing skills. MacMillan.
4. Slater, S., Millen, D. and Tyrie, P, (2006), University of South Australia.
5. Storch N. Collaborating writing: Product, process, and students' reflections, (2005).
6. Write English Right, (2007).
7. Rajab H. Developing Speaking and Writing Skills of L1 Arabic EFL Learners, (2013).
8. Spack R. Guidelines: A cross-cultural writing text. 3-rd ed. Cambridge University Press, (2009).
9. Lee S. Teaching EFL. Writing. Journal of National Taipei Teaching College, (2003).

N.Qasımova

Hesabat və təkliflər yazmaq üçün ən yaxşı yolu

Xülasə

Bu məqalə yazı sistemini dərindən öyrənmək istəyənlər üçün yararlı ola bilər.Dil materiallarının təlimində yazı və şifahi nitq məhsuldar verdişlər hesab edilir. Yazı sistemı istənilən dilin ünsiyyətini təqdim edən bir sistemdir. Hesabat və təkliflərin yazılması və oxunması prosesində yazı sistemi yazanlar və oxucular arasında bir rabitə rolunu oynayır. Məqalədə hesabat və təkliflər yazı sisteminin maraqlı metodları vermişdir. Tələbələrin və ya digər oxucuların artıq nələr bildiyini və nələr öyrənməli olduqlarını aydınlaşdırmaq lazımdır. Məlumat verilərkən materiala diqqətin arıtırılması üçün onun canlı və maksimum rəngarəng olması təmin edilməlidir. Hesabat və təkliflər yazı prosesində tələbə düzgün cümlələr qurmağı,hissə-hissə abzaslar quraraq mətni tərtib etməyi bacarmalıdır.

Hesabat və təkliflər yazılması zamanı aktiv fellərdən və qısa cümlələrdən istifadə etmək lazımdır. Verilən materiallın bitirilməsinin sonuna qədər biz öz məqsədimizi başa düşməli və tam ciddiliklə mövzu material ilə tanış olmalıyıq.

Н.Касумова

Простое английское руководство по написанию отчетов и предложений

Резюме

В бизнесе используются разные типы отчетов - некоторые довольно короткие и неформальные, другие довольно длинные и формальные. Конечная цель любого отчета состоит в том, чтобы обеспечить основу для принятия решений и принятия мер. В некоторых отчетах содержится информация в форме простого заявления о событии, визите или некоторых обстоятельствах с указанием о предпринятых действиях. Другие отчеты включают подробные объяснения фактов, выводов, ф также рекомендации для действий.

Более подробные отчеты требуют много исследований. Это может быть связано с интервью, визитами, вопросниками и расследованиями. Информация может быть представлена в письменной, табличной или графической форме, и писатель должен дать четкие выводы и рекомендации. В данной статье дается инструкция по написанию докладов и предложений, указывается различие в написании этих документов. Статья рекомендуется для чтения людям, работающим в бизнесе и часто пишущим доклады.

Rəyçi: **Fəridə Hüseynova**
filologiya elmləri namizədi, dosent

RAFAEL ƏLİYEV
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
adnsu@mail.ru

ABDULLA ŞAİQİN UŞAQ ŞEİRLƏRİNİN DİL VƏ ÜSLUB XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: A.Şaiq, uşaq ədəbiyyatı, uşaq poeziyası, sənətkar üslubu, dil xüsusiyyətləri, uşaq dərslikləri.
Ключевые слова:А.Шаиг, детская литература, детская поэзия, стиль мастера,своеобразие языка,детские учебники.
Key words: A.Shaig, children's literature, children's poetry, mastery style, language peculiarities, children's books.

Məsələnin qoyuluşu: A.Şaiqin yaradıcılıq üslubu və uşaq şeirlərinin poetik sistemi.

İşin məqsədi: Görkəmli maarifçinin uşaq şeirlərinin özünəməxsusluq tərəflərini, ənənəyə bağlılığını, dil, üslub xüsusiyyətlərini aydınlaşdırmaq.

Azərbaycan ədəbi-mədəni mühitinin zənginləşməsində əvəzsiz xidmətləri ilə seçilən böyük şəxsiyyətlərdən biri də Abdulla Şaiqdir. O, görkəmli romantik şair, nasir, dramaturq, tərcüməçi, ədəbiyyatşünas, müəllim kimi müxtəlif istiqamətli tədqiqatların mövzusuna çevirilmiş və bu gün də ciddi araşdırmaları aktuallaşdırmaqdadır. Onu da əlavə edək ki, bu fədakar ziyalının bütün fəaliyyəti xalqın maariflənməsinə, mədəni təbəqənin səviyyəsinin yüksəlməsinə, dil saflığına, etnosun mənəvi dəyərlərinin qorunuşuna hesablanmışdır. Böyük maarifpərvər ziyalının bütün müstəvilərdə özü bu idealların reallığı və təqdimi üçün nümunə idi. Məhz bu səbəbdəndir ki, onun uşaqlar üçün gördüyü çoxyönlü gərəkli işləri, zəngin yaradıcılığı sənətkar idealını açmağa şərait yaradır. "Uşaq çeşməyi", "İkinci il", "Gülşəni-ədəbiyyat", "Gülzar", "Milli qiraət", "Qiraət kitabı" və s. dərslikləri A.Şaiqin maarif və mədəniyyət sahəsində bir pedaqoq kimi sitemli fəaliyyətinin göstəricisidir. Görkəmli maarif xadimi H.Mahmudbəyovun müdir olduğu məktəbin aşağı siniflərindəki müllim kimi fəaliyyəti (1901) bu işlərin həyata keçirilməsi üçün əsas olmuşdu. Bütün bunlar, ailəsi, düşdüyü ictimai-mədəni mühit A.Şaiqin elmi-pedaqoji fəaliyyətinin istiqamətini müəyyənləşdirmişdir. Bir növ zəngin ədəbi-mədəni mühitdə A.Şaiq şəxsiyyətini, üslubunu formalaşdırmışdır. Doğurdan da, "Abdulla Şaiqin ədəbiyyata ciddi gəlişi romantik məzmun və üslubda baş verir. Özü də onun şeir rübabı daim ünsiyyət, mübarizə, işıqlı, xoşbəxt gələcək nəğmələri üstə köklənir. Bu rübabın çalıb oxuduğu nəğmələr vətən və övladını ta cocuqluqdan başlayaraq tərəqqiyə, fəaliyyətə, layiqli vətəndaş olmağa səsləyir və bu

ruhda da tərbiyələndirməyə çalışır. Həmin məqsədə çatmağın yolunu A.Şaiq də, əksər məsləkdaşları və yaradıcı dostları kimi, maarif və məktəblərin inkişaf etdirilməsində görür. Odur ki, vətən övladlarının zamanın inkişaf surəti ilə ayaqlaşa bilən, yeni tipli proqram və dərsliklərlə təchiz edilmiş təhsil ocaqlarında oxumasını təmin etmək uğrunda fəal və ardıcıl mübarizəyə qoşularaq Azərbaycan müəllimlərinin 1906-cı və 1907-ci ildə Bakıda olan I və II qurultaylarının hazırlanması, keçirilməsi və onun qəbul etdiyi qərarların həyata keçirilməsində xüsusi fəallıq və pedaqoji ustalıq nümayiş etdirir" **(1, 7).** A.Şaiqin bütün fəaliyyəti etnos dəyərlərinin, qorunuşuna, milli-mənəvi əxlaqın saflığına və gənc nəslin milli ruhda tərbiyyəsinə hesablanmışdı. Bunu onun təkcə pedaqoji sahədəki fəaliyyəti deyil, həm də yaradıcılığı bir tərəf kimi aydın şəkildə göstərirdi. "Nə üçün", "Yad et", "Hamımız bir günəşin zərrəsiyik", "Uşaq və dovşan", "Xoruz", "Yetim cücə", "Təpəl kəlim", "Payızın son ayı", "Cütcü", "Bülbül" , "At", "Yağış" və s. kimi uşaq şeirləri özlüyündə ədəbiyyatımız üçün A.Şaiq üslubunu formalaşdırmışdır. Bu əvəzsiz üslubun qaynağı isə xalqın zəngin folklorundan gələn dil sadəliyi idi. Məsələn, "Yetim cücə" şeirindən bir parçaya diqqət yetirək:

Ay kiçik, soluq cücəm,
Boynu buruq, yoluq cücəm!
Açma o nazlı dimdiyin,
Başlama qəmli cikciyin. **(3, 141).**

XIX əsrin sonu XX əsrin əvvəllərindən özünü güclü şəkildə göstərən milli oyanış bədii məkanda dil, üslub sadəliyini, uşaqların mənəvi ehtiyaclarını, maariflənməsini, əlifba məsələsini bir problem kimi zəruri edirdi. A.Şaiq də məhz bu çoxşaxəli yaradıcılığında bir nasir, pedaqoq, şair, tərcüməçi, dramaturq olaraq mövcud problemlərin həllində vətəndaşlıq nümunəsi göstərməyə çalışırdı. Onun məktəblilər üçün yazdığı uşaq şeirləri, eləcə də səhnə əsərləri, hazırladığı proqram və dərsliklər buna nümunədir. "A.Şaiqin pedaqoji fəaliyyətinin effektiv nəticəsi onun bir sıra şeirlərinin bədii təsvirlərində öz əksini tapır. Bu şeirlərdə maarifçiliyin inkişafına təkan verən ideyalar, uşaqların və valideynlərin məktəbə sevgi hisslərinin tərənnümü daha qabarıq nəzərə çarpır. A.Şaiqin yaratdığı valideyn obrazları elmi, məktəbi, ədəbi təbliğ edir, övladını "məktəbə get, dərs oxu" tövsiyəsi ilə tərbiyəsinə çalışır" **(3, 141).** Yuxarıdakı poetik mətn funksional sistemi, arxitektonikası, janr məzmunu ilə ciddi bir mahiyyəti özündə ehtiva edir. Uşaqların zəngin dünyasını, fantaziyasını, həyat təsəvvürlərini ifadə etmək kontekstində əhəmiyyət daşıyır. A.Şaiq bu baxımdan uşaq dünyasının ən yaxşı bilicilərindəndir. Onu pedaqoji sahədəki fəaliyyəti, məktəbin ehtiyaclarını dərindən bilməsi, uşaq bacarığını müəyyənləşdirə bilmək qabiliyyəti bütünlükdə yaradıcı istedadını ortaya qoymağa imkan vermişdir. Məlum olduğu kimi, "uşaq poeziyasının

mövzu və məzmunundan danışarkən adətən onun tərbiyəedici mahiyyəti ön plana çəkilir. Yazılan bədii əsər balaca oxucuya hansı hissləri təlqin edir, onun həyata hazırlanmasında nə dərəcədə rol oynayır, qarşısında hansı perspektivləri açır? Əsərin bədii məziyyətlərinə belə bir keyfiyyətlərin uşaq qəlbinə və hissinə nə dərəcədə nüfuz etməsi ilə bağlı qiymət verməyə çalışırlar" **(4, 110).** Böyük ədibin "Payız", "Bahar", "Qışın nəğməsi", "Qərənfil", "Bənövşə", "Qızıl gül", "Zanbaq", "Arı", "Kəpənək" və s. şeirlərində bu güclü tərəf kimi özünü göstərir. Burada digər məsələ məktəbə çağırışla bağlı olanlardı ki, A.Bakıxanov, İ.Qutqaşınlı, M.Ş.Vazeh, H.Zərdabi, M.Mahmudbəyov, S.M.Qənizadə, E.Sultanov, A.Səhhət, Ü.Hacıbəyov, S.S.Axundov, R.Əfəndiyev və başqalarında gördüyümüz təsəvvürlərlə eyni xətdə dayanır.

Bəyənmişəm məktəbi, çox sevmişəm,
Gəl məni də məktəbə qoy, ay ata! –

misraları A.Şaqin bir maarifçi kimi problemləri uzaqgörənliklə müəyyənləşdirə və qiymətləndirə bilmək bacarığından irəli gəlir. Ona görə də onun bütün fəaliyyətində əməli pedaqoji fəaliyyətlə elmi və bədii yaradıcılıq qovuşur, bir-birini tamamlayan fakta çevrilir. "Daha doğrusu, o, əməli pedaqoji fəaliyyətini elmi-metodiki işlə - proqram və dərsliklər tərtibi, həm də paralel olaraq bədii yaradıcılıqla davam etdirib tamamlayır. A.Şaiq zamanın tələbinə və maarifçilik hərəkatına uyğun olaraq, Azərbaycan müəllimlərinin I və II qurultaylarında Ana dili və əlifba dərsliklərinə (və dərslərinə) qoyulan tələblərə qurultaylardan az sonra bir-birinin ardınca çap etdirdiyi "Uşaq çeşməyi" (1907), "Uşaq gözlüyü" (1909), "Gülzar" dərsliklərində bir şair və pedaqoq kimi əməl etməyə çalışmışdır. O, dərslik yazmaq sahəsindəki işini sonrakı illərdə də davam etdirərək "Milli qiraət", "Ədəbiyyat dərsləri", "Türk çələngi" (1919), "Türk ədəbiyyatı" (1920) dərsliklərini və müntəxəbatını nəşr etdirmişdir. Bu dərsliklərdən uzun illər Azərbaycan gəncliyinin bütöv bir nəsli istifadə etmiş, faydalanmışdır. Bu işi A.Şaiq təkcə müəllim və pedaqoq, metodist kimi yox, həm də klassik uşaq ədəbiyyatımızın poeziya, nəsr və dram janrında bir çox yaddaqalan nümunələrini yazmaqla görmüşdür" **(1, 7).** Belə zəngin, çoxşaxəli fundamental bir düşüncəyə malik olan A.Şaiqin yaradıcılığında ən önəmli, bəlkə də birinci yerdə dayanan tərəf dil gözəlliyi, xalqın sadə, aydın, səlis danışıq tərzini yaradıcılığı üçün meyara çevirməsi ilə bağlıdır. Bu dəyər onun ilk mətbu şeirindən tutmuş sonuncu əsərinə qədər özünü göstərmişdir. Məlum olduğu kimi A.Şaiq ilk mətbuu əsərini uşaqlar üçün yazmış və "Ananın öz oğluna lay-lay deməsi" adlandırmışdır.

Lay-lay mələkim, sevdiciyim, yavrucuğum, yat!
Bir də ələ düşməz bu cocuqluq dəmi, heyhat!

Türk oğlusan, əcdadın ulu, şanlı, sərəfraz,
İştə vətənindir, a quzum, şanlı bu Qafqaz. **(1, 8).**

The Marshall Cavendish «Encyclopedia of Health», «English vocabulary in USE» Michael Macrathy, Felicity O'dell, «New English File» Clive Oxenden Christina Latham – Koenig. Пока мы обучали преподавателей, на кафедрах по специальностям: Анатомия, Физиология, Патфизиология, Химия, Биология и т.д. подготовили учебники, атласы, справочники, по которым преподаватели могли готовится к урокам. Проблему доступа к источникам знаний сегодня можно считать решенной, благодаря широкому распространению компьютерных технологий. Однако степень информативности специалиста во многом определятся одним из его профессиональных качеств – умением работать с текстом, содержащим необходимую информацию, в том числе с текстом на иностранным языке. Эту, одну из актуальных проблем мы старались решить на наших занятиях. Освоенные умения информационно – коммуникативной деятельности способствует непрерывному самообразованию и совершенствованию в профессиональной сфере, личностной мотивации иноязычного общения во всех его формах, о следовательно, и необходимости дальнейшего изучения иностранного языка. Иными словами, совершенный специалист должен обладать устойчивой мотивацией и умением изучать иностранный язык. Мотивация у «первопроходцев» была сильная (это первые преподаватели, которые решились обучать иностранцев медицине на английском языке). Особым энтузиазмом и тягой к познаниям отличились тогда педагоги с кафедр Анатомии, Патфизиологии, Соц. гигиены, Химии и т.д. Уже через год они свободно вели занятия и лекции.

Необходимость непрерывного получения профессиональных знаний, постоянного развития современного специалиста в любой сфере понимается сегодня, как одно их условий эффективного развития обществе в целом. Причем актуальной является не столько задача приобретения определенного наборе знаний, сколько приобретения способности непрерывно учиться. Именно поэтому все чаще ставится вопрос о новой роли вузовского преподавателя, взаимодействуя с которым студент, не просто получает предусмотренный программой объем знаний, по, в конечном счете, приобретает умении самостоятельно учиться и потребность постоянно развиваться (и как личность, и как профессионал).

Они могут свободно читать зарубежные медицинские журналы, самые современные книги по медицине, знакомиться с публикациями на англоязычных медицинских сайтах. Знание языка позволяет им постоянно повышать свою квалификацию, быть в курсе передовых

методов диагностики и лечения. Врачи могут пройти стажировку в иностранной клинике, или курсы повышения квалификации за рубежом. Знание английского позволит им участвовать в медицинских конференциях. Могут сотрудничать с иностранными специалистами, чтобы совместно консультироваться в сложных случаях и в конце концов знание английского языка говорит о вашей образованности, подчеркивает, что вы – современный, открытый, нацеленной на самосовершенствование человек.

Знание английского помогает найти общий язык со сложной аппаратурой.

Студентам очень помогают научно – студенческие конференции, проводимые ежегодно и на всех кафедрах. Студенты вместе с научными руководителями исследуют актуальные проблемы медицины, наиболее распространенные заболевания и их лечение, новые подходы к текущим заболеваниям, достижения в фармации и на основе этих тем, готовят выступления, сопровождающиеся слайдами, видеороликами, диаграммами и т.д.

Последующие годы курсы стали посещать преподаватели старших курсов из кафедр хирургии, пропедевтики внутренних заболеваний, клинической фармакологии, микробиологии, кожных заболеваний и т.д. Врачи (педагоги) были заинтересованы в изучении английского языка не только для преподавания, а также для получения информации в профессиональной сфере, для общения с иностранными коллегами, для участия в международных конференциях и т.д.

Одним из важных вопросов также является мотивация познавательных способностей студента – медика. Существуют различные способы мотивации, одним из них является самостоятельная практическая работа студентов, которая нуждается в педагогическом сопровождении и методическом общением. Студенты предпочитают работу с наглядными материалами, производственную практику и непосредственное общение с больными, как формы самостоятельной работы. Наш университет достаточно обеспечен учебными и учебно – методическими материалами для успешной организации самостоятельной работы. Для преодоления трудностей в самостоятельной работе большое значение студенты придают собственным усилиям и упорству, и помощи преподавателей.

Симуляционные технологии дают существенно повышать качество образовательного процесса, благодаря своим чувственными преимуществом – возможность создания клинических ситуаций. В медицинском и фармацевтическом образовании особое внимание принято уделять проблемному обучению. Создается проблемная ситуация, предоставляющая собой интеллектуальное затруднении для студента,

побуждающая его искать решение. При достаточной теоретической подготовленности и освоении практических навыков обучающийся способен к выполнению учебно – исследовательской работы. Ее цель – закрепление знаний, навыков и умений, полученных при изучение определенного модуля.

На данном этапе, когда на всех кафедрах есть достаточно англоязычных врачей – преподавателей, надо перейти полностью на новое методы обучения языка. т.е. подготовить студентов к профессионально медицинскому обучению. Это надо претворить в жизнь, как на подготовительном отделении (для иностранных студентов), так и на 1-ом – 2-ом курсах азербайджанского, русского и английского секторов.

В настоящие время в вузах чаще используются:

1) прямой
2) грамматика – переводный
3) аудиовизуальной и аудиолигвальный и
4) коммуникативной методы.

Суть прямого методы в том, что преподаватель уделяет больше внимание изучению разговорного языке. Разработчики этого методы считают язык – посредник тормозит изучения иностранного языка. Здесь роль преподавателя ключевая.

Цель грамматично – переводного метода научиться читать и переводить при помощи грамматических правил.

Аудиовизуальной и аудиолигвальный методы состоят в передачи языке при помощи ауди и видеозаписей цель – овладение живым, разговорным языком.

В настоящее время большое количестве преподавателей обращается к коммуникативному методу. Этот метод подразумевает большую активность студентов.

Задача преподавателя вовлечь всех присутствующих в беседу. Надо загрузить все каналы восприятия. Суть коммуникативного метода в создании реальных ситуаций общения. Здесь используются ролевые игры, диалоги, симуляция реальной коммуникации Мы применяем все доступные методы, чтобы достичь успехов. Для нас это очень важно, т.к. мы готовим будущих врачей не только из Азербайджане, но и многих других стран мира. В этой статье был сделан «экскурс» в процесс обучения врачей, преподающих в медвузе. Были затронуты цели и задачи этого процессе, а также методика, преподавания, мотивация. В последующей нашей статье мы затронем проблемы, с которыми мы сталкиваемся в процессе обучения.

K.Imanova

Teaching doctors inglish

Summary

In this article the author presents considers the aims & tasks in teaching doctors English working at the Medical University. There is English faculty for Azerbaijan & foreign students. To prepare professionals for teaching medicine is the goal of Foreign Language Department of the Medical University. The article describes teaching methods, literature, motivation of students.

The main method chosen in teaching English is communicative. This method makes students active, they interact more with each other. The teacher only helps them. Nowdays the knowledge in English is important for doctors who teach at the Medical University. They can communicate with foreign students and read modern literature.

K.Imanova

Həkimlərə ingilis dilinin tədrisi

Xülasə

Müəllif bu məqalədə tibb universitetində həkimlərin ingilis dili tədrisinin məqsəd və vəzifələrini təqdim edir. Tibb Universitetinin ingilis dilində fakültəsinin təşkili ilə əlaqədar ingilis dili həkim – pedaqoqlara böyük ehtiyac var idi. Universitetin xarici dillər kafedrasının bu məqsədə nail olma tədris metodları, istifadə olunmuş ədəbiyyat, tələbələrin motivasiyası və s. işıqlandırılıb.İngilis dili falültəsi açıldıqdan sonra tədris proqramında böyük dəyişikliklər edildi. Metodik üsullardan ən çox üstünlük verildi kommunikativ metoda.Bu metod tələbələrin dərsdə fəal olmaqlarına kömək edir. Dərsdə üstünlük ünsüyyətə verilir.

Həkim-müəllimlərin ingilis dilində dərin biliklərin zəruriyyəti bildirilir. İndiki dövrdə həm xarici fakultədə dərs demək üçün həm də bir ziyalı alim üçün ingilis dilini bilmək çox vacibdir.

Rəyçi: Gülnarə Rəhimova
filologiya üzrə elmlər doktoru, dosent

MƏHBUBƏ MƏMMƏDLİ
Azərbaycan Dillər Universiteti
mmehbube@gmail.com

KONTEKSTDƏ FRAZEOLOJİ SİNONİMLƏRİN İŞLƏDİLMƏSİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: söz birləşmələri, forma, vahid, dominant, paradiqm
Key words: word combination, form, unit, dominant, paradigm
Ключевые слова: словосочетание, форма, единица, парадигма

Dilin lüğət tərkibi yalnız sözlərlə deyil, həm də söz birləşmələri ilə zənginləşir. Söz birləşməsi dildə mövcud olan ən vacib leksik-semantik birləşmələrdən biridir. Birləşərək leksik vahidlər yaradan sözlər söz birləşməsini əmələ gətirir. Söz birləşməsi iki və daha artıq müstəqil sözün məna və qrammatik cəhətdən birləşməsi əsasında formalaşan sintaktik vahiddir. Söz birləşmələrindən danışılarkən komponentlərin həm mənaca, həm də forma-quruluş baxımından bağlılığı eyni dərəcədə əsas götürülür. Bu o deməkdir ki, hər bir söz birləşməsində struktur-semantik bütövlük olur. Qeyd edilən cəhətlərdən (forma və məzmun məsələləri) hər ikisini nəzərə almaq lazımdır, birinə üstünlük verib, digərini unutmaq olmaz. Söz birləşməsi sözlərin başqa tip birləşməsindən onunla fərqlənir ki, söz birləşməsi dilin sintaktik qanunlarına əsasən biri əsas olan müstəqil mənalı sözlərin birləşməsindən əmələ gələrək semantik bütövlük təşkil edən qrammatik vahid yaradır.

Söz birləşməsi dil vahididir. Formaların kombinatorikası, əlaqəyə girən vahidlərin sinif və yarımsinifləri nöqteyi nəzərindən tədqiq olunan qrammatik cəhətdən təşkil olunmuş istənilən söz qrupları söz birləşməsidir. Söz birləşmələrinin elementləri arasında istənilən sintaktik əlaqə ola bilər.

Sözlərdən, ifadələrdən fərqli olaraq, söz birləşmələri dilin lüğət tərkibində hazır şəkildə deyildir. Sözlər başqa sözlərlə assosiativ əlaqəyə girməyə bilməz. Çoxmənalı sözlər başqa sözlərlə əlaqəyə girərək hər dəfə öz mənalarından birini ifadə edirlər. Elə sözlər var ki, onlar sərbəstdirlər, yəni çoxlu başqa sözlərlə əlaqəyə girə bilərlər. Lakin elə leksik mənaya malik sözlər var ki, onlar başqa sözlərlə əlaqəyə girmə dərəcəsinə görə məhduddurlar. Dildə söz birləşmələrinin özləri deyil, quruluş modelləri vardır və danışanın məqsədindən asılı olaraq, nitq prosesində müvafiq sözlər, ifadələr seçilir və həmin modellər əsasında söz birləşmələri yaradılaraq cümləyə daxil edilir. Sözlər arasında əlaqə birləşmələrin əsas komponentinin mənasının dəqiqləşməsinə, konkretləşməsinə, daralmasına, sözün ifadə etdiyi məfhuma konkret olaraq hansı baxımdan yanaşıldığını başa düşməyə

imkan verir. Bir leksik semantik qrupda eyni söz birləşməsi konteksdən asılı olaraq müxtəlif məna çalarına malik ola bilər.

Söz birləşmələrinin paradiqması əsas komponentin paradiqmasından ibarətdir. Ona görə də söz birləşmələri öyrənilərkən əsas komponentin morfoloji xüsusiyyətlərinin öyrənilməsinə daha geniş yer verilir. Söz birləşmələrini öyrənərkən onların sözlərdən və cümlələrdən fərqli cəhətlərini nəzərdən keçirtmək lazımdır. Bu mənada söz birləşməsi dilin əsas vahidi söz və nitqin əsas vahidi cümlə arasında bir körpü rolunu oynayır.

Sözlər müxtəlif cür əlaqələnir, bəzi söz birləşmələri sərbəst, bəziləri isə sabit olur və birləşmə qabiliyyətinə görə müəyyən dərəcədə məhdudlaşmış olurlar. Söz birləşmələrinin əlaqələnməsi struktur və semantik cəhətdən fərqli olurlar. Bəzi söz birləşmələri, məsələn, *at least, point of view, by means of take place* funksional və semantik cəhətdən ayrılmazdırlar. Bu cür söz birləşmələri adətən sabit birləşmələr və ya frazeoloji birləşmələr adlanır. Başqa söz birləşmələrinin komponentləri, məsələn, *a week ago, man ofwisdom, take lessons, kind to people* semantik və struktur cəhətdən daha müstəqildir. Bu cür söz birləşmələri sadə söz qrupları adlamr və sintaksisdə öyrənilir. Söz birləşmələrinin mahiyyətini daha dərindən mənimsəmək üçün sözləri qruplarda birləşdirən əsas faktorları nəzərdən keçirtmək lazımdır. Söz birləşməsi dilin leksik vahididir.

Söz birləşmələrinin müəyyən olunmasında birləşmələrin komponentlərinin leksik-semantik əlaqəsi, bu əlaqənin xüsusiyyətləri mühüm rol oynayır.

Bu xüsusiyyətlərə əsasən söz birləşmələri 2 əsas qrupa bölünür. Sərbəst birləşmələr qrammatik birləşmələrdir və onların komponentləri öz mənalarını birləşmə tərkibində itirmir, öz leksik müstəqilliklərini saxlayır və birləşmənin leksik-qrammatik komponentlərinə çevrilir. Bu komponentləri ayırmaq, onları təhlil etmək mümkündür və bu zaman onların mahiyyətinə heç bir xələl gəlmir. Sabit birləşmələr bu cür müstəqilliyə malik olmurlar. Onlar dilin tarixi inkişafı boyu yaranır və sabitləşir. Onların tərkibində olan sözlər müəyyən dərəcədə öz ilkin mənalarını itirirlər, onlar bir-birilərindən ayrılmaz olurlar və bu sözlər leksik semantik komponentlərə çevrilirlər. Sabit söz birləşmələri frazeologiyanın obyektidir.

Hər şeydən əvvəl yadda saxlamaq lazımdır ki, hər bir sözün, ifadənin, frazeoloji birləşmənin kontekstdən kənarda mənası yoxdur. Belə ki, ola bilər ki, həmin kontekstdə, həmin ifadə başqa məna kəsb etsin, ancaq ayrılıqda digər mənanı versin. Yadda saxlamaq vacibdir ki, frazeoloji birləşmə adətən hər hansı bir dildə hazır materialdır və o bir söz və ya ifadə ilə əvəz oluna bilər. Məsələn, frazeoloji birləşmə N+N kombinasiyası isim kimi işlədilmişdir:

maidenmame – the surname of a woman before she was married

brains trust – a commitee of expert or a member of reputedly well informed persons chosen to answer questions of general interest without preparation.

N's+N – cat's paw -one who is used for the convenient of a cleverer and stronger person.

lady's man – one who makes special effort to charm or please woman.

N+prep.+N – the arm of the law.

N+and+N lord and master – husband; all the world and his wife – everybody; ways and means – methods of overcoming difficulties.

A+N green room – the general reception room of a theatre (it is said that formerly such rooms had their wall coloured green to releive the strain on the actor's eyes after the stage lights).

high tea – an evening meal which combines meat or some similar extra dish with the usual tea.

N+subordinate clause: ship that pass in the night chance acquaintances.

İkinci qrupa daxil olan frazeoloji birləşmələrdə fel istifadə olunur.

V + N: – to take advantage
V + post positive: – to give up
V + and + V: – to pick and choose
V+(one's)+N+(prep): – to snap one's finger at
V+one+N: – to give one the bird, to fire smb.
V+subordinate clause: – to see how the land lie;
– to discover the state of affairs.

Üçüncü qrupa daxil olan frazeoloji birləşmələr zərflik funksiyasında olur.

N+N: – tooth and nail
Prep+N: – by heart, of course.
Adv+Prep.+Adj+Noun: – once in a blue moon.
Prep.+N+or+N: – by hook on by crook.
Conjunction+Clause: – before one can say Jack Robinson.

Dördüncü qrupa daxil olan frazeoloji birləşmələr sözönü kimi işlədilir.

Prep.+N+prep.: – in consequence of.

Qeyd etmək lazımdır ki, bu tip frazeoloji birləşmələr həmişə artiklsiz olmur. Müqayisə et: *by reason of, on the ground of.*

Beşinci qrup frazeoloji birləşmələr nidalar kimi işlədilir. Bu qəbildən olan ifadələr adətən əmr cümləsi quruluşuna malik olurlar. *God bless me! Hong it (all)! Take your time! Go to Hell!*

Bütün bunlarla yanaşı daha bir növ frazeoloji birləşmə vardır ki, onlar tamamlanmış cümləyə bənzər. *These are formula used as complete*

utterances and syntactically shaped like sentences, such as the well known American maxim keep smiling! or the British keep Britain tidy!

Rus dilçilərindən ilk olaraq Smirnitski bu məsələyə diqqət yönəltmiş və izah etmişdir ki, onlar tamamlanmış formulalardır: *How do you do? or I beg your pardon. It takes all kinds to make the world. Can the leopard change his spots?* Bu qəbildən olan birləşmə, ifadələr sözün ekvivalenti ola bilməzlər və ona görə də onlar əvvəlcə (yuxarıda) haqqında danışdıqlarımızdan əsaslı şəkildə fərqlənirlər.

Bu barədə digər bir rus dilçisinin (birinci fəsildə adı çəkilən) fikirləri daha çox maraq doğurur. N.N.Amosovanın fikri bu problemlə bağlı çox səciyyəvidir. Onun fikirlərinə söykənərək biz aşağıdakı frazeoloji birləşmələri misal kimi göstərmək istərdik. Məsələn, *Save your breath – Shut up or tell it to the marines (one of the suggested origins is tell that to the horse marines; such a corps being non-existent, as marines are a sea going force the last expression means tell it to someone who doesn't exist because real people will not belive it).*

Belə formullar tez-tez cümlələrə bənzər və həqiqətən yalnız cümlə arasında işlənər: *the cap fits the statement is true (e.g. He called me a liar – well you should know if the cap fits).*

Lakin müqayisə edək: *Butter would not melt in his mouth: He bark is worse than his bite.*

Dilçilik ədəbiyyatında bəllidir ki, dildə sinonim sözlər və ifadələr vardır. Həmçinin dildə frazeoloji sinonimlər də mövcuddur. Sinonim sözlərdə sinonimik dominant vardır ki, həmin söz digərlərinə nisbətən daha ümumi anlayış ifadə edir və sinonimik cərgəyə aid olan sözlərin hər birinin yerində işlədilə bilir.

Frazeoloji sinonimlərdən bəhs edərkən qeyd etməliyik ki, onların bir çoxu idiomatik deyildir və onların ən azı bir çalarlığı üst-üstə düşə bilər.

to change up one's mind – to decide
to think better of və yaxud
to do smb. to death – sinonimik dominant.

1. *be the death of smb.*
2. *blow out smb.'s brains*
3. *to somebody to death*
4. *let daylight into smb.*
5. *put smb. to death*
6. *send smb. off the deepend*
7. *settle smb.'s hash*
8. *take smb.'s life.*

Qeyd etdiyimiz kimi, bütün bu frazeoloji birləşmələrin sinonimik dominantı *to do smb. to death* olmaqla ümumi semantikası *"to kill smb."*dir (yəni bir kəsi öldürmək).

Bildiyimiz kimi, adi sinonim sözlərdə də sinonimik dominant vardır və həmin söz (dominant) ən azı bir çalarlıqda bütün sinonimik qrup sözünün yerində işlədilə bilər. Bu halda həmin söz, yəni dominant müəyyən həddə qədər o mənada işlədilir, o həddən sonra artıq işlədilə bilməz.

Biz bütün bu deyilənləri nəzərə alaraq əvvəlcə nümunə gətirdiyimiz frazeoloji birləşmələrin məna çalarlığına diqqət yetirib onu izah edib aydınlaşdırsaq, heç də pis olmazdı.

1. Surely they have ***done her to death*** *in some way which has decrived the doctor and simulated a natural end...*

2. It seemed that after we had left Prendergast his gang had proceeded ***to put her to death*** *the five remaining prisoners.*

*3. "I paid for them" he said tremblingly: "He's a thief!" I – I knew how it would be. He'****ll be the death of me****...*

4. Take somebody's life –..."He didn't kill anybody even if he was guilty. He ***didn't take anybody's life****".*

5. ...and then I looked at the gal. There's lots of 'em will threaten ***to blow your brains*** *out for you, but you've only got to look at 'em to know they won't.*

6. My finger was in an instant on the trigger, and another second would ***have settled his hash****.*

7. "As I understand it" Mason said, "an emotional shork could ***send such a patient off the deepend.****"*

8. ...Fleming encounted young tanner on a high mountain road one evening, said to him. "You get out of this party by night, or I will ***let daylight through you*** *in the morning." Tucker Tanner, realising, that... the end would be bullets just the same departed.*

Gətirdiyimiz cümlə nümunələrində həmin göstərdiyimiz frazeoloji birləşmələr ardıcıl olaraq 1) hər hansı bir yolla öldürmək; 2) asıb öldürmək; 3) həyatına son qoymaq; 4) beyninə güllə çaxmaqla öldürmək; 5) kiminsə ölümünə səbəb olmaq; 6) kiminləsə hesablaşıb-öldürmək (danışıq dili); 7) kimisə o dünyaya göndərmək (slənq); 8) öldürmək güllələyib canını almaq (slənq) anlamlarını verməklə ümumi mənası öldürməkdir və hər bir ifadənin öz məna çalarlığı vardır, kontekstdə onların yerini dəyişmək həmin mənanın itirilməsinə gətirib çıxardar.

Yuxarıda qeyd etmişdik ki, frazeoloji birləşmələr müxtəlif funksiyalarda çıxış edə bilər. Ilk öncə zərf və zərflik funksiyasında işlədilən frazeoloji

sinonimlərin bir qisminə nəzər yetirək, onların kontekstdə işlədilmə xüsusiyyətlərini təhlil etməyə çalışaq.

1. *a good bit*
2. *a good deal*
3. *a great deal*
4. *a vast deal*

birləşmələri *a considerable quantity, much* – "müəyyən dərəcədə çox" mənasında işlədilir.

Bu frazeoloji birləşmələri kontekstdə təhlil etməzdən əvvəl bir məsələni qeyd etmək yerinə düşərdi ki, burada adi haldan yüksək hala getmək ifadələrin birinci komponentlərinin mənasında ayrılıqda hiss olunur.

Cümlə nümunələrini nəzərdən keçirək.

1. *She used the car* ***a great deal*** – həddindən artıq mənasında;
2. *I have had* ***a good deal*** *to do with boys during naval* – kifayət qədər çox.
3. *They knew...* ***a vast deal*** *about flowers* – olduqca çox.
4. *Jolly frowned: "Of course, my first year we talked* ***a good bit*** *about that sort of thing."* –lazımi dərəcədə çox (danışıq dilində).

Başqa bir frazeoloji sinonim qrupuna diqqət yetirək:

"A letter from Henry Lennox. It makes Margaret very hopeful" Mr. Bell nodded. Margaret was ***red as a rose*** *when Mr Thornton looked at her. (Galsworthy)* – ifadə qızıl gül kimi qırmızı, yanaqları qızarmış.

Len saw his father's face ***go white as snow, then red as blood,*** *and knew something was about to happen. (Jone L.).* Burada verilmiş frazeoloji ifadə birinci qar kimi ağappaq, ikinci qan kimi qırmızı –semantikasına malikdir.

I looked up from Jasper, my ***face red as fire****... (Du Maurier)* (həyəcandan, həyadan, hirsdən qıpqırmızı, yəni sifətinin rəngi alov kimi qızarırdı, alışıb-yanan kimi idi mənasında).

My head was ***as red a lobster****, but in other respects I was nicely dressed for the ceremonies of the evening. (Collins W.).* Bu cümlə nümunəsində həmin altından xətt çəkilmiş frazeoloji birləşməni ayrıca komponentlərinə görə tərcümə etdikdə "xərçəng kimi qırmızı" mənasında vermək olar, ancaq bütövlükdə cümlənin ikinci hissəsini nəzərə aldıqda onu Azərbaycan dilində analoji olaraq "cəllad kimi qırmızı" tərcümə etmək olar, çünki Azərbaycan dilində belə halda assosiativ olaraq qırmızı geyiləndə cəllad yada düşür.

Ədəbiyyat

1. Bayramov H. AZərbaycan dili frazeologiyasının əsasları. B., 1978, 174s.
2. Vəliyeva N. Müxtəlifsistemli dillərdə feili birləşmələrin tipoloji təhlili. B., 2008, 861s.
3. Кунин А.В. Фразеология современного английского языка. М., 1972, 287с.
4. Логан П.Смит. Фразеология английского языка. М., 1959, 207с.

M.Mammedli

Specific features of usage of phraseological synonyms in contexts

Summary

The articles touches upon the phraseological synonyms.Firstly author gives information about word combinations and tries to expalain the relation between them.Explaining word combinations author stresses the importance of learning different features of word combinations from words and sentences.Word combinations are divided into two groups.Stable word combinations and free word combinations.

It gives brief information about free word combinations and the relation between their components.Then it gives brief information about stable word combinations and the relation between their componenets as well.The author shows different peculiarities of stable and free word combinations.

Wide information is given then about phraseological synonyms and with the help context explains their specific features.Dividing phraseological synonyms into groups author classifies their usage functions.With the help of different examples substantiates opinions and translates them into Azerbaijan.

М.Мамедли

Специфика употребления фразеологических синонимов в контексте

Резюме

В статье рассматривается фразеологические синонимы.Прежде всего автор предоставляет информацию о словосочетаниях и в тоже время пытается объяснить взаимосвязь между ними. Автор объясняя словосочетания подчеркивает важность обучения описывающие различные особенности фраз, слов и предложений .

В статье автор разделяет словосочетания на две основные группы которые являются стабильными и свободными. В статье представлен краткий обзор свободных словосочетаний и их компонентов. Также говорится о стабильных словосочетаниях и взаимосвязи между их компонентов. Автор старается подчеркнуть различные особенности стабильных и свободных словосочетаний.

В статье предоставлена информация о фразеологических синонимов и их контекста, пытается объяснить природу развития а также статья показывает функции использования разделяя их в группы. Автор приносит примеры для обоснования своего мнения и делает перевод на Азербайджанский язык.

Rəyçi: Amil Cəfərov
filologiya üzrə fəlsəfə doktoru, dosent

İZAURA ŞİRİNOVA
Azərbaycan Dillər Universiteti
shirinova@mail.ru

DİLİN MÜXTƏLİF SƏVİYYƏLƏRİNDƏ VARİATİVLİK PROBLEMİNİN TƏDQİQ OLUNMASINA DAİR

Açar sözlər: variativlik, invariant, fonoloji variativlik, intonasiya, intonativ variativlik, qrammatik variativlik, cümlə, sadə cümlə
Ключевые слова: вариативность, инвариант, фонологическая Изменчивость, интонация, intonativ Изменчивости, Изменчивость грамматик, предложение, простое предложение.
Key words: variety, invariant,phonological variety, intonative variation,-gramatic variation,sentence,simple sentence

Gerçəkliyin müxtəlif sahələrinə aid obyektlərin mövcudluq və funksionallığını, strukturunu səciyyələndirən «variativlik», «variantlıq», eləcə də onlardan törəmə «variant» və «invariant» sahələrarası terminlər olub dilçilikdə sonradan istifadə edilmiş, hazırda linqvistikada vacib anlayışlardan birini ifadə edir, dil vahildlərinə və onların funksionallığına dair tədqiqatlarda tətbiqini tapır. Variant və invariant terminləri ilk dəfə Praqa dilçilik məktəbində fonologiyaya aid işlərdə istifadə edilmişdir.

E.Koseriu bu məsələyə münasibət bildirərək yazır: "ənənəvi dilçiliyin məşğul olduğu, gənc qrammatiklərin qəbul etdiyi və hər dəfə bir sıra tiplərlə izah etdiyi dil formalarının danışıqda müxtəlif mənaları realizasiya variantları səviyyəsinə aid edilməlidir, bundan əlavə işlənmənin tupləri (onlar geniş yayılarkən) dilin vahidlərinə uyğun gəlirsə) variantların bu səviyyəsinə aid olur. Əslində struktur yanaşmada yeni və vacib aspekt ondan ibarətdir ki, funlsional vahidlərə və variantra "mövcudluğun" iki müxtəlif tipi aid edilir: bir tərəfdə məhz, necə deyərlər, birdəfəlik "modellərin mövcudluğu" (dil bilgisində) və digər tərəfdə bu modellərin realizasiyası kimi "mövcudluq" (danışıqda). Bu o deməkdir ki, funksional vahid onun variantlarının nə sadəcə məcmusu, nə də onlardan mücərrədləşdirilə bilən ortaq şeydir, o, başqa səviyyəyə, yəni "dil" səviyyəsinə özlüyündə aid olan ortaq şeydir ki, bu da həmin səviyyədə birdəfəlik homogen və vahid bir fakt kimi mövcuddur. Buradan da vahidin öz variantlarında "realizə olunur", "təcəssum edir" və variantlarn bu vahidi təmsil edir, müvafiq olaraq onu ifadə edir və bununla onlar bir-birindən fərqlənirlər, bununla da reallaşanda əhatə və məqamlar dəqiqləşmələr əldə edirlər. Onları təmsil edən vahiddir və daha böuükdür və ya məhz hər bir konteksdə dəyişikliyə uğrayan dil hadisələridir"[1, s. 141].

Ədəbiyyatda variativlik (variantlılıq) iki mənada işlədilir. Birinci mənada variativlik təkamül prosesinin nəticəsi olub oxşar və ya eyni hadisələri müxtəlif dil vasitələri ilə ifadə etmək kimi başa düşülür. Bu hal dildəki hər cür dəyişikliyi, modifikasiyanı, müxtəlifliyi əhatə etdiyindən variativlik-invariantlıq qarşılaşdırması tələbini ortaya atmır. Nəticədə yalnız variantlar sövcud olur, invarianta ehtiyac qalmır. İkinci mənada variativlik dil vahidlərinin sinxron planda mövcudluğunu və funksionallığını səciyyələndirir. Bu halda variativlik anlayışı dəyişməyən, invariant anlayışı fonunda reallaşır, «variant» termini «invariant» termini ilə vəhdətdə dərk olunur. Variativlik fonologiyada qəbul edilmiş və sonradan dilin başqa sahələrinə köçürülmüşdür. Dil vahidlərinə «variant-invariant» mövqeyindən yanaşma qarşılaşdırılan iki anlayışlar, terminlər sırası yaratmışdır: morfem-morf (allomorf); fonem-fon (allofon); leksem-leks (alloleks) və s. Cütlərin birinci üzvləri invariant vahidləri, ikinci üzvləri isə variantları ifadə etmişdir. Müxtəlif səviyyə vahidlərinin variativlik-invariantlıq baxımından bölünməsi, onların izomorfluğu hazırda tədqiqatçıların diqqətini cəlb edən məsələlərdəndir [2, s.32].

«Variativlik «, «variant» terminləri dilçilikdə «invariant» terminindən əvvəl işlədilmişdir. Bunu anlayışın birinci mənadakı izahı da təsdiq edir. Eyni dil vahidinin hər cür fərqliliyi, izomorffluğu variativlik hesab edilmiş, bir-birindən müəyyən əlamətə görə fərqlənən formalar isə variantlar adlandırılmışdır. Nöqtənin frazadakı yerini Dekart və afin koordinatları ilə göstərmək mümkündür. Bu halda onun fəzadakı yeri dəyişmir, koordinat variativliyi əmələ gəlir. İki punkt arasındakı məsafəni santimetr, millimetr, metr, kilomertr, yaxud Asiyada istifadə edilmiş ağac, fərsəx, qarış kimi vahidlərlə göstərmək olar. Hansı vahiddən istifadə etmək məsafəni dəyişmir, onun ölçü sistemində, məsafəni ifadə edən vahiddə variativlik yaradır. Məsafəni metr əvə addımla ölçmək mümkündür və ölçmə zamanı məsafə dəyişmir. Bu halda ölçü vasitələrində variativlik baş verir. Eyni sözü indiyədək qəbul edilmiş müxtəlif Azərbaycan əlifbalarının hərfləri ilə yazmaq olar. Yəni «alma» sözünü ərəb, kiril, latın qrafikalı əlifbalardan istifadə etməklə yazdıqda sözün mənasına, dildəki funksiyasına heç bir təsir göstərmir, sadəcə qrafik variativlik meydana çıxır. Bununla belə dil vahidinin mahiyyətində müəyyən variativlik də müşahidə olunur. Talış dilinin daşıyıcısı Azərbaycan dilinin «ü» fonemini tələb edilən mücərrəd tələffüz etməkdə çətinlik çəkir. Bu zaman talış dilinin fonemlər sisteminə uyğun artikulyasiya xüsusiyyətləri məxrəc sürüşməsinə səbəb olur. Nəticədə «u» və «ü» fonemlərinin ikisi ilə müqayisədə aralıq mövqedə duran səs variantı əmələ gəlir. Ləzgi dilinin daşıyıcısı «q» samitini tələffüz edərkən onu boğaz samiti məxrəcinə doğru sürüşdürür, «q» ilə «ğ» arasında qalan səs əmələ gəlir ki, bun ə «q», nə də «ğ» fonemidir. Azərbaycan dilinin «ə» saiti, the artiklinin «z» kimi tələffüz edir. Bu hallar fonoloji variativliyin göstəriciləridir və qeyd edilən hadisə interferensiyanın,

bir dilin sistem xüsusiyyətlərinin digər dilin sistem xüsusiyyətlərinə təsirinin nəticəsidir.

Variativlik yalnız bir dilin daşıyıcısının başqa dildə danışması zamanı baş vermir. Hər bir dil sistemindən doğan elə xüsusiyyətlər vardır ki, onlar eyni bir dil vahidinin mahiyyyətində dəyişmələr, daha doğrusu, yaxud elmi terminologiya ilə desək, variativliyə səbəb olur. Nəticədə eyni vahidin müxtəlif səviyyələrdəki variantları yaranır.

F.Veysəlli konkret fiziki hadisə olan səsin insanın artikulyasiya aparatında yarandığın qeyd edərək faktiki olaraq hər bir fonemin təmsil etdiyi səslərin sonsuzluğunu vurğulayır, ayrı-ayrı fərdlərin dilində işlənən «d» səslərinin, müxtəlif mövqe və birləşmədə gəldikdə çoxsaylı kombinator və mövqe dəyişiklərinə, habelə aksent, prosodiya və intonasiya təsirlərinə məruz qaldığını diqqət mərkəzinə çəkərək Azərbaycan dilinin tələffüz normasına görə bu səsləri variantlarda və ya allofonlarda belə qruplaşdırır: 1-ci variant: incə saitlərdən əvvəl həmin samitin yumşaq tələffüzü, /diz/ sözündəki (d,); 2-ci var.: qalın saitlərdən əvvəl həmin samitin qalın tələffüzü, yəni dil gövdəsinin arxaya çəkilməsilə tələffüzü, /daz/ sözündəki (d-); 3-cü variant: dodaq saitlərindən əvvəl bu samitin dodaqlanması, /duz/ sözündəki (d0); 4-cü variant: söz sonunda və kar samitlərin qarşısında arlaşması, /səd,t/ək mək /-dəki (d,_/.). Bundan başqa, bu samit vurğulu saitdən qabaq gərgin tələffüz olunur. Bəzən uzun da deyilir. Məs., /adda-budda/ və s. Müəllif belə variantların sayını asanlıqla artırmaq olduğunu bir daha qeyd edərək belə bir qənaətə gəlir: "Təhlil göstərir ki, qeyd olunan variantlarda müxtəliflik olduğu kimi, bir eynilik, bir izomorfluq, bir invariantlıq da var ki, harada gəlməsindən asılı olmayaraq onda stabil, dəyişməz relevant əlamətlər qalır: dilönülüyü. Kipləşən partlayışlılığı, güclülüyü və ya gərginliyi. Bu əlamətlərin üçü də birdən heç bir Azərbaycan samitində yoxdur. Elə bu səbəbdən də səslər variantlarda, variantlar da fonemlərdə, ümumi nəzəri cəhətdən invariantlarda ümumiləşir. Fonemdən səsə, səsdən də fonemə yol variantdan keçir [Bax: 3, s. 103-105]

Variativlik, daima dəyişiklik qabiliyyəti kimi, təbii işarə sisteminin, yəni dilin ən əsas xüsusiyyətlərindən biridir. Tarixi cəhətdən dilin variantlığı dil evolusiyasının, müxtəlif dillər və dialektlərin əlaqələrinin, çoxlu sayda və müxtəlif xarakterli daxili sistemli faktorların təsirinin nəticəsidir. Variant-lılığın səbəbləri həm dilin daxili sistemindən, həm də dilin yaşamasının konkret sosial-tarixi formalarından irəli gəlir.

Hazırda variativlik nəzəriyyəsi alimlərin diqqətini cəlb edir. Variativ-lik hadisəsi, haqlı olaraq, müasir dilçiliyin əsas nəzəri məsələlərindən biri sayılır. Qeyd olunduğu kimi, ilk dəfə variativlik nəzəriyyəsi XX əsrin 20-ci illərində Praqa məktəbinin nümayəndələri və eyni zamanda Boduen de Kurtene tərəfindən irəli sürülüb. 1960-ci ildə variativliyin fonoloji səviyyədə

nəzəri məsələlərini N.S.Trubeskoy "Fonologiyanın əsasları" əsərində vermişdir [4].

Linqvistik ensiklopedik lüğətində belə bir tərif verilir: "variantlıq - latın dilindən "variants" - dəyişən; variativlik - 1) dil vahidinin müxtəlif ifadə vasitələri haqqında anlayışı, onun müəyyən formasının modifikasiyası, müxtəlifliyi və yaxud normadan kənarlaşması kimi; 2) dil vahidlərinin və ümumiyyətlə dil sisteminin mövcudluğunun və funksionallığının vasitəsini xarakterizə edən termin" [5] .

V.Q.Qakın tərifinə görə, "variativlik - dil funksionallığının fundamental xüsusiyyətlərindən biridir"[6, s.4].

Dil vahidlərinin variativlik problemi müxtəlif aspektlərdən tədqiqata cəlb olunur. Azərbaycan dilçiliyində variativliyin öyrənilməsi bir sıra alimlərin adı ilə bağlıdır. A.Axundov, F.Veysəlov, F.Zeynalov dilin fonoloji, K.Abdullayev, S.Abdullayev, D.Yunusov dilin sintaktik səviyyəsində tədqiqatlar aparıblar. N.Vəliyeva bu məsələyə leksik səviyyədə baxmışdır.

L.V.Şerba, sonra E.Koseriu və F.Veysəlli tərəfindən inkişaf etdirilən dilin üçlü (trixotomik) üzvlənməsinə əsaslanan D.Yunusov öz tədqiqatını dil-nitq qarşılaşması deyil, dil-norma-danışıq aktı kimi üçlü model əsasında qurmuşdur. Onun tədqiqatı sintaktik səviyyədə variativliyə həsr olunmuşdur. Üçüzvlü model dil və danışıq aktı arasında "norma" səviyyəsinin olmasını nəzərdə tutur, bu normanın özəyi də dil vahidlərinin variantlarıdır. Dilin üçlü üzvlənməsinə görə dil vahidləri ifadə planında sintaqmatik oxda dildaxili və dilxarici amillərin təsirinə məruz qalır və variativləşir. Azərbaycan dilçiliyi üçün, xüsusilə sintaktik səviyyədə variativlik mövzusu tamamilə yenidir və demək olar ki, az işlənmişdir. D.Yunusov müxtəlifsistemli dillərdə mürəkkəb sintaktik vahidlərin variativliyi məsələsini eksperimental-fonetik təhlil metodu ilə araşdırmışdır. Müəllifin əldə etdiyi nəticələr kifayət qədər cədvəllərdə, qrafik və şəkillərdə nümayiş etdirir və problemin sonrakı inkişafına əsaslı zəmin yaradır [7].

Son dövrlərdə müxtəlifsistemli dillərdə variativlik problemini araşdırarkən mürəkkəb cümlələr, sintaktik vahidlər, bağlayıcılar və onların növləri kimi məsələ- lər xüsusilə alimlərin diqqət mərkəzində olmuşdur. Müxtəlifsistemli dillərdə tabeli mürəkkəb cümlələrin intonasiyasını tədqiq edən dilçilər maraqlı nəticələr əldə etmişlər. Alimlərin əksəriyyətinin qənaətinə görə, sintaktik vahidin intonasiyası, eyni zamanda onun sintaqmlara bölgü xarakteri, hər bir sintaktik vahidin mənasından, hansı fikri ifadə etməsindən və mürəkkəb sintaktik vahidin məqsədindən asılıdır. Mürəkkəb sintaktik vahidin variativliyi və eləcə də onu təşkil edən komponentlərnin bir-biri ilə əlaqəsi onların qrammatik əlaqəsindən daha sıxdır. Üzvlənmə cümlənin konkret məna tərəfindən və onun məqsədindən asılıdır.

Qeyd olunduğu kimi, mürəkkəb sintaktik vahidlərin variativliyinin eksperimental-fonetik metodla geniş şəkildə öyrənilməsi Azərbaycan dilçiliyində yeni hadisədir. Mürəkkəb sintaktik vahidlərdə semantik mənalı fellərin (nitq, hissi qavrayış, əqli fəaliyyət, xahiş və təklif, konkret hərəkət, modal mənalı) birinin digəri ilə əvəzlənməsi məna və intonativ variativliyə və variantlara səbəb olur. Fellərin əvəzlənməsindən alınan məna variantları belə tədqiqatların həm də paradiqmatik sintaksisə meyilli olduğunu təsdiq edir.

Müasir dövrdə isə cümlə sintaksisin və semantikasının intonasiya variativliyi planında öyrənilməsi bu problemin aktuallığını təsdiqləyir.

Cümlə hər hansı bir məqamda, situasiyada müəyyən məqsədlə ifadə olunan və adekvat intonasiya formasını qəbul edir. Eyni cümlə ayrı-ayrı kontekstlərdə heç vaxt eyni intonasiya konturu ilə ifadə olunmur. O, bu və ya digər dərəcədə müxtəlif variativliyə uğrayır.

Linqvistikada variativlik problemi aşağıda qeyd olunan müxtəlif hallarda ortaya atılır: a) dilin mexanizminin, strukturunun öyrənilməsi zamanı, buna da "variantlı-invariantlı" demək olar; b) dilin funksionallığını və dildən nitqə keçən prosesinin öyrənilməsi zamanı; c) dil dəyişiklikliyi və inkişafı prosesində dil-daxili faktorlarının öyrənilməsi zamanı (variarivlik və variantların yeni dil vahidlərinə keçməsi); d) tələb olunsa müxtəlif faktorların təsirindən əmələ gələn eyni vahidlərin fərqli formalarını izah etmək məqsədilə; e) normanın variarivliyinin sosiolinqvistik öyrənilməsi zamanı, həmçinin üslubi, ekspressiv və normayaradan məqsədilə dil vahidlərinin müxtəlif formalarının istifadəsi zamanı [2, s.33].

Variativlik hadisəsi bir sıra rakurslardan öyrənilir: a) nitq mədəniyyəti nəzər nöqtəsindən, burada nitqin normativliyi-qeyri-normativliyi təhlil edilir; b) dil tarixi nəzər nöqtəsindən - dil vahidlərinin evolyusiya -inkişaf prosesi tədqiq edilir; c) üslubiyyat nəzər nöqtəsindən - müxtəlif kommunikativ sferalarda ifadə vasitələrinin parallel realizasiyası; d) sosiolinqvistika nəzər nöqtəsindən - variantların stratifikasiyalı və ərazi realizasiyası, başqa sözlə desək, variantların diastratlı və diatoplu realizasiyası.

Variativlik problemi dilin bütün yaruslarına aiddir. Məsələn, M.B.Şürek ingilis dilində feli frazeoloji vahidlərdə variativlik hadisəsini nəzərdən keçirmişdir. O göstərir ki, müxtəlif dillərdə variativlik probleminin tədqiq edilməsi, müasir dilçilik elminin son uğurları əsasında araşdırılması ayrı-ayrı dil sistemlərində müxtəlif dil vahidlərinin variant və invariantlarının öyrənilməsi mühüm elmi əhəmiyyət kəsb edir. Dillərdə yaranan variativliyə həm daxili, həm də xarici faktorların təsiri vardır. Xarici təsirlərə nitqin sosioloji aspekti daxildir. Kodifikasiya normalarının çatışmamazlığı, bir sıra tələb olunan variantların normativ göstəricilərinin lüğətlərdə qeyd olunmaması, müəyyən qaydaların dərsliklərdə az işlənmiş olması dil vahidlərinin variativliyinin inkişafına təsir edən xarici amillərdəndir [8].

Ç.Qurbanovun frazeologiyada variativlik problemini öyrənmişdir. Onun fikrinə görə, "frazeoloji variantlar dedikdə eyni mənbədən parçalanma - şaxələnmə nəticəsində əmələ gələn, eyni frazeoloji vahidin forma və strukturunun dəyişilməsi, əksər hallarda üslubi və emosional-ekspressiv çalarlarla mənasının kəmiyyət və keyfiyyətinə və işlənmə tezliyinə görə bir-birindən fərqlənən, ümumi məzmun assosiyasiyasına, eyni valentliyə və yalnız konkret şəraitdə distribusiyaya malik olan qismən fərqli leksik tərkibli frazeologizmləri başa düşürük" [9, s.11]. Ç.Qurbanov belə qənaətə gəlir ki, frazeoloji variantlar struktur meyar əsasında müəyyənləşdirilməlidir, semantik yanaşma faktiki dil materialında özünü doğrultmur.

Qeyd olunduğu kimi, "variativlik" termininin geniş və dar mənalarda işlənməsi müşahidə edilir. Geniş mənada işlənəndə istənilən dəyişiklik, modifikasiya nəzərdə tutulur. Belə halda variantın invarianta qarşı qoyulmasına ehtiyac duyulmur. Dar mənada isə variativlik dil vahidlərinin sinxronda mövcudluğu və işlənməsi vasitəsinin xasiyyətnaməsi kimi başa düşülür. Burada "variant-invariant" dixotomiyası təhlil edilir. İnvariant abstrakt götürülür. F.F.Qurbanova vüasir dilçilikdə variativlik hadisəsini ümumi aspektdə nəzərdən keçirmişdir [10].

Dil variativliyi problemini tədqiq etmək üçün dilin və nitqin özünəməxsus xüsusiyyətlərini nəzərə almaq lazımdır. Burada sosial status, mövqe, cins, etnik mənsubiyyət, yaşadığı yer və bir çox başqa faktorlar rol oynayır. Şəxsin nitqi onun cəmiyyətdə tutduğu sosial mövqenin və savadının markeri, yəni göstəricisi olur.

Variativlik, dil sisteminin hadisəsi kimi, dilin bütün səviyyələrinə xasdır. Dil vasitələrinin variarivliyi fonetik, leksik və qrammatik səviyyələrdə tədqiq edilir.

Dilin müxtəlif cümlə tiplərinin və növlərinin struktur-sintaktik və intonasiya tədqiqi məsələsi XX əsrin üçüncü onilliyi dövrlərindən başlayaraq genişlənmişdir. F.Allahverdiyeva ingilis dilində sadə nəqli cümlələrin struktur-sintaktik və fonosemantik aspektlərdə intonativ variativliyininin öyrənilməsi ilə bağlı araşdırma aparmışdır. Müəllif ingilis dilində sadə nəqli cümlənin ənənəvi qaydada intonasiya strukturunun öyrənilməsi məsələsindən fərqli olaraq, bu kommunikativ tipin törəmə növlərinin kontekstual-situativ variativliyə uğramasının səbəblərini aydınlaşdırmağa çalışmışdır. Onun fikrinə görə, çox hallarda cümlənin sintaktik məzmunu intonasiya elementlərinin variativliyi sayəsində öz dəqiq ifadəsini tapmış olur. Sırf fonetik və intonativ variativliyin cümlə semantikasının fərqləndirilməsinə təsiri məsələsi əslində cümlə fonologiyasının öyrənilməsinə gətirib çıxarır. Real ünsiyyət prosesində heç bir cümlə növü təcrid olunmuş şəraitdə işlənmir. Cümlə hər hansı bir məqamda, situasiyada müəyyən məqsədlə ifadə olunur və adekvat intonasiya formasını qəbul edir. Başqa sözlə, eyni cümlə strukturunu ayrı-ayrı

kontekstlərdə heç zaman eyni intonasiya konturu ilə ifadə olunmur, o, müxtəlif variativliyə uğrayır. İntonasiyanın kommunikativ funksiyası sayəsində hər hansı bir cümlənin verilmiş şəraitdə nəqli, sual, əmr, xahiş və ya nida cümləsi olmasının müəyyən etmək mümkündür. Beləliklə, intonasiya kommunikativ növlərini müəyyən edir. Həmin növlər aşağıdakıları əhatə edir: 1) əmr cümləsi (əmr, xahiş, xəbərdaqlıq və s.), 2) nəqli cümlə (bütün növ nəqli cümlələr), 3) sual cümləsi (suallar: ümumi, xüsusi, təkrar edilən suallar və s.), 4) nida cümləsi -nida və bütün nida növləri [11].

Sadə nəqli cümlələrin eksperimental müqayisəli tədqiqi xüsusi önəm daşıyır. N.Əliyeva ingilis və Azərbaycan dillərində sadə nəqli cümlələr əsasında eksperimental tədqiqat aparmışdır. O göstərir ki, şəxssiz cümlələrin eksperimental təhlilində müqayisə olunan ingilis və Azərbaycan dillərində şəxssiz cümlələr əksər hallarda enən tonla müşayiət olunur. Bunu şəxssiz cümlələrdə nəqli intonasiyanın səciyyəvi olması ilə izah etmək mümkündür [12].

Müxtəlif sistemli dillərdə variativliyə həm daxili, həm də xarici amillərin təsirinin müəyyən olunması bir sıra terminlərin (dialekt, şivə, standart dil və s.) işləkliyini aşkara çıxarır. Dilin coğrafi variantı kimi anlaşılan dialekt və şivələr həm regional fərqləri, həm də sosial təbəqələr arasında nitq müxtəlifliyini özündə əks etdirir. Problemə bu aspektdən yanaşdıqda ingilis dilinin Amerikan, Britaniya, Avstraliya, Şotlandiya variantlarının müəyyən orfoepik, leksik, qrammatik və sair fərqlərə malik olduğu görünür. Əlbəttə, bu variantlar bir-birindən kəskin şəkildə fərqlənən, bir-birindən ayrılan müxtəlif dillər deyil. Variantlar arasında fərqlər dilin müxtəlif səviyyələrində özünü göstərir və ədəbi dilin normayiv sabitliyinə təsir göstərmir. Variativliyin digər növlərindən fərqli olaraq qrammatik variativlik, qrammatik cəhətdən sistemli olması, müntəzəm olaraq qarşılıqlı dəyişkənliyi (bu cəhət variativliyin bütün tipləri üçün xarakterikdir), qarşılıqlı dəyişkən kontekstlər zəminində qrammatik mənanın funksional ekvivalentliyiylə və müqayisə edilən qrammatik strukturların həmcins olmasıyla xarakterizə edilir. İngilis dilində feli frazeoloji vahidlərdə leksik variativlik müşahidə olunur. Bu və ya digər sözün müxtəlifliyini göstərən leksik variativlik, bənzər leksik-semantik funksiya və sözün qeyri-formal hissəsində səs tərkibinin cüzi fərqliliyi ilə xarakterizə olunur. Leksik variantların tipləri leksikanın sistemli olmasıyla şərtlənir. Variant tipləri leksikaya paradiqmatik və sintaqmatik bir xarakterlə yanaşır. Qrammatik variantlardan fərqli olaraq leksik variantların sırası birölçülüdür.

Müasir dilçilikdə cümlə dilin mürəkkəb şəkildə təşkil olunan, çoxsəviyyəli quruluşa malik əhəmiyyətli vahidlərindən biridir. Ona görə də cümləyə verilmiş təriflər çoxdur. Cümləyə aşağıdakı xüsusiyyətlər xasdır: dil statusu və ya linqvistik ikiplanlılıq (dilə və nitqə aidlik); kommunikativ funksiya; cümlənin qurulmasının struktur sxemi; predikativlik və bu

sintaktik kateqoriyanı ifadə edən komponentlərin (predikatların) olması; nisbi semantik bitkinlik; intonasiya bitkinliyi. Qeyd olunan cəhətlər cümlədə bu və ya digər cümlə üzvünün iştirakından və cümlədə tutduğu yerdən asılı olaraq variativlik məsələlərinin öyrənilməsinin aktuallığını şərtləndirir. Hesab edirik ki, ingilis dilində zaman zərflikli sadə cümlələrdə variativliyi araşdırmaq zaman zərfliyinin söz sırasındakı yerinin dəyişməsi baxımından xüsusi önəm daşıyır.

Ədəbiyyat

1.Koseriu E. Ümumi dilçiliyə giriş. Bakı, Mütərcim, 2006, 252 s.

2. Солнцев В.М. Вариативность как общее свойство языковой системы, И., Вопросы языкознания. Москва, 1984, № 2, с. 31-42.

3.Veysəlli F. Dilçiliyin əsaslar. Bakı, Mütərcim, 2013, 420 s.

4. Trubeskoy N.S. Fonologiyanın əsasları. Bakı, "Elm və Təhsil", 2011, 388s.

5. Лингвистический энциклопедический словарь. Москва, Изд-во Советская Энциклопедия, 1990, 687 с.

6. Гак В.Г. Об общих факторах вариативности в языке//Проблема вариативности в романских и германских языках. Москва, Изд-во РУДН, 2001, с. 4-5.

7. Yunusov D. Müxtəlifsistemli dillərdə mürəkkəb sintaktik vahidlərin variativliyi, Bakı, 2005.

8. Şürek M.B. İngilis dilində feli frazeoloji vahidlərdə variativlik hadisəsi//Dil və ədəbiyyat// http://www.yazikiliteratura.com/416898423

9. Курбанов Ч.Г. Диапазон лексических вариантов во фразеологии, АКД, Тбилиси, 1980, 24 с.

10. Qurbanova F.F. Müasir dilçilikdə variativlik hadisəsi//Dil və ədəbiyyat//http://www.yazikiliteratura.com/416898423

11. Allahverdiyeva F. Müasir ingilis dilində sadə nəqli cümlələrin intonativ variativliyi//Terminologiya məsələləri. Bakı, Elm, 2015, №2, s. 30 -37

12. Əliyeva N. Müasir ingilis və Azərbaycan dilində sadə nəqli cümlələrin eksperimental təlilinə dair bəzi qeydlər// Filologiya məsələləri – №01, 2016, s. 109-116

Изаура Ширинова

К проблемам исследования вариативности на различных уровнях языка

Резюме

Языковая система изучает количественные и качественные вариативности на уровне <<нормы>> на иерархическом уровне языка. В связи с этим <<дихотомический>> подход уступает свое место << трихотомическому>> подходу. Принимая во внимание этот факт и находясь между этими опозицыям <<трихотомический>> подход старается доказывать , что оппозиция << язык <-> речь >> не толкуется правильно . Мы придерживаемся мнения о том, что схема должна быть в следующем виде : << Язык норма<->речевой акт>>

В статье рассматриваются некоторые вопросы исследования вариативности, усиливающей на сегодняшний день свою актуальность в вопросах, связанных с антропоцентрическим подходом. Здесь во главе угла ставится процесс, наблюдаемый на всех уровнях языка. Здесь также рассматриваются подходы к исследованию вариативности в азербайджанском языкознании. В статье также указывается значимость изучения вариативности по различным видам в простых предложениях, а также в простых предложениях с обстоятельством места в английском языке. Эта значимость обосновывается возможностью употребления обстоятельства места в английском языке в различных позициях.

Izaura Shirinova

About the investigation of the problem of variation in different levels of language

Summary

Language system tends to learn qualifying and quantifying varieties on “norm” level in the hierarchy of levels. On this account the “ dichotomic” approach leaves its place for the “trichotomic” approach. “Norm” level which is between the oppositions of “langue” and “parole” is not taken into consideration. Consequently , the important point of “performance” of the language is quite ignored. Taking it into account and placing between these

two oppositions the trichotomic approach tries to prove that the oppositions “langue<->norm<->parole” About the investigation of the problem of variation in different levels of language

The article considers some issues of variation which have been raised in terms of relevance to anthropocentric approach to language. It is noted at this process takes place in different levels of language. The attitude towards the study of variation in Azerbaijani is also expressed in this investigation. The article highlights the importance of learning various types of variation in simple sentences including simple sentences with the adverbial modifier. This importance is substantiated on the ability of the adverbial being used in different positions in the sentence in the English language.

Rəyçi: Məsməxanım Qazıyeva
Filologiya elmləri doktoru, professor

NÜŞABƏ ƏBDÜLRƏHİMOVA
Azərbaycan Dillər Universiteti
nushaba.azizova@mail.ru

İNGİLİS DİLİNDƏ ÜNSİYYƏT ZAMANI ETİK SAYILAN MƏQAMLAR VƏ ONLARIN AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ TƏSVİRİ

Açar sözlər: müraciət formaları, doqmatizm problemi, qeyri-verbal ünsiyyət vasitələri, formal və qeyri-formal ünsiyyət
Key words: forms of address, dogmatism problem, non-verbal communication means, formal and non-formal communication
Ключевые слова: формы обращения, проблема догматизма, невербальные средства общения, формальное и неформальное общение

Xarici dildə mükəmməl ünsiyyət yalnız dilin leksik səviyyədə mənimsənilməsini deyil, həçinin dil daşıyıcılarının mədəni, etik davranış xüsusiyyətlərini öyrənməyi tələb edir. İctimai həyatda vacib olan rəftar və ünsiyyət mədəniyyəti olduqca vacib məqamlardan sayılır.

Amerika digər ölkələr üçün formallıqdan kənar bir dövlət təsiri bağışlayır və bu yanaşma bəzən orada yaşayan digər xalqların ünsiyyətində yanlışlıqlara səbəb olur. Əslində sərbəstlik və demokratiya tərəfdarı olan amerikalılar müəyyən məqamlarda digər millətlərdən daha formal və davranışlarında olduqca ehtiyyatlı olurlar. Bəzi millətlərdə işgüzar söhbətlər zamanı qeyri-formal məqamlara rast gəlmək mümkündürsə, amerikalıların təfəkküründə bu yanlış sayılır.Ünsiyyət zamanı ilk addım insanların bir-birinə müraciət mədəniyyətidir. Bildiyimiz kimi, amerikalılar həmsöhbətləri ilə birbaşa şəxsin adını çəkməklə danışmağa üstünliük verirlər. Bu yanaşmanı "demokratik ideya"lardan irəli gələrək, işci, qulluqçu və rəhbər arasında, bir–birini tanımayan müştəri və satıcının telefon söhbətlərində və s. müşahidə etmək olur. Qeyd etmək lazımdır ki, amerikalı bir kəsə soyadı ilə müraciət etdikdə, bu da eyni qaydada olmalıdır (məsələn, - *Mr.Azizov! - Yes, Mr.Smith!*). *"Mr.", "Mrs", "Miss"* müraciət sözləri yalnız soyadların qarşısında düzgün məzmun daşıyır, əks halda, adların qarşısında işlənərsə, bu, ucqar amerika vilayətlərinin geridəqalmış etikası hesab olunur. Tanış olmayan şəxsə, məsələn, sürücüyə müraciətdə *"Mr"* deyil, *"Sir"* deyə müraciət etmək məsləhət görülür. Supermarketdə yaxud mağazada satıcı, təyyarədə tanış olmayan stüardessa qadına *"Miss"* deyə müraciət etməsi münasib sayılır. Yaşlı qadına xitab edərkən vurğunu birinci hecaya salaraq *"Madam"* müraciəti ilə başlamaq düzgün sayılan qaydalardan biridir.

Nəzərə çarpan məsələlərdən biri də amerikalıların müxtəlif situasiyalarda düzgün və yanlış müraciət haqqında reaksiyaları və özlərini ifadəetmə prinsipləridir. Bu baxımdan, Azərbaycan və və ingilis dillərində müəyyən fərqli baxışlar ortaya çıxır. Ana dilimizdə nəyinsə yanlış olduğunu düşünərkən, *"bu düz deyil*", "əslində belə olmalıdır" və s. kimi ifadələr adi bir fikir ayrılığı kimi qəbul olunursa (çox dərinə getdikdə mübahisəyə belə çevrilərək), amerikalılar üçün bu ifadələr yolverilməz sayılır. *"Mən düz deyirəm, sən səhvsən" (I am right, you are wrong)* fikri qərb təfəkkürü ilə vaxtilə sovet idealogiyasına söykənmiş milli təfəkkür arasında "doqmatizm problem"inə səbəb olur[1]. Keçmiş sovet təfəkkürünə söykənən rus ünsiyyətində də eyni vəziyyət müşahidə olunur. Bu məsələ ilə bağlı Eduard Qlen çox dəqiq müqayisə aparmış və söyləmişdir ki, marksist baxışlarında kiminsə birbaşa səhv və ya düzgün olduğunu bildirmək heç də qarşı tərəfi kiçiltmək məqsədilə deyil, fikrin düzgün çatdırılmamasını bildirmək üçün ifadə olunur. Bununla əlaqədar alim əlavə etmişdir ki, qərb təfəkküründə hər problemə iki tərəfdən yanaşmaq mümkündür. Buna görə də müəyyən debatlarda, müzakirələrdə *"Bəzi insanlar belə düşünür, mən isə başqa cür yanaşardım" (Some people think that..., but I would agree that...)* ifadəsi qərb təfəkküründən gələn və müasir ünsiyyəti səciyyələndirən cəhətlərdəndir. Təsadüfi deyildir ki, ABŞ prezidenti Donald Trampın nitqində bir vaxtlar tez-tez müşahidə olunan *"Wrong"* kəlməsi bir çox siyasi və mədəni xadimlər tərəfindən tənqid obyektinə çevirilmişdir. Multikulturalizm və qloballaşma kimi faktorlardan təsirlənən milli dilimiz də ingilis dilində olduğu kimi, müasir ünsiyyətdə daha tolerant təsir bağışlayır. *"We agree to disagree" ("Biz fikir ayrılığı ilə razıyıq")* söyləminə əsaslanan xarici vətəndaşlar ingilis dilində maksimum güzəşt mənalı ifadələr işlədirlər: *It is possible, but...; You are quite right, but...* və s. kimi cümlələrlə həm rəqibin, həm də öz fikirlərinin mümkünlüyünə ingilis dilində yer verilir. Müasir ingilis mədəniyyətində *"freedom of expressions" (fikrin sərbəst ifadəsi)* daim izlənilən prinsipdir. Nə düşündüyünü bildirmək, lakin qarşı tərəfin fikrinə də hörmətlə yanaşmaq ingilis ünsiyyətinin əsas xüsusiyyətlərindəndir.[2] Rəsmi tədbirlərdə qəbul olunan *"ladies and gentlemen"* müraciət formasının hər situasiyada işlənməsi düzgün sayılmır. Məsələn, ünsiyyətdə xanımlara *"Lady"* kimi müraciət olunması əslində mənfi çalar verə bilər, yəni narazılığa səbəb ola bilər (məsələn, kinoteatrda çox danışan bir xanıma *"Lady, it is impossible to hear anything because of your voice"* deyilərsə), həmçinin *"honey", "sweety"* kimi sözlər, hətta kompliment mənasında olsa da, qadınlar tərəfindən yaxşı münasibət kimi qarşılanmır və təzyiq kimi qiymətləndirilir. *"Could, would, should"* modal felləri ingilis ifadələrində müstəsna rol oynayır. Bu modal fellər nəzakətli davranışın təmin olunmasına xidmət edir. Məsələn: *"I would suggest that we take his view into account" ("Təklif edərdim ki, onun fikrini nəzərə alaq")*

amerikalı üçün olduqca münasib səslənirsə, *"We must take his view into account" ("Onun fikrini nəzərə almalıyıq")* cümləsi sərt təsir bağışlayır. *"Etiraz etmirəm"* ifadəsini avtomatik olaraq, birbaşa *"Do not object"*, yaxud *"I have no objection; No objection"* kimi ifadələri tərcümə etməyə ehtiyac olmur. Bu fikri daha mülayim şəkildə *"I can accept that/I'll go along with/I can agree to that"* kimi söyləmləri işlədərək, narazı olmadığınızı bildirə bilərsiniz.[1] Haqqında danışdığımız bu və ya digər məsələlər ingilis dilində, daha dəqiq desək, amerikan mədəniyyətində əks olunan müsbət düşüncə və siyasi cəhətdən düzgün, dəqiqlik (political correctness) anlayışları ilə bağlıdır. Fikri öz müsahibinə daha mülayim və nəzakətli şəkildə çatdırmaq cəhdi qərb düşüncə tərzinin özəyi sayılır. İngilis dilində ünsiyyət yalnız müəyyən sözlərin konkret şəraitdə düzgün ifadə olunmasını deyil, həm də psixoloji mental baxışların ətraflı əks olunmasını tələb edir. Bununla bağlı müşahidə etdiyimiz bir məqamı diqqətinizə çatdırmaq istərdik. Belə ki, 2016-cı ildə Azərbaycan Dillər Universitetinin təşəbbüsü ilə Bakı Amerika Mərkəzində təşkil olunan "İngilis dilinin öyrədilməsi" adlı treninqdə Amerikalı təlimçi çox spesifik bir cəhəti bizlərə izah etmişdi. Treninq zamanı yaranan çətinliklə bağlı ona öz köməyimizi təklif edərkən, mədəniyyətimizdən fərqli bir məqama rast gəlmiş olduq: *"Can we help you?" ("Sizə kömək edə bilərikmi?")* sual cümləsinə *"No, thank you" ("Xeyir, sağ olun")* deyərək o, bildirdi ki, bir amerikalıya kömək təklif etmək onun bacarıq və qabiliyyətlərini alçaltmaq deməkdir. Bu təklif çox ehtiyyatla, yalnız ən çıxılmaz vəziyyətlərdə edilə bilər. Gördüyümüz kimi, Azərbaycan mədəniyyətində çox nəzakətli və müsbət məna daşıyan ifadə ingilis dilində mədəni cəhətdən anlaşılmazlığa səbəb ola bilər. Bu məqamla bağlı L.Visson *"İngilis ünsiyyətində rus problemləri" əsəri*ndə rus və amerikan baxışlarını müqayisə etmişdir. *"Poor" (Yazıq)* sözü amerikalılar üçün mənfi və alçaldıcı mənanı bildirirsə, rus mədəniyyətində bir kəsə qarşı mərhəmət, rəğbət mənasını daşıyır. Müəllif qeyd edir ki, amerikalılar *"Poor thing"* deyərkən, sadəcə *"thing"* sözünün təsiri ilə mənfi mənanı müsbətə dəyişmiş olurlar. Azərbaycan təfəkküründə isə bir kəsə *"yazıq"* deyilməsi konteksdən asılı olaraq, həm mənfi, həm də müsbət münasibəti bildirə bilər. Azərbaycan dilində *"Ay yazıq…"* deyərkən, məna amerikalılarda olduğu kimi alçaldıcı qəbul edilir. Lakin *"Yazıq qoca əziyyət çəkir"* cümləsində, bu mərhəmət hissi, ürəkyanğısı anlamına çevrilir. Qeyd etdiyimiz nümunələr üç mədəniyyətin təfəkküründə (ingilis, rus və azərbaycan dillərində) mərhəmət hissi ilə bağlı ifadələrin işlənmə məzmununu əks etdirir. Müxtəlif problemlərə qarşı azərbaycanlı, rus və amerikalıların yanaşması bir-birindən fərqlənir. Rus və azərbaycanlıların *"Təzyiqim 89-a qalxıb" ("My blood preasure has risen to 89")* fikri Amerika Birləşmiş Ştatlarda nə təəccübə, nə də ürəkyanğısına səbəb olur. Başqa bir misal *"Ürəyimin vəziyyəti yaxşı*

deyil" (I'm having heart/cardiac problems) ifadəsi ilə bağlıdır. Gündəlik həyatda tez-tez rast gəldiyimiz bu fikir amerikalılar tərəfindən nadir hallarda ifadə olunur. Çox ciddi ürək problemi olan amerikalı ya *"I'm recovering from a heart attack"* deyər, ya da ümumiyyətlə, bu barədə heç nə bildirməz. Ola bilər ki, əcnəbi *"I'm having heart trouble"* cümləsinə çox ciddi yanaşar və təcili yardım çağırmağı təklif edər. Başqa bir məqamı qeyd edək: ilk dəfə gördüyünüz insandan harada işlədiyini soruşduqda, bir qədər ehtiyatla yanaşmaq lazımdır. *"Where are you working?" (Harada işləyirsiniz?)* söyləminin əvəzinə "*What do you do?" (Nəçi işləyirsiniz?)* demək daha yolveriləndir. Həmsöhbətiniz elə bir yerdə işləyə bilər ki, bu barədə danışması onun xoşuna gəlməz, lakin praqmatik cəhətdən nəzakətlilik prinsipinə riayət edərək, verilən suala cavab verər. Maaşın qədəri haqqında sual vermək isə, ümumiyyətlə, məsləhət görülmür. Hətta ən yaxın dostları ilə hər ağlagəlməz sirri paylaşan əcnəbilər qazancları haqqında məlumatı heç kəslə bölüşdürmürlər. Bizim söhbətlərdə qazanc haqqında sorğu-suala tez-tez rast gəlmək olur. Bəziləri bunu müsbət, bəziləri isə mənfi hal kimi qarşılayırlar. Yaxşı tanımadığınız həmsöhbətlə həyat yoldaşı və uşaqlar haqqında danışmaq da yolverilməzdir. Xüsusilə, həmsöbətiniz qadın haqlarını müdafiə edən feminist xanımdırsa, belə söhbətlər mübahisə ilə nəticənə bilər.[2]Qeyd etdiyimiz məsələlər M.Baxtinin *"разноречие" (heteroglotism - nitqdə müxtəliflik)* nəzəriyyəsini də əsaslandırır. Bu nəzəriyyə müxtəlif etnik, coğrafi, cinsi, yaş, mənsubiyyəti olan insanların dillərinin birlikdə ortaya çıxmasını əks etdirir. Nitqdə müxtəliflik nəzəriyyəsinə əsasən dil həm də mübahisə mövzusudur. Dil daim məzmunlu səciyyə daşımışdır. Hər ifadə danışandan dinləyənə, yaxud yazıçıdan oxucuya keçərək, çoxsaylı mənaların şəbəkəsinə çevirilir.[3] Bununla da dil həmişə kontekstual məzmuna malik olur. Məhz bu səbəbdən irəli gələrək, amerikalıların müraciət və ya etiket mədəniyyətində "*guys" (uşaqlar, yoldaşlar, qardaşlar, dostlar və s.)* sözü rəsmi üslubda işlədilmir. Hər üslubun elementi özünəməxsus dil imkanları ilə seçilir. Ayrı-ayrı mədəniyyətlərə malik olan xalqlar üçün bu, mədəni şok effekti yaratsa belə, tolerantlıq prinsipləri bu vəziyyəti tənzimləyir, yəni əcnəbi şəxs mədəni kontekstə bələd olmayan turisti yanlış tərzdə deyilən ifadəyə və yaxud sözə görə, ittiham etməməli, tolerantlılıq prinsipinə söykənərək, əcnəbi müsahibin mədəni baxışlarına hörmətlə yanaşmalıdır. İngilis dilində şifahi ünsiyyət zamanı qeyri-verbal vasitələri nəzərdən qaçırmaq olmaz. Hər situasiyaya uyğun olaraq, müxtəlif üz ifadəsi və jestlər qarşılıqlı anlaşmanın uğurla həyata keçməsinə şərait yaradır. Bəzi araşdırmalara əsasən məlumatın yalnız 40%-i verbal yolla çatdırılır, qalan hissəsi isə sözsüz ünsiyyətin üzərinə düşür. İlk tanışlıq zamanı insan haqqında ilkin təəssüratın 7%-i sözlər, 38%-i səs, 55%-i isə xarici görünüşü yaradır.[4] İngilis və ya amerikalı ilə ünsiyyətdə

olarkən, müəyyən məsafənin gözlənilməsi, çox yaxın məsafədə dayanmadan ünsiyyət saxlanılması son dərəcə vacibdir. Bu barədə Linn Visson qeyd etmişdir ki, bu şərtə əməl olunmazsa, əcnəbi şəxs özünü olduqca narahat, hətta qarşı tərəfdən aqressiv davranışla üzləşmiş kimi hiss edə bilər. Bu halı rus və ya milli mentalitetimizdə araşdırsaq görərik ki, söhbət zamanı şəxsiyyətlə müəyyən məsafə qorunur, lakin buna riayət olunmasa da, amerikalılar üçün bu, ciddi məsələ hesab olunmur. Jest və üz ifadələrinin də mənasını qeyd etməmək olmaz. Nəzərlərini bir istiqamətdə saxlayaraq danışmaq digər qərb ölkələrində olduğu kimi, amerikalılar üçün diqqət və maraqlanma göstəricisidir. Həmsöhbətin birbaşa düz gözlərinə baxaraq danışmaq isə yaxşı hal sayılmır. Sifətdə təbəssüm ifadəsi, yaxud həmsöhbətə gülümsəmək adəti ingilis dilli xalqların sabit və daimi qeyri-verbal formalardan biridir. Məhz təbəssüm vasitəsilə ən gərgin, dolaşıq, mürəkkəb və mübahisəli söhbətlər mülayim, nəzakətli və mədəni səviyyədə aparıla bilər. Donmuş üz ifadəsi və söhbət zamanı davam edən sükut amerikalı üçün xöş hal sayılmır. Bəzən bizim üçün süni görünən, digər mədəniyyətlərdə isə əcnəbinin adəti halını almış təbəssümü amerikalılar üçün düzgün etika kimi qiymətləndirilir. Uğursuz bir amerikalı hətta problemli vəziyyətində də üzündə məmnunluq ifadəsi yaratmağa çalışır. Ünsiyyət zamanı sükutun olması bizim mədəniyyətdə də söhbətin getməməsinə işarədir, lakin bu hal amerikalılar üçün daha ciddi problemdir. Əldə etdiyimiz mənbələrdən görünür ki, amerikalılar hər məqamda çox dinamikdirlər. Onlar hər işdə sərf olunan zaman və müddəti yüksək qiymətləndirir, bununla da çox zaman uğura nail olurlar. Hər bir işi vaxtında çatdırmağa çalışan amerikalılar öz nitqlərində lakonik, əsas ideyanı tez çatdıran, nəticəyönümlü fikirlərə və misallara üstünlük verirlər. Bu zaman onlar mürəkkəbdən sadəyə doğru getməyə çalışırlar. Hətta elmi məzmunda etdikləri çıxışlarında amerikalılar fikrin tez çatdırılması üçün nəzəri olmayan bir ifadə də söyləyə bilərlər və bu, bir qədər gülməli də səslənə bilər. Əsas məsələ isə müsbət səciyyəli və anlaşıqlı olmaqdır. *"Sərhəd bilmədən istədiyinə vaxtında çatmaq və buna nikbinliklə inanmaq"* fikri amerika mədəniyyəti və ünsiyyətində hər zaman müşahidə olunmuşdur. Artıq ingilis dilli xalqlar hətta ən qeyri-formal ünsiyyətdə də formal məqamlara yol verirlər. İngilis dilli xalqlar dedikdə, təbii ki, yalnız amerikalılar nəzərdə tutulmur, dilin kökü ingilis xalqına məxsusdur, lakin onun müasir istifadəsi daha çox amerikan variantı ilə bağlıdır. Hər iki variantdan danışarkən, qarşı tərəfin şəxsiyyətinə son dərəcə hörmətlə yanaşılır. İlk baxışdan ingilislər amerikalılara nisbətən daha nəzakətli görünsələr də, əslində, hər ikisi nəzakət və mədəniyyət aspektlərini praqmatik cəhətdən izləmiş olurlar, sadəcə formal münasibət və davranış ingilislərdə daha qabarıq şəkildə nəzərə çarpır. Amerikalılar ünsiyyətdə tələsgən, hər hansı bir məsələ ilə bağlı müsbət təsir bağışlayırlarsa, ingilislər

daha sakit, rahat görünüşləri ilə nəzərə çarpırlar. İngilislər satirik, amerikalılar isə birbaşa və özlərinə yönələn yumorları ilə seçilirlər. Nikbin niyyətli amerikalı danışarkən öz qüsurlarını kompleks olmadan yumora çevirə bilirsə (məsələn, rəqs etməyi bacarmadıqda *"I am not a very good dancer"* deyir), ənənələrinə bağlı ingilis daha təmkinli rəftara üstünlük verir.

Amerikalılar ilk dəfə gördükləri insanlarla tez ünsiyyət qurmağa meyillidirlər, yəni ingilislərə nisbətən daha ünsiyyətcildirlər. İngilislər bələd olmadıqları şəxslərlə ünsiyyətdən çəkinir, əsasən öz tanıdıqları insanlarla söhbət edirlər. Bu baxımdan, azərbaycan ünsiyyəti özünəməxsus cəhətləri ilə seçilir. Rəsmiliyə gəldikdə isə, qonaqpərvər bir xalq olaraq azərbaycanlılar nə tam rəsmi, nə də tam qeyri-rəsmi ünsiyyətə üstünlük verirlər, yəni danışarkən nə amerikalılar kimi gülümsəmir, nə də ingilislər kimi ozünəqapalı təsir bağışlamırlar. Beləliklə, bir-birindən fərqlənən mədəniyyətlər fərqli ünsiyyətlərə qovuşa bilir. Hətta leksik mənası bütün dillərdə eyni olan bir söz işlənmə məqamı, ifadə tərzi və yaranmış kontekstə görə fərqlənə bilər. İngilis və ya amerikalı üçün düzgün sayılan bir ünsiyyət, azərbaycan mədəniyyətində düzgün sayılmaya da bilər. Həmçinin milli ünsiyyətimizdə bir çox qəbul edilmiş normalar ingilis dilli xalqlar üçün qəbulolunmaz hesab edilə bilər.Nəticə etibarilə müasir və dünyəvi prinsiplər bütün xalqların baxışlarına tolerantlıqla yanaşmaq mədəniyyətini əks etdirir.

Ədəbiyyat

1. Линн Виссон «Русские проблемы в английской речи» Москва, «Р.Валент», 2005. с.84

2. Anna Wierzbicka, English meaning and culture. Oxford, Oxford Univ. Press, 2006, p. 93-94

3. Mikko Lehtonen Translated by Aija-Leena Ahonen and Kris Clarke, "Cultural Analysis of Texts". SAGE Publications London • Thousand Oaks • New DelhSAGE Publications Ltd 6 Bonhill Street London EC2A 4PUi p. 34

4. Sampson.1994-Sampson E., The image factor, L,1994, p. 27

N.Abdulrahimova

The Etiquette Points of English Communication and their Description in Azerbaijani language culture

Summary

The article entitled "The Etiquette Points of English Communication and their Description in Azerbaijani language culture" deals with the

correctly regarded addressing forms and expressions in different situations of the English language. There observed some differentiations between American, Azerbaijani, in some cases, British and Russian etiquette norms in this article. The attitude to the use of some phrases and words have been analyzed in accordance with different mental characters. The problem of dogmatism has also been reviewed in this research/ In addition, a lot of illustrations have been presented. Different sources and authors' views have been analyzed. The formal and non-formal points of British and American communications have been put forward. Besides the verbal communication, non-verbal communication means of the English language have also been researched in this article. The research is based on the cultural and liguistic peculiarities of the compared languages. Some different aspects of American and Azerbaijani culture and language have been compared too. The urgency and significance are involved in the pragmatic aspects of stylistics.

Н.Абдулрагимова

Этикетные нормы в английской речи и их описание в азербайджанской культуре

Резюме

В статье "Этикетные нормы в английской речи и их описание в азербайджанской культуре " рассматриваются правильные формы обращения и фразы английского языка. А также описываются различия в американской и азербайджанской этике, в некоторых моментах русской и английской речевых культур. В исследовании анализируются формальные и неформальные виды общения. В статье также рассматриваются вербальные и невербальные элементы коммуникации связанные с нормами этикета. Указывается проблема догматизма, и приводятся примеры доказывающие это явление. Эти и другие примеры обосновывают значимость научного исследование. Для точного обоснования использованы различные ресурсы некоторых авторов и ученых. Важную роль в статье играет анализ позитивного мышления в американской культуре. Статья основана на описании, сравнении и рассматривании этикетных норм англоязычных наций. Некоторые элементы писменной речи описываются с помощью ситуативных примеров. Актуальность и важность статьи включают в себе прагматические аспекты стилистики.

Rəyçi: Elmar Əbdülrəhimov
filologiya üzrə fəlsəfə doktoru, dosent

SAIDA UMBAY VERDIYEVA
Azerbaijan State University
of Oil and Industry
"Foreign Languages-2"department
e-mail: s-verdiyeva@mail.ru

PBL AND CASE STUDY METHODS IN TEACHING FOREIGN LANGUAGES

Key words: communication, foreign language, teaching, method, case study, solve the problem, making a decision
Ключевые слова: общение, иностранный язык, обучение, метод, ситуативное обучение, решать проблему, принимать решение
Açar sözlər: ünsiyyat, xarici dil, tədris, üsul, situativ tədris, məsələni həll etmək, gərar gəbul etmək

PBL and case study methods are outstanding methods that meet the needs of our global society by enabling English language learners to make positive contributions through a collaborative, multilevel approach to learning that focuses on problem-solving and communication through self-directed learning strategies and teamwork. By focusing on an integration of skills, students become self-motivated and develop the ability to think independently, yet work collaboratively.

There are several differences between case studies and PBL. Case studies are written as well structured scenarios, whereas PBL presents ill-structured problems or problems without a single correct solution because the exact nature of the problem is not clear, nor is enough information provided in order to solve the problem without doing further research (Hmelo-Silver, 2004; Lohman, 2002). This type of problem is also referred to as a project case study (Ainsworth, 2005) where students receive incomplete information and must actively construct knowledge in collaborative groups in order to solve the problem.

Although students in LSBP courses may feel at a disadvantage without having concrete material to work with, the downside of providing full information is that students continue to rely on memorisation to perform well academically (MacKinnon, 1999). When implementing PBL with students (who prefer knowing all the information in advance), instructors must avoid directing students to specific resources or lecturing on content. The instructor acts as facilitator and guides the learning process by questioning and encouraging students to engage in critical thinking

processes, and by keeping all the students involved in the group process (Hmelo-Silver, 2004). It is therefore important that PBL use an inductive approach when first setting out the ill-structured problem, followed by a deductive approach through hypothesis generating. Consciousness-raising tasks may also be used to focus attention on forms necessary for carrying out the various tasks.

In addition, case studies emphasise the goal, or solving the problem, and are oriented toward expert knowledge and a range of acceptable conclusions provided by the instructor. The skills students acquire enable them to apply their new knowledge to similar, well-structured situations.

On the other hand, PBL is a learner-centred approach that emphasises the process of solving the problem, not just attaining the goal. The knowledge acquired allows students to apply the problem-solving skills and cognitive skills they have learned to solve future problems which are ill-structured or unfamiliar (Lohman, 2002).

In case-based teaching, students develop skills in analytical thinking and reflective judgment by reading and discussing complex, real-life scenarios.

Cases can present micro-situations and can be given as homework. It gives the students a chance to get acquainted with the situation closer. In the class this work usually begins either with warming questions or warming discussions. These discussions can assume not only communication in English but also filling in charts, designing graphs, presentations and so on. Making decisions can be individual or in groups depending on the case. Final result presentation implies speaking either the chairman or a few participants of the groups. Thus, teaching English can be active with effective combination of traditional teaching with case method.

Problem-based learning (PBL) is both a teaching method and an approach to the curriculum. It consists of carefully designed problems that challenge students to use problem solving techniques, self-directed learning strategies, team participation skills, and disciplinary knowledge.

Student-centered approaches are key to helping students think beyond biases and stereotypes. These approaches invite students to examine issues through their personal involvement – cognitive, emotional, and behavioural – with the content. As forms of inductive learning, these approaches enable students to discover general principles and ideas from themselves. Such discovery learning often proves less intimidating to students and meets less resistance than knowledge that seems to be imposed by the teacher. Instead, students are themselves creating knowledge from their experiences

Instructors enthusiastically seek to develop intrinsic interest in complex and authentic problems, as well as language learning. PBL encourages self-

direction in language learning and content area skills by developing independent problem-solving strategies. Coupled with an intrinsic motivation toward language acquisition and a natural approach to language learning, PBL and case study encourage successful life-long learning, language acquisition, and content area knowledge believed to create learning experiences compatible with our expanding global society.

The essence of these methods is that the student is suggested to comprehend a life situation which reflects any practical problem; and the students have to use a certain complex of knowledge to solve this problematic life situation. At the same time the problem has no unambiguous decisions. The case method acts also as a specific practical method of the organization of educational process, method of discussions from the point of view of stimulation and motivation of educational process. Thus, these methods method assume exchange of experience opinions in real-life communication that is especially urgent in classes of foreign language.

İn conclusion it would necessary to mention that use of these methods allow to give students the chance to feel how decisions are made and to implement action strategies into real life. The systematic "brain storms" directed to the analysis of cases and decision-making either individually or in a team under the leadership of the skilled teacher-mentor allow the students to cope with barriers in learning language. In classes of foreign (English) language this method can be applied to develop skills of conducting discussions, negotiations, ability to communicate in team, and also to speak and fix the studied lexical and grammatical material.

References

1.Ainsworth, J. (2005). Hôtel Renaissance: using a project case study to teach Business French. Journal of Language for International Business, 16(1), 43-59.

2.Lohman, M. C. (2002). Cultivating problem-solving skills through problem-based approaches to professional development. Human Resource Development Quarterly, 13(3), 243-261.

3.MacKinnon, M. M. (1999). CORE elements of student motivation in problem-based learning. New Directions for Teaching and Learning, 78, 49-58.

4.Hmelo-Silver, C. E. (2004). Problem-based learning: what and how do students learn? Educational Psychology Review, 16(3), 235-266.

5. Duch, B. J. (1996). Problems: A key factor in PBL. About Teaching 50 (Spring), 7-8.

6. Krashen, S. (1988). Second Language Acquisition and Second Language Learning. New York: Prentice Hall.

С.Вердиева

Проблемные и ситуативные методы обучения иностранному языку

Резюме

Данная статья рассматривает два успешно применяемые методы обучения иностранному языку, а именно проблемные и ситуативные методы. По сути эти два метода очень схожи,но существует и отличие.В статье также указываются и различия этих методов.

Ситуативный метод это хорошо написанный сценарий,который может иметь несколько решений, в то время как проблемный метод обучения не имеет четкого решения,так как для решения проблемы необходимо проводить исследование. Но в то же время при обучении иностранному языку, эти два метода имеют и одинаковые сходства.

Кейс-метод дает возможность оптимально сочетать теорию и практику, развивать навыки работы с разнообразными источниками информации.

Эти методы могут быть успешно использованы на занятиях по иностранному языку, поскольку данные методы являются комплексными и содержат все виды речевой деятельности: чтение, говорение, письмо, аудирование. У обучающихся появляется реальная возможность общения на иностранном языке в процессе взаимодействия с другими участниками группы и преподавателем.

S. Verdiyeva

Xarici dilin tədrisində situativ və problem üsulları

Xülasə

Məqalə xarici dilin tədrisində iki qeniş istifadə olunan üsullardan bəhs edir.

Məqalədə xarici dilin tədrisində problem və situativ üsullarının üstünlükləri, fərqləri və oxşarığlığı barədə bəhs edilmişdir. Bu üsullar real vəziyyətlər əsasında aktiv təlim metodudur.

Situativ yanaşma yaxşı qurulmuş senariy əsasında üsuldur və konkret tədris vəziyyətlərinin təşkili prosesi zamanı istifadəsını özündə ehtiva edir.

Problem yanaşma isə əlavə tədqiqat tələb edir.

Bu üsulların tətbiqi bəzi üstünlüklərə malikdir, cünki optimal olaraq nəzəriyyəni və təcrübəni uyğunlaşdırmağa, müxtəlif informasiya mənbələrində olan bacarıqları inkişaf etdirməyə imkan verir.

Bu iki üsul xarici dil üzrə məşgələlərdə müvəffəqiyyətlə istifadə oluna bilər, cünki xarici dilin mənimsəməsinin fəaliyyətinin bütün növlərini özündə əks edir: oxuma, danışma, yazı, dinləmə. Öyrənənlərdə qrupun üzvləri və müəllim arasında xarici dilin tədris prosesində qarşılıqlı ünsiyyətə real imkanı yaradır.

Rəyçi: **Sevil Əliyeva**
Filoloqiya elmləri namizədi

İNARA MÜTƏLLİMOVA
Azərbaycan Dillər Universiteti
babayeva1972@box.az

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ İNTERAKTİV METODUN TƏTBİQİ

Açar sözlər: interaktiv metod, yanaşma, kommunikativ bacarıqlar, motivasiya
Key words: interactive method, approach, communicative skills, motivation
Ключевые слова: интерактивный метод, подход, коммуникативные навыки, мотивация

Son illərdə istər orta məktəblərimizdə, istərsə də ali məktəblərimizdə müasir texnologiyaların tətbiq edilməsi barədə məsələ tez-tez qaldırılır. Bu nəinki yeni informasiya kommunikasiya vasitələri, həm də yeni metodlar, tədris prosesinə yeni yanaşmalardır. Xarici dillərin tədrisində müasir texnologiyaların tətbiqinin əsas məqsədi tələbələrdə kommunikativ bacarıqların yaradılması və inkişaf etdirilməsindən ibarətdir. Müəllimin məqsədi hər bir tələbəyə xarici dilin praktiki cəhətdən mənimsənilməsi üçün şərait yaratmaqdan, hər bir tələbəyə öz aktivliyini və yaradıcılığını göstərməyə imkan verən metodları secməkdən ibarətdir. Müəllimin vəzifəsi tələbələrin kommunikativ bacarıqlarını yaratmaq, xarici dilin tədrisi prosesində idrak fəaliyyətini sistemləşdirməkdir.

Bu vaxta qədər tədrisdə istifadə olunan təlim metodlarının tələbinə görə bəzən tələbələrin fəaliyyətində passiv təkrarlama özünü göstərirdi. Tələbə təlim materialı üzərində müstəqil düşünmək əvəzinə, daha çox yadda saxlamaqla, deyilənləri təkrar etməklə məhdudlaşırdı. Bu isə təlim prosesində tələbədə maraq doğurtmurdu, onları düşünməyə təhrik etmirdi. Ənənəvi dərs sistemində müəllim adətən güclü tələbəyə arxalanırdı, çünki o, materialı tez qavrayırdı, onu tez yadda saxlayırdı, zəif tələbə isə dərsdə vaxt keçirirdi. İnteraktiv təlim metodu ilə təşkil olunan dərslər isə bütün tələbələri fəallaşdırır, tələbələr və müəllim arasında psixoloji mühit yaranır, hər iki tərəfin qarşılıqlı əməkdaşlığı təmin olunur. Bunun nəticəsində zəif tələbələrdə öz gücünə inam yaranır, güclü tələbələr isə öz yoldaşlarına kömək edirlər. Əgər ənənəvi dərs sistemində müəllim və dərslik biliyin mənimsənilməsi üçün ən əsas mənbədirsə, interaktiv təlim metodu ilə təskil olunan dərslər zamanı müəllim tələbələrin müstəqil fəaliyyətinin təşkilatçısı kimi çıxış edir, o, məsləhətçi və köməkçi mövqeyində durur, tələbələr isə bilikləri öz aktiv idrak fəaliyyətləri nəticəsində mənimsəyirlər. Bu zaman tələbələrdə kommunikativ bacarıqlar yaranır, tənqidi təfəkkür inkişaf edir.

Aşağıda verilən cədvəldə ənənəvi və interaktiv təlim metodlarını müqayisə edərək ümumiləşdirmişik:

Ənənəvi təlim	**İnteraktiv təlim**
Hafizəyə (yaddaşa) əsaslanır	Təfəkkürə əsaslanır
Monoloji nitq üstünlük təşkil edir	Dialoji nitq üstünlük təşkil edir
Müəllim və dərslik - əsas bilik mənbəyi kim	Bilik mənbələri müxtəlifdir
Təlim əsasən fərdlər üzərində qurulur	Təlim əsasən cütlər və qruplar əsasında təşkil olunur
Tələbələr passivdir	Tələbələr fəaldır
Tələbələr yeni bilikləri müəllimin məlumatları və izahlarını qavrama və yadda saxlama əsasında mənimsəyirlər	Tələbələr yeni bilikləri tədqiqat zamanı dərk edirlər
Biliklərin məcburi tətbiqi	Biliklərin yaradıcı tətbiqi
Tələbələr öyrənən, müəllim isə öyrədən	Tələbələr tədqiqatçı, müəllim isə fasilitator

Müasir təlim metodu olaraq interaktiv metod ingilis dilinin tədrisi prosesini xeyli intensivləşdirir, tələbə fəallığının artmasına zəmin yaradır və təlimin inkişaf prosesini gücləndirir. Tədris prosesində interaktiv təlim metodundan istifadə zamanı dərsin strukturunda motivasiya, problemin qoyulması, tədqiqatın təşkili, məlumatın mübadiləsi, məlumatın təşkili, nəticənin çıxarılması, tətbiq edilməsi nəzərə alınmalıdır. Belə təlim prosesində dərs müxtəlif formalarda – fərdi, cütlərlə, qruplarla iş şəklində effektli üsullarla aparılır. İnteraktiv təlim metodunun mühüm xüsusiyyəti dərs prosesində öyrədici, ümumiləşdirici, yaradıcı olaraq müxtəlif səpkili problemlərin təşkili, düşünməyə yönəltmə, dərketmə, tələbələrdə aldıqları biliklər əsasında təhlil etmə qabiliyyətlərini inkişaf etdirmək və formalaşdırmaqdır (4, s.14-15).

İnteraktiv təlim metodunun istifadə edilməsi tələbəni dərsin aktiv iştirakçısı etməyə, tələbənin idrak aktivliyini yaratmağa və inkişaf etdirməyə imkan verir. Bu fəaliyyət zamanı tələbələr daha çox psixoloji gərginlikdən azad, canlı ünsiyyət prosesində isə interaktiv fəaliyyətdə olurlar. Bu zaman yeni metod və texnologiyalar vasitəsi ilə tələbələrin yalnız şifahi nitqi deyil, həmçinin onlarda məntiqi, tənqidi, yaradıcı təfəkkür də inkişaf etdirilir. Xarici dillərin müasir metodlar vasitəsi ilə öyrədilməsi istedadlı tələbələrin inkişafı üçün əlverişli şərait yaradır. Belə dərslərdə yalnız istedadlı tələbələr deyil, həm də zəif tələbələr fəal iştirakçıya çevrilir.

Təlim prosesinin inkişaf etdirilməsi üçün tələbələrin maraq və meyilləri nəzərə alınmalıdır. Yalnız bu yolla tələbələrdə xarici dilə qarşı maraq oyatmaq olar. Təlim prosesində tələbələrin marağına səbəb olmaq, onlarda dil öyrənmək həvəsi yaratmaq mühüm şərt kimi meydana çıxır. Bu isə fəal təlim metodlarından dərsdə daha çox istifadə olunmasını tələb edir.

Bundan başqa, tələbələrdə praktik bacarıq və vərdişlər formalaşdırmaq ingilis dilinin tədrisində bir sıra istiqamətlərin həyata keçirilməsi ilə reallaşır. Həmin istiqamətlər aşağıdakılardan ibarətdir:

-eşidib-anlama, danışıq, oxu, yazı kimi nitq fəaliyyəti növlərinin qarşılıqlı əlaqəsinin nəzərə alınması;

-dialoji nitqin nəzərə alınması;

-monoloji nitqin nəzərə alınması.

Bunlarla yanaşı, ingilis dilinin interaktiv metodla öyrədilməsində əsasən, aşağıdakı vəzifələrin həyata keçirilməsinə diqqət yetirilir:

-oxu bacarığının yaranması;

-yazı bacarığının formalaşdırılması;

-eşidib-anlama bacarığının yaranması;

-danışığa qoşulmaq və canlı danışıq yaratmaqdan çəkinməmək;

-fikrini aydın və başa düşüləcək bir səviyyəyə çatdırmaq vərdişinin yaranması.

Bunlar isə ingilis dilinin tədrisi prosesində həm tələbənin müəllim ilə, həm də tələbələrin öz aralarında canlı ünsiyyətin olmasını tələb edir. Təəssüf ki, ənənəvi dərslərdə lazımi səviyyədə bu işin öhdəsindən gəlmək olmurdu. Çünki ənənəvi dərslərdə müəllim məlumatı çatdıran şəxs, tələbə isə məlumatı qəbul edən şəxsdir. Müəllim hazır bilikləri söyləyir, tələbələr isə onları passiv şəkildə mənimsəyirlər. Ənənəvi dərsdə təlim hazır informasiyaların yadda saxlanma prosesinə istiqamətləndirilir. Bu da tələbələrin düşünmə qabiliyyətlərini zəiflədir, onları təşəbbüskarlıq keyfiyyətindən məhrum edir. Bu gün tətbiqinə geniş yer verilmiş müasir təlim metodları yuxarıda göstərilən çatışmazlıqları aradan qaldırır və tələbələrdə dərketmə, məntiqi düşünmə qabiliyyətlərini inkişaf etdirməklə onlarda yeni biliklərə yiyələnmə vərdişlərinin formalaşmasına imkan yaradır,tələbələr yaradıcı axtarışda olmağı, müstəqil nəticə çıxarıb, təhlil etməyi bacarmalıdırlar, müstəqil işləmək qabiliyyəti onlarda vərdişə çevrilməlidir (2, s.4).

Müasir təlim metodu əsasında təşkil olunmuş dərs üç əsas mərhələdən ibarətdir:

1.Düşünməyə yönəltmə mərhələsi. Bu mərhələdə fəaliyyətin bir neçə mühüm

dərketmə növü həyata keçirilir. Əvvəla, tələbələr verilmiş mövzular haqqında biliklərinin bərpası işində fəal iştirak edirlər. Bu, onları öz biliklərini təhlil etməyə və arasdıracaqları mövzu haqqında düşünməyə

məcbur edir. Həmin fəaliyyət vasitəsi ilə tələbə mövzu ilə əlaqədar öz biliyinin səviyyəsini müəyyənləşdirir ki, bunlara yeni biliklər də əlavə edilə bilər. Bu, cox vacibdir, çünki tələbənin müəyyən qədər bildiyi və başa düşdüyü mövzu kontekstində mənimsədiyi bilik daha möhkəm olur, daha yaxşı yadda qalır.

2.Dərketmə mərhələsi. Bu mərhələdə tələbə yeni informasiya və ideyalarla təmasda olur. Dərketmə mərhələsinin əsas vəzifəsi ondan ibarətdir ki, tələbələrin fəallığı və fənnə olan marağı daha da artsın. Bu zaman tələbələr yeni biliyi ərsəyə gətirmək üçün köhnə və yeni mövzu arasında əlaqə yaradırlar, bu da onlar arasındakı məntiqi bağlılığı təmin edir.

3.Düşünmə mərhələsi. Bu mərhələ zamanı tələbələr yeni qazandıqları biliklərini möhkəmləndirirlər. Dərsin düşünmə mərhələsində bir neçə mühüm məqsədlərə nail olmaq planlaşdırılmışdır. Birinci növbədə tələbələr yeni ideyaları və informasiyanı öz sözləri ilə ifadə etməyə çalışmalıdırlar. Bu mərhələnin ikinci məqsədi tələbələr arasında canlı fikir mübadiləsi yaratmaqdan ibarətdir. Nəticədə, tələbələr söz ehtiyatlarını genişləndirmək, həmçinin digər tələbələrin təsəvvürləri ilə tanış olmaq imkanı əldə edirlər. Bununla da tələbələr öz təsəvvürlərini və düşüncələrini qura bilirlər.

İnteraktiv təlim metodunun əsas növlərindən biri qrupla iş və rollu oyunlardır.

İnteraktiv təlim metodunun ən maraqlı fəaliyyət növü – qrupla iş formasının dərs prosesində tətbiqidir. Bu fəaliyyət növü problemin həlli yollarını araşdırmaq, çıxış yolları tapmaq, müzakirə etmək, qərar qəbul etmək, əməkdaşlıq münasibətlərini yaratmaq və nəhayət yeni biliklərin daha asanlıqla əldə edilməsinə zəmin yaradır. Bu metod tələbələrin qrup halında interaktiv fəaliyyətini inkişaf etdirməklə yanaşı, tələbələrdə müstəqil işləməyə həvəs, onlarda özlərinə inam hissini yüksəldir. Bu təlim metodundan istifadə etməklə yaradıcı düşüncə, müstəqil mühakimə yürütmək kimi müsbət nəticələr əldə etmək olar. Bu gün tələbələrə verilən sərbəstlik onların dərsdə fəallığına imkan verir.

Nümunə olaraq ingilis dilinin tədrisi zamanı belə bir qrup işini aparmaq məqsədəuyğundur. Tələbələri iki qrupa ayırıb onlara iki şəkil göstərilir. Onlar şəkillərə bir neçə dəqiqə baxdıqdan sonra bu şəkillər haqqında fikirlər müzakirə olunur, tələbələr müzakirələr apararaq şəkillər haqqında öz münasibətlərini bildirirlər.

A qrupundakı tələbələr onlara verilən şəkli belə təsvir edirlər: There is a small boy in our picture. The boy has got a cup in his hand. There are some balloons. There are three drums.

Sonra isə B qrupundakı tələbələr onlara verilən şəkli belə təsvir edirlər: The boy has got a cup in his hand in our picture. There are not any balloons. There are four drums.

Sonra tələbələrə iki şəkil arasındakı fərqləri tapmaq üçün on dəqiqə vaxt verilir. Hər iki qrup şəkillərə baxaraq fərqləri deyirlər: In picture A the boy has not got a cup in his hand but in picture B the boy has got a cup in his hand.

In picture A there are some balloons but in picture B there are not any balloons.

In picture A there are three drums but in picture B there are four drums.

Beləliklə, tələbələrlə aparılan bu qrup işi yalnız tələbənin ingilis dilində öz fikrini ifadə etməyi deyil, həmçinin şəklə əsasən müstəqil fikir söyləməyi və əldə etdiyi cavabları müqayisə edib nəticə çıxartmağı öyrədir. Qrupla iş zamanı müəllimin əsas məqsədi hər bir tələbənin idrak fəaliyyətini inkişaf etdirməkdən, müəllim-tələbə, tələbə-tələbə münasibətlərini qurmaqdan və tələbələrə bir-birlərini qiymətləndirmək imkanı yaratmaqdan ibarətdir.

Qrupla iş tələbələrdə öyrəndikləri dilə, onun mədəniyyətinə maraq oyadır, onlar məlumatın əldə edilməsində daha sərbəst olurlar. Dərs prosesində interaktiv metodun tətbiqi tələbələri daha çox psixoloji gərginlikdən azad edir, canlı ünsiyyət prosesində onlar daha çox fəal olurlar. Məhz buna görə də tələbələrdə müstəqil işləmək, öz fikirlərini söyləmək və başqalarını dinləmək bacarıqlarını inkişaf etdirmək lazımdır.

Təcrübə göstərir ki, interaktiv təlim zamanı qrupla iş tələbədə dil öyrənməyə maraq oyadır,onların şifahi və yazılı nitqinin inkişafına müsbət təsir göstərir. Xarici dillərin tədrisində interaktiv fəaliyyətin bu növü tələbələrdə kommunikativ vərdişlərin inkişaf etdirilməsində xüsusi yeri vardır. İnteraktiv təlimin qrupla iş növü dərsin keyfiyyətini yüksəldir, tələbələri fəallaşdırır və dərsi daha maraqlı edir. Bilirik ki, dil insanlar arasında bir ünsiyyət vasitəsidir və bu ünsiyyəti qurmaq üçün isə dilə praktik yiyələnmək bacarıq və vərdişlərini öyrətmək lazımdır. Dilə praktik yiyələnmək üçün tələbələrə nitq nümunələrini dərindən mənimsəmək, öz bilik və bacarıqlarını maraqlarına uyğun nümayiş etdirmək vacibdir. Bu baxımdan xarici dillərin öyrənilməsi tələbələrin qarşısında ciddi tələblər qoyur. Bu tələblər zəngin söz ettiyatına, qrammatik qaydalara, düzgün oxu və dil qavrama bacarıqlarına sahib olmaqdır. O zaman tələbə sərbəst danışmaq imkanı əldə edə bilər ki, verilən tələblər tələbələri cüt və ya qrup halında interaktiv təlimlə danışıq prosesinin düzgün təşkilinə, müstəqil işləməyə təhrik edər.

İnteraktiv təlim metodunun növlərindən biri də oyunlardır. Didaktik oyunların dərs prosesində tətbiqi tələbələrin şəxsiyyətinin formalaşmasına, tələbələrin tənqidi təfəkkürlərini və öz fikirlərini ifadə etmək bacarıqlarını inkişaf etdirməyə kömək edir. Oyunların sadəliyi, əlverişli və anlaşıqlı olması tələbələri daha da həvəsləndirir. Tədrisin bütün mərhələlərində oyunlar kommunikativ məqsədin həllinə kömək etmək üçün tətbiq edilir.

Dərslərdə tətbiq olunan didaktik oyunlar tələbələrdə nitq bacarıq və vərdişləri inkişaf etdirir, onların sərbəstliyinə şərait yaradır. Oyunları keçirərkən tələbələrin mənimsəmiş olduqları tədris materiallarını nəzərə almaq önəmlidir. Bu oyunları keçirməklə tələbələrin biliklərinin möhkəmləndirilməsinə, onların fəallığına nail olursan. İngilis dilinin tədrisində tələbələrdə kommunikativ vərdişləri inkişaf etdirmək məqsədilə bir neçə interaktiv oyun nümunələri təqdim olunur:

Word families oyunu.

Choose the word that is different.

1. newspaper/book/magazine/lipstick
2. brother/uncle/niece/grandfather
3. kitchen/bathroom/shelf/hall
4. lawyer/footballer/cooker/teacher
5. sofa/armchair/living room/mirror
6. orange juice/sugar/milk/mineral water

Bu oyun tələbələrdə məntiqi təfəkkürün inkişafına kömək edir.

Back to the board oyunu. Bu oyunda tələbələr iki komandaya bölünür. Birinci komanda öz liderini seçir və o, üzü tələbələrə tərəf oturur. Sonra isə müəllim lövhədə bir söz məsələn, “nephew” sözünü yazır. Oyunçuya bu söz onun komandası tərəfindən izah olunmalıdır və bu yolla söz oyunçu tərəfindən tapılmalıdır. Bu oyun isə tələbələrdə söz ehtiyatının zənginləşdirilməsinə kömək edir.

Dərsin müxtəlif oyunlarla təşkilində məqsəd real situasiyaları yaratmaqdan və qarşılıqlı ünsiyyəti təkmilləşdirməkdən ibarətdir.

İngilis dilinin praktik mənimsənilməsini təmin etmək üçün müəllim tədrisin ilk günlərindən ingilis dilində ünsiyyət qurmağa çalışmalıdır. Dil duyumunu , nitq fəaliyyəti üzrə kommunikativ bacarıqları inkişaf etdirmək üçün müxtəlif vasitələrdən, rollu oyunlardan istifadə edilməsi təhsilin səmərəliyini artırmaqla yanaşı dilin daha tez öyrənilməsinə səbəb olur. Rollu oyunlar çox geniş dil öyrənmək imkanlarına malikdir. Rollu oyunlar tələbələrin əqli inkişafına ciddi təsir göstərir. Rollu oyunlar vasitəsilə tələbələrin psixi prosesləri - duyğusu, qavrayışı, hafizəsi, təxəyyülü, təsəvvürü, təfəkkürü inkişaf edir.

Dərs prosesində rollu oyunlardan istifadə tələbələrin mövqe tutmaq və şifahi nitqini inkişaf etdirməyə yönəlmişdir. Bu zaman tələbələrdə nə isə deməyə, soruşmağa, dəqiqləşdirməyə, sübut etməyə, fikirlərini həmsöhbəti ilə bölüşməyə ehtiyac yaranır. Dərsin maraqlı keçməsi təkcə rolları ifa edəni deyil, qulaq asanları da fəal iştirak etməyə sövq edir. Bu da onların nitq fəaliyyətini daha da gücləndirir.

Rollu oyunlar tədrisin bütün tələblərinə cavab verməlidir. Tədris prosesində rollu oyun öyrənmə üçün motivasiya yaratmalıdır ki, dərs

tələbələr üçün maraqlı olsun və onlar tapşırıqları həvəslə yerinə yetirsinlər. Rollu oyunlar tələbələrin bir-biri ilə ünsiyyət qurmaq cəhdlərini fəallaşdırır və onların arasındakı maneəni aradan qaldırır. Rollu oyunlar vasitəsilə tələbələr hər hansı situasiyanı canlandırırlar. Rollu oyunlar tələbələri müstəqil fikir söyləməyə, düşündüklərini həyata keçirməyə böyük imkan yaradır. Hər hansı bir mətnin, hekayənin, əsərin mənasını daha aydın başa düşülməsində rollu oyunların böyük əhəmiyyəti var. Rollu oyunlar intensiv təlimə əsaslanır. Tələbələr bütün məlumatları yadında saxlayır, emosional olur və hadisələrə real münasibət göstərirlər. Bu oyunlar tələbələrin bacarıq və qabiliyyətlərini üzə çıxarır, onlarda şifahi nitq bacarıqlarının yaranmasına müsbət təsir edir.

Beləliklə, interaktiv təlim metodu tələbələri nəinki yeni biliklərlə zənginləşdirir, həmçinin onlarda düşünmə qabiliyyətini və müstəqil bilik əldə etmək və mənimsəmək bacarıqlarını inkişaf etdirir. İnteraktiv təlim metodu ilə təşkil olunan dərslər hər bir tələbə üçün ingilis dilinin praktiki cəhətdən öyrədilməsinə şərait yaradır, tələbələrin kommunikativ bacarıqlarını inkişaf etdirir və onların idrak fəaliyyətini fəallaşdırır.

Ədəbiyyat

1.D.A.Ismailova. Teaching English as a foreign language.Textbok.Baku-2011,319 p.
2.X.H.Qədimova. İnteraktiv təlim metodları və onların tətbiqi yolları. Metodik tövsiyyə. Bakı-2003, 30 s.
3.Z.Veysova. Fəal/interaktiv təlim. Müəllimlər üçün vəsait.UNİCEF,Bakı-2007,
149 s.
4.Elektron təhsil. Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2010, N 3, 40 s.
5. Соловова Е.Н. Методика обучения иностранным языкам. Базовый курс лекций: пособие для студентов педагогических вузов и учителей. М.: Просвещение, 2005, 239 с.
6.С.С.Кашлев. Технология интерактивного обучения. – Мн.: Белоруссия, 2005, 176 с.

I.Mutallimova

The use of interactive method in teaching English

Summary

This article deals with the use of interactive method in teaching English. Interactive method is a means of instructing whereby the teacher actively involves the students in their learning process by way of regular teacher-student

interaction. The students are active participants. Interactive method focuses on motivation and helps students become independent. The students communicate to each other and the teacher. Lessons are changed into discussions and students and teacher become partners. Students strengthen their critical thinking, make the lessons more active. Interactive method helps the teacher to create a healthy and lively environment for learning. The goal of this method is that the students gain knowledge according to their own opinions, but the teacher directs his/her students and helps his/her students in any way that motivates them to learn the language. The use of interactive method directs and formulates the communicative skills and habits in the process of learning English.

И.Муталлимова

Применение интерактивного метода в обучении английскому языку

Резюме

Данная статья рассматривает применение интерактивного метода в обучении английскому языку. Интерактивный метод – это способ с помощью которого учитель привлекает студентов к процессу обучения путем регулярного взаимодействия между учителем и ученоком. Студенты являются активными участниками. Интерактивный метод фоксируется на мотивации и помогает студентам стать независимыми. Студенты общаются друг с другом и учителем. Уроки превращаются в дискуссии, а также студенты и учителя становятся партнерами. Студенты развивают свои критические мышление, делают занятия более активными. Интерактивный метод помогает учителю создать здоровую и живую среду для обучения. Цель этого метода состоит в том, что студенты приобретают знания путем своих субъективных мнений, и они имеют возможность выразить свои собственные мнений. Применение интерактивного метода при обучении английскому языку формирует коммуникативные умения и навыки у студентов.

Rəyçi: **Şaban Şabanov**
filologiya elmləri doktoru, professor

SIMRUQ QASIMOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
simruq@mail.ru

ASSISTING STUDENTS WITH FOREIGN LANGUAGE LEARNING DIFFICULTIES

Key words: student, language, difficulty, learning, level, syntactic, grammar
Açar sözlər: tələbə, dil, çətinlik, öyrənmə, səviyyə, sintaktik, qrammatika
Ключевые слова: студент, язык, трудность, обучение, уровень, синтаксис, грамматика

Students who appear to have the most difficulty are those who have experienced moderate to severe reading and spelling difficulties in their native language in their early schooling and now are required to study another language in school. Others without histories of difficulties also may find the study of a foreign language challenging.

Students who have difficulties in one or more of the language systems — reading, writing (especially spelling and grammar), listening, speaking — may experience problems learning a foreign language in school. The degree of difficulty a student is likely to experience depends, to a large extent, on the nature and severity of his/her language problems in reading, writing, listening, and speaking. Students who have moderate to severe difficulties in most or all of these language systems in the native language are likely to experience the most problems learning a foreign language, particularly in language classrooms that emphasize an oral communication approach. Language problems can range on a continuum from mild to moderate to severe. Students who have difficulties learning a foreign language are sometimes referred to as “at-risk” because of their struggles in the regular foreign language classroom. Some of these students may have been classified by the school as having language learning disabilities or dyslexia.

Some research findings on students suggest that at-risk students who have difficulty with foreign language learning generally have experienced overt or subtle problems with the oral and/or written aspects of their native language. These problems can occur in any combination and at different levels of severity in three areas of language: (1) the phonological/ orthographic area (sounds and sound-symbol relationships, letter combinations), (2) the syntactic area (grammar, how words connect in sentences), and (3) the semantic area (meaning of words and word parts). For example, students who had difficulties with the phonological/ orthographic

component of English in elementary school may have had difficulty learning and remembering the sounds of the consonants and distinguishing the different sounds of vowels. Later, as they study a foreign language, they may have difficulty learning to pronounce, read, and spell words.

Students who had problems with the syntactic component of the native language may have experienced problems with subject-verb agreement and use of plurals, possessives, and parts of speech in the native language. In their writing, they did not use complete sentences and sometimes used incorrect verb tenses. Later, in the study of a foreign language, they may struggle to conjugate verbs (that is, selecting the correct ending for a verb related to the subject of the sentence). They may have difficulty matching the correct masculine or feminine pronoun with a noun or placing the adjective in the proper order in a spoken or written sentence.

Students who had both weak grammar and semantics (meaning) skills in the native language may have had difficulty comprehending the meaning of what was said to them in the native language when listening to others speak, or problems comprehending what they read. Later, in the study of a foreign language, they may do well in the first semester or year of foreign language learning because sentence structures are relatively simple and vocabulary concentrates on concrete, life-related topics. In advanced level courses, however, the amount and complexity of listening, speaking, reading, and writing tasks increases. Students' difficulties increase as language complexity increases.

Second, research findings also show that the primary difficulty for at-risk foreign language learners most likely originates in the phonological/orthographic (sound-symbol), and sometimes, syntactic, areas of language rather than the semantic area. Their difficulties often become apparent in the first semester of a foreign language course. Students with low levels of sound-symbol and grammatical skills tend to have problems with most aspects of foreign language learning — listening, speaking, pronunciation, reading, and writing.

Third, research across languages illustrates that languages differ on a number of dimensions, and the differences between one's native language and the foreign language of study can pose problems for students with language difficulties. For example, one dimension on which languages differ has to do with the regularity of the language's sound-letter correspondences. This regularity can range from languages that are highly regular, where a single sound is represented by a single letter (for example, Italian) to languages that are highly complex, where one letter can represent several sounds and a sound can be represented by several different letters (for example, English).

Another dimension on which languages differ is in their morphological complexity. Some languages allow for numerous additions of words or parts of words, and word endings change depending upon their place in the sentence. For languages with complex morphologies, for example, students may have to break down long words of many syllables into their parts to determine meaning, or they may have to add one or more "affixes" or word parts to the word to produce grammatically and semantically meaningful information.

Other dimensions on which languages differ are grammatical rules and special markings on letters. The arrangement of word order in sentences, agreement between subject and verb, and how clauses are linked are examples of grammatical rules. Some languages have a great variety of diacritical markings, which may denote a particular pronunciation, an accent, or even grammatical information necessary for obtaining meaning. In short, there is no "simple" foreign language, as all have "dimensions" that could pose difficulty for students with language processing difficulties.

Students who have moderate to severe language learning difficulties may need more intensive instruction than that provided in the general foreign language classroom. This instruction might include one-to-one or small group tutoring, extra time and practice to master a language concept, a reduced course load to enable the student to focus on the foreign language, and, in some cases, instruction in special classroom settings.

One challenge for students might be finding the appropriate learning environment for their particular needs. Sometimes students need extra time to learn a foreign language concept, a slower pace of instruction, and special attention to specific aspects of the foreign language, such as the sounds and special symbols of the language and grammatical rules. Sometimes students need extra tutoring in the language. They may need a distraction- free learning environment and explicit guidance about language concepts. These accommodations may not be available.

Another challenge might be the need for students to recognize and acknowledge their own unique learning difficulties. This may necessitate putting in considerable extra effort to complete the foreign language requirement successfully, asking for support from various resources (teachers, tutors, peers), and frequently requesting the additional explanations they may need to understand a concept.

Traditionally, foreign language teacher education has prepared teachers for the ideal learner who can thrive in whole-language instructional settings without explicit attention to the underlying linguistic patterns of the foreign language. By and large, students are expected to become proficient in reading, writing, speaking, listening, and pronunciation through exposure

and practice. Teachers, therefore, may need training in methods of addressing the special needs of some students in their classrooms. They may require additional time and resources to establish a classroom appropriate for students with diverse needs and abilities. They may need to work together with a student with learning difficulties to determine what accommodations might be most beneficial for that student.

In some cases, despite considerable time and effort, a student may not experience success in a foreign language classroom. Some high schools and colleges and universities provide an option for students to petition to take course substitutions for the foreign language requirement. To qualify for course substitutions, generally, students must provide documentation of testing and a diagnosis of a learning disability. Sometimes students must demonstrate a history of failure to learn the language despite special assistance. Schools that offer course waivers or substitutions sometimes include a statement in the school's governance document, and the student is required to meet with the school's learning assistance specialist to determine eligibility.

To date, there is evidence that students with language learning difficulties can succeed in their study of a foreign language, especially if they have appropriate instructional modifications. A small body of research evidence suggests, for example, that at-risk students can experience success in classrooms that provide direct, explicit instruction on language structure and extra time to master the subject matter.

References

Ganschow, L. and Schneider, E. (2006). Assisting Students with Foreign Language Learning Difficulties in School.
From Perspectives on Language and Literacy, Special Edition 2006. Baltimore, MD: International Dyslexia Association.

S.Qasimova

Xarici dilin öyrənilməsində çətinlikləri olan tələbələrə kömək

Xülasə

Məqalə xarici dilin öyrənilməsində çətinlikləri olan tələbələrə köməklik edilməsindən bəhs edir. Xarici dilin öyrənilməsində çətinliyi olan tələbələr, erkən tədris müddətində məktəbdə xarici dilin öyrənilməsində orta

səviyyədə ciddi oxuma və yazma çətinlikləri yaşayan tələbələr ehtimal olunur.

Bir və ya daha çox dil sistemində çətinlik çəkən tələbələrə - oxuma, yazma (xüsusilə yazı və qrammatika), dinləmə, danışma - məktəbdə xarici dil öyrənməkdə problemlər yarada bilər. Bir tələbənin qarşılaşa biləcəyi çətinlik dərəcəsi oxuma, yazma, dinləmə və danışmaqda dil problemlərinin təbiətindən asılıdır. Ana dilində ən çox və ya bütün sistemlərdə orta və ağır çətinliklərə məruz qalan tələbələr xarici dil öyrənməkdə ən çətin problemləri yaşayır, xüsusən də şifahi ünsiyyət anlayışını vurğulayan dil siniflərində.

С.Касумова

Помощь студентам с затруднениями в учебе иностранного языка

Резюме

Студенты, которые, кажется, испытывают большинство затруднений, являются теми, кто испытал умеренный к серьезному чтению и правописанию трудностей в их родном языке в их раннем обучении и теперь обязан изучать другой язык в школе.

Студенты, которые испытывают затруднения в одном или нескольких языковых систем — чтении, сочиняя (особенно правописание и грамматика), слушание, говоря — могут испытать проблемы, учащие иностранный язык в школе. Степень трудности, которую, вероятно, испытает студент, зависит, в большой степени, по природе и серьезности его/ее языковых проблем в чтении, письме, слушании и разговоре. Студенты, которые имеют умеренный к серьезным трудностям в большинстве или всех этих языковых системах на родном языке, вероятно, испытают большинство проблем, учащих иностранный язык, особенно в языковых классах, которые подчеркивают подход устного общения.

Rəyçi: Rəhimə Məmmədova
filologiya elmləri namizədi, dosent

SEVDA FƏTULLAYEVA
Azərbaycan Dillər Universiteti
sevda@mail.ru

FELIN MÜXTƏLIF PRİNSİPLƏRƏ GÖRƏ TƏSNİFATI

Açar sözlər: fel, təsnifat, felin kateqoriyaları, növ, zaman
Key words: verb, classification, verb categories, voice, tenses
Ключевые слова: глагол, классификация, категории глагола, залог, времена.

Feil nitq hissələri sistemində mühüm yer tutur. Təsadüfi deyil ki, dilçilik ədəbiyyatında feil sistemlər sistemi kimi qeyd edilir. İstər morfoloji, istərsə də sintaktik xüsusiyyətlərinə görə feil diqqəti daha çox cəlb edir. Belə ki, feil ən çox qrammatik kateqoriyaya malikdir. Bu kateqoriyalardan zaman, tərz, növ, şəxs və s. göstərmək olar. Feilin növ kateqoriyası ingilis dilində çox mürəkkəb xüsusiyyətlərə malikdir. Xüsusən feilin növlərinin sayı barədə müxtəlif fikirlər növcuddur. Hətta ingilis dilində feilin beş növünün olması fikrindən də danışılır. Biz isə öz işimizdə ənənəvi olaraq ingilis dilində feilin iki növü olması fikrinə əsaslanırıq. Ingilis dilində feil çox dolaşıq təbiətə malikdir. Bu hər şeydən əvvəl onunla əlaqəlidir ki, feil şəxsli və şəxssiz formalara bölünür. Onların hər ikisi də özözlüyündə çox şaxəli və mürəkkəb formalara malikdir. Feil nitq hissəsini müəyyənləşdirən bütün prinsipləri özündə əks etdirir. Bir nitq hissəsi kimi feil aşağıdakı xüsusiyyətlərinə görə səciyyələnir: 1. Leksik-qrammatik mənasına görə feil hərəkət və proses bildirir. 2. Feilin bir sıra feil düzəldən şəkilçiləri vardır:

-ate	*methylate, vaccinate*
-en	*threaten, frighten*
-ify	*glorify, beatify, ladify, historify, typify*
-ize	*organize, winterize, theorize, jargonize, journalize*
-mis	*behave – misbehave, calculate – miscalculate, inform – misinform, take – mistake*
-re	*ead – aread, write – rewrite*
-dis	*agree – disagree, appear – disappear, appoint – disappoint*
-un	*bind – unbind, do – undo, mask – unmask,pack – unpack*
-be	*little – belittle, friend – befriend, cloud – becloud*

-en	*large – enlarge, able – enable, slave – enslave, cash – encash*

3. Feilin aşağıdakı kateqoriyaları vardır:

1) Feilin zaman kateqoriyası.

2) Feilin tərz kateqoriyası.

3) Feilin növ kateqoriyası.

4) Feilin şəxs kateqoriyası.

5) Feilin şəkil kateqoriyası.

6) Feilin sıralanma kateqoriyası.

4. Feilin özünə məxsus birləşmə qabiliyyəti vardır. Feil isimlə və ismin ekvivalenti ilə birləşə bilir. Məsələn: ***Tom*** *came. He came. Tom took* ***the*** *book.*

5. Feilin sintaktik funksiyası xəbərdir.

He ***is reading*** *a book now. He* ***reads*** *a book every day.*

Müasir ingilis dilində feillər aşağıdakı prinsiplərə görə təsnif olunur:

1. Morfoloji quruluşuna görə.

2. Keçmiş zamanın qeyri-müəyyən formasının və keçmiş zaman feili sifət formasının düzəldilməsinə görə.

3. Sintaktik roluna və leksik mənasına görə.

4. Obyektə olan münasibətinə görə.

5. Feilin tərz mənasına görə.

6. Şəxs kateqoriyasına olan münasibətinə görə.

Müasir ingilis dilində feillər morfoloji quruluşuna görə aşağıdakı qruplara bölünür:

a) Sadə feillər. Bir kökdən ibarət olan feillərə sadə feillər deyilir. Məsələn, *read, come, take, speak, remember, work* və s.

b) Düzəltmə feillər. Kök və affiksdən ibarət olan feillərə düzlətmə feillər deyilir. Feil düzəldən affikslərr iki qrupa bölünür: suffikslər; prefikslər. Çox işlənən feil düzəldən suffikslər aşağıdakılardır: **-en, -ize, -fy, -ate.**

Müasir ingilis dilində feil düzəldən və nisbətən geniş işlənən prefikslər aşağıdakılardan ibarətdir: **re-, dis-, un-, mis-, be-, en-.**

c) Mürəkkəb feillər. İki kökdən ibarət olan feillərə mürəkkəb feillər deyilir. Məsələn, *broadcast, whitewash, blackmail*

ç) Tərkibi feillər. Bu qrupa daxil olan feillər, bir qayda olaraq iki sözdən: bir feil və leksik qrammatik morfemdən ibarət olur. Məsələn, *stand up, give up, take off, go away* və s.

Keçmiş zamanın qeyri-müəyyən formasının və keçmiş zaman feili sifət formasının düzəldilməsinə görə ingilis dili feillərini dörd qrupa bölmək olar:

1) Qaydalı feillər; 2) Qaydasız feillər; 3) Qarışıq feillər; 4) Amorf feillər.

Qaydalı feillər. Keçmiş zamanın qeyri-müəyyən forması və keçmiş zaman feili sifət forması **-ed** suffiksi vasitəsilə düzəldilən feillərə qaydalı feillər deyilir. Məsələn: *to work – worked – worked; to live – lived – lived*

Qaydasız feillər. Keçmiş zamanın qeyri-müəyyən forması və keçmiş zaman feili sifət forması müəyyən qaydada əsasən deyil, müxtəlif üsullarla düzələn feillərə qaydasız feillər deyilir. Bu müxtəlif yollarla düzəlir. Məsələn:

to meet – met – met; to write – wrote – written; to spend – spent – spent

Qarışıq feillər. Keçmiş zamanın qeyri-müəyyən forması qaydalı, keçmiş zaman feili sifət forması qaydasız feillər kimi (və ya əksinə) düzələn feillərə qarışıq feillər deyilir. Məsələn: *to show – showed – showen; to crow – crew – crowed*

Amorf feillər. Bu qrupa o feillər daxildir ki, onlar keçmiş zamanın qeyri-müəyyən və keçmiş zaman feili sifət formasında öz şəklini dəyişmədən işlənir. Məsələn: *to cut – cut – cut; to put – put – put; to set – set – set.*

Sintaktik roluna və fleksik mənasına görə müasir ingilis dilində feillər dörd qrupa bölünür:

1) Əsas feillər; 2) Köməkçi feillər; 3) Bağlayıcı feillər; 4) Modal feillər.

Əsas feillər. Özünün müstəqil leksik mənası olan və cümlədə təkbaşına xəbər rolunda çıxış edə bilən feillərə əsas feillər deyilir. Məsələn,

Open *the door! I* ***opened*** *the door.*

Köməkçi feillər. Dilin inkişafı tarixində öz leksik mənasını itirərək, əsasən qrammatik məna bildirən, qrammatik formaların düzəldilməsinə kömək edən feillərə köməkçi feillər deyilir. Məsələn: *to be, to have, to do, shall, will, should, would.*Müasir ingilis dili əsasən analitik quruluşa malik olduğundan bu dildə köməkçi feillər böyük rola malikdir. Demək olar ki, feilin əsas qrammatik kateqoriyaları, ancaq köməkçi feillər vasitəsilə ifadə edilir. Müasir ingilis dili üçün xarakterik olan feilin analitik formaları müxtəlif köməkçi feillər vasitəsilə düzəldilir.

Bağlayıcı feillər. Öz leksik mənasını müəyyən dərəcədə itirmiş və cümlədə subyektlə predikat arasında əlaqə yaratmağa xidmət edən feillərə bağlayıcı feillər deyilir. Ən çox bağlayıcxı feil kimi işlənən feil *to be* feilidir. Müasir ingilis dilində bir sıra başqa feillərdə öz leksik mənalarını qismən itirərək bağlayıcı feil kimi işlənir. Bunlara aşağıdakıları göstərmək olar: *to feel, to look, to smell, to taste, to grow, to continue, to keep, to seem, to remain* və s. Qeyd etmək lazımdır ki, hər hansı əsas məna daşıyan feil bağlayıcı feil kimi işlənə bilər. Bu zaman onlar əsas məna daşıyan bağlayıcı feil (notional links) adlanır. Deyilənlərdən belə nəticəyə gəlmək olur ki, müasir ingilis dilində təmiz, ayrıca bağlayıcı feil yoxdur. Eyni feil bir vəziyyətdə bağlayıcı, digər vəziyyətdə isə əsas feil kimi işlənir. Misallara müraciət edək:

Bağlayıcı feil	Əsas feil
*He **is a doctor**.*	*There **is** a doctor in the room.*
*He **looked pale**.*	*He **looked** at me.*
*His knees **went weak**.*	*He **went** there.*

Modal feillər. Danışanın feillə ifadə olunmuş hərəkət və ya vəziyyətə münasibətini bildirən feillərə modal feillər deyilir. Müasir ingilis dilində mövcud olan modal feillər bunlardır: *can, must, may, ought, need, dare, shall, will.*

Modal feillər aşağıdakı xüsusiyyətə malikdir.

1. Modal feillər təkbaşına cümlə üzvü ola bilir.
2. Əksər modal feillərdən sonra məsdər *"to"* ədatsız işlənir.
3. Modal feillərin əksəriyyəti sual və inkar formalarını köməkçi *"to do"* feili işlənmədən düzəldir.
4. Modal feillərin heç biri analitik formaya malik deyil.
5. *dare* və *need* feilləri müstəsna olmaqla, qalan modal feillərin şəxssiz forması yoxdur.
6. Modal feillər heç bir şəxs şəkilçisi qəbul etmir.
7. Modal feillərin gələcək zaman forması yoxdur.
8. Modal feillərin hamısının inkar forması iki şəkildə: tam və ixtisar olunmuş şəkildə işlənir.

Müasir ingilis dilində feillər obyektə olan münasibətlərinə görə də təsnif edilir. Bu baxımdan feillər iki qrupa bölünür: 1) özlərindən sonra obyekt (vasitəsiz tamamlıq) tələb edən feillər; 2) özlərindən sonra obyekt (vasitəsiz tamamlıq) tələb etməyən feillər.

Birinci qrupa daxil olan feillərə təsirli feillər deyilir. Bu qəbildən olan feillərdən sonra bir qayda olaraq vasitəsiz tamamlıq işlənir. Məsələn,

*He **took** the box. He **read** the letter. He **saw** the tree. He **sent** the letter.*

Təsirli feillərə xas olan başlıca xüsusiyyət ondan ibarətdir ki, onlar təkbaşına işlənərkən leksik mənaca ümumi olur, sanki tamamlanmır. Bu feillərin mənasını tamamlamaq üçün hökmən obyekt tələb olunur. İkinci qrupa daxil olan, yəni özündən sonra obyekt tələb etməyən feillərə təsirsiz feillər deyilir. Təsirsiz feillərə xas olan və onları təsirli feillərdən fərqləndirən başlıca cəhət ondan ibarətdir ki, bu feillər heç bir obyektə ehtiyac olmadan cümlədə müstəqil işlənə bilir. Məsələn: *He **went** there. He **slept** there.* Müasir ingilis dilində bəzi sözlər həm təsirli, həm də təsirsiz feillər kimi işlənə bilir: *to begin, to stop, to move, to grow* və s.

Təsirli feil	Təsirsiz feil
*He **began** the work.*	*The rain **began**.*
*He **stopped** the car.*	*The rain **stopped**.*
*He **moved** the table.*	*He **moved** there.*

Feilin tərz mənasına görə bəzi feillər hüdudlu, digər feillər isə hüdudsuz hərəkətlər bildirir. Birincilərə misal olaraq *to take, to die, to fall,*

to stand up, to sit down, to stop və s. feilləri göstərmək olar. Bu feillərdən hər birinin ifadə etdiyi hərəkət proses baxımından hüdudlaşıb, onların bildirdiyi hərəkət uzun müddət davam edə bilmir. Belə feillərə terminativ feillər deyilir. İkinci qrupa daxil olan feillərə misal olaraq *to work, to sing, to breathe, to speak, to walk* və s. sözləri göstərmək olar. Bu qəbildən olan feillərin bildirdiyi hərəkət proses baxımından qeyri-məhduddur. Onların ifadə etdiyi hərəkət subyektin arzusundan asılı olaraq uzun ya qısa müddət davam edə bilər. Məsələn, *to work, to dream* feillərinin bildirdiyi hərəkət istənilən qədər uzana bilər. Bu qəbildən olan feillərə qeyri-terminativ feillər deyilir. Şəxs kateqoriyasına olan münasibətinə görə ingilis dili feilləri iki qrupa bölünür: 1) şəxsli feillər; 2) şəxssiz feillər. Bu feillər bir-birindən malik olduqları qrammatik kateqoriyalar və sintaktik funksiya baxımından fərqlənirlər. Şəxsli formada olan feillər şəxs, şəkil və kəmiyyət kateqoriyalarına malik olduqları halda, şəxssiz feillər bu kateqoriyalara malik deyil, feillər şəxsli formada cümlədə müstəqil xəbər ola bildiyi halda, şəxssiz formada onlar ancaq xəbərin bir hissəsi ola bilir, onlar təkbaşına xəbər ola bilmir. Feil haqqında verilən məlumatdan hiss olur ki, feil çox mürəkkəb bir təbiətə malik olan nitq hissəsidir. Məhz bunun nəticəsidir ki, feil öz qrammatik kateqoriyalarının sayına görə nitq hissələri sistemində birinci yeri tutur. Feilin əsas kateqoriyalarından biri də feilin növ kateqoriyasıdır. Növbəti hissələrdə növ kateqoriyasına xas olan xüsusiyyət haqqında atraflı danışmaq nəzərd tutulur.

Ədəbiyyat

1. Hüseynov A.R. İngilis dilinin nəzəri qrammatikası üzrə mühazirələr toplusu. B., 2015.
2. Musayev O. İngilis dilinin qrammatikası. B., 1986.
3. Иванова И.П., Бурлакова В.В., Поченцов Г.Г. Теоретическая грамматика современного английсого языка. М., 1981.
4. Слюсарева Н.А. Проблемы функциональной морфологии современного английского языка. М., 1986.
5. Swan M. Practical English usage. London, 1998.
6. Thomson A., Mortinet A. Practical English Grammar. 1987.
7. Turksever O.I. (Musayev), Hajiyev E.I., Huseynov A.R. A practical Grammar of contemporary English. B., 2011.

Севда Фатуллаева

Классификация глаголов по различным принципам

Резюме

Глагол занимает особое место в системе частей речи. Глагол отличается от других частей речи по структуре грамматических категорий.

Статья посвящена изучению системы глагола. В статье даётся классификация глаголов по различным параметрам. Уделяется внимание к таким спорным проблемам как семантическая классификация глагола, виды лексико-грамматического значения глагола, переходные и непеходные глаголы, категории глагола и другие вопросы. Автор разделяет точку зрения, согласно которой в современном английском языке имеются два залога: активный и пассивный.Действительный залог обозначает, что действие совершается самим лицом или предметом – носителем действия. Страдательный залог обозначает, что действие направлено на носителя действия извне. Среди лингвистов нет единого мнения о количестве залогов. Некоторые ученые даже считают, что в английском языке имеются пять залогов: активный, пассивный, взаимный, средний и возвратный. Но все же, большинство лингвистов разделяют точку зрения, согласно которой в английском языке имеются два залога. В английском языке, в сравнении с азербайджанским языком, форма страдательного залога может быть образована не только переходными глаголами, но, также, с непереходными глаголами с предлогом.

Sevda Fatullayeva

Classification of verb according to different principles

Summary

The verb occupies a special place in the system of the parts of speech. The verb differs from other parts of speech with its structure and grammatical categories. The article is devoted to the study of the verb system. Here different classifications are given according to different principles. It is paid attention to so crucial issues as semantic classification of the verb, types of lexiacl and qrammatical meanings of the verb, transitive and intransitive verbs, verb categories and some other issues. The author shares the view point according to which there are two voices in Modern English: active voice, passive voice.

In the active voice the subject acts, but in the passive voice the subject is acted upon. It must be mentioned that there is no unity of opinions about the member of voices in English. Even five voices are indicated: active, passive, middle, reflexive, and reciprocal. But still most scholars consider two voices: active and passive. The passive voice has very complicated peculiarities. In comparison with Azerbaijani the passive voice in English are widely used. In English not only transitive but also intransitive verbs may be used in the passive voice with the preposition.

Rəyçi: **Safura Cəfərova**
filologiya elmləri namizədi

VÜSAL YÜZBAŞYEV
BDU
vusalyuzbashyev@mail.ru

FARS DİLİNDƏ MƏKAN MƏNALI ŞƏKİLÇİLƏR

Açar sözlər: məkan anlayışı, məkan mənalı şəkilçilər, məkan mənalı söz-şəkilçilər, məhsuldar və qeyri-məhsuldar şəkilçilər, fars dilinin inkişaf mərhələləri
Ключевые слова: понятие пространства, окончания пространственного смысла, продуктивные и непродуктивные окончания, эжтапы развития персидского языка.
Key words : concept of location, suffixes with meaning of location ,word-suffixes with meaning of location, productive and non-productive suffixes, phases of development of the Persian language.

Məkan elə bir anlayışdır ki, həm bütöv bir cümlə, həm də kiçik element çərçivəsində özünü göstərə bilər. Bəzi hallarda kiçik bir element sözə və ya cümləyə məkan mənası verir və əslində məkan anlayışının hər hansı bir dildə ifadə vasitələrini öyrənmək üçün məhz bu kiçik elementləri müəyyən etmək və onların mənasını araşdırmaq lazımdır.

Fars dilində bir qrup şəkilçilər məkan mənası daşıyır və qoşulduğu sözə məkan çalarları verir. Bu xüsusiyyət həmin şəkilçinin tarixi ilə bağlıdır. Görünür, bu şəkilçilər fars dilinin tarixində məkan mənalı söz kimi işlənmiş, sonralar isə şəkilçiləşərək dildə məkan çalarları daşıyan affiks kimi qalmışdır. Ümumiyyətlə, fars dilinin tarixinə nəzər saldıqda məlum olur ki, bu dildə tarixən bir çox məkan mənalı şəkilçilər işlənmiş, sonradan onlar ya arxaikləşmiş, ya da sözün daşlaşmış bir elementi kimi qəbul edilmişdir. Bir sıra hallarda isə əksinə, bir qrup məkan mənalı sözlər qismən şəkilçiləşərək məkan bildirən şəkilçi kimi işlənmişdir.

Fars dilində məkan bildirən ən məhsuldar son şəkilçilərdən biri ستان estan şəkilçisidir. T.D.Çxeidze bu şəkilçinin pəhləvi dilində yerinə yetirdiyi funksiyanı müasir fars dilində də saxladığını qeyd edir: nəyinsə çox, bol olduğu yeri bildirir və çox vaxt coğrafi adlarla işlənir. (4, s.30) Müəllif bu şəkilçinin mənşəyini sta "dayanmaq, durmaq" feili ilə əlaqələndirir. Bu şəkilçiyə Zavmistan "Müharibələr haqqında kitab"ın adında təsadüf edilir. (4, s.30)

Qədim fars və Avest dillərində bu şəkilçi stāna (yer, məkan mənasında) (8, c.8, s.11862), orta fars dilində stan (istān) (yer, məkan mənasında) (7, s.37-38) şəklində işlənmişdir. Orta fars dilində bu şəkilçi məkan mənalı isimlər düzəltməklə yanaşı, zaman və fəsilləri adlandırmaq

üçün də işlənirdi. tāp (isti) – tāpistān (yay), zam (soyuq) – zamistan (qış) (7, s.37-38)

Bu şəkilçi müxtəlif mənalı sözlərə artırılaraq məkan bildirən isimlər düzəldir.

1) millət, tayfa adlarına əlavə olunaraq toponimlər düzəldir:

Özbəksitan – ازبکستان
Əfqanıstan – افغانستان
Bəlucistan – بلوجیستان
Bolqarıstan – بلغارستان
Tatarıstan – تاتارستان
Tacikistan – تاجیکستان
Türkmənistan – ترکمنستان
Ərəbistan – عربستان
Qazaxıstan – قزاقستان

Bu şəkilçi İranda toponimlərin düzəldilməsində də mühüm rol oynayır: آشستان aşostan, اسگستان esgestan, بادامستان badamestan, جوهرستان couhərestan, تلخستان təlxestan, گلستان qolestan, بردستان bərdestan, بیدستان bidestan, پدندستان pedendestan, فیلستان filestan, رزدستان zərdestan, چنارستان çenarestan, دالستان dalestan, سیبستان sibestan, اسپستان espestan, بوستان bustan, چرخستان çərxestan, خمستان xomestan, بامستان bamestan, باغستان bağestan, سروستان sərvestan, نگارستان neqarestan, لاورستان laverestan, بهارستان bəharestan və s. (3, s.159)

2) bitki adlarına artırılaraq həmin bitkinin çox olduğu meşə, bağ mənalı isimlər düzəldir:

نیستان – qamışlıq
گلستان – güllük
بیدستان – söyüdlük
سروستان – sərvlik
انارستان – narlıq, nar bağı
انجیرستان – əncirlik
توتستان – tutbağı

3) müəyyən sözlərə artırılaraq müəssisə, mərkəz, ocaq mənalı isimlər düzəldir.

بیمارستان xəstəxana
دبستان məktəb
دبیرستان məktəb

Məkan mənası ifadə edən və qoşulduğu sözlərə məkan çaları verən şəkilçilərdən biri də -dan دان şəkilçisidir. L.S.Peysikov qeyd edir ki, dan دان şəkilçisi isimlə birlikdə yer mənalı sözlər əmələ gətirir: qələmdan قلمدان, ənfiyyedan انفیه دان, nəməkdan نمکدان (1, s.180). Müəllif dani دانی şəkilçisinin də bu mənada işləndiyini qeyd edərək bildirir ki, dāni دانی sözün mənasını

dəyişmir: nandan-nandani نانداني – نانداني, zobaledan-zobaledani زباله دانی – زباله دان (1, s.180)

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, dā-na “anbar; qab” mənasında bir çox dillərdə məhsuldar son şəkilçi kimi işlənmişdir. Avesta dilində dana mürəkkəb sözlərin tərkib hissəsi kimi işlənmişdir. Məsələn, gao-dana (süd qabı), awəzdana (su nohuru). Qədim fars dilində dāna “yer məkan” mənasında, yenə də mürəkkəb sözün bir hissəsi kimi (Avesta dilində olduğu kimi) çıxış etmişdir. Məsələn, daiva- dāna mürəkkəb sözündə işlənərək yer, məkan mənasını ifadə etmişdir. (büt, yalançı allah məbədi) (5, s.427)

Orta fars dilində də bu şəkilçi - dān [-d’n] formasında “yer, məkan” mənasında işlənmiş və yer, məkan mənalı isimlər düzəltmişdir. Məsələn, ātašdān (ocaq hərfi mənası atəş, od üçün yer) (5, s.428)

Yeni və müasir fars dilində bu şəkilçi دان (dan) formasında yer, məkan mənalı sözlər düzəldir. Məsələn, آبدان (nohur, arx), آینه دان (güzgü qabı), ادویه دان (ədviyyat qabı), جوهر دان (mürəkkəb qabı), دارودان (dərman qabı), روغن دان (yağ qabı), زباله دان (zibilqabı), زغالدان (kömür anbarı), سرمه دان (sürmə qabı), سیگار دان (siqaret qabı), شکر دان (şəkər qabı), شمعدان (şamdan), شیردان (süd qabı), قلمدان (qələm qabı), قندان (qənddan), قهوه دان (qəhvədan, qəhvə bişirmək üçün qab), کتابدان (kitab qoymaq üçün yer), گاودانی – گاودان (tövlə), گلابدان (gülabdan, gülab qabı), گلدان (güldan), میوه دان (meyvə qabı), نادان (çörək qabı), نمکدان (duzqabı)

Qeyd etmək lazımdır ki, bu sözlərin heç də hamısı eyni səviyyədə müasir fars dilində işlənmir və onların bir çoxu artıq arxaikləşib və onların yerinə müasir dövrdə artıq başqa sözlərdən istifadə olunur. Məkan, yer bildirən şəkilçilərdən biri də zar زار şəkilçisidir. Bu şəkilçini müasir fars dilində məhsuldar şəkilçi kimi qəbul etmək olmazdı. T.D.Çxeidze bu şəkilçi haqqında danışarkən qeyd edir ki, bu şəkilçi tarixən orta fars dilində işlənmiş čar suffiksinə gedib çıxır. Pəhləvi dilində čar čarisan (ilkin mənası, çox güman ki, “otlaq” olmuşdur) semantik qrupuna daxildir. Yeni fars dilində č səsi saitlər və q səsindən sonra z səsinə çevrilir, lakin müasir fars dilində fonetik mövqeyindən asılı olmayaraq bu z səsi kimi özünü göstərir. (4, s.31)

Müasir fars dilində bir qrup sözlərə qoşularaq bu şəkilçi məkan, yer mənalı sözlər düzəldir, məsələn, گلزار (gülüstan, güllük), چمن زار (çəmənlik) və s.

Məkan, yer çaları daşıyan şəkilçilərdən biri də müasir fars dilində məhsuldar olmayan sar سار şəkilçisidir. Sar suffiksi etimoloji olaraq avesta dilindəki sara (baş, əsas mənasında), orta fars dilində sar, sər (həmin mənada) formasında mürəkkəb sözün ikinci komponenti kimi çıxış edir. Sonralar, göründüyü kimi, “baş” sözü ilə leksik əlaqə kəsilmiş və mürəkkəb sözün ikinci komponenti suffiksə çevrilmişdir. L.S.Peysikov qeyd edir ki, bu suffiks müxtəlif məna və strukturlarda çıxış edir: konkret mənalı isimlərin (məsələn, heyvan adları) və keyfiyyət mənalı sifətlərin əsası ilə birləşərək öz

etimoloji mənasını saxlayır: gāvsār (öküzbaşlı), şirsər (şirbaşlı), səboksər (yüngülbeyin), sepidsər (ağsaçlı) və s. Sār ilə düzələn bəzi sözlər oxşarlıq, bənzərlik bildirir, məsələn, qorgsār (canavar kimi, canavar şəkilli), divsār (divə bənzər), lakin kuhsār (dağlıq yer). Şāxsār (budaqlıq), səngsār (daşlıq yer, daşla dolu olan yer), çeşmesār (bulaqlıq, bulaqla dolu olan yer), nəməksār (şoranlıq) kimi sözlərdə başqa semantika və struktur özünü göstərir və burada bu şəkilçi "bolluq, çoxluq" mənasını ifadə edir. (1, s.81-82)

Yer, məkan bildirən şəkilçilərdən biri də türkmənşəli lax لاخ şəkiçlisidir. Bəzi tədqiqatçılar bildirirlər ki, lax sözü ayrılıqda "qaya" mənasını ifadə edir və onlar bu şəkilçini iran mənşəli leksik element hesab edirlər. (4, s.32) Lakin bu şəkilçinin türkmənşəli olduğunu hətta iran alimləri də qəbul edirlər.

Müasir fars dilində lax şəkilçisini məhsuldar şəkilçi hesab etmək olmaz, bu şəkilçi ilə fars dilində bir neçə sözə rast gəlmək olar. آتشلاخ (atəşgah), دیولاخ (divlərin yeri), رودلاخ (çay (su) olan yer), سنگلاخ (daşlıq) və s.

Fars dilində az rast gəlinən bar بار suffiksi su yaxınlığında yerləşən ərazi, ölkəni bildirir. Burada suffiksin qədim iran pāra, par "keçmək", qədim hind dilində pāra (sahil) sözünə gedib çıxan semantikası özünü göstərir. Məsələn, rudbar (su çox olan yer)

Müasir fars dilində çox az sayda sözdə rast gəlinən şən شن şəkilçisi də tarixən məkan, yer mənası ifadə etmişdir. Şən şəkilçisi (šan) Avesta dilindəki šayana sözündən törəmişdir. Avestada šayana kompozitlərin ikinci üzvü kimi çıxış edir. Məsələn, rāma šayana (sakit həyat tərzi sürən), gava šayana (mal-qaranın yaşadığı (saxlanıldığı) yer). Yeni və müasir fars dilində artıq qeyd edildiyi kimi, bu şəkilçiyə az sayda sözlərdə rast gəlmək olar: گلشن (güllük, gülüstanlıq, gülşən)

Fars dilində elə şəkilçilər vardır ki, onlar bir qrup tədqiqatçılar tərəfindən şəkilçi kimi qəbul edilmir və çox vaxt belə formalar söz-şəkilçi adlandırılır.

Belə söz-şəkilçilərdən biri kəde کده söz-morfemdir. Müasir dildə "kəde" kət/kəd allomorfları şəklində prefiksal element kimi کدخدا (kəndxuda, ev sahibi), کدبانو (ev sahibəsi), کدیوار (əkinçi, ev sahibi) və suffiksal element kimi az sayda sözlərdə میکده، آتشکده، ماتمکده، دیوکده، بتکده və s. təsadüf edilir.

Bu söz-şəkilçi orta fars dilindəki kasay/kadak sözünə (ev mənasında) gedib çıxır. Dəri dilində bu söz-şəkilçi həmin mənada müstəqil söz kimi işlənirdi. (1, s.107)

Müasir fars dilində məkan bildirən və məkan mənalı sözlər düzəldən söz-şəkilçilərdən biri qah گاه söz-şəkilçisidir. Bir qrup alimlər bu morfemi şəkilçi kimi qəbul etməsələr də, biz belə düşünürük ki, bu söz müasir fars dilində artıq kifayət qədər şəkilçiləşib və məhsuldar bir şəkilçi kimi geniş işlənmə dairəsinə malikdir.

Qah sözünün tarixi kifayət qədər maraqlıdır. “Yer” mənasında bu söz hind-iran gā, hind-avropa g^{w}a (getmək) sözündən törəmişdir. Bu sözə Avesta dilində gātu, gāΘu formalarında rast gəlinir. Qədim Avestada (Yəsna 28.5) gātu və ona qohum olan Vedada gātu getmə, hərəkət, yol kimi tərcümə olunurdu. Lakin daha sonrakı dövrlərə aid Avestada bu sözün ümumi mənası “yer”, bəzi hallarda “müəyyən olunmuş yer” və ya “oturmaq və ya uzanmaq üçün yer taxt” kimi xüsusiləşirdi. Yəştdə (17.9) taxtların ayağı qızıldan idi və çox güman ki, o dövrdə gātu qızıldan düzəldilmiş-allahlar üçün nəzərdə tutulmuş taxt kimi qəbul edilirdi.

“Yer” qədim fars gāΘu sözünün, demək olar ki, ümumi mənası idi. Bu sözün səciyyəvi mənası “dayanmaq üçün yer, platforma” kimi qeyd edilirdi. Babil və çox güman ki, elam tərcümələrində taxt mənası göstərilirdi. Əhəməni heykəlləri göstərir ki, bu sözlə “qaldırılmış yer” ifadə olunurdu.

Orta fars və parfiya dillərində gāh bütün bu mənaları ifadə edir və bu mənalara “rütbə, mövqe” mənası da əlavə olunur.

Zərdüştlülər bu sözü gāhug (gāΘuka) şəklində “ölünü taxtı, qəbir” mənasında işlədirdilər.

Yeni fars dilində gāh sözlərinin sonunda “yer, məkan” mənasında işlənirdi. Müstəqil söz kimi o adətən “yer, taxt” mənasını, ərəbləşmiş cah جاه forması isə “məqam, mövqe” mənasını ifadə edir. (10, s.253)

“Bürhan-e qate”də qah sözünün aşağıdakı mənaları verilir. 1) qızıl kürsü və şahların taxtı; 2) zaman və vaxt; 3) qızıl, gümüş və bu kimi əşyaların qoyulduğu yer; 4) yer, məqam mənasında işlənir, lakin tərkibsiz bu mənada işlənmir. (6, s.1771)

Bu söz (gah) Lüğətnamədə bir neçə forma kimi təqdim edilərək müxtəlif mənalarda verilmişdir: 1. isim kimi: 1) şahların taxtı, şahların bəzədilmiş taxtı; 2) yer, məkan, məqbərə yeri, aramgah; 3) oturmaq üçün yer; 4) muğan, musiqi; 5) zərgər qabı; 6) nərdin xanası; 7) çadır;

2. isim kimi: 1) dövr, zaman, dövran; 2) zaman, vaxt, müddət; 3) vaxt, fürsət, imkan; 4) fəsil, mövsüm;

3. şəkilçi kimi: 1) zaman, vaxt; 2) yer, məkan (9, s.16701-16708)

Müasir fars dilində, artıq qeyd edildiyi kimi, qah şəkilçisi bir sıra sözlərin (əsasən isimlərin) sonuna artırılaraq məkan mənalı isimlər düzəldir. Məsələn, آرایشگاه (bərbərxana), آزمایشگاه (laboratoriya), اردوگاه (düşərgə), ایستگاه (dayanacaq, stansiya), باشگاه (klub), دادگاه (məhkəmə), دانشگاه (universitet), درمانگاه (müalicə evi, poliklinika), زادگاه (vətən), زیارتگاه (ziyarətgah), فرودگاه (hava limanı), فروشگاه (mağaza), نمایشگاه (sərgi), ورزشگاه (idman zalı)

گاه şəkilçisi bəzən məkan bildirən isimlərlə də işlənir və bu halı bəzi tədqiqatçılar bəzək (زینت), bəziləri isə vurğulama, təkid kimi izah edirlər.

Məsələn, جایگاه، قلغه گاه، منزلگاه، وطن گاه، مشرب گاه، ماوی گاه və s. (9, s.16707-16708)

Müasir fars dilində məkan mənalı söz-şəkilçilərdən biri də xane خانه sözüdür. Məlumdur ki, fars dilində bu söz müstəqil söz kimi "ev" mənasında işlənir, lakin bir çox hallarda bu söz başqa sözlərin ikinci komponenti kimi çıxış edərək sözə məkan mənası verir. Məsələn, کتابخانه (kitabxana), قهوه خانه (çayxana, qəhvəxana) və s.

Tarixən bu söz müxtəlif formalarda (kata/xata; kāna/xāna) çıxış edərək ari dilindəki k(h)an-kan/xan feilindən törəmişdir. Bu feil əsasən iki mənada işlənirmiş: 1) qazmaq; 2) doldurmaq, tökmək, bina etmək, tikmək, damla örtmək. Bəzi fərziyyələrə görə, bu adlar artıq ümumi iran dilində-bir çox dialektlərdə "ev, məkan, yer", bəzi dillərdə isə "dam" kimi leksikləşmiş-dir. (5, s.34)

Yuxarıda deyilənlər belə bir nəticəyə gəlməyə əsas verir ki, müasir fars dilində məkan, yer mənasını ifadə edən şəkilçilər tarixən məkan mənalı sözlərdən törəmişdir və hal-hazırda şəkilçi rolunda qoşulduğu sözlərə məkan çaları verir, başqa sözlə, məkan münasibətlərinin ifadə vasitəsi kimi çıxış edir.

Ədəbiyyat

Rus dilində:

1. Пейсиков Л.С., Очерки по словообразованию персидсого языке, М., 1973

2. Расторгуева В.С., Эдельман Д.И., Этимологический словарь иранских языков, Т.2., М., 2003

3. Савина В.И., Стипах словообразование топонимов Ирана, с.149-174, Топонимика Востока, М., 1964

4.Чхеидзе Т.Д., Именно словообразование в персидском языке, Мецниереба, Тблиси, 1969

5.Эдельман Д.И., Этимологический словарь иранских языков, Т.4., М., 2011

Fars dilində:

6. برهان قاطع، محمد حسین بن خلف تبریزی، جلد سوم، تهران، ۱۳۵۷

7. د.س.راستارگویوا، دستور زبان فارسی میانه، ۱۳٤۷

8. علی اکبر دهخدا، لغت نامه ی دهخدا، جلد هشتم، تهران، ۱۳۷۳

9. علی اکبر دهخدا، لغت نامه ی دهخدا، جلد یازدهم، تهران، ۱۳۷۳

İngilis dilində:

10. Mary Boyce, Gāh, Encyclopaedia İranica, Volume X, New York, 2001

V.Yuzbashyev

Suffixes with location meaning in Persian language

Summary

The article is devoted to the study of meaningful suffixes in Persian language. In the article, suffixes with meaning of location are selected , and their using cases are studied in historical development stages. The way of development in ancient, middle, modern Persian and Avesta language have been shown .Investigation shows that, suffixes with meaning of location, derived from independent meaningful words which means historically meaning of location. The article provides information for both productive and non-productive suffixes. In addition, besides the suffixes, there are also extensive information about the with location meaning . Here are examples of words with location meaning that are drawn through both the suffixes and the word-suffixes.

В.Юзбашев

Окончания, означающие пространство на персидском языке

Резюме

Статья посвящена изучению окончаний на персидском языке, означающим пространство. Здесь выбраны окончания, выражающие пространство, изучены этапы исторического развития обстоятельств их использования. Указан путь развития одного окончания на древнем, среднем, современном персидском языке и на языке Авеста. Исследования свидетельствуют что, окончания, означающие пространство, образовались из слов независимого смысла, исторически выражавших пространственный смысл. В статье выделено место как продуктивным, так и непродуктивным окончаниям. Кроме этого, наряду с окончаниями, представлена подробная информация о словах-окончаниях, выражающих пространство. Здесь представлены примеры относительно слов, означающих пространство, образовавшихся как посредством окончаний, так же и слов-окончаний.

Rəyçi: Anar Kərimov
filologiya elmləri doktoru, professor

SƏADƏT QULİYEVA
ADU
can.suna26@gmail.com

MÜASİR DİLÇİLİKDƏ FONEM NƏZƏRİYYƏSİNƏ DAİR

Açar sözlər: Fonem dərketmə vahididir.
Key words: The phoneme is a unit of cognition.
Ключевые слова: Фонема является единицей восприятия.

Dünyada fonemə eyni şəkildə tərif verən iki dilçi tapmaq mümkün deyil. Lakin buna baxmayaraq, bu və ya digər tərifə yalnız tərif kimi deyil, dilçinin ümumi dünya görüşündən, onun praktik tədqiqatda əsaslandığı prinsiplərdən çıxış etsək, o zaman ümumdünya dilçiliyində bir neçə cəryanın mövcud olduğunu görərik. Qeyd etmək lazımdır ki, bir cərəyan digərindən tədqiqat metodikası və prinsipləri, tədqiqat obyektinə yanaşma xüsusiyyətləri ilə fərqlənir. Alınan nəticələrə gəldikdə isə, bir cərəyan digərindən əsaslı şəkildə fərqlənmir, fərqlənsə də, bu çox cüzü olur. Məsələn, Praqa funksionalistləri ilə Şerba məktəbinin müəyyən bir dilin, fərz edək ki, rus dilinin fonem tərkibinə dair fikirləri demək olar ki, eynidir. Şerba məktəbi rus dilində 41, praqalılar isə 40 fonemin mövcud olduğunu iddia edirlər. Lakin onların bu nəticəyə gəlməsi prinsipləri bir-birindən əsaslı şəkildə fərqlənir.Müasir dilçilikdə ən geniş yayılmış ideya Tvoddelin mikro və makrofonemlər ideyasıdır. Tvoddelə görə, nitqdə tez-tez təkrar olunan formalar vardır:

Auf dem Tische hangt eine Lampe. Die Lampe ist gross. Das Zimmer wird von dieser Lampe gut belenchtet.

Yuxarıdakı misalda (lampa) sözü üç dəfə işlənmişdir. Lakin bunların hamısı tələffüzə görə bir-birindən fərqlənir, məna etibarilə isə eynidirlər. Bu prinsip eyni bir səsin iki dəfə eyni şəkildə tələffüz oluna bilməməsi aksiomuna əsaslanır. Lakin fonoloji cəhətdən bir-birindən fərqlənən formalar da vardır ki, bunlara fonoloji formalar deyilir. Məsələn: [tı:r] və [ty:r] formaları bir-birindən fərqlənir. Bir-birindən minimal fonoloji fərqlərə seçilən formalar nizamlanmış klaslardır. Klasın formaları arasındakı münasibət fonoloji oppozisiyalar əmələ gətirir. Belə oppozisiyaların üzvlərinə mikrofonem deyilir. Fonoloji formaları fərqləndirən elementlər isə makrofonem adlanır. Məsələn, [bant], [lant], [zant], [vant] formaları [b-l-z-v] mikrofonemləri ilə fərqlənir. Bu zəncirdə hər bir fonem isə makrofonem adlanır. Amerika dilçilərindən Q.Qlison və L.Blumfild dilin fonem tərkibini müəyyənləşdirmək üçün iki prinsip irəli sürürlər.

1) Akustik cəhətdən oxşarlıq prinsipi

2) Əlavə distribusiye prinsipi

Akustik cəhətdən bir-birinə oxşar 2 səs o zaman bir fonemdir ki, onlar bir-birini istisna edən mövqelərdə çıxış etsin. Misal üçün aşağıdakı alman sözlərinə müraciət edək:

['kint] ['ku:]
['ki:no] ['ko:lə]
['kenən] ['kalt]

Bütün bu sözlərdə fonetik cəhətdən müxtəlif k səsləri çıxış edir. Birinci sözdəki [k] akustik cəhətdən ikinci və üçüncüdən fərqlənir. Lakin buna baxmayaraq onlar arasında müəyyən oxşarlıq olduğunu heç kəs inkar edə bilməz. Digər tərəfdən həmin səslər bir-birini istisna edən mövqelərdən çıxış edir, yəni [k_1], [k_2] yerində işlənə bilməz və s. Məhz buna görə də Amerika diskriptivçilərinin konsepsiyasında onlar bir fonemin variantları hesab edilir. Amerika dilçilərindən Q.Qlison son nəticədə fonemə səslər sinfi kimi yanaşır. Amerika diskriptivçilərinin nöqsan cəhətlərindən biri də, seqmentlə superseqment vahidləri bir-birindən ayırmamasıdır. Onlara görə, seqment vahidlər kimi, superseqment vahidlər də morfem yaradır və buna görə də, onlar təbii olaraq, intonasiya morfeminin fonem tərkibini müəyyənləşdirməyə çalışırlar. Ton, vurğu, fasilə fonem kimi nəzərdən keçirilir. Qeyd etmək lazımdır ki, intonasiyanın morfem kimi qəbul edilməsi onların seqment və superseqment vahidləri bir-birindən fərqləndirməməsi prinsipindən irəli gəlir ki, bu da doğru deyildir. Çünki, morfem dildə müəyyən mənaya malikdir. Lakin intonasiya başqa fonoloji vahidlər kimi ayrılıqda heç bir mənaya malik deyildir. Praqa funksional dilçilik məktəbi fonetikanı təbiətşünaslığa, fonologiyanı isə humanitar elmlərə daxil etməklə, dilin səs tərkibi haqqında iki elmin mövcud olması qənaətinə gəlib çıxır. Fonologiya sahəsində ilk böyük əsərin müəllifi H.C. Trubetskoyu bəzi dilçilik mənbələrində əsassız olaraq fonologiyanın atası adlandırırlar. Halbuki H.C.Trubetskoyun özü həmin əsərdə Boduenin və Şerbanın fonologiya sahəsindəki xidmətlərini qeyd edir. Lakin fonem anlayışını, fonemin dildəki yükünü H.C.Trubetskoy əsasən fransız və isveçrəli alim F.De Şöşçürün "Dildə ziddiyyətdən başqa bir şey yoxdur" prinsipinə əsaslanaraq işləyib hazırlayır. Fonem nəzəriyyəsindən danışarkən, Danimarka struktur dilçiliyi nümayəndələrindən L.Yelmslevin təlimi üzərində dayanmaq lazımdır. L.Yelmslev öz müəllimi F.De Şöşçürün ardınca gedərək ifadə olunanlar və ifadə edənlər adı altında dildəki vahidləri iki yerə bölür. Bunların hər birində forma və substansiyanı bir-birindən ayırır. L.Yelmslevə görə dilçilik sırf forma ilə, həm ifadə olunan, həm də ifadə edənin forması ilə məşğul olmalıdır. Dilçiliyi ifadə olunanın və ifadə edənin substansiyaları maraqlandırmır. Dilin sırf formasını L.Yelmslev "linqvistik sxem" adlandırır. Linqvistik sxem dilin daxili mənzərəsini

təşkilm edir və o, səslərdən və onların mənasından asılı deyildir. Sovet dilçilərindən S.K.Şaumyan L.Yelmslevin nəzəriyyəsini davam etdirir. Sovet dilçiliyində Şerba məktəbi ilə bərabər Moskva məktəbi də mövcuddur. Moskva məktəbi İ.A.Baduen de Kurtenenin ilk morfoloji görüşlərini davam etdirir. Moskva məktəbi fonoloji təhlildə fonemlə morfemin eyniyyəti prinsipindən çıxış edərək, dildəki morfemlərin fonem tərkibinin həmişə eyni olduğunu iddia edirlər. Ona görə də onlar fonemləri güclü və zərif mövqelərdə axtarırlar. Məsələn, alman dilində [vint] və [vində] sözlərndə eyni morfem [vint]-vind olduğu üçün onlardakı [t] və [d] səsləri də bir fonemin variantları sayılır. Bunlar arxifonemin real nitqdə realizə formaları hesab edilir. Arxifonem bir cüt fonemə məxsus olan relevant əlamətlərin məcmusudur. Deməli, [i] və [d] fonemlərini xarakterizə edən əlamətlərin məcmusu bu fonemlərin arxifonemini və ya hiporfonemini yaradır. Elə buna görə də Moskva məktəbinin nümayəndələri bəzi hallarda tələffüz olunan sözdə hansı fonemin mövcud olduğunu müəyyənləşdirə bilmirlər. Maraqlıdır, dildə [t] və [d] fonemləri mövcud olduğu halda niyə [vint] sözündə [t] fonemi, [vində] sözündə isə [d] fonemi çıxış edir. Eyni morfemdə müxtəlif fonemlərin olmasını Şerbanın fonemlərin əvəzlənməsi prinsiplərindən çıxış edərək izah etmək olar.

Dil vahidləri, o cümlədən formenlər, bir-biri ilə sıx əlaqə, bir-birindən sıx əlaqə, bir-birindən asılılıq prinsipi əsasında təşkil olunmuş bir bütöv və ya sistem yaradır. Fonem sistemindəki vahidlərin fəaliyyət göstərməsi üçün onların maddi qabığa – səs qabığına malik olması vacibdir. Əks təqdirdə, həmin fonemlər ünsiyyət vasitəsi kimi ən mühüm vəzifəni yerinə yetirə bilməz. Fiziki keyfiyyətləri ilə bir-birindən fərqlənən səslər əslində danışıqda bu və ya digər fonemin reprezentantı kimi çıxış edir. Müəyyən bir dil kollektivinin bütün üzvləri həmin dildəki fonemlərin allofon fərqlərini çətinlik çəkmədən seçə bildiyi üçün danışıqda realizə olunmuş fonemi asanlıqla tanıyır, fonemlərin danışıqdakı əlaqələrindən çıxış edərək verilən məlumatı başa düşür. Dil işarələr sistemi olsa da, bu digər işarə sistemlərindən əsaslı şəkildə fərqlənir. Məhz dilçilik elmi semiotikanın öyrəndiyi digər sistemlərdən fərqli olaraq fiziki varlığı səslərdən ibarət olan sistemi öyrənir. Fonemlər təklikdə, təcrid edilmiş şəkildə çıxış etmir. Çox nadir hallarda bu və ya digər dildə məlumat yalnız bir fonemin intokasiya tipində realizə olunması ilə verilir. Məsələn, Azərbaycan dilində "Kim oxuyur?" – "O" dialoqunda cavabda yalnız bir fonem realizə olunmuşdur. Azərbaycan dilində çox nadir halda bir fonem morfem, söz, cümlə kimi çıxış edir. Fonemlərin morfem kimi çıxış etməsinə Azərbaycan dilində yönlük və yiyəlik hallarında, fel şəkillərində və s., alman dilində cəm və hal şəkilçisi kimi [ə] və birləşdirici element kimi [s], rus dilində hal və cəm şəkilçisi kimi, habelə ayrı-ayrı söz kimi [u, a, y, b] və s. rast gəlmək olur. Lakin əksər

hallarda morfem, söz və cümlələr bir neçə fonemin ardıcıllığıdır. Odur ki, fonemlər bir-biri ilə əlaqəyə girdiyindən ciddi dəyişikliklərə uğrayır. Fonemin dəyişikliyə uğramasında vurğunun intonasiyanın, onu əhatə edən qonşu fonemlərin, habelə danışan şəxsin sosioloji-linqvistik inkişafı mühüm rol oynayır.

[vi:r kempfən um de:n fri:dən]

Wir kempfen um den Frieden.

Burada cəmi 20 fonem bir-birinin ardınca düzülmüşdür. Onlardan [n]-3, [r]-2, [ə]-2, [m]-2, [d]-2, [i]-2 dəfə təkrar olunur, hər dəfə də müxtəlif mövqelərdə, məsələn, [i] fonemi birinci dəfə cümlənin əvvəlində, dodaq-diş samiti ilə xirtdək samitləri arasında vurğulu mövqedə gəlmişdir. Şübhəsiz bu iki [i] arasındakı fonetik fərq çox böyükdür, onlar akustik cəhətdən bir-birindən əsaslı şəkildə fərqlənir, lakin fonoloji cəhətdən hər ikisi bir fonemin [i]-nin funksiyasını yerinə yetirir.

Digər tərəfdən, həmin fonemlər onları realizə edən danışanın spesifik fərdi xüsusiyyəti ilə əlaqədar olaraq, dəyişikliyə uğrayır. Birinci növ dəyişikliyi L.R.Zinder kombinator, ikinci növü isə fərdi dəyişiklik adlandırır.

R.Yakobson, M.Halle, Q.Fait öz əsərlərində sübut etmək istəyirdilər ki, bütün dillərin fonem tərkibini akustik əlamətlərdən çıxış edərək təsnif etmək olar. Bu təsnif fərqləndirici əlamətlərin ikili (dizotomik və ya binar) prinsipinə əsaslanır. Onlar ümumiyyətlə on iki fərqləndirici əlamət mövcud olduğu prinsipini irəli sürmüşlər və qeyd etmişlər ki, elə dil ola bilər ki, orada bu əlamətlərin heç də hamısı iştrak etməsin. Həmin müəlliflərə görə fonem differensial əlamətlər məcmusudur. Göründüyü kimi bu tərif Trubetskoyun tərifini xatırladır.R.Yakobson, M.Halle, Q.Fait aşağıdakı əlamətləri irəli sürürlər:

1) Saitlilik – qeyri-saitlilik
2) Samitlilik – qeyri-samitlilik

Ədəbiyyat

1. L.B.Şerba: Русские гласные в качественном и количественном отношении.
2. O.Ch.Zacher. Deutsehe Phonetik.
3. T. Siebs. Deutsche Aussprache.
4. L.R.Zinder. Общая фонетика.
5. Q.Qlison. Введение в дескриптивную лингвистику.
6. N.S.Trubetzkoy. Grundzüge der phonologie.

С. Кулиева

О теории фонемы в современной лингвистике.

Резюме

В мировой лингвистической науке учителем теории фонемы является Щерба. Щерба отмечает, что фонемы, а также звуковой состав языка обладают самостоятельностью. Значит звуки сами по себе, не носящие никакое значение, в составе определенных слов способствуют образованию различных значений. После проведенных исследований Щерба приводит к выводу, что все фонемы в языке обладают определенной самостоятельностью. А также Щерба доказал, что фонема является единицей восприятия. В мире нельзя найти и двух лингвистов, давших одинаковое определение фонема. Тогда в общемировой лингвистике следует выделить несколько концепций. Нужно отметить, что одна концепция от другой не различается исследовательской методикой и принципами, а также особенностами отношения к обьекту исследования. В итогах полученных результатов одна концепция от другой в основательной форме не различается. Школа Щербы утверждает о налиции 41 фонемы, а пражская фонологическая школа 40 фонем.

S.Gulijeva

The phoneme theory in the modern linguistic.

Summary

Sherba is the founder of phoneme theory in world linguistic science. Sherba writes that phonems as well as the sound system of a language have is of independent character. Hence the sounds provides to create new meanings within the certain words having no meaning independently. After the investigation carried on Sherba came to the conclusion that all the phonemes in the language are independent. At the same time he proved that phoneme is a unit of cognition. It is impossible to find two linguistic scholars in the world, who give the same definition to a phoneme. So it is put forward that there are several linguistic school differs from the other one for its methods and principles of investigation as well as for the features of approaching the investigated object. As for the results, one linguistic school doesn't fasically distinguish from the other. The Sherba linguistic schools insists on having 41 phonemes in Russian while the Prague linguistic schools keeps on the existence of 40 phonemes.

Rəyçi: Aida Sabor
Filiologiya elmləri namizədi, dosent

BÖYÜKXANIM EMİNLİ
Sumqayıt Dövlət Universiteti
eminli@mail.ru

EMOSİONALLIĞIN LEKSİK İFADƏ VASİTƏLƏRİ

Açar sözlər: emosiya, emosianallıq,ekspressivlik, leksika ,qiymətləndirici sözlər.
Ключевые слова: эмоция, эмоциональность, лексика, оценочные слова.
Key words: emotion, emotionalism, expressiveness, lexis, evaluating words

Emosiya (latınca "emoverre" - həyəcan keçirmək deməkdir) insanın üzvi tələbatının təmin olunub-olunmaması ilə bağlıdır. Emosiya canlı varlığın, orqanizmin vəziyyətini və xarici təsirlərinin bioloji önəmini müəyyənləşdirmək tələbatı ilə bağlıdır. Hiss və emosiyalar həm də insan davranışını tənzim edən psixi fəaliiyət formasıdır. Emosiyaları hisslərin təzahür formaları kimi başa düşmək lazımdır. Emosiyaların inkişafının ali səviyyəsi davamlı hisslərdir. İnsanlar öz hisslərini emosiyalar formasında yaşayırlar. Emosional fəallıq olmadan hər hansı mürəkkəb fikri və praktik məsələnin həlli subyektiv surətdə mümkün deyildir. Odur ki, hər hansı mürəkkəb məsələ iki planda həll edilir: *1) emosional, 2) intellektual.*

Məsələnin emosional planda həlli, onun intellektual planda həllini surətləndirir. Belə ki, emosiyalar idrak proseslərini nəinki fəallaşdırır, həm də problemlə bağlı qavrayışın, hafizənin, təfəkkürün məzmununa seçici təsir göstərir.Emosiyalar insan həyatının əsas aspektlərindən biridir. Emosiyalar insan həyatına daxil olur, onun istənilən fəaliyyətinə bələdçilik edir, insan həyatının mövcudluğunun mühüm tərəfidir. Orqanizmin praktik olaraq, istənilən fəaliyyət növlərini bələdçilik etməklə emosiyalar həyəcan formasında hadisə və situasiyaların əhəmiyyətini əks etdirir, eləcə də şəxsiyyətin aktual tələbatlarının təminatına istiqamətlənmiş psixi fəaliyyət və davranışlarının daxili tənzimlənməsinin əsas mexanizmlərindən biridir.

Qədim zamanlardan müxtəlif elm sahələrinin alimlərini emosiyalarla bağlı məsələlər maraqlandırır: emosiyaların dünyanı dərketmədə rolu, sözün leksik mənasında onun yeri, fiziologiya, psixologiya, fəlsəfə. dilçilik və s. mövqelərdən emosiyaların statusu, onların intellektual, rasional, qiymətləndirici və ekspressiv tərəflərlə münasibəti və s.Emosiyaların öyrənilməsində psixoloji və psixolinqvistik elmi tədqiqatı ilk növbədə insan fəaliyyətində emosiyaların funksiyalarının tədqiqinə istiqamətləndirirlər. Psixoloq alimlər tərəfindən dəfələrlə emosiyaların təsnifinə cəhdlər göstərilmiş, müxtəlif

bölgülər təqdim edilmişdir. Elmi pozisiyaların dəqiqliyinə baxmayaraq, psixoloqların fikrincə, emosiyaların öyrənilmə vəziyyəti qənaətbəxş deyil. İnsanın emosional təcrübəsinə aid olan bir çox məsələlərin cavabını tədqiqatçılar çox zaman hər şeydən əvvəl, emosiyaları əks etdirən, emosiyalarla rənglənmiş, və ya emosiyalar haqqında informasiya daşıyıcısı olan "emosional leksika" adlanan dil vahidlərində tapırlar.Beləliklə, emosiyalar psixoloji nəzəriyyəsinin çətin və həll olunmamış məsələlərini nəzərə alaraq dilçi ilk növbədə emosiyaların dillə ifadə mexanizmlərini tədqiq etməlidir. İnsan emosiyalarını əks etdirən vasitələrin linqivistik təhlilinin zəruriliyi problemin araşdırılmaması və həll edilməməsi ilə, bugünə qədər də emosiyaların dillə ifadəsinin kifayət qədər tədqiq edilməməsi ilə bağlıdır.Məlumdur ki, dilin əsas xüsusiyyətlərindən biri kommunikativ funksiyadır ki, bu da yalnız insan fikirlərini ifadə etmək üçün xidmət göstərmir. Dil, eyni zamanda söyləmə münasibətləri (hiss, iradə, qiymətləndirmə və s.) əks etdirir. Dilin həm də ekspressiv funksiyasını da qeyd etmək lazımdır ki, bu da danışanın emosional vəziyyətini, onun əşya və hadisələrə subyektiv münasibətini ifadə edir.Biz ünsiyyətdə olduğumuz insanların hansı hisslər keçirdiklərini onların sifət cizgilərindən, bədən hərəkətlərindən, səsindən aydın duya bilərik. Adətən, insanın razı və narazı olması, sevinc və kədəri, narahatlığı, pərt olması, utanması və qorxması və s. onun sifət cizgilərində, bədənin ifadəli hərəkətlərində, eləcə də səsində əks olunur.İnsanın keçirdiyi hisslər onun nitqində də öz ifadəsini tapa bilir. İnsan müəyyən hadisəyə münasibətini nitqinin intonasiyası ilə ifadə edə bilir. (Məsələn, *Necə?* Sözünü müxtəlif intonasiya ilə ifadə etməklə). Beləliklə, mimika, pantomimika, jestlər, intonasiya, kinesika və proksimika qeyri-verbal ünsiyyət vasitəsi kimi emosiyaları təzahür edir.

Məlumdur ki, müxtəlif mədəniyyətlər üçün emosiyalara müxtəlif münasibətlər məxsusdur. Belə ki, emosiyaların ifadəsi olan mimika üst-üstə düşsə də, onun yol verilən ifadəsinin dərəcəsi fərqlənir. "Emosional etiket" qaydalarına ümumi mədəniyyət normaları ilə yanaşı, bu və ya digər emosiyanın mədəniyyətdə necə qiymətləndirilməsi də təsir göstərir. İstənilən fəlsəfi və dini model müxtəlif emosiyaların etik qiymətini təklif edir. Müvafiq olaraq, mədəniyyətdə bu və ya digər emosiyalara yaxşı, düzgün, qəbul olunan (məsələn, *minnətdarlıq, təəssüf*) və ya pis, düzgün olmayan, qəbul olunmayan (məsələn, *paxıllıq, qəddarlıq*) münasibət formalaşır.Təbii ki, bu və ya digər mədəniyyətdə etik cəhətdən qəbul olunan emosiyalar dilin daşıyıcıları tərəfindən daha açıq şəkildə ifadə olunacaq, nəinki etik cəhətdən az qəbul olunan emosiyalar. Yəni bu və ya digər mədəniyyətdə emosiyaların etik qiymətləndirilməsi onun dildə ifadəsinə təsir göstərir. Belə ki, emosiyanın mədəni və dil obrazı arasındakı münasibət bir o qədər də birmənalı deyil. Məsələn, Azərbaycan mədəniyyətində mənfi hal

kimi qiymətləndirilən paxıllıq emosiyası dildə kifayət qədər sərbəst ifadə olunur, hətta bəzi kontekslərdə danışanın emosiyasının mənfi dəyərləndirilməsi də yoxdur. Məsələn, *"Mən sənin çox dil bilməyinə həsəd aparıram"*. Digər tərəfdən, neytral və ya etik cəhətdən müsbət qiymətləndirilən bəzi emosiyalar məsələn, təəssüf, abır, həya (utancaqlıq) dil nöqteyi- nəzərindən daha az qəbul olunan emosiya ola bilər. Məsələn, *Mən utanıram – Mən sənə görə utanıram. Mən sənə görə xəcalət çəkirəm.*

Deməli, hər hansı bir dildə bu və ya digər emosiyanın linqvistik ifadəsi onun müvafiq mədəniyyətdə yalnız etik cəhətdən qiymətləndirilməsinin deyil, həm də qismən psixoloji, qismən mədəni, qismən də dil faktlarının nəticəsi kimi mövcud olur.

Emosiyaların dildə ifadə vasitələri müxtəlifdir. Onların hamısı dil nöqteyi-nəzərindən qəbul olunmuş emosiyaların müəyyənləşdirilmə kriteriyası ola bilməz. Onlar arasında minimum dörd tip müəyyən etmək olar:

1. Mütəhərrik vasitələr- konkret emosiyalar toplusuna yapışmış və ya bərkidilmiş Ifadə vasitələri-emosional nidalar *(ah, oh, ba//pah- təəccüb; fu-* iyrənmək). Bunlar emosiyaların vokallaşması ilə əlaqə və müəyyən ifadə vasitəsi ilə, ("fu" nidasını tələffüzündə burnu qırışdırmaqla (yığmaqla)) müşayiət oluna bilər.2. Sərbəst-kontekstual motivləşmiş ifadə vasitələri. Məsələn, emosiya mənası daşıyan feilin tətbiqi ilə ifadə olunan vasitəsiz nitq. *(Məsələn, "Get, cəhənnəm ol"-o hirsləndi", "Əvvəl niyə susurdun?"- o təəccübləndi və s.)*

3. Bu və ya digər emosiya toplusuna bərkidilmiş xüsusi sözlər. Onların bəzisi nidalara yaxınlaşır. Məsələn, heyfsilənmək- *"yazıq"*, "məmnunluq- *"əla"*, qorxu- *"dəhşət"*.

4. Sabit Konstruksiyalar- bunlarda emosiya birbaşa adlandırılır, onların tətbiqi müxtəlif emosional sözlərə xasdır. (Məsələn: *Mən qəmginəm. Mən kədərlənirəm. Mən də minnətdarlığımı bildirirəm.* və s.)

Bu və ya digər emosiya nə qədər daha çox konstruksiya ilə ifadə oluna bilirsə, deməli, onun dil nöqteyi-nəzərdən qəbul olunma dərəcəsi də bir o qədər yüksək olur.

Dil emosiyaların ifadə vasitəsidir. Biz təfəkkürümüzlə dünyanı dərk edir və təəssürat, fikir, emosiya və münasibətlərimizi dil vasitəsilə ifadə edirik. Emosiyaların verbal ifadə vasitələrinə aiddir:

1.Leksik vasitələr, 2. Morfoloji vaitələr, 3. Üslubi vasitələr, 4. Sintaktik vasitələr, 5. Təsviri -ifadəli vasitələr, 6. Nitq intonasiyası

Bu məqalədə emosiyaların leksik ifadə üsullarından bəhs olunacaq. Belə ki emosional leksikanın tərkibinə 3 qrup söz daxildir.

1. İnsanlar birmənalı xarakteristika verən fakt, hadisə və əlamətlərin dəyərini əks etdirən sözlər: *heyrətamiz, məğlubedilməz, (fərəh,*

sevinc emosiyaları), xoşagəlməz, yaltaq, əziz-xələf və s. (bəyənməmək emosiyaları). Belə sözlər məcazi mənada işlənmir.

2. Məcazi mənada emosional çalar almış çoxmənalı sözlər: İnsanın xüsusiyyətini müəyyən edərkən onun haqqında bu sözləri demək olar: *saqqal, tülkü, qurumuş* və s.

3. Müxtəlif çalarlar ifadə edən sözlər: *əzizim, canım, qızcığazım, anacan* (müsbət emosiyalar*), astagəl, ağciyər, qorxaq, alçaq* (mənfi emosiyalar)

Leksikanın emosianallığı çox zaman xüsusi ifadəli ekspressiv leksika ilə ifadə olunur.

Ekspresivlik-ifadəlilik, güc, hisslərin, həyəcanların verilməsidir. Məsələn: *yaxşıdır* sözünü sevinc, fərəh mənasında *gözəl, füsunkar, heyranedici* sözləri ilə əvəzləmək olar. Emosional gərginlıiyin dərəcəsindən asılı olaraq, söz bir neçə ekspressiv sinonimliyə malik ola bilir: *bədbəxtlik-qəza, coşğun-səbrsiz, qəzəbli, kədər-qəm, qüssə, dərd* və s.

Emosional çalarlarına görə aşağıdakı sözlər seçilir: poetik sözlər, familyar sözlər, vulqar sözlər, söyüş və qarğış ifadə edən sözlər və s. **Poetik sözlər** yüksək obrazlılığa, emosianallığa malik sözlərdir. Bu qəbildən olan söz qrupları daha çox bədii əsərlərdə, şeir nümunələrində istifadə olunur. Məsələn, *əfsus, əcəb, seyranə çıxmaq, süzmək, telli saz, günəş saçaqları, mavi, meh, can üzmək, təravətli, səadət* və s. (2.137)

Familyar sözlər yaxın münasibətləri əks etdirən ifadələrdir. Məsələn, *əzizim, canım, gözümün işığı, qadası, bircəciyim, qızcığamız,can-ciyər, anacan* və s. Bu sözlər eyni zamanda imperativ xarakterlidir. Məişət üslubunda daha geniş istifadə olunur. Ədəbi danışıq üslubunda, bədii üslubda da tətbiq olunur.

Vulqar sözlər kobud, qeyri-ədəbi sözlərdir. Məsələn, *veyillənmək (gəzmək), goplamaq (danışmaq), kaftar (qoca), donquldamaq –danışmaq*. Məsələn, *Dərhal quyruq bulamağa başlamısan. (İ.Hüseynov). Küt oğlu, küt, yenə başladı həzrətləri (C.Cabbarlı)*

Prof. B.Xəlilov vulqar sözləri iki yerə ayırmışdır:

I. Kobud xarakterli vulqar sözlər: Məsələn, *tıxmaq (yemək), heyvərə (çox danışan), boşbağaz, gəbərmək, rədd ol, zırrama, ifritə, acgöz, yekəbaş, itil, hırıldamaq, sülənmək, küpəgirən, cəhənnəmə vasil olmaq və s.*

II. Söyüş xarakterli vulqar sözlər. Məsələn: *nadürüst, qurumsaq, bədbəxt oğlu bədbəxt, itin balası, köpəkoğlu, qoduq balası, axmaq oğlu axmaq, it oğlu* və s.(2.136)Dildə hiss və emosiyaları daha bariz ifadə edən sözlər nidalardır. Nidalar öz məna və vəzifələrinə görə iki qrupa ayrılır:

1.Emosionallıq bildirən nidalar

2.Çağırış bildirən nidalar

Emosional nidalar şadlıq, sevinc, qorxu, arzu, həzz, tərif, zövq, yalvarış, rəhm, narazılıq, şikayət, təəssüf, heyrət, təəccüb, ağrı, yorğunluq, qəzəb, nifrət, tələş, iztirab, istehza, kədər və s. kimi mənalar ifadə edir. Emosionallıq ifadə edən nidalar çoxdur. Nidaların əksəriyyəti bu qrupa daxildir. Ah, aha, ox, oh, oha, oy, uy, buy, boy,bah, pəh, vah, tfu sözlərinin hamısı emosionallıq bildirən nidalardır. Tələffüz və situasiyadan asılı olaraq, müxtəlif nidalar yaxın mənalar ifadə edə bilir. Məsələn: ah, uf, of, ux, uy, vay və s. kimi nidaların hamısında ağrı-yorğunluq mənası müşahidə etmək mümkündür. Bunun əksinə olaraq, eyni bir nida müxtəlif mənalar ifadə edə bilər. Məsələn, bəh-bəh nidası sevinc-tərif məqamında işləndiri kimi, kinayə, istehza məqamında da işlənir: *Bəh-bəh, əcəb gözəl havadır! Bəh-bəh, yamanda vaxtında gəlib çıxıbsan.*Beləliklə, insanın həyat fəaliyyəti müddətində yaşadığı hiss və emosiyaların dildə ifadə vasitələri çox genişdir və bu sırada leksik ifadə vasitələri xüsusi yer tutur.Emosiyaların öyrənilməsində psixoloji və psixolinqvistik elmi tədqiqatı ilk növbədə insan fəaliyyətində emosiyaların funksiyalarının tədqiqinə istiqamətləndirirlər. Psixoloq alimlər tərəfindən dəfələrlə emosiyaların təsnifinə cəhdlər göstərilmiş, müxtəlif bölgülər təqdim edilmişdir. Elmi pozisiyaların dəqiqliyinə baxmayaraq, psixoloqların fikrincə, emosiyaların öyrənilmə vəziyyəti qənaətbəxş deyil. İnsanın emosional təcrübəsinə aid olan bir çox məsələlərin cavabını tədqiqatçılar çox zaman hər şeydən əvvəl, emosiyaları əks etdirən, emosiyalarla rənglənmiş, və ya emosiyalar haqqında informasiya daşıyıcısı olan "emosional leksika" adlanan dil vahidlərində tapırlar.Beləliklə, emosiyalar psixoloji nəzəriyyəsinin çətin və həll olunmamış məsələlərini nəzərə alaraq dilçi ilk növbədə emosiyaların dillə ifadə mexanizmlərini tədqiq etməlidir. İnsan emosiyalarını əks etdirən vasitələrin linqivistik təhlilinin zəruriliyi problemin araşdırılmaması və həll edilməməsi ilə, bugünə qədər də emosiyaların dillə ifadəsinin kifayət qədər tədqiq edilməməsi ilə bağlıdır.

Ədəbiyyat

1.Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, II cild. "Şərq-Qərb", Bakı, 2006

2.Xəlilov B.Ə. Müasir Azərbaycan dilinin leksikologiyası. "Nurlan", Bakı, 2008

3.Адамчук Т.В. Тематизация в тексте (на материале современского англйского языка); дис. …конд. филол. наук/ Т.В.Адамчук, Саранск, 1996, 89с.

4.Буянова Л.Ю., Нечай Ю.Л.Эмотивность и эмоциогенность языка: механизмы эксплизации и концептуализации: монография, Краснодар, Кубанский государственный ун-т, 2006г, 277с.
5.Жельвие В.И. Эмотивный аспект речи. Ярославь, 1990
6.Шаховский В.И. Категоризация эмоций в лексико- семантической системе языка. Воронеж, 198

Б. Эминли

Лексические средства выражения эмоциональности

Резюме

Данная статья посвящена проблеме языкового выражения и языкового обозначения эмоций. В статье освещаются выделении и классификации эмоциональной лексики языка, а также проводится анализ лексических средств, выражающих эмоциональное состояние.

Эмоциональные процессы изучают в различных науках: философии, психологии, лингвистике. Лингвистика позже других наук обратилась к изучению сферы эмоционального. Язык является средством выражения эмоций. Мы познаем мир посредством мышления и пользуемся языком для выражения своих впечатлений, мнений, эмоций, восприятия.К вербальным способам выражения эмоций относятся: лексические способы, морфологические, грамматические, стилистические, синтаксические, изобразительно-выразительные средства, речевые интонации.

B.Eminli

Lexical expressing meanings of emotionalism

Summary

This article deals with the expressing emotion by language. The classification of emotionalism lexis and their division are given in the article. As well, the lexis units expressing emotional case have been analyzed.

Emotional process is studied in different fields: philosophy, psychology, linguistic. Linguistic addressed to emotion sphere at the end. Language is the means of praise. We understand the world by the help of our thought, and we express our emotion by the language. Lexical, morphological, grammatical, style, syntactical, descriptive expressing means, speech intonation are belong to verbal expressing means of emotions.

Rəyçi: dosent Əzəmət Rüstəmov

AYGUN İBRAHİMOVA
ADU
email: Aygunibrahimova@yahoo.com

İKINCİ DİLİNİN TƏDRİSİ ZAMANI MAHNILARDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

Açar sözlər: ünsiyyət, motivasiya, bacarıq
Key words: comunication, motivation, ability
Ключевые слова: коммуникация, мотивация, компетенция

Müasir dövrdə mahnılar hər yerdədir. Teatrlarda, restoran və kafelərdə, maşınlarda, avtobuslarda, ticarət mərkəzlərində, idman zallarında bir sözlə hər yerdə. Görünür ki, mahnının ən az eşidildiyi və ya işləndiyi yer də elə məktəbdir.(8, p.4) Məktəb isə mahnılardan istifadə ediləcək ən mühüm yerdir.Son zamanlar aparılan təcrübələr göstərmişdir ki, tələbələrin motivasiya və maraqları dil öyrənmədə ən mühüm faktordur. Öyrənmənin effektivliyinin və tələbələrin motivasiya və maraqlarının artırılmasının bir çox yolları vardır. Mahnılar, kinolar, maqnitafonlar, komediyalar, qəzetlər və jurnallar müəllim və tələbələrə tanışdır və gündəlik həyata yaxın olduğundan çox effektivdir.Müəllimlər şagirdlərin dili daha yaxşı qavramaları üçün onların maraqlarını və intellekt səviyyələrini saxlamalıdırlar.Çünki uşaqlar kiçik yaşlarından etibarən çətin anlarında, hisslərini digər insanlarla bölə bilmədikdə musiqi onların köməyinə çatır.Onların çətinliklərdən qaçmalarına, problemlərini unutmaqlarına kömək edir. Musiqi insanın ruh halının güzgüsüdür. Həmin an insanın necə hiss etdiyini göstərir. Bir çox mahnılar insanların real həyatdakı hisslərindən ağrı, şənlik, xöşbəxtlikdən bəhs edir. Ona görə də, biz musiqini dinləyərkən anlayırıq ki,biz tək deyilik, bizimlə eyni hissləri yaşayan insanlar da vardır.Bu isə bizə göstərir ki, niyə məhz musiqi ikinci dili tədris edərkən tətbiq edilməlidir. Müəllimlərin mahnılardan dərsdə istifadə etmələrinin müxtəlif səbəbləri vardır. Əsas səbəblərdən biri mahnıların sinifdə yaratdığı müsbət auradır. Xarici dil tədris edən müəllim yaradıcı və müasir olmalı, tədris prossesini maraqlı və təsirli etməlidir. Digər səbəb mahnıların şagirdləri yeni fəaliyyətə hazırlaya və ya ən azından vaxt limitini doldurmağa kömək edə bilər. Müasir mahnılar yeniyetmə və şagirdlərin problemləri ilə əlaqədar olduğundan şagirdlər mahnıları daha yaxşı mənimsəyir və sözlərini başa düşürlər.Didaktik cəhətdən isə mahnılar şagirdlərin xarici dilin ritmi ilə tanış olmağına səbəb olur. Hətta bəzən həmin dilin məxsus olduğu ölkənin mədəniyyəti ilə tanış olmağa bizə şərait yaradır. Mahnılar fonetika, qrammatika və lüğət fondunu genişlətmək üçün istifadə edilə bilər. Mahnıların mədəni əhəmiyyəti də vardır. O insanları və

mədəniyyətləri birləşdirir. Nevroloqların bir çoxuna əsasən mahnılar və dil öyrənmə prossesləri insan beyninin eyni sahəsində meydana gəlir və onlar paralel şəkildə inkşaf edirlər. Mahnıların ikinci dil öyrənmədəki əhəmiyyəti inkşafedəndir.Birincisi mahnı linqvistik elementləri lüğət, qrammatika, sintaksisi öyrədir. Mahnı sözlərinin öyrənilməsi tələbələrin lüğət fondunu surətlə artıra bilər, frazaları oxumaq isə lüğəti daha yaxşı genişləndirməyə imkan yaradır. Mahnılar həmçinin linqvistik və paralinqvistik elementləri, aksent və tonları, tələffüsü inkşaf etdirməyə kömək edir.Xüsusən də mahnılar tələbələri yeni mədəniyyətlərlə əlaqələndirir və bütöv yeni dünyanı onlara açır.Bu da dünya dillərini öyrənməkdə niyə mahnıların vacıb olduğunu göstərir. Bir çox mahnılar vardır ki, dilə və mədəniyyətlərə, adət ənənəyə, tarixə aid olur.Bu mahnılar isə dili və mədəniyyəti eyni anda öyrənməyə səbəb olur.Günümüzdə işlənən ifadələr, metaforalar da mahnılar vasitəsi ilə öyrədilə bilər. Bu isə müəllimlər və şagirdlər üçün daha maraqlı bir üsulla ifadələrin öyrənilməsinə kömək edə bilər.Bir çox mahnılar bizə hekayə danışır. Bir çox mahnılar isə şagirdlərin öz söz və ifadələrindən istifadə edərək ətafında danışmaları üçün mükəmməl olur. Mahnılar vasitəsilə şagirdlər özlərini daha təsirli bir şəkildə ifadə etməyi öyrənirlər. Çünki mahnı sözləri bir çox hallarda bir vasitə kimi istifadə edilə bilər.Beləliklə mahnılar dilin tədrisində tətbiq edilə bilər və edilməlidir də. Cünki, mahnılar insanların hafizəsində daha asan qalır və şagirdlər mahnılar vasitəsi ilə daha artıq məlumat qəbul edirlər.Mahnılar insan beyninə daha tez təsir etdiyindən o şagirdlərin daha yaxşı öyrənməsinə imkan yaradır.Səslər dalğalar şəklində qulağımızdan keçərək sinir impulslarına çevrilirlər. Bu impulslar hiss, yaddaş, öyrənmə funksiyalarının inkşafı üçün istifadə edilirlər. Bu isə niyə ikinci dilin tədrisində musiqinin əhəmyyətli olduğunu göstərir. Bəs niyə musiqidən istifadə etməli?1.Mahnı adətən ünsiyyət tonunda işlənir və bu günün lüğəti ilə zəngin olur.2.Mahnı sözləri adətən təkrarlanır, bu da tələbələrə şifahi mətni anlamağa kömək edir.3.Mahnıların ritmi və tez-tez təkrar sözlərin işlənməsi şagirdlərə lüğət fondlarını bərkitməyə, qrammatik quruluşları öyrənməyə xüsusi səy göstərmədən təkrarlamaqlarına şərait yaradır.4.Mahnılar müzakirəyə və tərcüməyə açıq olur və ünsiyyətin başlanmasına şərait yaradır.5.Ritmik elementlər xarici dilin prosodisini gücləndirir.

Müəllimlərin bir çoxu ikinci dilin tədrisində kitablaradan daha çox istifadə edərək digər fəaliyyətlərə daha az vaxt ayırırlar. Ikinci dili öyrənməyə başladıqda musiqidən ümumi dil fəaliyyəti kimi istifadə edilərsə şagirdlərin dərsə marağı daha da artar.Yuxarıda göstərdiyimiz kimi mahnıların istifadəsi zamanın hədər israf edilməsi deyil, dərsin daha səmərəli olması üçün bir fəaliyyət növüdür. Bir çox şagirdlər dərs zamanı dildən istifadə etməyə çətinlik çəkirlər və ikinci dil şagirdlər tərəfindən yalnızca kitabdan mətni oxuduqda və ya suallara cavab verərkən istifadə edilir.Mahnılar

şagirdləri gərgin dərs mühitindən uzaqlaşdırır və onların zövq almaları və dərs zamanı dincəlmələrinə şərait yaradır.Bütün gənclər musiqi dinləməyi və mahnı oxumağı sevirlər. Şagirdlər təbii olaraq ikinci dildən dərsdə və sinif otağından kənarda istifadə etməlidirlər. Buna görə də müəllim çalışmalıdır ki, dərs zamanı mümkün olduğu qədər çox ikinci dildən istifadə etsin. Bu halda mahnılar müəllimlərin köməyinə çata bilər. İbtidai siniflərdə əlifba, rəqəmlər, rənglər, aylar, fəsillər, bədən üzvləri və s mahnılar vasitəsi ilə asanlıqla öyrədilə bilər. Dil öyrənmə aşağı sinifdən başlayır. Şagirdlər əsasən əlifbanı aşağı yaşlarından öyrənirlər. Hər bir şagird öz dilində əlifbanı bildiyindən onlara başqa dilin əlifbasını nə qədər fərqli olduğuna baxmayaraq öyrətmək asan olur. Əlifbaya aid mahnını dinləməmişdən qabaq müəllim əlifbanı şagirdlərlə birlikdə lövhədə yazır və hər bir hərfi yenidən daha düzgün tələffüs edərək təkrarlayır. Ilk növbədə əlifbaya aid mahnı seçilir. Əgər şagirdlər mahnıya birinci dəfə qulaq asırlarsa o zaman mahnını iki dəfə şagirdlərə dinlətmək lazımdır. Mahnı dinləndikdən sonra şagirdlər onlara paylanan kağızlarda hərfləri əlifba sırasıyla düzə və rəngləyə bilərlər. Bu dərs əlifbaya giriş olduğundan şagirdlər digər dərslərdə daha dərin və geniş şəkildə çalışmalar işləyə bilərlər. Məs: digər dərsdə bir hərfin verdiyi səslərə və o hərfin işləndiyi sözlər və ya obyektlər göstərilə bilər. Hətta şagirdlər həmin hərflə başlayan səsi tapa bilər və onlara aid lövhədə şəkil də çəkə bilərlər.Ibtidai sinif şagirdləri ilə daha yavaş işləmək və şagirdlərin hər birinin materialı qavradıqlarına əmin olmaq lazımdır. Çünki bir çox hallarda bir sinifdə olan şagirdlər iki qrupa bölünürlər. Ya şagirdlərin bir qrupu xarici dildə bir çox sözlər bilir və daha yaxşı qavrayır. Digər qrup isə heç bir söz bilmir. Ona görə də ibtidai siniflərə dili tədris edərkən yeni materiallar daha az surətlə keçilməlidir ki, digər şagirdlər də yəni zəif şagirdlər materialı qavraya bilsinlə və digər şagirdlərdən geri qalmasınlar.Şagirdlər rəqəmləri də mahnılar vasitəsi ilə öyrənə bilərlər. Internetdə olan rəqəmlərə aid olan mahnılar buna imkan yaradır.Bir çox şagirdlər öz dillərində necə saymağı bilirlər, hətta bəzi şagirdlər xarici dildə belə saymağı bacarırlar.Müəllim ilk növbədə 1-12yə qədər rəqəmləri lövhədə yazmalı, daha sonra isə şagirdlərə rəqəmlərə aid mahnı dinləyəcəklərini söyləməlidirlər. Bu onların rəqəmləri daha yaxşı mənimsəmələri və daha yaxşı yadda saxlamalarına kömək edəcəkdir.Şagirdlərin 1-12yə qədər rəqəmləri öyrənmək əhəmiyyətlidir, çünki bu daha sonra onlara ayları və günləri öyrənməyə kömək edəcəkdir.Mahnı görüntülü şəkildə verilərsə şagirdlər həm rəqəmləri görə ,həm də mahnıda tələffüsünü eşidə bilərik. 1-12yə qədər olan rəqəmləri dinlədikdən sonra müəllim üzərində şəkillər olan kartlardan istifadə edə bilər. Təkrar məqsədilə şagirdlərdən biri 1-12yə qədər saya bilər. Hətta daha sonra şagirdlərin hamısı şifahi şəkildə xorla 1-12yə qədər saya bilərlər.Əyləncə və tədris məqsədilə yenidən mahnı çalına və şagirdlər

mahnını dinləyə bilərlər. Bu şagirdlərin yeni materialı daha yaxşı mənimsəmələrinə və sinif otağında müsbət atmosfer yaratmağa kömək edəcəkdir. Bu tərzdə keçilən dərs rəqəmlərin şagirdlərin yaddaşına həkk olunmasına səbəb olacaqdır.Rənglər də hərflər və rəqəmlər kimi keçilə bilər. Şagirdlərin bir çoxu artıq öz ana dillərində rəngləri tanıdıqlarından onlar rəngləri digər dildəki rənglərlə müqayisəli şəkildə öyrənə bilərlər.Əsasən bu zaman həmin sözlərin düzgün tələffüs edilməsinə diqqət yetirilməlidir. Dinləmə prossesindən əvvəl müəllim rənglər haqqqında şagirdlərə danışır ikinci dildə necə səsləndiyini deyir, şagirdlərin geyindikləri paltarların nə rəngdə olduğunu soruşur.Vidyoya baxaraq şagird rəngi həm görə, həm də düzgün səslənməsini eşidə bilərlər. İbtidai sinif şagirdləri ilə işlədiyimizdən şagirdlər üçün daha sadə mahnılar tapılmalıdır ki, uşaqlar həmin mahnıları anlasın və dərs daha məhsuldar olsun. Dinləmə prossesindın sonra müəllim qara, ağ və digər rəgli şəkilləri əlində tutaraq şagirdlərdən onların nə rəngdə olduğunu soruşa bilər.Məs: -What color is the shir - Blue.Şagird isə sözləri eşidərək gördükləri rənglərlə eşitdikləri sözləri əlaqələndirərək öyrənməyə çalışırlar.Digər tərəfdən müəllim şagirdlərdən hər hansı rəngə işarə etmələrini və otaqda həmin rəngdə başqa əşyalar da tapmağını istəyə bilər. Bəzi şagirdlərin dərsi anlamaları üçün digərlərindən daha çox diqqət və zamana ehtiyacları olduğundan onlara daha zərifliklə yanaşmaq və həmin şagirdlərə yeni üsulla dərsi anlamalarına zaman verilməlidir.Həftənin günlərinə aid internetdə ideal mahnılar vardırki, bu müəllimlərə kömək edə bilər. Aylar öyrənilərkən eyni şəkildə mahnını dinləmədən öncə aylar nədir, indi nə ayıdır, bu aydan sonra hansı ay gələcək , bir ildə neçə ay var, kimi mövzularda müəllim şagirdlərlə müzakirə aparır.Daha sonra aylara aid mahnı şagirdlər üçün çalınır və şagirdlər ayların düzgün tələffüsünü eşidərək yadda saxlamağa çalışırlar.Dinləmə prossesindən sonra şagirdlər sevdikləri ayın lövhədə şəklini çəkə və nə üçün həmin ayı sevdiklərinin izah edə bilərlər.Fəsillər şagirdlərə bir çox yollarla öyrədilə bilərlər.Mahnını dinləmədən öncə müəllim şagirdlərə 4 fəsil haqqında məlumat verir. Daha sonra onlar 2 dəfə fəsillərə aid mahnını dinləyirlər.(daha yaxşı olardı ki, vizual görüntüsü olan mahnı dinlədilsin). Hər hansı bir mövzu barədə şəkillər, canlanmış obyektlər, qraffiklər, yalnızca mətnlərlə öyrənilən dərsdən daha effektivdir. İnternetdə belə vizual görüntüsü olan mahnılar vardır. Mahnını dinlədikdən sonra isə müəllim şəkilli kartlardan istifadə edərək şagirdlərə çalışmalar verə bilər. Məs: kartın üzərində qar,qar adamı , eynək, günəş, yağış kimi şəkillərin hansı fəsli xarakterizə etdiyini soruşa bilər. Və ya müəlim lövhədə şəkil çəkə və onların hansı fəslə aid olduğunu şifahi soruşa bilər , daha sonra şəklinüzərində yaza bilər ki, şagird sözü vizual şəkildə də yadında saxlasın.Şagird həmçinin partanın üzərində olan kartların birini seçə həmin şəklin hansı fəslə aid olduğunu göstərə və həmin

şəklin üzərində yapışqanla yapışdıra bilərlər.Bədən üzvlərini də öyrətmək çox maraqlı və şən ola bilər.Mahnını dinləməzdən əvvəl müəllim bədən üzvləri haqqında məlumat verir və şagirdlərdən birini çağıraraq onun üzərində şifah şəkildə səsləndirərək bədən üzvlərini göstərir və ya lövhədə bir uşaq şəkli çəkərək və bədən üzvlərini yazılı qeyd edərək şagirdlərə onlar haqqında məlumat verir. Daha sonra mahnı ilk dəfə dinlənilir.mahnı dinləndikdən sonra müəllim bədən üzvlərinin tək-tək şəkillərini şagirdlərə göstərir və şagirdlər əllərini qaldıraraq şəkillərdəkinin hansı bədən üzvü olduğunu deməlidirlər.Mən ümid edirəm ki, hər bir xarıci dil tədris edilən sinifdən musiqi sədaları gələcək və müəllimlər mahnıların bizə verdiyi imkanlardan yararlanacaq və tədris etdikləri fənn üzrə yüksək nailiyyətlər əldə edəcəklər.Çünki bu gün Azərbaycan müəllimlərinin bunun üçün hər bir imkan və potensialları vardır.

Ədəbiyyat

1. Kərimov F., Şifahi nitqin inkşafı yolları. Bakı: BSU nəşriyyatı-2002
2. Гусейнзаде Г. Принципы ситуативного подхода к обучению иноязычно речевой коммуникации . ADU, Elmi xəbərlər, №5, 2002.
3. Asher J. Motivating children and adults to acquire another language. The teacher trainer 1/3. 1987
4. Brewer C. Music and learning; Integrating Music in the classroom. 1995
5. Harmer J. ,The Practice of English Language Teaching. New Edition. longman, 2003. Set in 10/12 pt Times.
6. Harmer J., How to teach English. Longman, 1998
7. Griffee D.,T., Songs in action .1995
8. Murphey T., Music and songs. Oxford university Press.1992
9. Roach Peter. English Phonetics and Phonology. 4-th Edition, A practical course. Cambridge University Press, 2000
10. Palmer, C., and Kelly , M., Linguistic prosody and musical meter in song. Journal of memory and language, 1992
11. Scrivener J., Learning teaching. Macmillan publishers, 2005

A.Ibrahimova

On the role of the music in the process of learning English language

Summary

The article deals with the usage of the music in the process of language learning in the school. Music and singing performs valuable role in foreign language learning. The usage of music increases the children's interest in

language learning process. Songs are the best way of improving their vocabulary. Learning the same word in different context makes the usage of this word easier. Children improve their grammar knowledge, pronunciation and their listening abilities. Musical so helps to improve their artistic abilities. The lyrics of the music also have different kind of dialogues or monologs, so it helps to improve the children's speaking abilities too. The usage of the music in the process of language learning makes the lesson more interesting and lively and mostly it causes positive feelings.

А.Ибрагимова

К вопросу о роле песен в прососе обучение Английского языка

Резюме

В статье говорится об использование песен в прососе обучение Английского языка в школе. Музыка и пение оказывает неоценимую помощь в изучении иностранного языка в школе.Использование песен способствует развитию у детей интереса к изучению английского языка. Песни как один из видов речевого общения являются средством более прочного усвоения и расширения лексического запаса. В песнях уже знакомая лексика встречается в новом контекстуальном окружении, что помогает ее активизации. Песни активизируют учебную деятельность и являются способом расширения и обогащения словаря учащихся.В песнях лучше усваиваются и активизируются грамматические конструкции. Песни способствуют совершенствованию навыков иноязычного произношения, развитию музыкального слуха. Песни содействуют эстетическому воспитанию учащихся, сплочению коллектива, более полному раскрытию творческих способностей каждого. Песни и другие музыкальные произведения стимулируют монологические и диалогические высказывания, служат основой развития речемыслительной деятельности школьников. Песни на уроке английского языка оживляют преподавание, вызывают положительные эмоции.

Rəyçi: Əli Səfiyev
filologiya elmləri doktoru, professor

ƏDƏBİYYATŞÜNASLIQ

SONA VƏLİYEVA
filologiya üzrə fəlsəfə doktoru
sonavaliyeva@mail.ru

H.CAVİD ROMANTİZMİ: PEYĞƏMBƏRİN TANRI EŞQİ

Açar sözlər: Cavid, romantizm, Tanrı, Peyğəmbər, bütpərəstlik, islam
Ключевые слова: Джавид, романтизм, Всевышний, Пороок, буддизм, Ислам
Key words: Javid, romanticism, God, The Prophet, idolatry, Islam

H.Cavidin "Peyğəmbər" pyesində romantizmin tələbləri baxımından əsas vəzifə baş qəhrəman kimi Peyğəmbərin gələcəkdə hansı məsələlərlə qarşılaşacağını düzgün müəyyənləşdirməsi və özünü həmin işlərə səfərbər etməsidir. Pyesin birinci – "Bisət" adlanan hissəsində Mələyin səhnəyə gəlişi bu məsələdə mühüm rol oynayır. Burada Mələk özünün mələk olduğuna və İlahi tərəfindən göndərildiyinə Məhəmməd Peyğəmbəri inandıra bilir. Peyğəmbər ona "Sən nəsin?" sualını verəndə "Mən bir mələk, sən də bir peyğəmbərsən" (3, s.173) cavabını alır. Bu dialoqda xüsusilə Mələyin onu "peyğəmbər" adlandırması Peyğəmbərə çox təəccüblü və heyratamiz təsir bağışlayır. Onun daxilində "mən hardan peyğəmbər oldum? Kiminlə danışıram?" məzmunlu suallar və düçüncələr doğurur.

Beləliklə, aydınlaşır ki, əsərdə "peyğəmbər" sözü ilk dəfə Mələyin dili ilə söylənilir və həmin sözün əsl mahiyyəti "sənə verilən məqamı dərk et" düşüncəsi ilə bağlıdır. Bununla yanaşı, Mələk tərəfindən peyğəmbərlik məqamı da öz izahını tapır. Bu məqamın başlıca mənası yüksəlməklə əlaqədardır. Mələk söyləyir:

Ən gözəl çarə: iştə əzmü səbat,
Olma əsla əsiri-hissiyyat,
Buraqıb aczi durmadan yüksəl,
Yüksəl,ey şamlı qəhrəman yüksəl!
Ərçi-lahutə doğru aç şəhpər,
Daima yüksəl, ey böyük rəhbər!

Mətndə peyğəmbərlikdən əlavə "rəhbər" sözünün də işlənməsi, təsadüfi deyil. "Sən İslam dinində peyğəmbər olmaqla bərabər, həm də bizim

sənə verdiyimiz "Quran"ın çatdırılmasında rəhbərsən. Sən bu dinin rəhbərisən. Sən peyğəmbərsən" – deyə, burada çox maraqlı bir fikir ortaya çıxır.

"Üzərinə götürdüyü vəzifəni yerinə yetirməkdən ötrü Peyğəmbər əvvəlcə öz daxilində Mələyin səsini eşidir və onun "haqqı təbliğ üçün sənəti-kəlamı rəhbər tutmaq" təklifini qəbul edir. Lakin daxilində baş qaldıran başqa bir səs – Skeletin səsi onu qılınca qurşanmağa, inqilab istəyirsə, silaha sarılmağa çağırır. Peyğəmbərin bu daxili ikiləşməsi onun öz məqsədi uğrunda mübarizədə keçdiyi yolun mərhələləridir" (5, s.189).

Təcəvvüf elmi peyğəmbərə münasibətində şəriət və sırf din xadimlərindən fərqli olaraq daha səmimi və məhəbbətlə yanaşıb. XV əsrdə Azərbaycanda xəlvətiliyin əsasını qoyan Seyid Yəhya Bakuvi "Şəfa əl Əsrar" əsərində yazırdı: "Allah Təala Musaya Şəriəti, İbrahimə Həqiqəti verdi. Amma şəriəti, təriqəti, həqiqəti və mərifəti Muhammad Mustafaya və ümmətinə verdi. Onun ürəyini yarıb şeytanın payını oradan çıxarıb mərifət nuru ilə doldurdu" (1, s.118).

Hurifilik baxımından Peyğəmbərin meracı mahiyyət etibarilə daha dərindir və İlahi sirləri özündə ehtiva edir. Tanrının merac vaxtı insan şəklində görünməsi, həqiqətən, Adəmin Tanrı ruhundan yaranışını təsdiq edir.

Nəiminin "Cavidannamə" əsəri ilə bağlı Rəhim Əliyevin yazdığı «Cavidannamə – monetezmin dördüncü kitabı» adlı tədqiqatda da hürufilik şərh edilir (4) və peyğəmbərin meracı mahiyyət etibarilə H.Cavidin "Peyğəmbər" pyesinin təhlil edilməsi üçün fikir zənginliyi yaradır. Pyesin əvvəlində Peyğımbərin söylədiyi aşağıdakı sözlərdə də yüksəlməyə, uçuşa maraq var:

Yoq, qanat yoq! Bən iştə bir aciz
Yolçuyum kimsəsiz, təsəllisiz.
Çevrəm issiz mağaralar, yalçın
Qayalar, sarp enişlər, ah, azğın
Uçurumlar, alev saçan ovalar,
Ruhu qəsvətlə yıldıran havalar...
Bir çəmən yoq, aqar su yoq, heyhat!
Göz, qulaq burda duymaz eşqü həyat. (3, s.174)

Mələk onu yüksəkliyə, göy üzünə dəvət edir. O da təəccübünü gizlədə bilmir, "burda bir yüksəkulikmi var, mən ordan çıxım, uçum, yaxud atlanım?" – deyə fikirləşir. Hələlik Peyğəmbərin düşüncəsi maddi mənada başa düşülən yüksəlişlə bağlıdır, amma Mələyin dəvəti tamamilə başqa dəvətdir, mənəvi haqq ucalığı, yüksəlişi idi. Bu dəvət Tanrı dərkinə, ucalığa dəvətdir:

Onu dərk eləmək qolay... Ancaq
Ver içindən gələn sədayə qulaq.
Dinlə həp kainatı, seyr eylə,
Hər günəş ondan iştə bir şölə...

Hər ufaq zərrə, hər küçük yarpaq
Sənə söylər bu rəmzi pək parlaq. (3, s.175)

Bu çağırışın müqabilində Peyğəmbərin qəlbində Tanrı eşqi, hüsni-mütləqə, Tanrıya qovuşmaq duyğuları var və o, bu duyğuları belə izah edir:

Bəncə dünyada ən sevimli dilək
Ona qoşmaq, onunla birləşmək... (3, s.175)

Artıq Peyğəmbər burada – bütpərəstlik mərkəzində, hər gün gözünün qarşısında bütlər görən, bütə sitayiş edən insanları görə-görə Allahın varlığını dərk edərək üzülməyə başlamışdı. Insanlar saxta bütlərə necə sitayiş edib imdad diləyə bilərdi? Bu dərkin nuru Peyğəmbərin könlünə göndərilən ilahi fəzilətdən qaynaqlanır və ilk söhbətində ona yüksəlmək, ucalmaq çağrışı edilirdi. Mələk çox böyük israrla "O da mümkün, düşün də haq yolu tut!" söyləyir (3, s.175).

Haqq yolunu tutmaq o qədər də sadə məsələ deyil, bu, uzun bir mübarizə tələb edir. Bunun səbəbi pyesinin ikinci – "Dəvət" hissəsində aydınlaşır. "Dəvət" hissəsi Məkkənin təsviri ilə başlayır: "Bir zaman sonra, Məkkədə geniş bir yol, uzaqda qara örtülü Kəbə... Yol kənarında bütçü dükanı, qanbur bir ixtiyar əlində böyücük bir büt yonar. Dükanın önündə dəxi satış için bir qaç danə hazır büt qonulmuş... Qarşıda gözəl yapılı bir ev gözə çarpar. Evdən ud səsi eşidilir" (3, s.179). Bu remarkada o dövrdə Kəbə və Kəbə ətrafındakı yaşayış tərzi, Məkkədə olan həyat şəraiti göstərilirdi. Burada İxtiyar bir qocanın surəti verilib. İxtiyar şərqi söyləyir və bu şərqi onun düşqncəsinin nədən ibarət olduğunu açıqca göstərir:

Dün gənc idim, bu gün oldum ixtiyar,
Hər zamanın bir hökmü, bir halı var;
İnsanların ıssız ruhunda parlar
Hər gün yeni bir büt, yeni bir tanrı.

Dün bir səfil idim, bu gün bəxtiyar,
Hər anın bir zevqi, bir məlalı var.
Kəndi əlim, kəndi duyğum hazırlar
Hər gün yeni bir büt, yeni bir tanrı. (3, s.180)

Bəlli olur ki, İxtiyar bütbərəst bir düşüncənin sahibidir. Amma əsərin bu hissəsində bütlərə etirazın da şahidi oluruq. Həyatın və insanın yaranışı haqqında, dünyanın dərki barəsində bütpərəst bir qocanın dediyi sözlərin əksinə düşünənlər də vardır. İlk olaraq bu əks-düşüncənin sahibi Topaldır. Onun bütlərə qarşı etirazının müəyyən əsası olduğu da göstərilir:

Sorma, ixtiyar, hiç sorma,
Könlüm pək darılmış sana.
Səndən hər çeşit büt aldım,
Uğursuz çıqdı, şaş qaldım.

Oğul istədim, qız verdi,
Ah, çəkiloməz bu qız dərdi. (3, s.180-181)

Bu misralar bir bütpərəstin özünün büt-Allahına etirazının real sübutudur. Aydın olur ki, Topal İxtiyardan aldığı bütə pənah gətirərək ondan oğul istəyib, amma nə faydası, bunun əksinə olaraq Topalın qızı olur və beləliklə, Topalda büt-Allahın insanlara xeyir gətirə biləcəyi şübhəsi yaranır. O, bu şifahi etirazla da kifayətlənməyib taxtadan hazırlanmış bütü hirslə İxtiyarın qarşısına atır və əksər pisliklərin ondan törədiyini qəzəblə bildirir.

Topal hətta burada öz Allahına "bayquş" da deyir və ona inanmadığını bildirir. O, bütə sitayişdən qətiyyətlə imtina edir. İxtiyar "sən küfr etmə" desə də, Topal ona qulaq asmır.

Yeri gəlmişkən, qeyd edək ki, burada cahillik dövründə oğul istəyib qıza sahib olmaq, yaxud da qızın talesizlik məsələsi ağır dərd kimi, bəla kimi göstərilir. Bu səhnə romantik sənətkarın həmin dövrə aid olan ictimai-əxlaqi gerçəkliyin dözülməzliyi haqqında olan qənaətidir.

Bir sual da yaranır ki, nəyə görə H.Cavid bütpərəstliyə inamsızlığı başqa bir detalla yox, məhz oğul-qız məsələsi ilə ortaya qoyur? Bunun da başlıca səbəbi ondan ibarətdir ki, həmin dövrün səciyyəsini vermək üçün bu daha inandırıcıdır. Həmin vaxtlar qız və oğul övladlarına qoyulan fərq dözülməz cahil hərəkət idi. Hədislərdə Məhəmməd Peyğəmbərin övlada qoyulan fərq barədə münasibəti belə ifadə edilmişdir: "Allah övladlar arasında fərq qoyulmağa izn versəydi mən yenə Fatiməni seçərdim" ("Hədisi - Şərif"). Bunlar cahiliyyə dövrünün hadisəsidir. Qızıın diri-diri torpağa basdırılması, oğlan uşaqlarına isə lap kiçik yaşlarından qılınc verib onun şöhrətləndirilməsi məsələsi ərəb cahilliyinin bağışlanılmaz bəlası idi. Ərəb üçün vacib olan – onun qılıncı, oğul övladı və dəvəsidir.

Bütlərə qarşı etiraz yalnız Topalın mövqeyi ilə bitmir. Bu mövqeni Peyğəmbər daha ciddi şəkildə müdafiə edir və bu müdafiədə İslami dəyərlər əsas rol oynayır. O, ətrafında olan insanları yalançı bütpərəst kahinlərin çağırışlarına inanmamağa səsləyir. İnsanları haqq yolunu tutmağa, Tanrıya səcdə eləməyə çağırır. Bu, Peyğımbərin əsərin əvvəlində Mələk tərəfindən göstərilən yolla hərəkət etməsinin sübütüdür.

Əbu Talib oğlu bütpərəstlik düşüncəsinə qarşı şıxış edən üçüncü obrazdır. Onu da qeyd edək ki, Əbu Talib oğlu – İmam Əli Xədicədən sonra ikinci biyət edəndi, İslamı tanıyandır, Peyğəmbərin tərəfdaşı və silahdaşıdır. Pyesdə Peyğımbərin Tanrı elçisi olması onun dilindən səslənir: "Tanrı elçisi pək böyük... Nə söyləsə hikməti var" (3, s.185)

Həyatda olduğu kimi Əbu Tallib oğlu, yəni İmam Əli pyesdə də Peyğımbərin əmisi oğludur. O, Nəimlə qarşılaşaraq sərt bir mövqeni ifadə edir:

Sizin duyduğunuz həp sönük,
Yarasa nurdan nə anlar?

Tanrı elçisi pək böyük...
Nə söylərsə hikməti var. (3, s.185)

Əhəmiyyətli cəhət odur ki, "orta boylu, parlaq nasiyəli, qılıc qurşanmış bir gənc"(3, s.185) kimi təqdim edilən Əbu Talib oğlu pyesdə ilk dəfə olaraq qılıncını çəkərək orada olan bütpərəstlərə hədlərini bilmələri barədə xəbərdarlıq edir. Əbu Talib oğlunun - İmam Əlinin daim qılıncla dolanması, fəzilətli, elmli, bilikli olduğu qədər yeri gələndə qılınca müraciəti də əsərdə qabardılmışdır. Onun Məhəmməd Peyğəmbərə qarşı çıxanlara qılıncla cavab verməsi həm də sadiqliyini işarəsidir.

İmam Əli ilk günlərdə Peyğəmbəri və Xədicə xanımı ibadət edən görəndən sonra nə etdiklərini soruşanda Məhəmməd Peyğəmbər həqiqəti ona belə şərh etmişdi: «Biz bir olan Allaha ibadət edirik. Ya Əli! Yalnız bircə Allah var. O da ibadət etdiyimiz yerləri, göyləri, dağları, daşları, insanları və heyvanları, yəni qısası, mövcud olan hər şeyi yaradan Allahdır. Onun tayı-bərabəri yoxdur. O gözə görünməyən, lakin özü hər şeyi görən və eşidəne, azuqəmizi verən, yaxşılığı və pisliyi yaradan tək Allahdır. Mən həmin Allahın elçisiyəm. Mənə insanları onun ədalətli dininə və ona ibadətə dəvət eləmək missiyası verilib. Əgər sən də o Allaha inansan, ibadət etməyi sənə də öyrədərəm». Əvvəl atası ilə məsləhətləşmək istəsə də, fikrini dəyişir: "Allah məni yaradanda atamla məsləhətləşmədi, - Allah birdir. Məhəmməd onun Haqq peyğəmbəridir" - dedi. İmam Əli onun ən yaxın silahdaşı, inandığı dostu, ailədən olan sevimli kürəkəni idi". (8, s. 14)

Məsələnin mahiyyəti bundadır ki, hələlik qılınca tərəfdar olmayan Peyğəmbərin yanında əli qılınclı qüvvə görünür. Əslində Əbu Talib oğlunun qılıncı işlətməsinə Peyğımbər mane olur və Yaradanın nə əmr etsə, o olacağı bildirilir.

H.Cavidin "Peyğımbər" pyesində büt və bütpərəstlik ətrafında olan mübahisə idealla real arasında olan mübahisədir. Yəni hər hansı bir ideala pənah gətirilirsə, onu realda görməyəndə onda realla ideal ziddiyyət təşkil edir və adam oradan uzaqlaşır. Məsələn, Allaha dua edirik, onun ətəyindən yapışırıq, görürsən ki, bir insan yavaş-yavaş sağaldı. Beləliklə, ideala inam daha çox artır.

İmam Əlinin bir sözü var. Bütpərəstlər deyir ki, biz gördüyümüz bir Allaha - bütə sitayiş edirik. O da deyir ki, necə Allahdır ki, sən onu əlində yondun, düzəltdin və ona sitayiş edirsən. Amma gözə görünməyənə inanmırsan. Bütpərəstlər deyir ki, mən gözümlə görmədiyim bir şeyə inanmam. Deyir sən necə gördün? Küllü kainatı yaradan hər şeydə Allah var. Mənim gördüyümdü bu. Məni, səni, dağı, daşı yaradan və hər bir şeyin yaranışında Allah var və hər şey Allah yaratdığıdır.

Bir məsələyə də aydınlıq gətirək ki, Məhəmməd Peyğəmbərin zamanına qədər İsavilik də vardı, Musavilik də. Amma Hüseyn Cavid

“Peyğəmbər”də İslamı İsaviliyə və Musəviliyə qarşı deyil, bütə qarşı qoyur. Niyə belə oldu? Çünki İsavilər və Musəvilər tək olan Allaha inanırlar, amma bunlar bütpərəstdirlər və bütə inanırlar. Peyğəmbər İsaviliyə, xristianlara qarşı deyil. Nəyə görə? İsavilikdə büt deyil, bir ikonaya tapınmaq var və bunu İsanın surəti kimi qarşılayırlar. Bilirdilər ki, İsanı da göndərən var. Sanki İsanın surətinə - ikonaya baxıb Allaha üz tutmuş kimi dua edirlər. Bu din səmavi kitaba, tək olan Tanrıya inanır. “Quran”da da söylənən “Allah təkdir, şəriki yoxdur” fikri mövcuddur. Amma bütpərəstlikdə Allahı tamamilə unudulub bütə sitayiş edirdilər. Ona görə də bütü gətirib yerə çırparaq deyir ki, mənə oğul vermədi, qız verdi. H.Cavid burada Peyğəmbərin Tanrıya olan çağırışını verir:

Ulu Tanrı, ey qüdrətli Yaradan!
Bu sözlər həp sana qarşı bir üsyan..
Şu sayğısız azğınlara qorqu ver,
Ah, acı da, bunlara bir duyğu ver.
Bir göz ver ki, haq nurunu duysunlar,
Bir könül ver, doğru yola uysunlar.(3, s.182)

“Quran”da Peyğəmbərə qarşı çıxanlara qarşı çoxlu ayələr vardır. Əl Maidə surəsində deyilir: «Allaha itaət edin, Rəsula da itaət edin və (pisliklərdən) çəkinin. Əgər (itaətdən) üz çevirsəniz bilin ki, Rəsulumuzun vəzifəsi açıq-aydın eşitdirmək və bildirməkdir». (“Qurani-Kərim”)

Və ya Ənfal surəsində «Ey iman edənlər! Allaha və Rəsuluna itaət edin. Eşitdiyiniz halda ondan üz döndərməyin», söylənir. (“Qurani-Kərim”)

Və ya Nisa sürəsində söylənir: «Allahın sənə buyurduğu kimi insanlar arasında hökm edəsən deyə sənə Kitabi haqq ilə göndərdik, xainlər tərəfə olma». (“Qurani-Kərim”)

Pyesdə rəis surətləri görünəndən sonar İslam dininə inam məsələsi də güclənir. Başqa sözlə, pyesdə dinə inanma mərhələsi bu nöqtədən başlayır. Rəislər burda mövcud hakimiyyəti idarə edənlərdir. İdarə edən bir qrup rəhbər şəxslərin dinə qarşı münasibətində mütərəqqi meylin formalaşmasında Məhəmməd Peyğəmbərin təsiri ilk məqamdan özünü göstərməyə başlayır. Əvvəlcə Birinci rəisnin istehzaları eşidilir:

Şuna baq, halətü rəftarına baq,
Göyden enmiş, sözü keskin, parlaq!
Əski adətlərə kin bəslər imiş!
Tanrıdan gəlmiş o, peyğəmbər imiş! (3, s.191)

İkinci və üçüncü rəislər də öz istehzalı fikirləri ilə çıxış edirlər. Hətta üçüncü rəis onun haqqında “Dəlidir, bəlkə də sərsəm şair” (3, s.193), “Xəstədir beyni, tədavi lazim” (3, s.194) söyləyir.

Göründüyü kimi, pyesdə Peyğəmbərə istehzalı münasibət davam edir. Müəyyən qarşılaşmadan sonra rəislər peyğəmbərin fikrindəki həqiqəti dərk

etməyə başlayırlar. Amma onların bütpərəst olmaqları, həm də sərxoşluqları bu həqiqətin dərkinin axıra qədər getməsinə imkan vermir.

Əsərdə İkinci rəis "Sənin Allahını görmək dilərəz" (3, s.195) söyləyəndə Məhəmməd Peyğəmbər belə cavab verir:

Ən kiçik zərrə, ən böyük aləm,
Tanrı eşqilə rəqs edib duruyor.
İncə bir rəmzdir o, pək mübhəm,
Hər böyük yəlb o rəzm için vuruyor.
Yüksələn haqqa yaklaşır ancaq.
Onu duymaz sürüklənən həşərat.
Bir günəşdir o, möhtəşəm, parlaq,
Nuri hiç dərk edərmi kör, heyhat!
Nerde parlarsa haq, şərəf, vicdan,
Eyilik, doğruluq, gözəllik, inan,
Orda var sevgi, orda var iman:
Orda var, şübhəsiz, böyük Yaradan! (3, s.195-196)

Nəiminin "Cavidannamə " kitabında deyilir: "Allah nə ismidir, nə cismidir, nə yerdədir, nə göydədir, O, laməkandır. Maddi ölçülərdən məhrumdur". Bununla bərabər, Allahın insana yaxın olma fikrinə arxalansaq, Tanrı həmişə zaman bizimlə və bizim ruhumuzda mövcud olaraq hər yerdədir. Balasagunlu Yusuf "Kutadgu Bilig" kitabında yazırdı: "Qadir və yeganə olan Tanrı hamıdan üstündür. Ona çoxlu şükürlər olsun. O, ululuq yiyəsidir, qadir və cəlallıdır. Yaradan, törədən, qüdrətli və kamildir. Yerin, göyün, xilqətin sahibidir". (2, s.15)

Peyğəmbər dövrünün xilaskarı, cəmiyyətin bəlalardan və mənəvi xəstəliklərdən qurtarmaq üçün göndərilən Rəsuldur. O, haqq elçisidir, xaoslara qərq olmuş bir cəmiyyətə, islahatlara ədalət və tərəqqi bəxş etmək üçün seçilən rəhbərdir. Aydın, bəlağətli səsi, inandırıcı nitqi ilə müraciət edərək inandıran "şairdir". "Kutadgu Bilig"də deyilir: "Xalqın ən seçilmişi, adamların ən yaxşısı, sevgili Peyğəmbəri Rəbbim göndərdi. Qaranlıq gecədə o, xalq üçün məşəl idi. Ətrafda işıq saçdı, səni də nura boyadı. O, Tanrının sənə göndərdiyi dəvətçi idi. O, ata-anasını fəda etdi. Yeganə diləyi ümməti idi, ona yol göstərdi". (2, s.16)

H.Cavidin "Peyğəmbər" pyesinin "Dəvət" hissəsində baş rəisin xanımı da Peyğəmbərə şübhə ilə yanaşır, onu ofsunçu adlandırır:

Nə var yenə, şu əfsunçu,
Yeni bir şeymi söylüyor? (3, s.196)

Əslində Rəisə ona istehza ilə yanaşır və rəislərin Peyğəmbəri ilk dəfə gördükləri zaman istehzalı yanaşmalarını təkrar edir. Bu bütpərəst qadının ürəyindən Məhəmməd Peyğəmbərə vurulmaq da keçir və öz-özünə deyir:

Ah, o gözlər bir oq kibi,
Ta qəlbimə saplanıyor.

O bir fəzilət sahibi…
Xor baqanlar aldanıyor. (3, s.197)

Artıq Məhəmməd Peyğəmbərin fəzilət sahibi olmağı bütpərəst qadının dilindən söylənirsə, deməli, bir az öncə onun "ovsunçu" deməyindən asılı olmayaraq, mənən ucalığı, yüksəkliyi də qəbul edilir. Peyğımbəri həm ovsunçu, həm də fəzilət sahibi hesab edən Rəisə onun altuna tabe olacağıgümanındadır:

Altın versəm, hiç şübhə yoq,
Sən də əsirimsin həmən.
Nasıl ki, altunla öncə
Satın aldı qarın səni.
Yaşı keçmiş dul Xədicə
Söndürdü kəndi nəfsini.
Hiç öyünmə, əvət, altun
Sən deyil, susdurur hətta
Sənin hiçdən uydurduğun
O görünməz Tanrıyı da! (3, s.198)

Amma Peyğəmbər Rəisənin bu fikrinə qəti etiraz edərək, öz mövqeyinin sabit olduğunu nümayiş etdirir. Peyğəmbər "insanları bir-birindən altun və gümüşün ayıra bilməyəcəyini, insanların yalnız bilgi və təfəkkürlə fərqlənəcəklərini" israrla bildirir. (3, s.198) İlahinin insanlara fərq qoymağı onların düşüncə və fəzilətlərinə görədir, kasıblığına, varlılığına görə yox! Kasıbı da, varlını da yaradan Allahdır. "Quran"da deyilir ki, mən sizə fərq qoymaram. Fərq qoyduğum doğru yolda olduğunuza görədir. Allahın böyüklüyü ondadır ki, doğru və ya səhv yolda olana da eyni münasibət bəsləyir.

Maraqlı cəhətlərdən biri budur ki, H.Cavidin "İblis" əsərində də İblis ona tabe olmaq üçün Arifə altun təklif edir. Yəni insanın daxilində olan maddi və mənəvini qarşılaşdırmaq H.Cavid romantizminin özəl xüsusiyyətlərindən biridir. Romantik sənətkara görə, nəfs amili baxımından Peyğəmbər də Tanrının sınağına çəkilir. Digər tərəfdən bu qadının da daxilində artıq bir şeytanilik var. İnsanı yoldan çıxaran, onu ali məqsədlərdən yayındıran nəfs şeytan işidir.

Demək, Rəisənin nəfsində bir şeytanilik var. Amma o, Peyğəmbərə məəttəl qalıb. İnsanlar bunu qəbul etmək istəmir, amma danışığındakı fəziləti ilə də insanları dondurubdu. O, İlahi "Quran"ın çatdırılmasından gələn fəzilət insanları ayaq saxlayıb onu dinləməyə məcbur edir. Kütləvi tərəddüd bütpərəstliyin ilkin süqutuna yol alıb. "Bəlkə, həqiqətdə Məhəmməd doğrudur" fikri ilə tərəddüd içərisində yaşayan bütpərəstlərin inamı sarsılmaq üzrədir.

Şeytanilik düşüncəsi həm də Şəmsa surətində də görünür. Allahın gözəl yaratdığı insan öz içində şeytanla əl-ələdir. Şeytan onu özünə elə tabe edib ki, hər əməlində riya və məkr görünür.

Cəmiyyətdə həmişə ən inqilabi dəyişikliklər, inqilabi gedişlər, əlbəttə ki, qeyri-adilikdir, bu qeyri-adiliklər tərəddüd və qələbənin yeni mərhələsinin göstəricisidir. Onun asanlıqla toplum tərəfindən qarşılanmağı qeyri-mümkündü, şübhəsiz, ona vaxt, zaman lazımdır. Necə ki, islamın yaranmasında, təbliğində, din kimi formalaşmağında Məhəmməd Peyğəmbərin böyük əziyyətləri olmuşdu. Peyğəmbər çox böyük mücadilə ilə yeni dini formalaşdırdı və yeni tarixi yaratdı."Peyğəmbər" pyesi H.Cavidin həm də İslam tarixinin gözəl bilicisi olduğunu ortaya çıxır. O, Peyğəmbər mövzusu ilə insan və cəmiyyət, yenilik və tərəqqi, cəhalət və hürriyyət məsələlərinə münasibətini də sübuta yetirə bildi.

Tamilla Təhmasib yazır: "Peyğəmbər" pyesi nəşr olunduqda əsər haqqında rəylər müxtəlif olmuş, həm mətbuatda, həm də şifahi müzakirələrdə pyes müxtəlif şəkildə təhlil edilmişdir. Hətta əsərin ideyaca zərərli olduğunu iddia edənlər də tapılmışdır" (6, s.91). A.Turan da eyni fikirdədir: "Təkcə Cavid peyğəmbərinin deyil, ümumiyyətlə, iyirminci əsrin əvvəllərində «həyat mübarizədir" təlimini millətə aşılamaq istəyən böyük bir ziyalı nəsli, başda Əli bəy Hüseynzadə sərt ittihamlarla üzləşib" (, s.197).

Həmişə deyilir ki, bütün küllü-kainatın sirri "Quran"dadır. "Quran"ın fəzilət mənbəyi olduğu fikri daha dəqiqləşdirmək üçün Rəhim Əliyev Nəiminin "Cavidannamə" əsərinə əsasən yazır: "Allahın bütün sirləri səmavi kitabldardadır. Səmavi kitablardan bütün sirlər "Quran"dadır. "Quran" sonuncu dini kitabdır. "Quran"dakı bütün sirlər "Fatihə"dədir. "Fatihə"dəki bütün sirlər «Bismillah»da, «Bismillah»dakı bütün sirlər Bismillahın "be" hərfində, "be"dəki bütün sirlər "be"nin altındakı nöqtədədir. Mən "be"nin altındakı nöqtəyəm. Bir variant da var. Deyilir ki, Bundan böylə "Quran"dan sizə nə gəlirsə, oxuyun. "Quran"ı oxuyun, oxuyun, oxuyun!!! Burada "Quran"ın fəziləti tam olaraq göründü. Peyğəmbərə "Quran"ın "Ələq" surəsinin ilk beş ayəsi göndərildi. "Bismillahi-Rəhmani-Rəhimlə oxu" deyildi. "Bismillahi Rəhmani-Rəhim (Ya Peyğəmbər) "Qurani-Kərim"i, bütün məxluqatı, yoxdan yaradan Rəbbinin adı ilə (Bismillah deyərək)oxu!) O, insanı laxtalanmış qandan yaratdı. (Ya Peyğəmbər) oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir. O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi. (O Rəbbin ki) insana bilmədiklərini öyrətdi (4, s.77).

H.Cavidin pyesində Mələk deyir:

Əvət gözlər kordur, qulaqlar sağır,
Vicdanlar qabadır, tənələr ağır.
Fəqət sağır qulaqları açmalı,
Dikənli yollara güllər saçmalı.
Əvət, açmalı kor olmuş gözləri,
Əvət, dinlətməli acı sözləri.

Yıldızlar oynarkən haq qucağında,
Düşün, nə əhd etdin Hira dağında?!
Ey böyük yalavac, inan ki, sussan,
Bəsbəlli tarix görür böyük ziyan. (3, s.201-202)

Burada Hira dağında verilən əhdə işarə olunur və deyir ki, sussan tarix ziyan görəcək. Eyni zamanda Mələk Peyğəmbəri durmadan irəliləməyə səsləyir. Onu insanlara Tanrı buyruğunu anlatmağa çağırır. Peyğımbər isə Mələk qarşısında diz çökərək deyir:

Xayır, susmam, gedər haqqı söylərim,
Ölümdən çəkinməm, səni dinlərim.
Çünki sən o şəfəqdən bir parçasın,
O fidandan dərilmiş bir qonçasın.
O günəşdən ayrılmış bir yıldızsın,
Tanrı gülüşündən doğmuş bir qızsın. (3, s.202-203)

Burda çox maraqlı cəhət budur ki, artıq Peyğəmbərin özündə tükənməz güc və qüdrət görür. Onda fikir və düşüncələrini insanlara anlatmaq əminliyi var. Mələyin təlqin etdiyi hislə qovuşanda "qorxmam, çəkinməm" söyləyir. Əvvəl "mənə inanan tapılarmı?" tərəddüdü ilə yaşayan Peyğımbər burada artıq həmin sözü demir. Tanrıya olan əminlik onu kamil şəxsiyyət kimi formalaşdıraraq həqiqət yolunda mücadiləyə ruhlandırdı.

Mələyin üçüncü dəfə gəlişi Peyğəmbərə daha böyük cəsarət verdi. Burada artıq İskelet də yenidən görünür. Ali ideyaların mübarizə ilə həyata keçməsi H.Cavidin həm də şəxsi idealı idi . Məsələ burasındadır ki, İskelet də Peyğəmbəri irli getməyə, insanları inandırmağa səsləyir:

Xayır, çəkinmə, get, inandır, inan!
İnanmaqla bəxtiyar olur insan.
İnan! Fəqət tapdığın ulu Tanrı
Sən kəndinsin, deyil o səndən ayrı.
Əvət sən o küllün cüz'isin, inan!
Əfsus cüz uzaqdır külli sarmaqdan.

Nəhayət, bütün əzab-əziyyətlərə, ölüm-dirim mübarizələrinə sinə gərən Peyğəmbər Tanrı eşqi naminə qələbə çalır.Peyğəmbərin inancı olmayan insanlar üzərində qələbəsi məsləkinə bağlı ideyanın qələbəsidir. H.Cavid bir romantik sənətkar kimi "Peyğəmbər" pyesində ideallar uğrunda aparılan mübarizəni və qələbəni inikas etdirmişdir.

Ədəbiyyat

1.Bakuvi Seyid Yəhya. "Şəfa əl Əsrar". Bakı, "Elm", 2013.
2.Balasagunlu Yusuf. "Qutadqu bilik". Bakı, Gənclik, 2003, 404 s.
3.Cavid Hüseyn. Əsərləri, 5 cilddə, III c., Bakı, "Elm", 2007.

4.Əliyev Rəhim. “Cavidnamə – monetezmin dördüncü kitabı”, Bakı, 2011.
5.Əfəndiyev Teymurçin. Tarixi mövzu və müasir ideya. Cavidşünaslıq. I c.. Bakı,
“Elm”, 2007, s.183-196
6.Təhmasib Tamilla. Cavid yaradıcılığında dini və dünyəvi anlayışlar. Cavidşünaslıq. I c.. Bakı, “Elm”, 2007, s.88-93)
7.Turan Azər. Cavidnamə. Bakı, “Elm və təhsil”, 2010.
8.Şakir Ziya. Hazreti Ali – Hayatı, Ogütleri, Cenkleri. Paperback, 2012.

С.Велиева

Романтизм Г.Джавида: любовь пророка к всевышнему

Резюме

Произведение «Пророк» Гусейн Джавида – доказательство его глубокого знания истории Ислама. В статье анализировалась борьба Пророка Мухаммеда против буддизма. Также показаны характеры его соратников и образов противоречащих его идеям. Исследованы причины его победы за любовь к Всевышнему.

В статье анализировано столкновение идеалов на основе пьесы «Пророк» Г.Джавида. Эта идея, вытекающая из сущности романтизма, осуществляется столкновением Пророка и Шемсы. Это столкновение, является столкновением Ислама и буддизма. В итоге победа Пророка обосновывалась художественными приемами.

S.Valiyeva

The romantism of H.Javid: the god’s love of the prophets

Summary

The work of “The prophet” of Huseyn Javid proves the author’s knowing the history of Islam well. In the article the struggle of Muhammad Prophet against the idolatry is analyzed. The character of his supporters and contradictory images to his ideas is given. The reasons of the victory of the Prophet for God’s sake are investigated.In the article on the base of the play of “The Prophet” by H.Javid the colliding of ideals is analyzed. This idea which comes from the essence of romanticism is realized with the confrontation of the Prophet with Shamsa. This confrontation is the confrontation of Islam with idolatry. In the conclusion the victory of the Prophet is grounded with the artistic primes.

Rəyçi: Kamran Əliyev
filologiya elmləri doktoru, professor

DİLBƏR ZEYNALOVA
ADU, dosent
d.zeynalova62@gmail.com

ÇAĞDAŞ AZƏRBAYCAN NƏSRİNDƏ FOLKLOR MOTİVLƏRİ
(İsmayıl Şıxlı "Əfsanə və rəvayətlər")

Key words: Azerbaijan literature, ,folklore,fable,legend,motive
Ключевые слова: Азербайджанская литература, фольклор, легенда, притца, мотив
Açar sözlər: Azərbaycan ədəbiyyatı, folklor, əfsanə, rəvayət, motiv

Azərbaycan xalqının yaratdığı şifahi söz dünyası onun milli-mənəvi kimliyi, tarixi-etnoqrafik həyat tərzi, fəlsəfi-estetik düşüncəsi, poetik təxəyyül və təfəkkür sistemi barədə kompleks informasiya daşıyan ilkin və əsas qaynaqlardan biri və ən zəngini hesab olunur. Folkor yaradıcılığı prosesində epik ənənənin təşəkkül və irəliləyişi bir xeyli dərəcədə etnosun tarix boyunca yaşadığı hadisə və proseslərin rəvayətləşmə imkanına söykənir. Etnos bir qayda olaraq öz tarixi keçmişinin ibrətverici əhvalatlarını və taleyükülü hadisələrini yaddaş dövriyyəsinə daxil edərək nəsildən-nəsilə ötürmüşdür. Folkor xalqın hikmətli fikirləri, mənalı hökmləri və dərin düşüncələri xülasə şəklində ifadə olunan həyati həqiqətlərdən ibarətdir. Varlığı bədii obrazlar vasitəsilə əks etdirmək folkora xas olan ən ümumi cəhətdir.Folkora xas olan xarakter xüsusiyyətlər onun fərqləndirici cəhətləri xalqın ictimai-siyasi, mədəni, iqtisadi gerçəkliyi zəminində üzə çıxır. Hər növbəti nəsil dəyişməsi yaddaş ötürülməsinə yeni əlavələr, yaxud qırılmalar-unudulmalar gətirdiyindən zamanın keçmişdən uzaqlaşan üfüqləri içərisində hadisə və əhvalatların ilkin mənzərəsini əks etdirən süjetlər çeşidli dəyişikliyə uğramış, və rəvayət şəklinə düşmüşlər.

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan İsmayıl Şıxlının (1919-1990) yaradıcılığı ideya-mövzu əhatəsinin genişliyi, obrazlar aləminin zənginliyi, dil-üslub canlılığı, orijinal təhkiyə tərzi ilə yanaşı, həm də xalq ruhuna, milli-mənəvi dəyərlərə güclü bağlılığı ilə seçilir. Müasir Azərbaycan nəsrinin inkişafında və keyfiyyətcə yeniləşməsində özünəməx-sus rolu olan İsmayıl Şıxlının zəngin və çoxşaxəli yaradıcılıq yolu özünün bütün mərhələ və məqamlarında həmişə xəlqi ruhu və milli səciyyəsi ilə seçilmişdir. Koloritli, xəlqi nəsrin əvəzsiz örnəklərini yaratmış ustad sənətkarın kiçik həcmli hekayələrindən tutmuş,"Dəli Kür" kimi nəhəng, monumental romanına qədər yaradıcılığının bütün mənzərəsi boyu xalq mənəviyyatına, milli ruh və yaddaşın dərinliklərindən gələn mentalitet keyfiyyətlərinə xüsusi diqqət və həssalıqla bağlı qalması onu sözün həqiqi

mənasında xalqın yazıçısına çevirmişdir. Əslində o, bir sənətkar kimi birbaşa xalq mənəviyyatının, milli ruhun münbit zəminində yetişmişdir. Görkəmli yazıçının folklora daxili bağlılığı olmayan, folklordan bu və ya digər şəkildə bəhrələnməyən əsəri, demək olar ki, yoxdur. Ancaq onun bir sıra elə hekayələri vardır ki, onların folklora bağlılığı birbaşadır. Əslində həmin hekayələr elə folkordan doğulmuşdur. Maraqlıdır ki, yazıçı özü də həmin hekayələri "Əfsanə və rəvayətlər" adı altında cəmləşdirmişdir. Ondan yuxarı lakonik hekayədən ibarət olan bu sisiləni ədib 1970-80-ci illərdə qələmə almışdır. Silsiləyə daxil olan hekayələr əsasən rəvayət və alleqorik hekayə səciyyəsi daşıyır. Yazıçının "əfasanə" adı altında konkret olaraq hansı hekayəni və ya hekayələri nəzərdə tutduğu aydın deyildir. Təqdim olunan mətnlərin yalnız üçünün ("İlğım", "Sənə aslanım deyən", "Ruzi") bəzi məqamlarda çüzi şəkildə əfsanə elementləri (Rüstəm Zalın qəbrinin böyüyüb nəhəng təpəyə çevrilməsi, cənnətmisal yaşıl diyarı axtaran adamın torpağa batıb daşa dönməsi, tanrının adından danışan dağlar və s.) özünü göstərir, bununla belə sözügedən hekayələrin də qaynağı əfsanələrdən daha çox, rəvayətlərdən gəlir.

Qeyd etmək lazımdır ki, folklordan götürülmüş mövzu və süjet əsasında bədii əsər qələmə almaq ənənəsi İsmayıl Şıxlıya qədər də Azərbaycan ədəbiyyatında mövcud olmuşdur. Y.V.Çəmənzəminli, Ə.Haqverdiyev, S.Vurğun, S.Rəhimov, İ.Əfəndiyev və başqa sənətkarlarımız bu səpgidə gözəl əsərlər yaratmışlar. İ.Şıxlının "Əfsanə və rəvayətlər" silsiləsini həmin ənənənin uğurlu davamı kimi dəyərləndirmək olar. "Əfsanə və rəvayətlər" silsiləsini qələmə alarkən, İsmayıl Şıxlı, əsasən, aşağıdakı mənbələrdən faydalanmışdır:

a) müxtəlif yazılı qaynaqlardan- klassik irs və folklor nəşrlərindən

b) canlı folklorun özündən-el yaddaşındakı rəvayət, məsəl və hikmətamiz söhbətlərdən.

Maraqlıdır ki, yazıçının folklor mətnini yazılı qaynaqdan (kitabdan, nəşr materialından) və ya canlı folkorun söləyicisindən-ağsaqqal, ağbirçəkdən götürməsi barədə bədii əsərlərində özünün də müəyyən işarələri vardır. 1973-cü ildə qələmə aldığı "Zərbə" hekayəsindəki epik mətnə yerləşdirdiyi el rəvayətinin mənbəyi ilə bağlı yazıçı diqqətçəkici bir məqama toxunur: "Lap uşaqlıqdan yadında qalan bir əhvalatı nədənsə özü də düşünmədən elə bu an xatıladı. Haradasa oxumuşdumu, balaca vaxtı Alı kişi onları tut ağacının altına yığandamı danışmışdı, yadında deyildi, ancaq onu bilirdi ki, qədimlərdə adlı-sanlı əliaçıq mərd bir kişinin gözəl bir atı varmış. At şahə qalxıb kişnəyəndə, ya da cıdırlarda bütün atları ötüb nəmər alanda damların üstünə çıxan qız-gəlinlər, toylarda, mağarlarda şadlanan cavanlar da onun sahibinə heyran qalarlarmış. Bir gün at sahibi yeddi yolun ayrıcında şikəst və zəlil bi adama rast gəlir. Cilovu çəkir, onun haraya getdiyini soruşur və atın

tərkinə almaq istəyir. Ancaq şikəst yerindən qalxıb əlini üzəngiyə belə uzada bilmir. Atlı düşür, şikəsti qucağına alıb yəhərin üstünə qoyur. Şikəst yəhərə qalxan kimi qırğıya dönür, ayağını üzəngiyə keçirib, cilovu dəstəkləyir. At şahə qalxıb kişnəyir. Atlı onu aldadan düşmənini tanıyır və hönkürtü il ağlayır. Oğru gülür:

-Bir at nəmənədir ki,ondan ötəri göz yaşı axıdırsan?

-Qatil, atdan ötəri ağlamıram. Sən mənim insanlara olan inamımı qırdın, ona ağlayıram".(Şıxlı İ.1984:63-64)

Hekayədə el rəvayətini əsərin qəhrəmanı Umid müəllim xatırlasa da, şübhəsiz ki, bu bir manera kimi düşünülmüşdür. Rəvayəti xatırlayan və onu hekayənin uyğun məqamına yerləşdirən yazıçının özüdür. Hekayə daxilindəki bu rəvayət "Əfsanə və rəvayətlər" silsiləsinin üslub və ruhuna tamamilə uyğundur. Heç şübhəsiz ki, yazıçı sözugedən rəvayəti ayrıca hekayə şəklində işləyib silsilyə daxil edə bilərdi. Burada bizi daha çox maraqlandıran məsələ rəvayətin-folklor materialının mənbəyidir. Yazıçı bu və bu sıradan olan folklor mətnlərinin onun yaradıcılığına haradan gələ biləcəyi barədə hekayədə nəsr dili ilə özü çox maraqlı təsnifat vermişdir: "Haradasa oxumuşdumu(yəni yazılı qaynaqdan), balaca vaxtı Alı kişi onları tut ağacının altına yığandamı danışmışdı,(yəni folklor söyləyicisindən) Alı kişinin adı İ.Şıxlının "Ayrılan yollar" romanında da keçir: " Uşaq vaxtı eşitdiyi bir söhbət Nəsib dayının yadına düşdü. Qonşuları Alı kişi danışırdı ki....."(Şıxlı İ.1986:167). Görünür, Alı kişi İsmayıl Şıxlının üşaqlıq çağında gördüyü sinədəftər bir el ağsaqqalı olub. Yazıçı bədii yaradıcılıq prosesində istifadə etdiyi bir çox el söyləmələrini, rəvayətləri, hikmətli deyimləri ondan eşitmişdir. Məşhur "Əfsanə və rəvayətlər" silsiləsindəki hekayələrin bir qisminin Alı kişinin söylədiyi rəvayətlərdən gəlməsi təbiidir.

Göründüyü kimi,İsmayıl Şıxlı xalq yaradıcılığına müraciət zamanı həm yazılı qaynaqlardan, həm də canlı folkorun özündən istifadə etmişdir. Mövzu və süjeti yazılı mənbələrdən gələn hekayələrdə yazıçı Azərbaycan və Şərq klassikasından daha çox bəhrələnmişdir. Bu sıraya daxil olan "Onu danışdıran var" (Şıxlı İ.1984:153-155) hekayəsindəki süjet çox ənənəvidir: Dayandığı yerdə ayağının altında qızıl küpləri olan dəllək üzünü qırxdırmağa gələn padşahla çox cəsarətli rəftar edir, qorxub çəkinmədən onun qızını almaq istədiyini bildirir. Bu əhvalat üç dəfə təkrar olunur. Dəlləyin harda dayananda özünü çox cəsarətli, ürəkli apardığına göz qoyan vəzirin məsləhəti ilə padşah həmin yeri qazdırır. Məlum olur ki, dəlləyin ayağını qoyub cəsarətləndiyi yerdə-döşəmənin altında qızıl küpləri yan-yana düzülüb. Ona padşahın qızını istəmək cəsarəti verən həmin qızıl küpləridir. Bu mövzu Şərqdə geniş yayılmış, bir çox klassik şairlər öz epik əsərlərində onu nəzmə çəkmişlər. Həmin süjetin başqa variantı "Əsir padşah" (Azərbaycan nağılları.1986:186) nağıl-rəvayətində də öz əksini tapmışdır:

Əsir düşmüş padşah ayağının altındakı xəzinənin (o,özu bunu bilmir) üstündə dayananda özünü məğlub saymır. Çox güman ki, yazıçı bu qaynaqdan da müəyyən qədər faydalanmışdır. Ancaq,zənnimizcə,İsmayıl Şıxlı həmin süjetdə Azərbaycanın böyük şairi N.Gəncəvinin "Sirlər xəzinəsi" poemasındakı "Harun ər-Rəşid və dəlləyin hekayəti"indən ustalıqla yararlanmışdır.(Gəncəvi N.1981:178-180)

İ.Şıxlı Şərq folklor mədəniyyətinin klassik yazılı qaynaqlarından olan "Kəlilə və Dimnə" dəki iki alleqorik hekayətdən də "Əfsanə və rəvayətlər" silsiləsində yaradıcı şəkildə bəhrələnmişdir. Belə ki, silsilədəki "Bəs, zınqırovu kim asacaq?" və "Xasiyyətimdir" hekayələri "Kəlilə və Dimnə"nin müvafiq olaraq "Siçanlar padşahı və onun vəzirləri" və "Tısbağa və Əqrəb" (Kəlilə və Dimnə.1988:178-180) alleqorik hekayətəri ilə mövzu və məzmun baxımından müəyyən qədər uyğun gəlməkdədir. Bununla belə, mətnərin və süjet xətlərinin tam təkrarından söhbət gedə bilməz. İsmayıl Şıxlı qələminin özünəməxsus məharəti bəlli mövzu və süjeti epik görkəmə sala bildiyindən, hər iki folkor hekayətinin əsasında maraqlı və orijinal yazıçı hekayəsi ortaya çıxmışdır.

İ.Şıxlının "Əfsanə və rəvayətlər" silsiləsinin "Xasiyyətimdir" hekayəsi ilə "Kəlilə və Dimnə" nin "Tısbağa və Əqrəb" hekayətinin yığcam müqayisəsini aparmaqla bunu əyani surətdə görmək mümkündür: "Kəlilə və Dimnə"nin "Tısbağa və Əqrəb" hekayəti belə başlayır: Bir Tısbağa bir Əqrəb ilə həmdəm olub dostluq və qardaşlıq iddiası edirdi. Bir dəfə təbii fəlakət üz verdi, doğma vətəni tərk edib başqa yerə köçməli oldular. Təsadüfən dərin bir çaya rast gəldilər. Tısbağa çayı keçməyə başladı, Əqrəb isə donub yerində qaldı. Tısbağa dedi:

-Ey əziz dost! Sənə nə olub ki,fikir dəryasında batmısan?

Əqrəb dedi:

-Qardaşım,bu çaydan,sudan necə keçəcəyimi duşunurəm...

Tısbağa dedi:

-Qəm çəkmə, mən səni belimə alıb bu sudan keçirərəm.."("Kəlilə və Dimnə"a.1988:178-180)

Mətnin bundan sonrakı yığcam məzmunu belədir: Tısbağa Əqrəbi belinə alıb çayı keçərkən, Əqrəb onu sancmaq üçün iynəsini işə salır. Ancaq Tısbağanın çanağı möhkəm olduğundan iynə ona batmır. Tısbağa Əqrəbdən bu boyda yaxşılığın qabağında niyə onu sancmaq istədiyini soruşur. Əqrəb xasiyyətindən əl çəkə bilmədiyini söyləyib üzrxahlıq edir.Bu zaman Tısbağa da "mənim xasiyyətim də suda batırmaqdır", deyib Əqrəbi suyun dibinə qərq edir. Göründüyü kimi,"Kəlilə və Dimnə"dəki hekayət sadə nəqletmə üzərində qurulmuşdur. İ.Şıxlının "Xasiyyətimdir" (Şıxlı İ Seçilmiş əsərləri.1986: 408-411)hekayəsində isə dolğun epik təqdimat özünü göstərməkdədir. Yazıçı süjet xəttini hərəkətə gətirməzdən öncə hadisənin baş

verəcəyi məkanı təsvir edir və orijinal bədii boyalarla işlənmiş bir peyzaj yaradır: "Sular göz yaşı kimi dumduru idi. Çayın dibindəki bülöv daşları aydınca görünürdü. Bu daşların üstü ilə sürüşən bıçaqlı balıq sürüsü gah suyun üzərinə qalxır, gah da küyülləşib çay aşağı şütüyürdü. Hava aydın və tərtəmiz idi. Təkəm-seyrək gözə dəyən ağ buludların gölgəsi suyun üzərində ağ ləkə kimi axırdı.Sahil boyu uzanmış meşənin əksi isə suyun dərinliyindən adamın üzünə boylanırdı. Lal axan çayın üzü qırçın ləpələrdən qaysaq bağlamışdı. Tısbağa elə bil bu gözəllikdən vəcdə gəlmişdi..." Bundan sonra yazıçı epik təmkinlə hadisənin təsvirinə keçir:" Tısbağa təsadüfən çayın sahilindən bir inilti eşidir. Yaxınlaşıb bunun bir Əqrəb olduğunu görür. Ah-naləsinin səbəbini soruşur. Əqrəb çayın o biri üzünə keçə bilməməsini dərd eləyir.Tısbağa cəhd eləyib onu boynuna mindirir ki, çayı keçirsin. Çayın ortasında Əqrəb onu boynundan çalır.Tısbağa etdiyi yaxşılığın müqabilində bu namərdliyin səbəbini soruşanda, Əqrəb "neyləyim,xasiyyətim belədir, çalma-sam dayana bilmərəm", cavabını verir. Əqrəbin çalmasından zəhərlənib bədəni keyiyən Tısbağa suya batır, Əqrəb də onunla birgə qərq olur.

Mətnlərin müqayisəsindən aydın olur ki,"Kəlilə və Dimnə"dəki "Tısbağa və Əqrəb" hekayəti ancaq yığcam süjet təqdimindən ibarət olduğu halda, İ.Şıxlının "Xasiyyətimdir" hekayəsi yazıçı üslubunun səciyyəsinə uyğun olaraq, geniş epik planda işlənmişdir. Süjetdə də fərqlər var: "Tısbağa və Əqrəb"də Əqrəb Tısbağa ilə dost olur. Tısbağa öz dostunun yolunda fədakarlıq edib, onu çaydan keçirmək istəyir. "Xasiyyətimdir" hekayəsində isə Tısbağa Əqrəbə təsadüfən rast gəlib ona kömək edir. Bundan başqa, "Tısbağa və Əqrəb" də Əqrəb Tısbağanı çalmağa cəhd etsə də, onun iynəsi Tısbağanın çanağına batmır, qəzəblənmiş Tısbağa namərdliyinə görə onu suda boğur. İ.Şıxlının "Xasiyyətimdir" hekayəsində isə Əqrəb Tısbağanın boynundan sancıb öldürür. Göründüyü kimi, ədib bəhrələndiyi qaynağa yaradıcı şəkildə yanaşmış, süjet xəttinə və obrazlara özünəməxsus əlavələr edərək, folklor hekayətini yazıçı hekayəsinə çevirmişdir. Qaynaqdan bəhrələnmə silsiləyə daxil olan digər hekayələrdə də eynilə bu cür getmişdir.

"Baftaçı Şah Abbas" ("Azərbaycan xalq nağılları"b 1985,)nağılı əsasında qələmə alınmış "Keçəçi" hekayəsində nağılın süjet və obraz tərkibi yazıçı təxəyyülünün özünəməxsus müdaxiləsi ilə müəyən dərəcədə dəyişdirilmiş və yeniləşdirilmişdir. Nağıldan fərqli olaraq, hekayədə Şah Abbasdan yox, sadəcə bir şahdan söhbət gedir. Nağılda Şah Abbas naxırçı qızı Banuya aşiq olur və onun şərtinə əsasən baftaçılıq edir-köynək toxuma öyrənir. Hekayədə isə şah kəndli qızı Əminə xatuna aşiq olur və onun şərtinə görə keçəçilik sənətini öyrənir. Hər iki süjetdə şahı ölümdən qurtaran öyrəndiyi sənət olur. Epik təsvirin üstünlük təşkil etdiyi hekayədə şah adamların qeyb olma səbəbini öyrənmək üçün libasını dəyişərək, şəhərdə gəzib-dolaşarkən tutulub bir zirzəmiyə salınır. Yazıçı bundan sonra onun yaddaşını çözələməklə

keçeçi söhbətinə qayıdır. Nağıl isə birbaşa Şah Abbasın naxırçı qızına aşiq olması və onun şərtinə görə baftaçılıq öyrənməsindən başlanır. Beləliklə,nağılın birinci epizodu (Şah Abbasın naxırçı qızı Banuya aşiq olaraq baftaçılıq sənəti öyrənməsi) hekayədə ikinci epizod yerinə gəlir.Yazıçı epik manera işlədərək epizodların yerini məqsədyönlü şəkildə dəyişdirmiş, folkor janrını özünəməxsus yazıçı qələmi ilə işləyib mükəmməlləşdirmiş və yenidən yaradaraq xalqa qaytarmışdır.

"Şahın oğlu" (Şıxlı İ:1986 b 381-384)hekayəsində Azərbaycan məişət nağılları üçün çox səciyyəvi olan Şah Abbas obrazı əsas surət kimi götürülmüş və hadisələr onun ətrafında cərəyan edir. Hekayədəki çoban, şahın arvadı kimi obrazlara nağıllarda sıx-sıx rast gəlinməkdədir. Bunula yanaşı, sözügedən hekayədə süjetə yazıçı müdaxiləsi daha çox hiss olunur. Hətta hekayənin konkret bir nağıldan deyil, bir çox nağıllardan əldə olunmuş material əsasında işləndiyini söyləmək olar. Çünki buradakı epizodlara(şahın səfərə çıxması,çobana rast gəlib onunla şərtləşməsi,şahın ədalətli qərar çıxarması və s.)müxtəlif nağıl mətnlərində rast gəlmək mümkündür.

"Əfsanə və rəvayətlər" silsiləsinin əsas hissəsini yazıçının xalq arasından toplayaraq öz yaddaşında gəzdirdiyi folklor süjetlərinin hekayələşdirilməsi təşkil edir. "Dəvəçi", "Sapı özümüzdəndir", "Ruzi", "Məni itirməyin","Xoruz beçə", "Niyə ağlayırsan,", "Sənə aslanım deyən", "Belə məmləkətdə" və başqa bu qəbildən olan hekayələrin süjet xəttindən aydın olur ki, həmin hekayələr öz mənbəyini canlı folklordan-xalq arasında gəzib-dolaşan rəvayət və ibrətamiz hekayələrdən götürülmüşdür. Burada bir cəhətin üzərində ayrıca dayanamaq lazım gəlir. Belə ki, İsmayıl Şıxlı bir çox xalq rəvayətlərini hekayələşdirdikdən sonra onlar daha populyar olmuş, həm folklor, həm də yazıçı yaradıcılığının məhsulu kimi dillərdə gəzib-dolaşmışdır.Məsələn, "Sapı özümüzdəndir" hekayəsində meşədə ağacların qırılması ilə bağlı detal qabardılır: "Ağacların padşahına xəbər gətirirlər ki, adına balta deyilən ağzı iti dəmir meşəni qırıb çatır. Agac padşah soruşur ki, bəs, onun sapı nədəndir? Deyirlər ki, ağacdandır. Bu zaman ağac padşahı dərd götürür: o balta bizim axırımıza çıxacaq, çünki sapı özümüzdəndir"(Şıxlı İ: 1990, 18-23)

İsmayıl Şıxlı bu hekayəni qələmə aldığı illərdə Azərbaycanda erməni problemi baş qaldırmaqda idi, vəzifə başındakı sapı özümüzdən olan baltalar vətən, millət təəssübü çəkənlərin başına müsibətlər gətirir, ermənilərə isə "gözün üstə qaşın var"deyən olmurdu. Yazıçı hekayədə həmin milli satqınları nəzərdə tutmuşdu. Məhz buna görə də 80-ci illərdə "sapı özümüzdəndir" məsəli xalq arasında geniş yayılmışdı. 1980-ci illərin sonları 90-cı illərin əvvəllərində bir çox publisist yazılarda, ziyalıların, qələm sahiblərinin, mətbuat və televiziyada, eləcə də mitinqlərdəki çıxışlarında tez-tez xatırlanan "sapı özümüzdəndir" replikası İ.Şıxlı uzaqgörənliyinin qarşıdan gələn hadisələri nə qədər dəqiqliyi ilə duyduğunun göstəricisi idi.

Xalq arasında gəzən ibrətamiz söhbətlərdən götürülmüş "Dəvəçi" (Şıxlı İ.Seçilmiş əsərləri.c.1986: 396-399) rəvayət-hekayəsində yazıçı haqq-ədalətin pozulmasının, nankorluğun insanların mənəviyyatına vurduğu zərbədən söz açır. Onun bu qəbildən olan digər hekayələrində olduğu kimi "Dəvəçi"də də sətiraltı eyham güclüdür. Nankor dəvəçi karvanın əsas yükünü çəkən dəvənin ovsarını eşşəyin quyruğuna bağlayaraq, onun ruhunu sarsıdır: "-Yadımdaır, bir dəfə yorulub lap əldən düşmüşdüm. Yüküm ağır idi. Üstəlik ölən dəvənin dərisini də mənə şəlləmişdin. Ayağəm yerimirdi, istidən dilim ağzımda yanırdı. Neçə dəfə üzünə baxdım, ya yükümü azalt, ya da qoy bir az dincəlim dedim, fikir vermədin. Mən həmişə karvanın qabağında getmişəm, başçı olmuşam, sən buna da qiymət vermədin. Zırpı bi eşşəyi çəkib gətirdin, mənim noxtamı onun quyruğuna bağladın. Bax,bunu sənə heç vaxt bağışlaya bilməyəcəyəm"(Şıxlı İ.Seçilmiş əsərləri.c.1986:398) Göründüyü kimi, sərt bədii boya tətbiq olunaraq, rəmzi və ironik bir tablo yaradılmışdır. Qabiliyyətsiz və səviyyəsiz şəxslərin yüksək mədəniyyətə malik, bilikli, mənəviyyatlı admaların başı üstündə durub onları idarə etməsi dəvənin ovsarının eşşəyin quyruğuna bağlanması ilə eyni şey olduğundan, İ.Şıxlı əslində hekayədəki manera ilə içərisində yaşadığı cəmiyyət hadisələrinə öz yazıçı münasibətini bildirir. Nadanlıq və cəhalətin hökm sürdüyü bir cəmiyyətdə, yağla şorun fərqinə varılmayan bir mühitdə, insanın agıl-kamalına, mənəvi dəyərlərə qiymət verilməsinin mümkün olmaması "Belə məmləkətdə" hekayəsinin əsas ideya –estetik qayəsini təşkil edir. Rəvayət-hekayənin sonluğunda peyğəmbərin dilindən verilən ibrətamiz replika süjetin yekun qənaətini əsil xaql müdrikliyi ilə ümumiləşdirir: "Bir ölkədə ki,müəzzin çaqqal ola, münəccim də boz köpək, mən belə məmkələtdə peyğəmbərlik eləyə bilmərəm"(Şıxlı İ.Sapı özümüzdəndir.-1990:63) Ümumiyyətlə,İ.Şıxlı nəsri üçün çox səciyyəvi olan fikri,mətləbi üstüörtülü şəkildə məcazi yolla çatdırmaq meyli "Əfsanə və rəvayətlər" silsiləsində özünü daha qabarıq göstərir. Silsilədə alleqorik vasitələrdən, xalq gülüşünə məxsus eyham, kinayə və replika tərzindən geniş istifadə olunması da bunun əlamətidir. "Bəs,zınqırovu kim asacaq?", və "Xoruz beçə" hekayələrindəki alleqorik təqdimat bu keyfiyyətlərlə yanaşı, lətifə təmayüllüyü ilə də diqqəti cəlb edir. Daim qorxu və təhlükə altında yaşayan siçanlar ən nəhayət canlarını qurtarmağın yollarını tapırlar: pişiyin gəlişindən qabaqcdan xəbərdar olmaq üçün onun boynuna zınqırov asmaq qərarına gəlirlər. Ancaq pişiyin boynuna zınqırovu asmağa ürək eleyən varmı? Hekayənin replika-sonluğu "Bəs zınqırovu kim asacaq?" ironik sualı mətnə lətifələrə məxsus janr xüsusiyyəti gətirmişdir. Yaxud özündən razı beçə xoruz damın üstündə çox ehtiyatla gəzir. Qoca xoruz bunun səbəbini soruşduqda o: "Qorxuram damın kərənləri ayağımın altında tab gətirməyə qırıla və ağırlığımdan dam uça",-cavabını verir. Yersiz eqoizmin tənbehi

qoca xoruzun dilindən verilən kinayə-replika ilə gülüş obyektinə çevrilir: "Qorxma, bala, mən o damın üstündə çox gəzmişəm. Amma nə kərən qırılıb, nə də dam uçub. Özündən bədgüman olma, bala, ayağını yerə bərk bas, belə havalanıb özünü itirmə."(Şıxlı İ..1986 d:415)

Silsiləyə daxil olan "Məni itirməyin","Ruzu", "İlğım", "Niyə ağlayırsan," hekayələri mənəvi dəyərlər ifadə edən simvolika üzərində qurulmuşdur. "Məni itirməyin" hekayəsindəki Od, Su, Vicdan obrazları rəmzi-məcazi səciyyə daşıyır. Bu obrazlardan ikisi-Od və Su həyatın, yaşayışın vacib ünsürü kimi xalq yaradıcılığında sıx-sıx keçməkdədir. Lakin od və suyun şəxsləndirilməsinə folklorda, deməkl olar ki, rast gəlinmir. Hekayədə onların şəxsləndirilməsi müşahidə olunur ki, bu da yazıçının məqsədyönlü canlandırmasıdır. Vicdan obrazı isə birbaşa İsmayıl Şıxlının öz təxəyyülünün məhsuludur. Hekayədə epik təsvir əsasında iki mənzərə yaradılmışdır: Od və Su yerində olduğu zaman(onlara öz yerini Vicdan tanıdır-D.Z.) həyat, gözəllik, xöşbəxtlik gətirir, dünyanı gülə, çiçəyə, insan səadətinə qərq edir. Yerində olmayanda isə fəlakət, dəhşət, ölüm, bədbəxtlik gətirir. Rəvayət –hekayənin yekun qənaətinə görə həyatın normal axarı üçün onların üçünün də bir yerdə olması şərtdir. Bu səbəbdən də Od, Su və Vicdan bir dostluq üçlüyü kimi təqdim olunur. Üç dost bir-birini itirdikdə necə tapmağın yolunu söyləyirlər. Od tüstünü, Su isə yaşıllığı özünə nişan verir. Vicdan isə deyir:"Amanın bir günüdür, məni itirməyin, itirsəniz,bir daha tapa bilməyəcəksiniz!"(Şıxlı İ.1984: 145) Rəmzi-məcazi biçimdəki bu didaktik sonluq dərin və düşündürücü bir məzmuna malikdir. Yazıçı öz oxucusuna vicdan əxlaqi-fəlsəfi anlayışını müdrik və poetik bir ustalıqla aşılamağa müvəffəq olmuşdur.

Qeyd etmək lazımdır ki, ənənəvi motiv, obraz və süjetlərə İ.Şıxlı bilərəkdən müraciət etmiş ,sözügedən qaynaq-qəliblərdən yaradıcı şəkildə istifadə edərək, onu narahat edən məsələlər barədə öz yazıçı sözünü deməyi qərarlaşdırmışdır. El rəvayətləri əsasında hekayələr yazmaq zərurəti barədə müsahibələrindən birində yazıçı özü də bildirmişdir ki, "uzun əsrlərin sınağından çıxan müdrik xalq rəvayətləri və əfsanələri məni düşündürən müasir məsələlərə çox sərrast cavab verir"(Şıxlı İ.1988:333) Bu hekayələri qələmə alarkən, yazıçının əsas məqsədi halallıq, mərdlik, doğruluq, ayıq-sayıqlıq, uzaqgörənlik və s. kimi mənəvi keyfiyyətləri xəlqi üsulla müasir oxucuya çatdırmaqdır. Ədibin hekayələşdirmə zamanı qaynaq kimi götürdüyü mövzu və ya süjetin xüsusi bir məqamını, incə bir nüansını məqsədyönlü şəkildə qabartmaq meyli "Əfsanə və rəvayətlər"də aydın şəkildə duyulmaqdadır. Məsələn ,şahla dəllək arasındakı əhvalat hekayələşdirilərkən, yazıçı əsas diqqəti "onu danışıdıran var" məsəl-eyhamının üzərinə yönəltmişdir. Məsəl-eyhamın hekayənin sərlövhəsinə çıxarılması da xüsusi diqqətin əlamətidir. Yaxud "Sənə aslanım deyən"

hekayəsindəki yazıçı eyhamı da "Onu danışdıran var" hekayəsindəki kimi əsas bir nöqtənin üzərində vurğulanmışdır: dəllək ayağı altındakı sərvətə bel bağlayıb özünü güclü-cəsarətli saydığı kimi Diziaynalı pəhləvan da arxasında dayanan şaha güvənib meydan sulayır, qarşısına çıxan pəhləvanları saya salmır. Heç kəs gücü çatsa belə, şahın qorxusundan onun pəhləvanını yıxmağa cəsarət eləmir. Çünki bu pəhləvan meydana çıxdığı zaman şah ona "aslanım" deyə müraciət edir. Şah arxasından çəkildiyi zaman pəhləvan gücsüzləşir, o, üzbəüz qaldığı Rüstəm Zal qarşısında tir-tir əsir. Rüstəm Zal əlini onun çiyninə qoyanda dizinə qədər torpağa batır. Bu situasya psixoloji baxımdan dəlləyin ayağının altındakı qızıl küplərinin götürüldüyü vəziyyətlə üst-üstə düşür. Matı-qutu qurumuş Diziaynalı pəvləvanın: -Sənin ki belə gücün var, bəs, niyə mənim kimi məşhur deyilsən?-sualına Rüstəm Zal ironik eyhamla: "Sənə aslanım deyən mənə pişiyim desəydi, dünyanı çiynimdə gəzdirərdim" cavabını verir(Şıxlı İ. 1984:148) Bədii üslubi maneradan hiss olunduğu kimi "sənə aslanım deyən, mənə pişiyim desəydi" ironik eyhamı digər hekayədəki "onu danışdıran var" məsəl yükə malikdir. Beləliklə, ustad sənətkar folklordan öz yaradıcılığında ekzotika, zahiri cazibə xatirinə istifadə etməmişdir. Şifahi el xəzinəsindən yaradıcı şəkildə bəhrələnərək, folklor ünsürü ilə yazıçı təhkiyəsinin uğurlu sintezini yarada bilmişdir. İ.Şıxlı özünün "Əfsanə və rəvayətlər" silsiləsində folklor mövzu, süjet və obrazları bədii təxəyyül süzgəcindən keçirərək, yeni bədii boyalar əlavə etmiş və maraqlı məzmun, kompozisiya elementləri ilə zənginləşdirərək xalqa qaytarırmışdır.

Ədəbiyyat

4. Azərbaycan nağılları.5 cilddə, 2-ci cild. Bakı:Elm,1986,s186
2.Şıxlı İ.Daim axtarışda, Bakı: Yazıçı,1988.
3.Şıxlı İ.Məni itirməyin, Bakı:Gənclik,1984
4.Şıxlı İ.Sapı özümüzdəndir. Bakı:Gənclik,1990.
5..Şıxlı İ.Seçilmiş əsərləri.İki cilddə.II cild.Azərnəşr,1986.
6.Gəncəvi N.Sirlər xəzinəsi.Bakı:Elm1981
7.Kəlilə və Dimnə. Bakı,Azərnəşr:1988.
8.Qasımzadə Q..Ədəbiyyatımız,mənəviyyatımız,Bakı: Yazıçı,1988.
9.İsmayılov Y.İsmayıl Şıxlı:həyatı,mühiti,sənəti.,Bakı: Ayna Mətbu Evi,1999.
10.Zeynalova D.İsmayıl Şıxlı və Folkor.Bakı: Nurlan,2006.
11.Zeynalova D. Milli kimliyimizin Cahandar ağa örnəyi. Folklor və etnoqrafiya.Beynəlxalq jurnal.№1.Bakı,2008

D. Zeynalova

Folk motifs in modern Azerbaijani prose
(I.Shixli "Leqend and narrations")

Sammary

The literary work of one of the prominent images of XX century Azerbaijan literature Ismayil Shixli is not only distinguished for its wide idea-topic richness, lively language style,original narrative manner, but also for its closeness to the national spirit, national and moral values. The given article deals with how the writer masterly benefited from the endless moral resource-folklore -the motives and plots of the stories,fables, and -legends . In his literary activity the master didn't use the folklore as an exotic character or external attractiveness. Benefiting from the oral folk treasury with great ability he could make the great synthesis of the elements of folklore with the writer's narration. In his "Fables and legends" series Ismayil Shixli filtered the folklore topic, plot and characters within the fiction narration and as a result he added new fiction colors and returned it to the folk enriching it with interesting content and the elements of composition.

Д. Зейналова

Фольклорные мотивы в современной Азербайджанской прозе
(И.Шихлы «Легенды и притцы)

Резюме

Литературно-фольклорные связи основывались на глубоком интересе литературы к духовному миру народа, к проблеме народности, освоению фольклорных традиций. Нет ни одного писателя, который не отразил бы в своем творчестве фольклорных традиций и не обратился бы к фольклору. С особой глубиной фольклорные мотивы отразились в произведениях нородного писателя Исмаила Шихлы. Жанры и фольклорные сюжеты, вливаются в прозу И.Шихлы и придают ей национальное своеобразие. В конце 70-х - начале 80-х годов Исмаил Шихлы создал потрясающий по художественной завершенности и глубине цикл рассказов, основанный на народных притчах и легендах. Писатель во всех этих рассказах опиралася на народное творчество, постиг его нравственные и эстетические идеалы.

Rəyçi: Qorxmaz Quliyev
filologiya elmləri doktoru, professor

TÜRKAN ZEYNALOVA
Gəncə Dövlət Universiteti
Turkanzeynalova1985@gmail.com

SABİR POEZİYASININ İNGİLİS DİLİNƏ TƏRCÜMƏ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: M.Ə.Sabir, satirik şeirlər, "Əkinçi", "Bakı fə"lələrinə", "Tək səbir".
Ключевые слова: М.А.Сабир, сатирические стихи, "Пахарь", "Бакинским рабочим", " Нечётный чих".
Key-words: M.A.Sabir, satirical poems, "Ploughman", "To the workers of Baku", "The Odd Sneeze".

Qədim bir tarixi olan Azərbaycan xalqının yaratdığı zəngin ədəbi irs bütün çağlarda Qərb şərqşünaslarının diqqətini çəkmiş və onlar zaman-xaman bu ədəbi nümunələri tədqiq edərək öz dillərinə çevirmişlər. Məhz bu baxımdan zənginliyi ilə fərqli bir mövqe tutan XX əsr Azərbaycan ədəbiyyatı nümunələrinin ingilis dilinə tərcümə edilməsi təbiidir. Bu dövrdə yazıb-yaradan sənətkarlar içərisində Azərbaycan poeziyasının inkişafında əvəzsiz rolu olan, inqilabi ruhlu şeirləri ilə yeni bir satira məktəbinin əsasını qoyan Mirzə Ələkbər Sabirin (1862-1911) xüsusi yeri var. "XX əsrin əvvəlləri kiçik bir zaman kəsiyini əhatə etsə də, bu dövr Azərbaycan ədəbiyyatının, xüsusilə milli poeziyanın inkişafında çox mühüm əhəmiyyət kəsb edir. XX əsrin əvvəllərində Azərbaycan satirik poeziyası özünün ən yüksək mərhələsinə çatmışdı. M.Ə.Sabir bu satirik poeziyanın classiki olmuş, XX əsrin başlanğıcında mühüm əhəmiyyət kəsb edən satirik poeziyanın ən yüksək zirvəsini fəth etmişdir...çünki Azərbaycan xalqının tarixi ənənələri, milli xüsusiyyətləri, özünəməxsus mənəvi dəyərləri məhz onun yaratdığı bu poeziya ilə tanınır"(1, s.8).

Sabir ədəbi irsi həmişə öz orijinallığı ilə diqqəti çəkmişdir. Məhz ona görə də ingilis dilində çapdan çıxan, minillik bir dövrü əhatə edən "Azərbaycan poeziyasının antologiyası"nda M.Ə.Sabir ədəbi irsindən daha çox nümunələr verilmişdir. Bu bir həqiqətdir ki, M.Ə.Sabir bütövlükdə Azərbaycan milli poeziyasında bir hadisədir. Böyük şairi "təkcə vətəni Azərbaycanda deyil, bu ölkədən çox-çox uzaqlarda da tanıyır və servirlər. Sənətkarı oxucular sevdirən onun poeziyasındakı yüksək bəşəri ideyalar, inqilabi məzmun, vətən və xalq məhəbbətidir... Sabir kapitalizmi, insanın insan tərəfindən istismar ediməsini, hər cür köhnəlik və geriliyi lənətləyən, yeniliyi, azadlığı, səadəti alqışlayan alovlu bir demokrat kimi, vətən eşqi və xalqlar dostluğunun səmimi nəğməkarı kimi əzizdir" (6, s.3). Məhz bu baxımdan bu böyük söz ustadının sənət incilərinin Avropa dillərinə, o cümlədən ingilis dilinə tərcümə edilməsi təbiidir. Şairin ingilis dilinə tərcümə edilmiş poetik nümunələrindən biri "Əkinşi" şeiridir. Bu şeir güdrətli söz ustadının qələmin-

dən çıxan, güclü təsirə malik sənət nümunəsidir. Burada şair gözlərimiz qarşısında əzablı həyatı olan avam, cəhalətdə yaşayan əkinçinin miskin həyat tərzini və eləcə də gününü eyş-işrətlə keçirən yuxarı təbəqələrin tüfeyli həyatını ustalıqla təsvir etmişdir:

Məzlumluq edib başlama fəryadə, əkinşi!
Qoyma özünü tülkülüyə, adə, əkinçi!
Bir üzrlə hər gündə gəlib durma qapımda,
Yalvarma mənə, boynunu kəç burma qapımda,
Gahi başına, gah döşünə vurma qapımda,
Ləğv olma, ədəb gözlə bu məvadə, əkinçi!
Lal ol, a balam, başlama fəryadə, əkinçi! (4, s. 88)

Şeirin ingiliscə tərcüməsinə baxaq:

Don't wail, don't cry, don't pretend you're unhappy, ploughman!
You old, sly fox, you won't catch us napping, ploughman!
Under some pretext or other, daily you stand at my door;
Don't beg, don't ask me, don't stretch out your hand at my door!
I'm sick of seeing the whole of your clan at my door!
Don't get ideas, don't wear out my patience, ploughman!
Be dumb and obey me while I am gracious, ploughman! (5, p. 221)

Sətri tərcüməsi:

Zarıma, fəryad etmə, özünü bədbəxt kimi göstərmə, əkinçi!
Sən qoca, hiyləgər tülkü, bizi səfeh yerinə qoyma, əkinçi!
Bir bəhanə və yaxud başqa yolla hər gün qapımda durursan;
Yalvarma, üzr diləmə, əlini qapımda açma, əkinçi!
Mən sizin bütün tayfanızı qapımda görməkdən azara düşmüşəm!
Fikir yürütmə, məni hövsələdən çıxarma, əkinçi!
Lal ol və mənə itaət et, mən mərhəmətli ikən, əkinçi!

Şair burada həm əkinçinin, həm də ona zülm edən mülkədarın timsalında yaşadığı dövrü, mühiti bütün reallığı ilə təsvir edir. Onu da qeyd edək ki, Sabir kimi rəngarəng yaradıcılığa, eyhamla deyim tərzinə malik olan bir söz ustadının sənət incilərini başqa dildə səsləndirmək böyük məharət tələb edir, çünki, "M.Ə.Sabirin poeziya və publisistikasında milli həyatımızın, bütövlükdə müsəlman dünyasının bütün zümrə və təbəqələri, sinif və silkləri, hadisə və prosesləri əhatə olunmuşdur... Özü də bu əsərlərdəki ən kəskin tənqiddə belə müsbət ideal, işıqlı amal, istiqbala çağırış və təlqin, satira ilə yanaşı qanadlı romantik duyğu və ruh hakimdir" (3, s.138). Biz Azərbaycan poeziyasının ingilis dilində səslənməsində böyük rolu olan mütərcim Dorian Rotenbergin tərcüməsinə baxanda onun çox istedadlı, təcrübəli bir mütərcim olduğunu görürük. Dorian Rotenberg Sabir şeirinin ruhunu duymuş, şeirin məzmununu və formasını belə saxlamışdır. Bu onu göstərir ki, tərcüməçi Sabir dünyasına bələddir. Şeirin başqa misralarına baxaq:

Cütçü babasan, buğdanı ver, darı yeyərsən,
Su olmasa, qışda əridib qarı yeyərsən,
Daşdan yumuşaq zəhr nədir, marı yeyərsən,

Öyrənməmisən ət-yağa dünyadə, əkinçi!
Heyvan kimi ömr eyləmisən sadə, əkinçi! (4, s. 89)
Bu misralar ingiliscə belə səslənir:
Your job is to plough, eat millet yourself; give me wheat, ploughman!
As long as it's softer than stone-any stuff you can eat, ploughman.
If you don't have water, there's plenty of snow to heat, ploughman!
You have never seen butter or cream or meat, ploughman,
You're used to a simple life, like a beast, ploughman! (5, p. 221)
Sətri tərcüməsi:
Sənin işin əkib-becərməkdir, darını ye, buğdanı mənə ver, əkinçi!!
Daşdan yumuşaq nə varsa, zəhrimar ye, əkinçi!
Əgər su yoxsa, əritməyə qar çoxdur, əkinçi!
Sən heç vaxt yağ, qaymaq və ya ət görməmisən, əkinçi!
Heyvan kimi adi həyat yaşamısan, əkinçi!

Şairin fikrini olduğu kimi verməyə cəhd edən tərcüməçi bu çətin və böyük səbr tələb edən işin öhdəsindən bacarıqla gəlmişdir. Yüksək pafosla əkinçiyə deyilən sözlər öz ifadəsini eynilə təcümədə da tapır, lakin mütərcimin bütün misrada təkrar-təkrar işlətdiyi "ploughman" ("əkinçi") sözu artıq kimi görünür, halbuki, bu sözün işlənməməsi tərcüməni daha uğurlu göstərərdi.

Böyük şairin " Bakı fə"lələrinə" adlı digər bir şeiri olduqca maraq doğuran satirik bir ədəbi nümunədir. Şeirdə müstəqimlik və onun uğrunda mübarizə aparmaq cəhdi sadə bir fəhlənin timsalında təsvir edilir. Məhz "Sabir realizminin gücü, onun bir şair kimi sənətkarlıq bacarığı ondadır ki, həm fəhlənin, həm də kapitalistin mənəvi aləmini, psixologiyasını, istəklərini duyub aça bilir, onların sanki portretini bədii sözlə çəkə bilir... Fəhlənin hüquq uğrunda savaşını, sahibkarın bundan qorxuya düşdüyünü real planda əks etdirir. Sabir öz tənqid hədəflərinə anlatmaq istəyir ki, indiki fəhlə onların bu vaxtadək alışdığı və tanıdığı ağılsız, gücsüz, zülmə dözən, köləliyə tab gətirən, passiv adamların yığınından ibarət deyil. İnqilab onları birləşdirib fəallaşdırmış və çox böyük ictimai qüvvəyə çevirmişdir" (2, s.142-143).

Sabir yazır:
Bu çərxi-fələk tərsinə dövran edir imdi,
Fə"lə də özün daxili-insan edir imdi.
Olmaz bu ki, hər əmrə dəxalət edə fə"lə,
Dövlətli olan yerdə cəsarət edə fə"lə,
Asudə nəfəs çəkməyə halət edə fə"lə,
Yainki hüquq üstə ədavət edə fə"lə,
Bu çərxi-fələk tərsinə dövran edir imdi,
Fə"lə də özün daxili-insan edir imdi. (4, s.33)

Dorian Rotenberq bu misraları ingiliscə belə səsləndirmişdir:
The wheel of fortune's turning in a new way nowadays:
The working men begin to think they're human nowadays.

They poke their noses everywhere and always nowadays.
What are we coming to when working men breathe freer nowadays?
They fight for rights and disobey the overseer nowadays!
The wheel of fortune's turning in a new way nowadays;
The working men begin to think they're human nowadays. (5, p.222)
Sətri tərcüməsi:
Taleyin çarxı yeni üsulla fırlanır indi.
Fəhlələr düşünməyə başlayırlar, onlar da insandırlar indi.
Onlar hər şeyə müdaxilə edirlər indi.
Nə edərik fəhlələr azad nəfəs alsalar indi?
Hüquqları üçün döyüşürlər və onlara nəzarət edənlərə boyun əymirlər indi!
Taleyin çarxı yeni üsulla fırlanır indi;
Fəhlələr düşünməyə başlayırlar, onlar da insandırlar indi.

Bu satirik şeirin bir özəlliyi də odur ki, hər bəndin sonunda gələn təkrir tərcüməçinin nəzərindən qaçmamış və o, bunu uğurla tərcümə etmişdir. Lakin şairin səkkiz misrada verdiyi fikri Dorian Rotenberq yeddi misrada vermiş, "Dövlətli olan yerdə cəsarət edə fə"lə" misrasını "onlara nəzarət edənlərə boyun əymirlər indi" ifadəsi kimi tərcümə edərək beşinci misra ilə birləşdirmişdir. Əlbəttə, Sabir kimi nəhəng bir söz ustadının şeirini digər bi dilə çevirmək təbii ki, çətindir. Hər bir sözün qarşlığını tapmaq, onu ingilisdilli oxucuların başa düşə biləcəyi tərzdə vermək tərcüməçinin qarşısına böyük məsuliyyət qoyur, ondan böyük bacarıq tələb edir. Bütün bunlara rəğmən Dorian Rotenberqin tərcüməsini uğurlu saymaq olar.

"Sabir saritası tənqid, acı gülüş və istehza ilə yanaşı, dərin fəlsəfi mühakimə və düşüncə ilə də səciyyələnir. Şair oxucunu təəccübləndirmək və güldürməklə kifayətlənmir, həm də onu düşüncə, təfəkkür aləminə, ictimai hadisələrin mahiyyətinə varmağa yönəldir. Onun tənqidi gülüşü dərin ictimai məna və məzmunla yoğrulmuşdur" (7, s.35). Bu baxımdan şairin "Tək səbir" şeiri bütün bu ictimai bəlaları acıq-aydın xarakterizə edir:

Ta gəlirik biz də bir az anlayaq,-
Məhzəri-irfanda vurur tək səbir.
Ya deyirik işləri sahmanlayaq,-
Məclisi-əyanda vurur tək səbir. (4, s.118)

Son dərəcə ritmik, lakonik bir üslubda yazılan, musiqi təsiri bağışlayan və eyni zamanda dərin məna kəsb edən bu misraların ingilis dilində səslənməyinə baxaq:

As soon as we start to realize things
It sounds among wise men-that mighty odd sneeze.
When we say we have got to normalize things,
It sounds among nobles, that mighty odd sneeze. (5, p.226)
Sətri tərcüməsi:
Elə ki, bir şeyi anlamaq üçün başlayırıq,
Arif insanlar arasında bərkdən vurur tək səbir.
Deyəndə ki, şeyləri sahmana salaq,

Alicənablar arasında bərkdən vurur tək səbir.

Dorian Rotenberg tərcümə zamanı ingilis poeziyası üçün xarakterik olmayan qafiyəli rədifdən (" realise things", "normalis"e things") istifadə etsə də və şeirin məzmununu saxlasa da, şeirin ahəngi, intonasiyası pozulmuşdur. Digər misralarda da Sabir şeirinə məxsus gözəlliyin, axıcılığın tərcümədə qoruna bilməməsini görürük:

Yalxı bizi eyləməyib mübtəla;
Səfheyi-Qafqazı tutub bu bəla;
Qaxda, Qazaxda, Şəkidə bərməla,
Şişədə, Şirvanda vurur tək səbir. (4, s.118)

Bu parçanın ingilis dilinə edilmiş tərcüməsinə baxaq:

This misfortune happens not only with us-
It sweeps all the Caucasus like a foul breeze.
If Kakhi, Kazakh or Sheki start to fuss-
In Shusha and Shirvan it sounds, that odd sneeze.(5, p.226)

Sətri tərcüməsi:

Bu bəla təkcə bizə baş verməmiş-
O tozlu yel kmi bütün Qafqazı bürüyür.
Əgər Qax, Qazax və ya Şəki bir şeyə başlayarsa-
Şuşada, Şirvanda vurur tək səbir.

İstedadlı mütərcim Dorian Rotenberqin Sabir dünyasına, şairin çoxşaxəli yaradıcılıq üslubuna nüfuz edə bilməsi təqdirəlayiqdir. Tərcümə zamanı müəyən qüsurlar olsa da, Sabir şeriyyatı ilə ingilisdilli oxucuları tanış etmək baxımından Dorian Rotenberqin zəhmətini dəyərləndirməmək olmaz. Onu da qeyd edək ki, Sabir elə bir dühadır ki, onun əsərlərinin bütün dünya dillərinə tərcümə edilməsi ən vacib məsələlərdən biri kimi qarşımızda durur.

Ədəbiyyat

1. Habibbayli Isa. "Azerbaijani Poetry: Tradition and Modernity", Poetry of Azerbaijan (A Drop in the Ocean), Leaf Publications, Islamabad – Pakistan, 2010.
2. Hüseynov Firidun. "Molla Nəsrəddin və Mollanəsrəddinçilər", Bakı, "Yazıçı", 1986.
3. Məmmədov Alxan. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi oçerki (Qədim dövrdən 1930-cu illərədək), " Elm və Təhsil", Bakı, 2013.
4. Mirzə Ələkbər Sabir. " Hophopnamə", "Azərbaycan Dövlət Nəşriyyatı", Bakı, 1954.
5. Mirza – Alekper Sabir (Tair – Zade), translated by Dorian Rottenberg, Azerbaijanian poetry, An anthology, Progress publishers, Moscow, 1969.

6. Mir Əhmədov Əziz. “M.Ə.Sabir “Hophopnamə” (mügəddimə)”, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1954.
7. Novruzov Tərlan. Sabir ədəbi məktəbi, Bakı, “Yazıçı”, 1992.

T.Zeynalova

The translation peculiarities of Sabir’s poetry into English

Summary

The article deals with the outstanding poet M.A.Sabir, who wrote his unexampled works at the beginning of the 20 th century.

The great poet M.A.Sabir conquered the peak of the satirical poems of Azerbaijani poetry.

That is why his literary heritage always attracted the attentions with its originality. M.A.Sabir wrote a lot of poems and in these poems he exposed all tyrannical persons.

The famous translator Dorian Rottenberg translated some satirical poems by M.A.Sabir such as “Ploughman”, “To the Workers of Baku”, “The Odd Sneeze” and so on.

Т.Зейналова

Особенности перевода поэзии Сабира на английский язык

Резюме

Статья посвящена выдающемуся поэту М.А.Сабиру – автору неповторимых произведений начала XX века.

Великий поэт М.А.Сабир покорил вершину сатирических стихотворений азербайджанской поэзии.

Именно поэтому его литературное наследие всегда привлекало внимание своей оригинальностью. М.А.Сабир написал много стихов, и в этих стихах он разоблачил всех тиранов.

Известный переводчик Дориан Роттенберг перевел некоторые сатирические стихи М.А.Сабира, такие как «Пахарь», «Бакинским рабочим», «Нечётный чих» и так далее.

Rəyçi: **Leyli Əliyeva**
Filologiya üzrə fəlsəfə doktoru

ELMİRA MƏMMƏDOVA-KEKEÇ
filologiya üzrə fəlsəfə doktoru, dosent
Xəzər Universiteti; Baki Avrasiya Universiteti

VÜCUDNAMƏLƏRDƏ TƏLMİH POETİK FİQURUNUN İFADƏ VASİTƏLƏRİ

Açar sözlər: vücudnamə, təlmih, Quran, hədis, poetik fiqur
Key words: vujudnama, telmih, Kuran, hadith, poetical figure
Ключевые слова: Вуджуднама, телмих, хадис, Коран, поэтические фигуры

Giriş: Vücudnamə insanın yaradılması və ömür yolu ilə bağlı məzmun özəlliyini daşıyan, həm şifahi, həm də yazılı ədəbiyyatda müraciət edilən janrdır. Yazılı ədəbiyyatda ilk vücudnamə örnəkləri Xaqaniyyə türkcəsi ilə yazılmış əsərlərdə yer alır; "Qutadqu bilik", "Divani-hikmət" kimi məsnəvi və hikmətlər toplusundakı insan ömrü ilə bağlı mənzum parçalar klassik ədəbiyyatda bu janrın başlanğıcı sayılır. Vücudnamələrin tarixi inkişafında ilkin folklor örnəklərindən yazılı ədəbiyyata, oradan isə aşıq yaradıcılığına keçid olduğunu görürük. Vücudnamələrin poetikasında bu baxımdan həm folklordan, həm də yazılı ədəbiyyatdan qaynaqlanan müxtəlif elementlərə rast gəlirik. Vücudnamələrin poetik strukturunda müxtəlif bədii təsvir və ifadə vasitələri yer alır. Bu baxımdan, xüsusilə təlmih və təşbih kimi poetik qəlib və vasitələr bu janrın obrazlılığını səciyyələndirən elementlərdir.

Təlmih - bədii mətnlərdə müəyyən hadisə və əşyalara işarə edən, müəyyən səciyyəvi əlamətləri ilə nəzərdə tutulan hadisə və əşyanı xatırladan poetik fiqur kimi diqqəti cəlb edir. Təlmih sözünün ərəb dilində *"lamh"* sözündən yarandığı və bir dəfə göz ucu ilə baxmaq mənasını verdiyi qeyd edilir. (7, s. 144) Təlmih bədii əsərin yazarı ilə oxucu arasında ortaq yaddaşa əsaslanan qəlib söz və ifadələrdir. Belə ki, həmin ifadələrdən bədii mətnlərdə istifadə edən müəllif oxucusunun onu anlayacağından əmindir. Klassik Şərq ədəbiyyatında dini, tarixi məzmunlu məşhur hadisələrlə bağlı qəlib söz və ifadələr şeirlərdə təlmih kimi istifadə edilir. Bu baxımdan Qurandan qaynaqlanan qissələr, "Şahnamə"dən gələn mövzular, həmçinin eşq simvoluna çevrilən aşiqlərlə bağlı əhvalatlar vücudnamə yaradıcılığında da tez-tez istifadə edilən təlmihlər sırasında yer alır. Klassik ədəbiyyatda müraciət edilən təlmihlərlə vücudnamə yaradıcılığındakı təlmihlər arasında eyniyyət diqqəti cəlb edir. Mətnlərarası əlaqədə bu, ənənənin davamı kimi səslənir. Ədəbiyyatşünaslıqda təlmihin mətnlərarası əlaqədə rolu ilə bağlı qeyd edilir: *"Mimetik anlatı, metni kendi kurgusu içinde anlamlı kılar; ancak, metinlerarasılığın sağladığı zenginlik ve anlam katmanlarının*

oluşturduğu derinlik, yazara daha küçük hacimli bir eser içinde iç içe geçmiş tüm anlatıların toplamını verir. Klasik edebiyatta telmihin fonksiyonu budur ve yine mazmunlar, kısa ifade kalıplarıyla geniş açılımlar sunan metaforik yapılardır. Okur ve yazarın zihninde kodları mevcut olan bu sembolik dille, anlam alabildiğince derinleşir ve genişlerken, metnin dokusu sıkı ve girifttir". (16, s. 170-171)

Ümumiyyətlə, klassik ədəbiyyatın məzmun arxitektonikasını formalaşdıran qaynaqlar müxtəlifdir. Türkiyə ədəbiyyatşünaslığında bu mənbələrlə bağlı müxtəlif təsnifatlar var. Ədəbiyyatşünas Mine Mengi islami türk şeirinin qaynaqları ilə bağlı aşağıdakıları qeyd edir:

a) İslâm tarihi (Tarihi olay ve kişiler)

b) İran mitolojisi (Mitolojik olay ve özellikle kişiler)

c) Türk tarihi ve milli kültür unsurları (Gelenek ve görenekler)

d) Dil malzemesi (Deyimler, atasözleri, halk söyleyişleri ve edebi dili yapan bütün unsurlar)

Yukarıda maddeler halinde sıraladığımız bu unsurlardan önce, eski edebiyatımızın temelinde, kaynağını Kur'an ve hadislerden alan dini inançlarla tasavvufun bulunduğunu unutmayalım. Ancak, İslâmi bilimlerden söz ederken Kur'an ve dini inançlarla ilgili bilim dallarını tanıttığımız ve bunların edebiyatla olan bağlantılarına değindiğimiz için ayrı maddeler halinde ayrıca tekrarlamayı gereksiz bulduk". (14, s. 14)

Aida Qasımova türk xalqları ədəbiyyatında Quran qissələrinə müraciətin iki şəklini qeyd edir: 1) iri həcmli epik əsərlər (Qul Əlinin "Qisseyi-Yusif" əsəri, Durbəkin və Nəvainin "Yusif və Züleyxa" poemaları, Məhəmməd Füzulinin "Hədiqətüs-süəda" əsərinin birinci fəsli və s.) və lirik əsərlərdəki Quranla bağlı təlmihlər. (13, s. 50-51)Bədii ədəbiyyatda bu qaynaqların poetik dillə ifadə vasitələri genişdir və bu məqsədlə ən çox müraciət edilən poetik fiqurlardan biri də təlmihdir. Vücudnamələrdə istifadə edilən təlmihləri aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Quran qissələri, hədis və dini rəvayətlərlə bağlı təlmihlər;
2. "Şahnamə" ilə bağlı təlmihlər;
3. Aşiqlərlə bağlı təlmihlər;
4. Əfsanələrlə bağlı təlmihlər və s.

1. Quran qissələri ilə bağlı təlmihlər: Quranda müxtəlif peyğəmbərlərin həyatları ilə bağlı bir çox qissələr var ki, bunlar müsəlmanlar arasında və islami ədəbiyyatda geniş yayılmışdır. Həmin qissələri aşağıdakı şəkildə təsnif edə bilərik:

1.1. Adəm və Həvva: Adəm və Həvva Cənnətdən yer üzünə endirilmiş ilk sakinlərdir. Vücudnamə insanın yaradılışı ilə bağlı bir janr olduğu üçün təlmihlər arasında Adəm peyğəmbərin adına tez-tez təsadüf edirik:

Cennetten çıkınca Adem ü Havva,
Cihan sarayında koptu vaveyla,
Onlardan zürriyyet oldu müheyya,
Evladı gelince cisme can olur. (11, s. 296)

Quranın Bəqərə surəsinin 36-cı ayəsində deyilir: *"Şeytan isə o ağacla onları çaşdırıb olduqları yerdən çıxartdı Biz dedik: "Bir-birinizə düşmən olaraq aşağı enin! Yerdə sizin üçün müəyyən olunmuş vaxtadək məskən və gün-güzəran vardır".*

Şeytanın məkri digər vücudnamə müəllifləri tərəfindən də dilə gətirilir:

Mükerrem eyledi Adem'i Sübhan,
Esma-yı Hüsna'yı bildirdi asan,
Mekr ile yedirdi buğdayı şeytan,
Tac u hulle gidip ten üryan olur. (11, s. 295)

Əraf surəsinin 20-ci ayəsində deyilir: *"Ayıb yerlərini göstərməkçin onlara: "Bu ağacı Rəbbiniz ancaq ona görə yasaq eləmiş ki, siz mələk olmayasız, burada da əbədilik qalmayasız", - pıçıldayıb, dedi, şeytan".* Şeytanın məkri nəticəsində Adəmin üryan olması vücudnamə müəllifinin də ehyam etdiyi məsələlərdəndir.

Quranda və digər dini qaynaqlarda Adəm peyğəmbərin və Həvvanın yaradılması ilə bağlı motivlər də yer alır. *"Hz. Âdem'in yaratıldığı madde, çeşitli âyetlerde değişik terimlerle ifade edilmektedir. Fahreddin er-Râzî bu âyetlerde onun yaratılış keyfiyetinin muhtelif şekillerde tasvir edildiğini belirterek bunları şöyle sıralamaktadır: Toprak (türâb), su (mâ'), çamur (tîn), akışkan veya süzme çamur (sülâle min tîn), yapışkan çamur (tîn lâzib), kurumuş çamur (salsâl).* (bk. el-Hicr 15/26, 28, 33; er-Rahmân 55/14). (2, s. 358)

Aşağıdakı vücudnamə-əlifnamə nümunəsində də Adəmin xəlq olunmasından bəhs edilir və ayrı-ayrı maddələrin adı çəkilməsə də, dörd nəsnədən yaradıldığı vurğulanır:

Zel *zelil bir yanda karar eyledi,*
Ra *Rahim bu canlara neler eyledi,*
Ze *zamanda Adem'i halk eyledi,*
Sin *selamet dört nesneden beyana.* (11, s. 356)

İnanclarda yer alan motivlərdən biri də Həvvanın Adəmin sol qabırğasından yaradılmasıdır. *"Tevrat tefsirlerine göre Havvâ, Âdem'in sağ böğründeki on üçüncü kaburga kemiğinden yaratılmıştır. Tanrı onu*

böbürlenmemesi için Âdem'in başından, başkasına bakmaması için onun gözlerinden, başkalarını dinlememesi için kulaklarından, dedikodu yapmaması için ağzından, kıskanç olmaması için kalbinden, hırsızlık yapmaması için ellerinden, başı boş dolaşmaması için de ayaklarından yaratmamış; fakat mütevazi olması için bedenin gizli olan kısmından (kaburga kemiğinden) yaratmıştır". (6, s. 543). Əlifnamə-vücudnamədə Həvvanın qabırğadan yaradılması motivinə də işarə edilir:

Şın şükür atamız beyana geldi,
Sad solundan Havva anamız oldu,
Dad dolanıp takdir yerini buldu,
Tı tahirce yaslandılar cihana. (11, s. 356)

1.2. Süleyman peyğəmbər: Süleyman peyğəmbər isə ədəbi nümunələrdə səltənəti, məşhur üzüyü və möhürü, Asəf adlı vəziri ilə vəsf edilir. Vücudnamələrdə isə Süleyman peyğəmbərin adı hökmü və səltənəti ilə birlikdə xatırlanır:

Otuzunda tutdum maya,
Bədirlənmiş döndüm aya,
Çıxdım ərsan əlaya,
Hökm Süleymana döndüm. (8, s. 57)

Göründüyü kimi, qəhrəman otuz yaşında ömrünün taxt-tac mərhələsində olduğunu bildirir. Digər bir vücudnamədə isə aşıq özünü Süleyman peyğəmbərə bərabər tutur:

Ol zaman mən bir xan idim,
Sahibi hökm sultan idim,
Sanki huri-qılman idim,
Bac verməzdim Süleymanə. (8, s. 191)

1.3. Musa peyğəmbər: Dini rəvayətlərdə Musa peyğəmbər Tur dağında Allahla olan mükaliməsi, yədi-beyza, əsanı ilana döndərməsi kimi möcüzələr göstərməsi ilə məşhurdur. Vücudnamələrdə dağ motivi bu yaddaşa əsaslanaraq, "Musa dağı" şəklində verilir:

Dava eylər şər şeytani,
Yığılmışdı neçə min canı.
Zülmət gördüm haq divanı,
Rast gəldim mən Musayə.

Orda gördüm Musa dağı,
Yaman görər nar ocağı.
Səkkiz qatdır cənnət bağı,
Mərt iyit düşməz bəlayə. (8, s. 86)

1.4. Yusif peyğəmbər: Qurandan daha öncəki dini qaynaqlarda da yer alan Yusif peyğəmbər ədəbi nümunələrdə, əsasən, gözəllik simvolu olaraq verilir. Dini qaynaqlarda onunla bağlı olan əhvalatlar bədii nümunələrdə müəlliflə oxucu arasında ortaq yaddaşa əsaslanan həmin semiotik mənasında çıxış edir. Vücudnamələrdə insanın gözəlliyinin füsunkar çağları Yusif peyğəmbərə təlmih edilərək verilir:

On beşdə gəzdim könlüm dilvəndi,
Özü şux, sözü şux, yəni dərdiməند,
Bir huriyi nisbənd, bir mələk sifət,
Bənzərdi Yusifi ol Züleyxaya. (8, s. 49)

Yusif peyğəmbərin həyatından bəlli olduğu kimi, ömrünün bir hissəsi haqsız yerə zindanda keçmişdir. Vücudnamə mətnlərində bu hadisə də tez-tez yad edilir:

Mevlid İhsani'yim geçti çağlarım,
Fidan idim bar vermedi bağlarım,
Yusuf gibi zindanlarda ağlarım,
Felek eğmiş doğrultamam belimi. (11, s. 271)

1.5. Məhəmməd peyğəmbər: Məhəmməd peyğəmbər bədii mətnlərdə Allahın sonuncu elçisi olması, Ayı ikiyə bölməsi, yaradılışın səbəbi olması, Qiyamətdə insanlara şəfaət etməsi ilə bağlı yad edilir. Vücudnamələrdə də Məhəmməd peyğəmbərlə bağlı təlmihlərin daha çox yer aldığını görürük. Aşağıdakı təlmihdə o, yaradılışa səbəb olan əsas varlıq kimi göstərilir:

Kün emriyle bitti, kuruldu eşya,
Nur-ı Muhammed'den hep olduk ihya,
Ağaç taş cemaat göründü dünya,
Ordan nüzul ettik cihan göründü. (11, s. 146)

Başqa bir vücudnamə mətnində də kainatın Onun nuru ilə yaradıldığı qeyd edilir. *"Tasavvuf düşüncesinde ilk yaratılan, ilk taayyün eden, varlıkların başlangıç sebebi olan Nur-ı Muhammedî'dir. Buna, filozoflar akl-ı küll; tasavvuf erbabı ise Hakikat-ı Muhammediyye, Nur-ı Muhammedî, Ruh-ı Muhammedî gibi adlar vermişlerdir"*. (9, s. 65). Təsəvvüfi ədəbiyyatda qeyd edildiyi kimi, *"Allâh'tan başka hiçbir şey yokken ilk defa Hakikat-ı Muhammediyye var olmuş, bütün yaratıklar bu hakikatten ve onun için halk edilmiştir. Alemin var olma maddesi ve gayesi bu hakikattir"* (3, s. 179).

Müxtəlif vücudnamə mətnlərində kainat yaradılmazdan, digər vücudlar meydana gəlməzdən öncə nuri-Məhəmmədin mövcud olması ilə bağlı fikirlərə rast gəlirik:

Var olmadan evvel cümle kainat,
Vücuda gelmeden arz u semavat,
Ol nur-ı Muhammed eyledi mir'at,
İzhar-ı nübüvvet nümayan olur. (11, s. 295)

Bundan başqa vücudnamələrin son hissəsində Qiyamət günündə Məhəmməd peyğəmbərin ümməti üçün şəfaət etməsi bir çox vücudnamələrdə ortaq bir motiv kimi qarşımıza çıxır:

Mehemmed'im bunu böyle buyurdu,
Muhammed de ümmetini kayırdı,
Yüz yaşında talaz geldi savurdu,
Uçup giden toza benzer misâli. (11, s. 263)

Bir qazax vücudnaməsində də Məhəmməd peyğəmbərin Qiyamət günündə (halık sap turğanda) şəfaət etməsi müəllif arzusu kimi diqqəti cəlb edir:

Kudaya Musılmannın dininde kıl...
Şarabın öliminnin işken şakta,
Saparımdı ayt, cuma küninde kıl,
Tanimnen ğaziz canım ayırğanda,
İmanımdı umıttırmay tilirnde kıl,
Cıyılıp halık sonıra sap turğanda
Muhammedke ümmet bolğan elinde kıl!
Kudaya, kudiretinmen saktağaysın. (5, s. 200-201)

2. Hədislərlə bağlı təlmihlər: Vücudnamələrdə həmçinin müxtəlif hədislərə də işarələrin olduğunu görürük. Bu baxımdan iki şəxsin – on ikinci imamın və hz. Əlinin adlarının xüsusilə yad edildiyi məlum olur.

2.1. Mehdi inancı: Vücudnamələrdə rast gəlinən təlmihlərdən biri də Mehdi inancı ilə bağlıdır. Aşağıdakı vücudnamədə Məhəmməd Mehdinin adı çəkilir:

Ruhi söyler, düşer ah ile zara,
Herkesin metaı çıkar pazara,
İmtihançün geldin sen bu diyara,
Muhammed Mehdi'de iş tamam olur. (11, s. 263)

Müəllif tərəfindən həmin şəxsdə "iş tamam olur" deməklə, islamda onunla bağlı hadisələrə işarə edir. İsnaaşariliyə görə, Qiyamətdən öncə Mehdi zühur edəcəkdir. Mənbələrdə həmin şəxsin on ikinci imam

Məhəmməd Mehdi olması qeyd edilir. Bu inanca görə, Mehdi ölməmişdir və Qiyamətdən öncə zühur edib, zalımların cəzasını verəcəkdir. (17, s. 372)

2.2. Hz. Əli: İslam aləminin qəhrəman şəxsiyyətlərindən sayılan hz. Əli, adətən, atı, qılıncı, igidliyi və insanların imdadına yetişməsi ilə simvolizə edilir. Vücudnamələrin struktur semantikasında da bu özəllikləri görə bilirik.

On sekizinde şan verirsin cihana,
On dokuzunda at sürersin meydana,
Yirmisinde hükmedersin her yana,
Ali gibi Zülfikar'a dönersin. (11, s. 224)

Əgər bu vücudnamədə insan ömrünün iyirmi yaşı, yəni dəliqanlılıq, igidlik çağı hz. Əlinin Zülfüqar adlı qılıncı ilə simvolizə edilirsə, digər mətnlərdə daha çox, şahi-mərdan və ya şahlar şahı adı ilə yad edilir:

Buraxdım dünyada yar və yoldaşı,
O zaman düzdülər üstümə daşı.
O dəmdə neylərəm eli, qardaşı.
Şahlar şahi özün kömək ol mənə. (8, s. 80)

Bu vücudnamə mətnində olduğu kimi, aşağıdakı nümunələrdə də hz. Əli qəbir evində iki mələyin sorğu-sualı zamanı imdada yetən müqəddəs şəxsiyyət kimi göstərilir:

Nəkireynə etdi xitab,
Bu şəxsə verməyin əzab.
Qəmli göylüm oldu şadab,
Yetişdim şah-i mərdanə.

Hər nə Nəkir ilən Münkər
Sual etdi Əli yeksər
Cavabını verdi əzbər,
O, dəlildir möminanə. (8, s. 110)

Hz. Əlinin bu müqəddəs vəzifəsinə olan eyhamlara türkmən şairi Məxdumqulunun yaradıcılığında da rast gəlirik:

Jandan diýdim: „Ýa, Aly!" tapyldy Şahymerdan,
Agaýy-müşgil güşat, ol emiri-möminan,
Magtymguly diýr, janym diýme sen oňa gurban,

Ol Münkeri-Nekirler durmadylar bir zaman,
Şol ýerde Repbim görüp, dogry mekana geldim. (8, s. 121)

Müxtəlif türk xalqlarının vücudnamə mətnlərindən verdiyimiz bu örnəklərdə hz. Əli axirətdə insanın imdadına yetişən qəhrəman kimi təsvir edilir.

3. "Şahnamə" ilə bağlı təlmihlər

Müxtəlif türk xalqlarının vücudnamələri arasında ən geniş yayılmış təlmihlərdən biri də "Şahnamə"nin məşhur qəhrəman Rüstəm Zal ilə bağlıdır. Rüstəm Zal, adətən, pəhləvanlığı və gücü ilə ədəbi nümunələrdə yad edilir. Vücudnamələrdə də ömrün igidlik çağlarından bəhs edərkən onun adının xüsusi vurğulandığını görürük. Aşağıdakı Azərbaycan, türk, türkmən və özbək vücudnamə mətnlərində Rüstəm Zal qəhrəmanlıq simvolu olaraq verilir:

İyirmi yaşda oldum dəli
Dindirənə dedim, bəli!
Yıxdım qaleyi-xeybəri,
Rüstəmi-Zala döndüm. (8, s. 57)

Kırk beşinde uğrar bir hoş kemâle,
Ellisinde döner Rüstem-i Zal'e,
Elli beşte döner bir başka hale,
Altmışında akıl perişan olur. (11, s. 299

Otuza girdi ömrüm, girdim tir-u kemana,
Köňül hyruç eýledi, boldum däli-diwana,
At münüp, ýarag baglap, sürüp girdim meýdana,
Rüstemi-Destan kimin söweş kyldym merdana,
Kyrka ýetende ömrüm, okyp, Gurhana geldim. (8, s. 120)

Jiqirma jasında tənxa yer boldı,
Er azamat Rüstem kibi şer boldı,
Şarık urıp jurt ışın dərbedər boldı,
Duşpannan öz arın alğan günleri. (12, s. 269-270)

4. Aşiqlərlə bağlı təlmihlər

Aşiqlər dedikdə, klassik məsnəvilərdəki və dastan yaradıcılığındakı məşhur aşiq obrazları nəzərdə tutulur. Adları dastanlaşmış bu qəhrəmanlar

eşq simvolu kimi, həm bədii ədəbiyyatda, həm də xalqın yaddaşında sevgi məfhumunu assosiasiya edirlər. Vücudnamələrdə, adətən, ömrün aşiqlik mərhələsindən bəhs edərkən həmin qəhrəmanlar xatırlanır:

On beş yaşa çatanda mən
Bir gözəl oğlana döndüm.
Yandım eşqin atəşində,
Kərəm Məcnuna döndüm. (8, s. 47)

"Leyli və Məcnun", "Əsli və Kərəm" kimi dastanların baş qəhrəmanlarının adlarının birlikdə çəkildiyi bu mətnlərdə sevgi motivləri aparıcıdır:

On dördünde daldım derin hülyaya,
On beşinde Mecnun oldum Leyla'ya,
On altıda düçar oldum sevdaya,
Korlaştırdım alevimi közümü. (11, s. 290)

Yirmisinde bilmez olur işini,
Yirmi birde gıcırdatır dişini,
Yirm'ikide bulamazsa eşini,
Hırçın olur, mecnun olur, del'olur. (11, s. 153)

Mətnlərdən bəlli olduğu kimi, Məcnun təlmihindən həm şəxs adı, həm də "dəli" məfhumu kimi istifadə edilir.

Yaşın tam on beşi bulduğu zaman,
Verdiğin ikrarda dur yavaş yavaş.
Seni mecnun eder bir kaşı keman,
Görünmeğe başlar sır yavaş yavaş. (11, s. 196)

Digər bir mətndə isə Məcnunun çöllərə düşməsi hadisəsinə işarə edilir:

Yaşın yirmi olur gençlik çağındır,
Seven gönüllerin bahçe bağıdır,
Gönül sofrasının kaymak yağıdır,
Sen Mecnunsun dünya çölündür senin. (1, s. 36)

5. Əfsanələr: Vücudnamələrdə bəzən müxtəlif türk xalqlarının əfsanə mətnlərinə işarə edən təlmihlərlə də qarşılaşırıq. Bunlardan biri Qorqudun əcəldən qaçması motivi ilə əlaqədardır. Qazax türkləri arasında bununla

bağlı əfsanələr geniş yayıldığına görə qazax vücudnamə örnəklərində də bu hadisəyə eyham vurulması nəzəri cəlb edir:

Cigitter, ğıybadat kıl mağan nansan,
Namaz okı Allahı oyına alsan,
Kırık cıl kaşkan acaldan Korkıt ta ölgen,
Tübinde söz seriki ölmey kalsan.

Yiğitler, ibadet et, bana inanırsan,
Namaz kıl, Allah'ı fikredersen,
Kırk yıl kaçan ecelden Korkut'da öldü,
Sonunda söz seninki
Ölmeden kalırsan.. (5, s. 201)

Qorqudun əcəldən qaçması ilə bağlı əfsanədə deyilir: *"Korkut, yirmi yaşına girdiğinde bir rüya görür. Rüyasında, bir kişi ona kırk yaşından fazla yaşamayacağını söyler. Korkut bunun üzerine ölümsüzlüğün yollarını aramaya başlar; devesiyle dünyanın her tarafını gezer. Her gittiği yerde kazılmış bir mezar görür. Mezarın kime ait olduğunu sorduğunda "Korkut'un mezarı" derler. Dünyanın her tarafını gezen Korkut, doğduğu Sırderya (=Seyhun) boyuna döner; çam ağacından bir kopuz yaparak "ölmez ömür" küyünü besteleyip çalar. Korkut, Sırderya suyuna halı serip üzerine oturarak, küy çaldığı zaman onu dünyadaki bütün canlılar dikkatle ve büyük bir zevkle dinler".* (4, s. 225)

Nəticə: Beləliklə, müxtəlif türk xalqlarının vücudnamə yaradıcılığında təlmih mətnlərarası əlaqəni gücləndirmək və qorumaq funksiyası daşıyır. Qruplaşdırdığımız mövzulardan aydın olur ki, təlmihlər daha çox qisseyi-ənbiya ilə bağlıdır. Bu da vücudnamələrin eyni zamanda nəsihətamiz və ibrətamiz səciyyə daşıması, həmçinin islami türk ədəbiyyatından qaynaqlanması ilə bağlıdır.

Ədəbiyyat:

1. Ali Cevat Yürekli. Kalemin Dilinden Yürekli'nin Telinden, Ankara, 2010, s. 35-36.
2. Bolay Hayri Süleyman. Adem. TDV, İslam Ansiklopedisi. İstanbul, 1988, I cilt, s. 358-363
3. Demirci Mehmet (1997), Hakikat-ı Muhammediyye, İA, c. 15, TDV. Yay. İstanbul.
4. Durbilmez Bayram. Efsaneden Destana: Kazakistan'da Korkut Ata ve Korkut Küyü. Millî Folklor, 2003, Yıl 15, Sayı 60, s. 219-232
5. Ergün Metin. Kazak Âşık Tarzı Şiir Geleneği Akın ve Cıravlar. Ankara, Kültür Bakanlığı Yayınları, 2002

6. Faruk Harman Ömer. Havva. TDV, İslam Ansiklopedisi. İstanbul, 1997, cilt 16, s.543-545
7. Fehmi Ali. Fuzûlî Gazellerinin Bazı Poetik Özellikleri Hakkında. Türkiye Türkçesine Aktaran: Günay Kâzım Çatalkaya. Divan Edebiyatı Araştırmaları Dergisi 8, İstanbul 2012, 133-146.
8. Fikrətqızı Elmira. Türk xalqları ədəbiyyatında vücudnamələr. I cild, Bakı: Elm, 2015
9. Güler Zülfi. Yunus Emre'nin Nur-ı Muhammedî Anlatımının Türk Yaratılış Destanlarıyla Benzerliği. Fırat Üniversitesi Sosyal Bilimler Dergisi, Cilt: 16, Sayı: 2, Sayfa: 63-72, ELAZIĞ –2006
10. Kaleoğlu Gonca. Bâkî Divânı'nda Telmih Sanatı. Türk Dili ve Edebiyatı Bülteni. Çankırı Karatekin Üniversitesi Edebiyat Fakültesi, 2013/I, s. 45-52
11. Kaya Doğan. Yaşnameler. Ankara: Akçağ Yayınları, 2004
12. Konıratbay Təriypi, Karakalpak folkloru. Köp tomluk. V tom, Karakalpak xalık kosıkları xəm salt jırları. Özbekistan İlimler Akademiyası Karakalpakistan Filialı N.Dəykaraev atındağı Tariyx, Til Xəm Ədebiyat İnstitutu, "Karakalpakistan" Baspası, NÖKİS, 1980, s. 269-270
13. Qasımova Aida. XIV-XVI əsrlər Azərbaycan ədəbiyyatı və Quran qissələri. (Qazi Bürhanəddin, Nəsimi, Xətai və Füzulinin ana dilində olan əsərləri əsasında). Bakı: Bakı Universiteti Nəşriyyatı, 1998
14. Mengi Mine. Eski Türk Edebiyatı. Ankara: Akçağ Yayınları, 2005, s. 14
15. Mermer Ahmet. Eski Türk Edebiyatının Ana Çizgileri/Kaynakları. Eski Türk Edebiyatına Giriş. Ankara: Akçağ Yayınları, 2010
16. Türkdoğan Melike. Rasim Özdenören'in 'Kuyu' Öyküsünde Metinlerarası İlişkiler. A.Ü. Türkiyat Araştırmaları Enstitüsü Dergisi Sayı 35 Erzurum 2007, 2007, 167-189
17. Yusuf Şevki Yavuz. Mehdî. TDV İslam Ansiklopedisi. Ankara: 2003, cilt: 28; sayfa: 371-374

Elmira Mammadova-Kekech

The expression of poetical figure of telmih in vujudnamas

Sammary

The vujudnama (the age poetry) is one of the genre, which is meeting in the oral and written literature of Turkic people. We can observe certain tradition about the life and creation of human in vujudnamas, from 11th century until present day. The role of poetical figure of telmih is great on the preservation of ancient tradition. Telmih is the way to sign to the certain incident and objects in poetical texts.

There are telmihs about the life of prophets which is mentioned in Kuran, about the lovers, hadiths, Shahname and different legends. It's signing about the instructive hadiths about the life of different prophets in those telmihs.

Эльмира Маммадова-Кекеч

Выражение поэтической фигуры телмиха в вуджуднамах

Резюме

Вуджуднама (возрастная поэзия) является одним из жанров, который встречается в устной и письменной литературе тюркских народов. Мы можем наблюдать определенную традицию о жизни и творении человека в вуджудманах, начиная с 11-го века и до наших дней. Роль поэтической фигуры телмих велика в сохранении древней традиции в вуджуднамах.

Телмих - это способ подписать конкретный инцидент и объекты в поэтических текстах. Есть тельмихи о жизни пророков, о которых говорится в Куране, о любовниках, хадисах, сюжеты «Шахнама» и разных легендах. Это подписание о поучительных хадисах о жизни разных пророков в этих телмихах.

Rəyçi: Kamran Əliyev
filologiya üzrə elmlər doktoru, professor

AĞAVERDİ XƏLİİL
AMEA Folklor İnstitutu
filologiya üzrə fəlsəfə doktoru, dosent
aqaverdi@yandex.ru

"KOROĞLU" DASTANINDA EVLƏNMƏ ŞƏKILLƏRI (EPOSUN TÜRKMƏN VARIANTI ƏSASINDA)

Açar sözlər: Koroğlu, oğuz, türkmən, epos, evlənmə , süjet, tip.
Ключевые слова: Кероглу, Огуз, Туркман, эпос, свадьба, сюжет, тип.
Key words: Koroglu, Oghuz, Turkman, epos, wedding, plot, type.

Koroğlu dastanı bir çox türk xalqlarının epik ənənəsində müşahidə olunan və geniş coğrafiyada yayılan epik nümunədir. Orta Asiyadan balkanlara qədər hər yerdə Koroğlu dastanınn izlərinə rast gəlmək mümkündür. Digər türk xalqları, o cümlədən, qıpçak türkləri arasında da Koroğlu dastanlarının və əfsanələrinin geniş yayılmasına baxmayaraq, bu dastan oğuzlar arasında daha çox aktivliyini qorumuş və şifahi ənənədə zəngin inkişaf yolu keçmişdir. Oğuz epik ənənəsində Koroğlu mərkəz mövqedə yerləşmiş, qəhrəmanlıq düşüncəsinin epik ifadəsini öz üzərinə götürmüşdür.

Koroğlu dastanının yaranmasında və formalaşmasında iştirak edən əsas gerçəklik faktorlarından biri də qədim dövrün ritual mədəniyyətidir. Arxaik ritual olaraq səciyyələndirdiyimiz ibtidai mədəniyyət dövrünün nümunələrinin bir hissəsi oyuna, bir hissəsi ayinə, bir hissəsi müxtəlif tipli mərasimlərə transformasiya olunmuş, özündən sonrakı mədəniyyətin strukturunda yaşamağa davam etmiş və onun şəkillənməsində iştirak etmişdir. Bu baxımdan ritual mədəniyyəti mədəniyyətin təməlini təşkil edən əsas qaynaq olaraq dəyərləndirilməlidir.

Koroğlu dastanı da özündə ritual mədəniyyətinin strukturlarını ehtiva edir. Bu həm də o deməkdir ki, epos ritual strukturu və sxemi əsasında formalaşmışdır. Ayrı-ayrı rituallar əfsanə, rəvayət və bir sıra xalq hekayələrinin yaranmasına səbəb olmuşdur. Rirual arxaikləşmiş, lakin ritualın icra etdiyi əsas hərəkət və mətnlər xalq yaradıcılığında yeni forma və janrların yaranmasını şərtləndirmişdir. Evlənmə ilə bağlı rituallar epik ənənəyə daxil olmuş və epik strukturda yeni rəvayətlər silsiləsinin yaranmasına səbəb olmuşdur. Eyni zamanda, bu ritual kompleksləri epik ənənədə geniş və rəngarəng motivlərin və süjet tiplərinin əsas qaynağı olmuşdur. Koroğlu dastanı tipi etibarilə qəhrəmanlıq dastanı olsa da, burada evlənmə şəkilləri ilə bağlı süjetlər geniş işlənməkdədir. Bu bir tərəfdən eposun formalaşmasında iştirak edən arxaik ritual rudimentlərinin öyrənilməsinə imkan verir, digər tərəfdən də

eposun strukturunu aydınlaşdırmağa və orada öz əksini tapan ənənəvi xalq mədəniyyətini, o cümlədən, evlənmə şəkillərin müəyyənləşdirməyə əlverişli şərait yaradır.

F. Bayat Koroğlunun müxtəlif variantlarında evlənmə məsələsinə münasibət bildirərək yazır: "Qoroğlu özbək variantında üç pəri qızla-Ağa Yunus, Miskal Pəri, Gülnar Pəri ilə evlənir. Oğuz da salnamə variantında üç dəfə evlənir. Türkmən variantlarında Ağa Yunusdan başqa digər qadınlar passiv durumdadırlar.Bundan başqa bu evliliklərdən Koroğlunun övladı olmaz. Azərbaycan variantının dəyişik nüsxələrində Koroğlu Nigarla və dağıstan hökümdarının qızıyla evlənir.Burada da dastan boyu Nigar aktiv durumdadır. Ancaq Təbriz nüsxələrində Koroğlu ona məktub yazan qızların hamısıyla evlənir. Bu nüsxədə Koroğlu doqquz dəfə, Eyvaz da dörd dəfə evlənir". "Evlənmə ritualının xalq sufizmi baxımından butaya bağlanması eşq dastanları üçün spesifik olsa da təsəvvüfi elementlərin Koroğlu dastanında görülməsi dastana xalq sufizminin təsirindən xəbər verir". "Koroğlu həm Azərbaycan variantında, həm də özbək və türkmən variantlarında buta alaraq evlənir" (8,65). Butanın sufizmin təsiri ilə dastana daxil olduğunu düşünə bilərik. Şübhəsiz ki, burada magik ünsürlər daha əski dövrlərin animist təsəvvürləri ilə bağlıdır. "Basilovun da dediyi kimi Orta Asiya şamanları olan pərixanlar yardıma ruhları deyil, pəriləri çağırırlar (10, 124). Belə bir müraciətin fərqli şəklə düşməsi artıq animizmin daxilində baş verən dəyişmə prosesləri ilə izah edilə bilər.

Faruk Sümərin yazdığına görə oğuzların evlənmə adətlərində kalım və ya başlıq vermək adəti mövcud olub (9, 66). Bununla yanaşı oğuzların toyları və oyunları haqqında tarixi məlumatlar məhduddur. 1063-cü ildə Toğrul bəyin xəlifə əl-Qaim Biəmrullahın qızı ilə evləndiyi zaman bir otaqda kürsü üstündə oturan gəlinə baş çəkdikdən sonra həyətə çıxdığını, orada bəyləri ilə birlikdə rəqs etdiyini və bu əsnada türkcə mahnılar oxuduğunu bilirik. Əbül Fərəcin verdiyi məlumata əsaslanan V.V. Bartold rusların "plyaska prisyadki" adlı rəqslərinin türklərdən alındığını yazır (9, 67).

Koroğlu dastanının çoxsaylı variantlarında müxtəlif evlənmə şəkilləri ilə qarşılaşırıq. Bu baxımdan türkmən variantı da qədim dövrün təsəvvürlərini və ənənələrini əks etdirən məlumatlarla zəngindir. Buradan əski evlənmə şəkillərini də öyrənmək mümkündür. Dastanın türkmən variantında evlənmə ilə bağlı iki əsas görüş diqqəti çəkir:

1.Gerçək evlənmə forması.

2.Əfsanəvi evlənmə forması.

Dastanda bu formaların ikisi də mövcuddur. Burada diqqəti çəkən əsas məsələ real və qeyri-real qadınlarla evlənmədir. Dastan bir tərəfdən real evlənmə hadisəsini təsvir edir, digər tərəfdn isə evlənmə hadisəsinin əsas subyektlərindən biri olan qadını mifoloji bir varlıq olaraq seçir. Mifoloji

varlıqla qarşılaşma süjetlərinin qədim süjet tipi olması haqqında elmdə müəyyənləşmiş qənaətlər vardır. Evlənmə üçün seçilmiş qadının mifoloji varlıq olması məsələni evlənmə hadisəsi kontekstindən çıxarmır. Biz yenə də gerçək evlənmə şəkillərindən biri ilə qarşılaşmış oluruq. Demək istədiyimiz odur ki, evlənmə subyektinin mifolojiliyi evlenmə sxemini dəyişmir və onun əski formalarından birini təqdim edir.

Koroğlu dastanının türkmən variantında "Koğroğlunun evlənməsi" (Göroğlının öylənişi) adlı ayrıca bir qol vardır. Bu qolda təsvir edilən evlənmə mövcud evlənmə şəkillərindən biridir. Tipi etibarilə bu forma "qəhrəmancasına elçilik" yolu ilə gerçəkləşən ənənəvi şəkildir. Qolun süjet strukturu da bunu göstərməkdədir. Burada gerçəklik əfsanəviliklə birlikdə təqdim olunur. Gerçək bir igid kimi təsvir edilən Koroğlu mifoloji varlıq olaraq bildiyimiz pəri qızla evlənir. Bu evlənmə hadisəsi bütün real evlənmə haqqındakı görüşləri, adətləri və mərasimləri də özündə ehtiva edir. Buraya qədər dastanda gerçək evlənmə şəkillərinin profan formaları ilə qarşılaşırıq. Dastanın "Koroğlunu doğulması" (Göroğlının döreyişi) adlı qolunda evlənmə şəkilləri müşahidə olunur. Burada Koroğlunun atasının, əmisinin evlənməsi hadisələri haqqında verilən məlumatlardan oğuz-türkmən cəmiyyətinin evlənmə adətlərini öyrənə bilirik.Cənlibelin ədalətsiz sultanı öldükdən sonra onun yerinə xalq tərəfindən xan seçilən Koroğlunun babası ilxıçı Çığalıbəyin Gəncim, Mömin (mətndən Cığalıbəyin atasının adının da Mömin olduğu müşahidə olunur-A.X.) və Adıbəy adlı üç oğlunu evləndirməsi ilə bağlı məlumatlar diqqəti çəkir. Adıbəyin böyük oğlu Gəncimin evləndirilməsi ilə bağlı situasiya belə təsvir edilir: "Çığalıbəy böyük oğlunu evləndirdi (dastanda "öylendirdi-illendirdi" şəklində verilir-A.X.). Gəncim yanına bir qıllı baş gətirilib evləndiriləndən sonra dünya malına uydu, atasına da faydası dəymədi. Evini də atasından ayrrıb mal-mülk toplamaq işi ilə məşğul oldu" (1,7).

Cığalıbəyin ortancıl oğlu Möminin kəmağıl olduğu anlaşılır. Mətndə bu xüsusiyyət belə təsvir edilir:"Mömin deyilən ortancıl oğlunun ağlı gəlib-gedirdi" (1,7). Bu vəziyyətdə olan adamı da evləndirməyin bir valideyn borcu olduğunu görürürük: "Hər nə olursa-olsun, bu mənim övladımdır, atalıq borcumu ödəməm gərək"-deyib bu oğlunun da evləndirilməsi üçün qız axtarmağa başlayır (1,7). Cığalıbəy bu oğlu üçün qız axtarır və tapa bilmir. Cığalıbəy ən ağıllı və igid oğlu Adıbəyə xanlığını təhvil verir. Adıbəy yanında qırx igidi ilə birlikdə ova çıxarkən boz atlı bir adamın bir kəcavə apardığını görür. Atlının ardınca çapırlar, lakin atlı kəcavəni atıb qaçır. Kəcavədə bir qız olduğunu görürlər. Güləndam adlı bu qızın Şirvan vilayətindən olduğu, Ərəb Reyhan tərəfindən ata-anası da öldürülərək zorla qaçırıldığı məlum olur. Bu şəkildə Ərəb Reyhandan xilas olan qızı Adıbəy özü ilə Çənlibelə gətirir və qardaşı Möminlə kəbinini kəsdirir (mətndə "nikalap"-nikahlayıb-A.X.). Dastanda bu situasiya belə təsvir edilir: "Adıbəy

Güləndamı öz yanına alıb gətirdi, Möminlə nigahladı. Nə olursa-olsun, məndən böyük qardaşımdır. Yeddi gecə-gündüz toy elədi, baxşı söylətdirdi, at çapdırdı, güləş tutdurdu, xalqa yemək verdi, nan deyənə nan, serpay deyənə serpay verib camaatın könlünü xoş etdi" (1,9).

Adıbəyin evləndirilməsi situasiyası isə belə təsvir edilir: "Günlərin bir günü xalq yığışıb məsləhət etdi. Adıbəy bizim sürüşüb yıxıldığımız yerdə alnımıza dirək olur. Bizim aramızda bu bir gerçək qoç igid. Ona bənzər bir oğlan olsa yaxşı olardı. Dünyadan övladsız getmək onun ad-sanına münasib deyil. Əgər dediyimizi etsə, bunu evləndirək. Bəlkə bundan özü kimi bir züryət olar.Bu məsləhəti Adıbəyə dedilər. Adıbəy qoç igid bir adamdı. O dindən çıxsa da, eldən çıxacaq deyildi. Hara getsə ona qız verirlər. Gələn adamların "gənəş"ini (məsləhətini-A.X.) alıb evləndi"(1,11) .

Üç qardaşın evləndirilməsinin hər birində evlənmə şəklinin müxtəlif elementləri öz əksini tapır:

Böyük qardaş Gəncimi atası evləndirir. Bu ənənəvi evlənmə sistemində "görücü üsulu" ilə evlənmə şəklidir. Eyni zamanda, bu ənənəvi "qız istəmə" adətinə də uyğun bir formadır.Ortancıl qardaş Mömini kiçik qardaşı evləndirir. Bu evlənmə də "görücü üsulu" evlənmədir. Qızı qardaş görür və qardaşına alır.

Kiçik qardaşı el evləndirir. Dastanda bu evlənmə şəkilinin detalları aydınlaşdırılmır . Lakin belə anlaşılır ki, Adıbəy Çənlibel camaatının məsləhəti ilə evlənir. Evlənəcəyi qızın da seçimi onun özünə aiddir. Çünki onun adı-sanı, şan-şöhrəti yayılmışdı və onun özünün seçim imkanları genişdi. Üç qardaşın evlənməsindən aydın olur ki, dastanda əski evləndirmə ritualının izləri silinməmişdir. Gəncləri evləndirəcək şəxslərin, atanın, qardaşın və tayfanın bu prosesdəki rolu aydın şəkildə müşahidə olunur. Yuxarıda da qeyd etdiyimiz situasiyalardan birində Ərəb Reyhanın qız qaçırması elementinə rast gəlmişdik. Bu situasiyadan aydın olur ki, zorla qız qaçırma hadisəsi də dastana öz təsirini göstərib. Lakin ənənənin mühafizəkar instinktləri və özünüqoruma immuniteti bu hadisəni tam şəkildə epikləşməyə qoymamışdır. Koroğlunun özünün, yəni Cığalıbəyin kiçik oğlu Adıbəyin oğlunun evlənməsi mifoloji elementlərlə zəngindir. Burada Koroğlunun evlənməsi hadisəsi evlənmə ilə bağlı bir sıra motivlərin ritual-mifloji qaynağı olur. Bu da özünü fərqli evlənmə şəkillərində göstərir. Belə fərqli şəkillərədn biri "buta yolu ilə evlənmə"dir.

Buta. Dastanda Koroğlunun subaylığı təsvir edilir. Bundan sonra röya motivi ilə davam edir. "Koroğlu sbh vaxtı bir yuxu görür. Yuxuda bir qoca kişi bir pərinin əlindən tutub onu Koroğlunun qucağına atır və deyir: "Sənin " jübütün" budur, buna Kuhikafda Jahan padşahın qızı Agayunus pəri diyərlər". Bunu deyib qoca çıxıb gedir" (1,81). Buradan aydın olur ki, "Koroğlu"nun bu variantında qız seçimi "buta vermə" yolu ilə gerçəkləşir. Bu motiv, şübhəsiz ki, təsəvvüf dövründə sufi bir səciyyə qazanmışdır. Biz

müdrik qocanın, dərvişin alma verməsi ilə doğulan uşaqları eposun dastan və nağıl variantlarında geniş şəkildə müşahidə edə bilirk. Bu element daha çox qəhrəmanın möcüzəli doğuluşu motivində yer tutur. Verginin alma, şərab və s. vasitələrlə verilməsi situasiyalarından biri kimi yuxu xüsusi mövqeyi ilə seçilir. Şübhəsiz ki, sakral təmasın və prosesin baş verdiyi yuxu motivinin əsasında inisiasiya ritualı durur. Yuxu motivi eposun strukturunda əski bir elementdir. Yuxuda görüb aşiq olmaq motivi epik ənənədə geniş şəkildə müşahidə olunur. Belə aşiqlik daha çox təsəvvüf düşüncəsini əks etdirən eşq dastanları üçün xarakterikdir. Koroğlu qəhrəmanlıq tipli dastan olsa da ciddi şəkildə sufi təcrübədən təsirlənmişdir. Dastanın türkmən variantında hər iki gənc (Koroğlu və Aqayunus pəri) bir-birini eyni vaxtda yuxusunda görür və aşiq olur. Koroğlu tərəfindən bu situasiya belə dəyərləndirilir: Koroğlu bunu bir "bəxt" (bagt) kimi dəyərləndirib onu bərkdən öpmək istərkən qucağında bədheybət bir varlıq (Bedrüstem) olduğunu hiss edir. Bir də əlini atanda əlinə "Seytek Gırma" gəlir. Onun ağzından köpük gəlirdi. Bir də ətrafına əl atır. Bu dəfə əlinə Sapar Köse keçir" (1,81). Sapar Köse qışqırıb yoldaşlarını oyadır və burada bir bəla dolaşdığını söyləyir. Çırağı yandırırlar, səsə Koroğlu da oyanır. Koroğlu oyandıqdan sonra aşağıdakı sözləri oxuyaraq olanları bəyan edir:

"Qəflətdə yatmışdım, gəldi bir pəri,
Eşq oduna məni heyran eylədi.
O pərinin sevdasına düşmüşəm,
Eşq oduna məni heyran eylədi" (1,83).

Burada aşiq olma motivi təsvir edilir. Bunun ardından yuxuda görülənlə bağlı real hərəkətlər başlanır. Koroğlu belə qəmli-qəmli oxuyandan sonra Sapar Köse deyir: "Biz onu asimanda olsa ayağından, yerin təkində olsa qulağından dartıb alarıq, harda olsa axtarıb taparıq, səni evləndirərik, səni məqsəd və muradına yetirəriz, sən qəm etmə" (1,84).

Haqq aşiqləri butalarının ardından özləri gedirlər. Bu xüsusiyyət Koroğluda da müşahidə olunur. Sapar Kösenin təklifinin cavabında Koroğlu deyir ki, "səndən məni evləndirən olmaz, başımın çarəsinə özüm baxaram" (1,84). Bununla da yuxu, aşiqolma motivi bitir və bundan sonra səfər motivi başlanır.

Səfər. Koroğlu Çənlibeldən, yoldaşlarından ayrılıb Qaf dağına getməyə qərar verir. Dəli Mətel Qıratı gətirir, Koroğlu ata minir və yola düşür. Yola düşmədən öncə Gəncim bəyin malına, qoyununa toxunmamağı yoldaşlarına tapşırır: "Verimsiz bəylərə getməkdənsə, kərəmli dağlara get" deyir (1,84). Bu deyimlə iki mədəniyyət tipi qarşılaşdırılmış olur. Təməldə bu təbiət və cəmiyyət qarşıdurması modelidir. Epos olaraq isə burada iki mədəniyyət tipi qarşılaşdırılır. Bunlardan biri ovçuluq, digəri isə heyvandarlıqdır. Bəyin yanına gedib ondan mal istəmək artıq heyvandarlıq mülkiyyət formasının

mövcud olduğunu göstərir. Dağlara getmək isə təbiətdən hazır şəkildə istifadə etmək, ov ovlamaq, quş quşlamaq yolu ilə insanların ehtiyaclarının ödəndiyi ibtidai mədəniyyət dövrünü göstərir. Hər halda eposda bu əski çizgilər öz izlərini müəyyən elementlərdə saxlamışdır.Koroğlu 40 gün yolda olur və nəhayət gəlib Qaf dağına yetişir. "Mən Çənlibel yurdundan, türkmən elindən Aqayunus pərizad deyib üç aylıq yolu 40 günə gəlmişəm"-deyir (85). Burada qəhrəmanın gedəcəyi mənzilə çatması ilə səfər motovinin gediş hissəsi tamamlanır. Aşiqlə buta arasındakı məsafənin qırx günə qət edilməsi, şübhəsiz ki, ənənəvi "qırxlar" inancı ilə bağlı olmalıdır. Buraya sufizmin də kamilləşmə, haqqa qovuşma təlimi ilə təriqət təcrübəsi də öz təsirini göstərmişdir.

Fiziki sınaq. Bu sınaqda aşiq-qəhrəman sınanır. Dastan qəhrəmanlıq tipli olduğu üçün qəhrəman da fiziki imkanları baxımından test edilir, igidliyi, gücü, cəsarəti və hünəri təsdiqlənir. Bundan sonra sınaq motivu başlanır. Koroğlu sınaqdan əşdaha ilə döyüşərək keçir, Aşağıda Koroğlunun dili ilə söylənən şeir nümunəsi də bu sınağı təsvir edir:

Qüdrət ilə bina olan əşdəha,
Bənd eyləmə pərizadın yolunu;
Səni, məni xəlq eyləyən bir Allah,
Bənd eyləmə pərizadın yolunu" (1,85).

Koroğlu əjdaha ilə döyüşür və əjdəhanı öldürür. Əjdaha üzərində qələbədən sonra Koroğlu Aqayunus pərinin qalasına daxil olur.

Görüş. Beləliklə, aşiqlərin görüşü motivinə keçilir. Yuxuda bir-birinə aşiq olan sevgililər real şəkildə görüşür və söhbət edirlər.

"Ey Koroğlu, mən səni röyada görüb hakk aşiqi oldum. İndi mən sənin ölü yerinə ölü, diri yerində diriyəm, hara istəyirsən sənlə gedərəm. İndi getməli olsaq gedib atamdan rüsxət alaq" (1,93).

Mənəvi sınaq. Bu sınaqda məşuq tərəfi yoxlanılır. Kempir Aqayunusa bəni-adəmin xüsusiyyətlərini izah edir, onun evlənməsinə mane olmaq istəyir. Dastanda Aqayunusun "mamacan" deyə müraciət etdiyi xidmətçisi və ya dayəsi bu izdivaca mane olmağa çalışır : "Sən pəri, o bəni adəm, pəri oddan, adam torpaqdan yaranıb. Sən özünü əsli torpaqdan olan adama necə rəva görürsən?" Bu kimi xüsusiyyətlərin də işə yaramadığını görüncə daha təsirli məsələlərə diqqəti yönəldir. Deyir ki, "bəni-adəm bir iki "naçar"la kifayətlənməz, üçüncüsünü, dördüncüsünü alar, Hətta saysız olaraq evlənə bilər. Bəni-adəmdə insaf olmaz, "Naçar"larladan başqa "ılmanaqraq"ları tapsa onlarla da gəzər" (1,89). Bu sözlərin doğrudan da, qadın psixologiyası baxımından çox təsirli olduğu məlumdur. Bu sözlərdən sonra Aqayunus müəyyən qədər təsirlənir: "Bəni-adəm hər qarşısına çıxan zənənlə xiridar olsa, onda vəfa olmaz" deyə Aqayunus fikirləşdi" (1,89). Göründüyü kimi qadın qısqancılığı ciddi psixoloji faktor kimi seçilir və izdivac prosesinə

mənfi təsir göstərən vasitə kimi təqdim edilir. Bu situasiya bir tərəfdən "pəri"ni insanlaşdırır, onu insanlara aid psixoloji sistemin subyektinə çevirir, digər tərəfdən də, qısqanclıq elemnti ilə psixoloji gərginlik yaradılır. Bu element "pəri"ni adi qadına çevirir və onun düşüncəsində kişilərə qarşı inmasızlıq hissi formalaşdırır. Eşqin ilahiliyi, sevginin aliliyi, haqq aşiqliyi kimi yüksək duyğular bu neqativ psixoloji elementlərin funksional imkanlarını zəiflədir və ayrılığa səbəb olmağa qoymur.

Vüsal. Aqayunus pəri yoldaşı Gülşirini də özü ilə götürür. Gülşirinin gəlməsinə Koroğlu "gələn dövlətdir"-deyir. "Koroğlu yeddi gecə-gündüz ulu toy elədi: at çapdırdı, güləş tutdurdu, baxşı söylətdi" (1,100). "Bizim nikahımız qədim Qaf dağında kəsildi"(1,100). Bu özünü Koroğlu hekayələrində də göstərməkdədir. Eposun türkmən variantında Goroğlu fövqəladə varlıqlarla-pəri qızlarla evlənir. Aqa Yunus pərinin məsləhəti ilə o, Qaf dağına yollanır. Arvadı ona hər dəfə öz müdrik məsləhətləri ilə kömək edir. Goroğlunun özbək versiyalarında qəhrəmanın üç pəri arvadı var: Yunus pəri, Miskal pəri və Gülnar pəri (1,5). Qazax eposunda da "Koruqlının" üç arvadı var (3, 63, 74, 137, 138, 200, 214, 323;) Əlbəttə, "Koroğlu" eposunda şaman elementləri müşahidə olunur. Lakin buradakı korluğun keçid ritualı ilə bağlı olduğunu tədqiqatlar və təhlillər təsdiq etməkdədir. Koroğlu eposundakı bəzi motivlərin ritual əsasları V.Y. Proppun sehirli nağıllardakı epik hekayələrdə gizlənmiş elementlərin izahı ilə müqayisəli şəkildə aydınlaşdırıla bilər. Bu müqayisəli araşdırma təhlil və doğru nəticə əldə etmək üçün zəngin material verir.

Ədəbiyyat

1.Görogly. Türkmen döwlet neşriyat gulluğu, Aşgabat, 2012, 728 s.
2.Koroğlu. Bakı, 1982.
3.Каррыев Б. А. Эпические сказания о Кёр-оглы у тюркоязычных народов. М., 1968. С. 63, 74, 137. 138, 200, 214, 323;)
4.Altun Işıl. Doğum, evlənmə və ölüm, İzmir, 2004, səh. 227-228
5.Xəlil A. "Kitabi-Dədə Qorqud"da arxaik ritualla bağlı motivlər."Dədə Qorqud" dərgisi, 2004, sayı 3.
6.Kitabi Dədə Qorqud Ensiklopediyası. Bakı, 2000.
7.Xürrəmqızı A. Azərbaycan mərasim folkloru, (türk və dünya xalqları folklor ilə tarixi-müqayisəli araşdırma), Bakı,2002, səh. 120
8.Bayat F. Koroğlu dastanında iki keçid ritualı (inisiasiya). AŞXƏDT, XXİX k. Bakı, 2009. S. 56-67.
9.Sümər F. Oğuzlar. Bakı, 1992.
10. Basilov V.N. Niyazklıçev K. Perejitki şamanstva u turkmen çovdarov/ Domusulmanskie verovaniya i obryadı v Sredney Azii, M., 1975, s.124.

11. Türk kültüründe evlenme gelenekleri. http://notoku.com/turk-kulturunde-evlenmenin-onemi-ve-evlenme-gelenekleri/#ixzz43tgjmWzI)

А.Халил

Виды женитьбы в эпосе «Кероглу» (на основе туркменского варианта эпоса)

Резюме

Средневековый период эпическое творчество Огузских турок объединяет в себя некоторые особенности традиционной народной культуры. Одним из таких богатых эпических источников является эпос «Короглу». Архаичные ритуальные зачатки, древние традиции и обряды средневековья сохранили свои следы в разных вариантах эпоса «Кероглу». В туркменских вариантах эпоса выражены брачные традиции турок-огузов и их эпическое выражение. В эпосе «Кероглу» наблюдаются формы брака, такие как «умыкание девушки», «героическое сватовство», «спросить о браке». Здесь видны архаичные мифологические мысли, как брак с «волшебными девушками». Эти взгляды и архаичные ритуальные зачатки участвуют в формировании структуры эпоса и составляет особый тип сюжета.

A .Khalil,

The marriage forms in the epos “Koroglu” (on the base of the Turkman variant of thr epos)

Summary

The Middle Ages period of the Oghuz Turks epic activity combines some characters of the traditional folk culture. One of such rich epic sources is the epos “Koroglu”. The archaic ritual rudiments, the ancient and traditions and ceremonies of the Middle Ages have kept their signs in different variants and versions of the epos “Koroglu”. The marriage traditions of Oghuz Turks and their epic expression have been expressed in Turkman variants of the epos. The marriage forms such as “to take of the girl”, “to ask in marriage heroically”, “to ask for marriage” are observed in the epos “Koroglu”. The archaic mythological thoughts as the marriage with “the fairy girls” are seen here. These views and archaic ritual rudiments take place in the formation of the structure epos and take the special plot.

Rəyçi: İslam Sadıq
filologiya elmləri doktoru

AFƏT İSRAFİLOVA
ADNSU
afet_israfilova@box.az

CORC HORDON NOEL BAYRON (1788-1824)

Açar sözlər: kübar, rütbə, qraflıq, hərəkat, şüar, rəğbət, böhtan, cəmiyyət, təşkilat, mübarizə, parlament, nitq, poema, janr, siyasət
Key words: Aristocrat, rank, earldom, movement, slogan, sympathy, slander, society, organization, fight, parliament, speech, poem, genre, politics
Ключевые слова: аристократ, ранг, графство, движение, лозунг, сочувствие, клевета, общество, организация, борьба, парламент, речь, поэма, жанр, политика

Corc Hordon Noel Bayron 1788-ci ldə yanvar ayının 22-də Londonda anadan olmuşdur. Şairin atası qədim ingilis əsilzadələrindən, anası isə Şotlandiya kübarlarından idi. Bayronun atası arvadının var-yoxunu xərclədikdən sonra onu balaca oğlu ilə birlikdə başsız qoyub Fransaya getmiş və bir az sonra orada da vəfat etmişdir.

Bayron on yaşına qədər Şotlandiyada yaşamışdır. Bayronun on yaşı tamam olanda babasının qardaşı ölür və bələliklə o, irsi olaraq lord rütbəsi alır və külli miqdarda var-dövlətə sahib olur. Bundan sonra Bayron anası ilə birlikdə Nottinqem qraflığındakı "Nyusted abbatlığı" adlı dədə-baba malikanəsinə köçür.

Sənaye mərkəzi olan Nottinqem o zaman dəzgahları sındıran fəhlə hərəkatının qaynar ocağına çevrilmişdir. Yeniyetmə Bayron işsizliyin əldən saldığı fəhlələrin böyük izdihamla küçələrə çöxdöqlarının dəfələrlə şahidi olmuşdur. Fəhlələr "İş və çörək verin!","İş yoxdursa , kralda , maşınlarda cəhənnəm olsun!" kimi qəzəbli və üsyankar şüarlarla küçələrə çıxırdılar.

Bütün bunlara bundan az əhəmiyyətli olmayan başqa bir təəssürat da qarışırdı. Hələ Bayron balaca uşaq olarkən, V. Ton və R. Emmetin rəhbərliyi ilə uzaq İrlandiyada baş vermiş iki böyük üsyanın xəbəri Nottinqemə gəlib çıxmışdı.Bu üsyanlar "Rədd olsun ingilis ağalığı!", "Bütün hakimiyyət cəmiyyətdə xüsusi mülkiyyəti olmayan böyük və fəxri sinfə verilməlidir!" şüarları altında keşirdi.

XVIII-əsrin sonu, XIX-əsrin əvvəllərində İngiltərənin ictimai həyatında baş verən bu sarsıntı nəticəsində Bayronda hələ məktəbdə oxuduğu zaman dövründəki ictimai hadisələrə maraq oyandı. O, İsveçrə xalq qəhrəmanı Vilhelm Tellin rəşadəti və İsveçrənin müstəbidi Burqund hersoqunun öldürüldüyü döyüş haqqındakı məlumatları böyük maraqla oxuyur. Bayron

Kembric Universitetində təhsil aldığı zaman (1805-1808) fransiz maarifçilərinin əsərlərinə xüsusi maraq göstərir. O, ən çox Volterin əsərlərini sevirdi. Russonun təbliğ etdiyi demokratik fikirlər tələbə Bayrona çox böyük təsir göstərir. Bayron ingilis ədəbiyyatı klassiklərinin yaradıcılığını çox gözəl bilirdi. O, fəlsəfəni, dilləri və təbiət elmlərini öyrənirdi. O, həmçinin XVIII-əsrin 90-cı illərində "Müxbirlər cəmiyyəti" tərəfindən nəşr edilmiş gizli satirik ədəbiyyatı da böyük ehtirasla mütaliə edirdi.

Bayron şer yazmağa çox tez başlamışdır. Onun 1802-ci ildə yazdığı serlər gəlib bizə çatmışdır. Şair dostluq haqqındakı mühakimələrində, hələ o zaman demokratizmə meyl göstərirdi. 1804-cü ildə Bayron Nyusted abbatlığının yaxınlığındakı Annesli malikanəsində yaşayan Meri Çavort adlı bir qizla tanış olur. Həmin tanışlıq tezliklə elə böyük və dərin bir hissə çevrilir ki, Bayron ömrünün axırına qədər onu həyəcansız xatırlaya bilmir.

Bayron universiteti qurtardıqdan və həddi-buluğa çatdıqdan sonra lordlar palatasında öz irsi yerini tutdu. Ancq bir az sonra Aralıq dənizi hövzəsindəki ölkələrə uzun müddətli səyahətə çıxmağı qərara aldı.

O, Portuqalyanı, İtalyanı, Yunanıstanı, Albaniyanı və Türkiyəni gəzir. Bu zaman ispan vətənpərvərləri onların vətənini işğal etməyə çalışan Napaleon qoşunlarına qarşı qəhrəmancasına mübarizə aparırdılar. Bayron səyahəti zamanı aldığı zəngin təəssüratlardan nəzmlə gündəlik yazır ki,sonradan bu gündəlik "Çayl Horoldun səyahəti" adlı poemanın əsasını təşkil edir. Bayron vətənə qayıtdıqdan sonra ölkənin siyasi həyatında fəal iştirak edir. O, palatada iki nitq ilə çıxış edərək, hakimiyyətdə olan Tori partiyasinin xalq əleyhinə apardığı siyasəti tənqid edir.

Birinci nitqində ludditlərə edam cəzası verilməsi haqqındakı qanunun əleyhinə çıxaraq "onların əsas günahı çörək və iş istəmələridir,"- deyə fəhlələri müdafiə edir və hakim siniflərin, insanlara qarşı amansız olduqlarına görə cəzasız qalmayacaqlarını söyləyir. Ikinci nitqində isə illərdən bəri müstəmləkə zülmünün nəticəsində dilənçi halına düşmüş İrlandiya katolik kəndlilərini müdafiə edir. Bayron deyirdi: "İrlandiya kəndliləri o qədər əzilmiş və soyulmuşlar ki,onlar ABŞ-dakı zəncilərə belə qibtə edə bilərlər. Ona görə ki, zəncilər qul da olsalar, İrlandiya katolik kəndlilərindən yaxşı dolanırlar". Bayron İrlandiyaya istiqlaliyyat verilməsini tələb edirdi. Bayronun hər iki nitqi böyük təsir buraxsada, heç bir əməli nəticə vermədi.

Bayron parlament fəaliyətində ümidlərinin boşa çıxdığını gördükdən sonra lordlar palatasını həmişəlik tərk etdi və mənzum pamflet janrına keçərək irtica ilə mübarizəyə təşəbbüs göstərdi. Bayron şərqi və cənubi Avropa xalqlarının həyat və mübarizəsini əks etdirən romantik poemalar yazdığı zamanlar. "kübar mühiti" və Tori hökuməti ona toxunmurdu. Kübar mühitinin gözəlləri bu adlı-sanlı şairə pərəstiş edir, şıq geyinmiş kişilər onun

kimi geyinməyə çalışır və şairi təqlid edirdilər. ən varlı və məşhur ailələr Bayronu daima evlərinə dəvət edirdilər.

Ancaq Bayron özünün nitqlərində və satirik serlərində zorakılıq siyasətinə qarşı açıq çıxış edərək lordları xalq qəzəbindən qorxmağa çağıranda onu siyasi cəhətdən təhlükəli adam elan etdilər və şairə divan tutmaq üçün münasib bir bəhanə axtarmağa başladılar. Belə bir bəhanə isə tezliklə onların əlinə düşdü.

Bayron 1815-ci ildə qadın gözəlliyinin və yüksək mənəvi keyfiyyətlərini təcəssümü hesab etdiyi Annabella Milbenklə evləndi. Ancaq tezliklə məlum oldu ki, ana südü ilə bərabər deyildir. kübar mühiti irtiraçılarının Bayronun guya mənəvi pozğun olması haqqında yaydıqları iyrənc böhtan və saiyələrə inanaraq, evlənmələrindən bir il sonra Annabella ərindən onu boşamasını tələb etdi.

Hakim dairələr Bayronu "əxlaqsızlıqda", "müqəddəs ailə ocağını ləkələməkdə" və sairədə ittiham etmək üçün bu təsadüfdən istifadə edərək, ona qarşı ardı-arası kəsilməz zəhərli böhtanlar yağdırmağa çalışdılar. "Mötəbər" evlərin qapıları Bayronun üzünə bağlandı, qəzetlər şairin adını ləkələmək üçün saysız-hesabsız çirkin böhtanlar yazdılar, pulla satın alınmış xuliqanlar Bayronun evini daşa basara q, pəncərə şüşələrini sındırdılar, şair üçün küçəyə çıxmaq belə təhlükəli oldu. Xüsusiyyətçi İngiltərə böyük şairə, bax bu şəkildə divan tutdu. Bu ağır dəqiqələrdə Bayronun yeganə dostu ögey bacısı Avqusta Li idi. Bayron ancaq onun evində rəğbət və təskinlik tapırdı. Nəhayət, ağır böhtanlar o qədər dözülməz şəkil aldı ki, Bayron İngiltərəni həmişəlik tərk etmək məcburiyyətində qaldı. əslində o, şahzadə-naib və başqa siyasi hakimlərin əmri ilə ölkədən qovuldu.

Bayron 1816-cı ili İsveçrədə Cenevrə gölü sahilində yaşadı. Burada o, İngiltərə şerinin başqa bir dahisi olan Şelli ilə tanış oldu, 1816-cı ilin oktyabr ayında Bayron İsveçrəni tərk etdi və bir neçə gündən sonra İtaliyanın Venetsiya şəhərinə gəldi və burada böyük fransız yazıçısı Stendalla görüşdü. Italyada onun yaradıcılığının ən məhsuldar dövrü başladı.

1819-cu ilin aprel ayinda Bayron qrafinya Tereza Qviççoli ilə tanış oldu. Qrafinyanın qardaşı və atası gizli karbonarilər təşkilatının üzvüidilər. Onların vasitəsilə Bayron bu cəmiyyətin gizli təşkilatına daxil oldu. O zaman həmin təşkilat Avstriya qəsbkarlarının əsarəti altında işləyən İtaliyanın qurtuluşu uğrunda silahli mübarizəyə hazırlaşırdı.

Bayronun Ravennadakı evi qiyamçıların gizli qərərgahınavə silah anbarına çevrildi. Şair ədəbi yaradıcılıq əməyi ilə qazandığı pullardan karbonarilər təşkilatına çoxlu vəsait verirdi.

Bayron yaradıcılığının çiçəklənməsi dövrü karbonarilər hərəkatının ən çox fəallaşdığı dövrə təsadüf edir. Şair 1820-ci ildə öz krallarını yıxıb demokratik respublika elan edən Neapolitan inqilabçılarının qələbəsi ilə

ruhlanır. O, papa vilayətindəki üsyana və Pyemontedəki inqilaba böyük ümid bəsləyirdi. Lakin bu inqilablar məğlub oldu. Bundan sonra Avstriya qəsbkarlarının orqanları və papanın inzibati idarələri tərəfindən təqiblər başladı. Bayron Raventani tərk etməyə məcbur oldu.

Şairin İtalyadakı həyatının son dövrü ağır iztirablarla doluur. Onun karbonirilərdən olan ən yaxın dostları bir-bir cəlladlar tərəfindən öldürüldülər. Avstriya hökumətinin "mərhəmətini" qazananlar isə zindanlarda çürüdülər.

Karbonarilər hərəkatı darmadağın edildikdən sonra Bayronun nəzəri xalq qəzəbinin getdikcə güclənməyə başladığı vətəninə şevrildi. O, Şelli və mühərrir Li Qentlə birlikdə radikal istiqamətli bir jurnalın nəşri üçün hazırlıq işlərinə başladı. Bu jurnal ancaq Şellinin ölümündən sonra nəşr edildi. Həmin jurnalda Bayronun "Tunc əsr","Hakimin röyası" adlı ən qəzəbli satirik şerləri dərc edilmişdi.

Bayronun həyatının son illəri aydın surətdə sübut etdi ki, onun sözü ilə işi uyğun gəlir; o, axıra qədər azadlıq uğrunda mübarizə aparan ən cəsur və mübariz bir insandır, azadlığın qələbəsi üçün nəinki qüvvət talantını, hətta həyatını belə verməyə hazırdır.

1823-cü ildə yunan qiyamçılarının milli mərkəzinin dəvəti ilə Bayron,onların paytaxtı Missolunqiya gəldi və xalq tərəfindən böyük təntənə və izdihamla qarşılandı. Burada Bayronun bir hərbi başçı, diplomat və alovlu tribun kimi qaynar həyatı başladı. Şair vaxtı olmadığından bu dövrdə az yazır, ancaq yazdığı misralarda sönməz mübarizliyin nəfəsi duyulur.

Bayron gözlənilmədən ağır xəstələndi, dağlara getdiyi zaman ona soyuq dəymişdi. 1824-cü ilin aprel ayının 19-da şair həyatla vidalaşdı. Onun ürəyini Yunanıstanda basdırdılar. Cəsədini isə 1824-cü ilin may ayında vətəninə göndərdilər. O, şairin ən çox sevdiyi Nyusted abbatlığının yaxınlğında dəfn edildi. Yunanəstanın hər yerində Bayronun ölümünü milli matəm elan etdilər. Ingiltərənin və dünyanın qabaqcıl adamları bu ağır itkidən kədərləndilər. Göte "Faust"un ikinci hissəsində xatirəsinə gözəl bir şer ithaf etdi, Ruleyev, Kuxelbeker, Puşkin onun ölümü münasibətilə səmimi şerlər yazdılar.

Ədəbiyyat

1. Böyük yazarların sirli həyatı: Corc Qordon Bayron /R. Şnakenberq Şnakenberq, Robert.
2. Seçilmiş əsərləri /Ç. Q. Bayron; / tərc. A. Aslanov və b. Bakı: Şərq-Qərb, 2006.
3. Dünya teatr tarixindən mühazirələr İngiltərədə romantik teatr və Corc Bayraon /E.Cəfərov -2016
4. İngilis ədəbiyyatı antologiyası: 2 cilddə /tərt. ed. Z. Ağayev; tərc. ed. S. Mustafa, Ş. Nağıyeva, A. Hacıyev

A.Israfilova

George Gordon Byron

Summary

George Gordon Byron, (22 January 1788 – 19 April 1824), commonly known simply as Lord Byron, was an English poet, peer, politician, and a leading figure in the Romantic movement. Among his best-known works are the lengthy narrative poems, Don Juan and Childe Harold's Pilgrimage, and the short lyric poem, "She Walks in Beauty". Byron is regarded as one of the greatest British poets and remains widely read and influential. He travelled extensively across Europe, especially in Italy, where he lived for seven years with the struggling poet Percy Bysshe Shelley. Later in his brief life, Byron joined the Greek War of Independence fighting the Ottoman Empire, for which Greeks revere him as a national hero. He died in 1824 at the age of 36 from a fever contracted while in Missolonghi. Often described as the most flamboyant and notorious of the major Romantics, Byron was both celebrated and castigated in life for his aristocratic excesses, including huge debts, numerous love affairs – with men as well as women, as well as rumours of a scandalous liaison with his half-sister – and self-imposed exile.He also fathered Ada, Countess of Lovelace, whose work on Charles Babbage's Analytical Engine is considered a founding document in the field of computer science, and Allegra Byron, who died in childhood – as well as, possibly, Elizabeth Medora Leigh out of wedlock.

А.Исрафилова

Джордж Гордон Байрон

Резюме

Величайшим поэтом Англии был лорд Джордж Гордон Байрон (1788-1824), который подобно блестящему метеору пролетел над горизонтом, затемняя все другие светила. Поклонники «трона и алтаря» с Саути и стражами англиканского Сиона во главе, с ужасом взирали на такие титанические натуры, как Байрон, Шелли, Китс, которые так смело раздвигали рамки традиционного мировоззрения старой Англии; этих поэтов называли членами «сатанинской школы», но они превосходили всех современных поэтов и высоким полётом фантазии, и величием замыслов, и плодовитостью творческой силы. В особенности Байрон возбуждал удивление как многосторонностью и творческою силою своего гения, так и полною разнообразных приклю-

чений жизнью, походившей на роман с героически-романтической развязкой. Кроме больших поэм – «Паломничество Чайльд Гарольда» и «Дон-Жуан», в которых он вставил в рамки новейшего эпоса свои собственный приключения и впечатления, чувства и идеи, Байрон написал романтические рассказы и баллады с увлекательным изложением и совершенством внешней формы, как: «Гяур», «Абидосская невеста», «Корсар», «Лара», «Мазепа», драмы «Манфред» (которая касается глубочайших тайн человеческого бытия и напоминает «Фауста»), «Марино Фальеро», «Двое Фоскари», «Сарданапал» и религиозно-философскую мистерию «Каин». Байрон восхищал как современников так и потомков очаровательной лирикой, которая захватывает за душу в особенности в его «Еврейских мелодиях».

Rəyçi: **Rəna Şamıyeva**
filologiya elmləri namizədi, dosent

ELMİRA HƏŞİMOVA
AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu
emahəsimova@mail.ru

MƏMMƏD SƏİD ORDUBADİNİN "HƏYATIM VƏ MÜHİTİM" MEMUARININ ƏLYAZMASI VƏ NƏŞRLƏRİ

Açar sözlər: Məmməd Səid Ordubadi, "Həyatım və mühitim", əlyazma, nəşr, xatirə janrı
Ключевые слова: М.С.Ордубади, «Моя жизнь и среда», рукопись, издание, жанр мемуаров
Keywords: M.S.Ordubadi, "My life and environment", manuscript, edition, genre of memoirs

Ömrünü milli mücadiləyə həsr etmiş qələm sahibləri kimi M.S.Ordubadi də yaşadıqlarını, gördüklərini, yaddaşlarına əbədi həkk olunanları paylaşmaq istəmişdir. Bunun nəticəsində də o, bir sıra dəyərli memuarlar ərsəyə gətirmişdir. Ədibin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan 14 saylı şəxsi arxivində digər sənədləri ilə yanaşı "Həyatım və mühitim" (sax. vah. 448, 449), "Bakıda ikinci kərə" (sax. vah. 457), "Böyük ədib haqqında xatiratım" (sax. vah. 458), "Saritsin xatirələrindən" (sax. vah. 459) adlı memuarları da mühafizə olunur. Bu xatirələr arasında "Həyatım və mühitim" memuarı xüsusi əhəmiyyət kəsb edir.

Ərəb əlifbasının nəstəliq xətti ilə qələmə alınmış "Həyatım və mühitim" memuarının əlyazması yeganə nüsxədir, avtoqrafdır. Əlyazmada onun yazıldığı tarix və yeri göstərilməmişdir. Əlyazmanın titul səhifəsində əsərin adı, onun altından isə "1872-ci ildən 1920-ci ilə qədər", həmin sözlərin altından "Yazanı Məmməd Səid Ordubadi" yazılmışdır. "Həyatım və mühitim" əsərinin əksər hissəsi üzərində "Raboçaya radio qazeta Za neft i xlopok" yazısı olan blankların bir üzünə yazılmışdır.

Titul səhifəyə "SSRİ EA Azərbaycan filialı kitabxanasının Şərq bölməsi" sözləri basılmış möhür təsdiq edir ki, əlyazma 1938-ci ildə SSRİ EA Azərbaycan filialı kitabxanasının Şərq bölməsinə verilmişdir. Bəzi müəlliflər M.S.Ordubadinin "Həyatım və mühitim" xatirəsini Böyük Vətən müharibəsindən sonrakı illərdə qələmə aldığını qeyd etmişlər. Həmin möhür əlyazmanın otuzuncu illərdə yazıldığını bir daha təsdiqləyir. Əlyazmanın həmin səhifəsində olan möhürlərdən aydınlaşır ki, əsər sonradan – 1961-ci ildə Azərbaycan EA Ədəbiyyat İnstitutunun Əlyazmalar şöbəsinə (indiki Əlyazmalar İnstitutuna) verilmiş və həmin vaxtdan da orada saxlanılır.

Əlyazma 345-ci səhifəyə qədər yaşıl, qalanları isə, yəni 346-cı səhifədən 381-ci səhifəyə kimi bənövşəyi mürəkkəblə yazılmışdır. Əsərdə

əvvəldən sona kimi bənövşəyi mürəkkəblə müəllifin özü tərəfindən düzəliş edilmişdir. Bütün düzəlişlərdən məlum olur ki, yaşıl mürəkkəblə yazılanlar əsərin ilk variantıdır. Düzəlişlər ən çox əlyazmanın birinci yarısında aparılmışdır. İkinci yarısında isə düzəliş nisbətən azdır. Yazıçı memuarı tamamladıqdan sonra üzərində yenidən işləmiş və səhifələrin nömrələrini də dəyişdirmişdir. Əlyazmanın üstün xüsusiyyətlərindən biri müəllifin ərəb hərfləri ilə yazılmış mətndə bəzi çətin anlaşıla bilən sözlərin yanında latın əlifbası ilə transkripsiyasını verməsidir.

"Həyatım və mühitim" memuarı AMEA Əlyazmalar İnstitutuna veriləndən sonra bir dəfə bərpa edilmiş və iki hissəyə ayrılıb cildlənmişdir. Birici ihissə 180, ikinci hissə isə 188 vərəqdən ibarətdir. Cild kartondandır və üzərinə yaşıl rəngli kağız çəkilmişdir.

"Həyatım və mühitim" memuarı yalnız ədibin həyatı və yaradıcılığı haqqında deyil, dövrü haqqında da geniş məlumat verən bir əsər kimi qiymətlidir. Xatirələrdə M.S.Ordubadinin acınacaqlı uşaqlıq illəri, təhsili, işləməyi, ilk sevgisi, yaradıcılığa necə və hansı şəraitdə başlaması, inqilabi fəaliyyəti və məşəqqətli həbsxana həyatı ilə ətraflı şəkildə tanış oluruq. Məhz buna görədir ki, akademik İsa Həbibbəyli "Həyatım və mühitim" əsərini Məmməd Səid Ordubadinin tərcümeyi-halının memuarı, mühitinin romanı adlandırmışdır [10, 15].

Məmməd Səid Ordubadinin necə bir sənətkar olması onun tarixi romanlarından, şeirlərindən, məqalə, felyeton və digər əsərlərindən bəllidir. Lakin bir insan kimi, bir şəxsiyyət kimi onu xatirələrindən, xüsusilə, "Həyatım və mühitim" memuarından öyrənirik. Yaşadığı və şahidi olduğu hadisələrin memuaristdə doğurduğu hiss və həyacanları, həmin hadisələrə ədibin münasibətini xatirələrində ətraflı şəkildə qələmə almağa çalışması onun daxili aləminin açılmasına səbəb olmuşdur.

Memuarlar üçün əsas məlumat mənbəyi yaddaşdır. Müəllif memuar yazarkən hadisələr yadında necə qalıbsa, elə də yazıya köçürür. Bəzən hansısa hadisə müəllifin yaddaşından silinə bilər. Bu zaman hadisələri və faktları dəqiqləşdirmək üçün memuarist gündəliklərdən, məktublardan və digər sənədlərdən istifadə etməli olur. "Bir çox hallarda memuar müəllifləri dəqiqlik xatirinə faktları dəqiqləşdirir, hətta tədqiqatlar da aparırlar. Hərbi sərkərdələr, dövlət və siyasi xadimlər öz xatirələrində sənədliliyə daha artıq əhəmiyyət verir və bu yolla yaddaş xətalarından yayınmağa çalışırlar" [3, 256].

Gündəliklərdə memuaristin bir gündə gördüyü, yaşadığı, şahidi olduğu hadisələr yazıya alınır. Bu da gələcək əsər üçün hazırlıq rolunu oynayır. "Gündəlik qeydlər – baş verənlərə, demək olar ki, ani reaksiyadır. Gündəlik müəllifinə yada salmaq vacib deyil, lakin görmək və görüləni həkk etmək kifayətdir. Gerçəkliyi detallara qədər dəqiqliklə, xronoloji ardıcıllıqla

təsvir edən yazıçı gündəliyi gələcək obraz və süjetlər üçün bir növ özünəməxsus laboratoriyadır...” [16, 137].

Gündəliklərə əsasən yazılan memuarlarda hadisələrin, faktların dəqiqliyi ilə verilməsi oxucunun diqqətini daha da cəlb edir. “Həyatım və mühitim” əsəri də bu səpkidə olan memuarlardandır. Memuarın məzmunundan bəlli olur ki, M.S.Ordubadi də həbsə alınmamışdan əvvəl gündəlik yazmış və bunu həbsxanada da davam etdirmişdir. Memuarın bir neçə yerində ədib bu haqda məlumat verir: “Axşam olurdu. Tamamilə bikar idim. Həbsxana xatiratını yazmaq lazım idi. Çünki bir çox hadisələr yadımdan çıxırdı. Vitsevski çaylarını açdım. Ağ kağızlar əldə etdim. Birinci günün xatiratını bitirər-bitirməz zəng çalındı. Yatmaq vaxtı yetişdi” [7, 217]. Əsərin digər bir yerində Ordubadi yazır: “Məktubu bitirib saxladım. Sonra həbsxana həyatını və gündəlik xatiratımı yazmaqla məşğul oldum. Baş nəzarətçi gəlib gördü. Mən çəkindim. O: -Eybi yoxdur, yazıçı dinc otura bilməz. Lakin yazdığınızdan bizə məzəmmət gəlməməsinə diqqət veriniz, - dedikdə, Mən: - Gündəlik həyatımı yazıram, deyə onu sakit etdim” [7, 230]. Göründüyü kimi M.S.Ordubadi gündəlikləri agır şəraitdə, çay kağızları üzərində yazmışdır.

M.S.Ordubadi 1838-ci il hadisələrini tarixi faktlar və sənədlərə əsasən, atası Hacı Fəqir Orudubadinin acınacaqlı həyatını və uşaqlıq illərinin xatirələrini yaddaşın köməkliyi ilə yazmışdır. İnqilabi fəaliyyətini, erməni-müsəlman münaqişəsini, çar Rusiyasının törətdikləri özbaşınalıqları və əsasən məşəqqətli məhbəs həyatını gündəlik qeydlərinə əsasən yazmışdır. “Əlyazma (“Həyatım və mühitim” memuarının əlyazması - E.H.) əsasında demək olar ki, memuarda verilən bir çox hadisələr, faktlar əsasən öz vaxtında yazıya köçürülmüşdür. Onlar yazıçının yaddaşındakı xatirələrin qələmə alınmasının nəticəsi deyildir. Ona görə də bu əsər başqa xatirələrdən faktiki materialların zənginliyi ilə seçilir” [13, 189].

Digər nəsr əsərlərindən fərqli olaraq memuar janrının süjet xətti bəsit olur. Memuarlarda konkret bir hadisədən və ya bir şəxsdən bəhs etmək məhduduiyyəti yoxdur. Bu janrda əsas olan obrazlılığa üstünlük verməklə müəllifin yaşadığı dövrün real mənzərəsini, özünün ictimai-siyasi və tarixi prosesdə yerini, mənəvi dünyasını, işini, amalını, məişətini, müxtəlif xarakterli insanlarla qarşılıqlı münasibətini, həyatda apardığı mübarizələri əks etdirməkdir.

M.S.Ordubadi “Həyatım və mühitim” memuarını maraqlı bir süjet xətti ilə yazmışdır. O, ilk olaraq valideynləri haqqında məlumat verir, daha sonra XIX əsrin ictimai-siyasi vəziyyətindən və uşaqlıq illərindən bəhs edir. Hadisələr memuaristin inqilabi fəaliyyəti, həbsə alınması ilə davam etdirlir. Həbsxana həyatı hadisələrin zirvəsin təşkil edir. Saritsindəki sürgün illəri sujet xəttinin sona yaxınlaşdığını göstərir. 1920-ci il may ayının ikisində

Bakıya gəlməsi və iki gün sonra "Əxbar" qəzetində müdir müavini təyin edilməsi ilə hadisələr tamamlanır. "M.S.Ordubadi süjet baxımından rus ədəbiyyatındakı memuar əsərləri ilə səsləşən orijinal bir abidə yaratmaqla Azərbaycan memuar ədəbiyyatı tarixinə böyük töhfə bəxş etmişdir" [13, 192].

Ədib memuarı orijinal bir kompozisiya ilə qurmuşdur. Memuar tarixi-xronoloji ardıcıllığa uyğun olaraq çoxsaylı hissələrə bölünmüş və hər bir hissəyə müstəqil başlıq qoyulmuşdur: "Familiyamız" (s. 1-5), "Məhzəb və təriqət mübarizələri" (s. 6-11), "Şeir və ədəbiyyatın qiyməti" (s. 12-14), "İpək ticarəti" (s. 15-18), "Mənim birinci işləməyim və birinci dərsim" (s. 19-23), "Birinci və axrıncı sevgim" (s. 24-30), "Rus məktəbi, rus idarəsi" (s. 31-38), "Böyük məscidlər, kiçik məscidlər, qoçular, adam öldürənlər, şəhərin məzhəkəçi və zarafatcıl adamları, şəhərin həkimləri, mərsiyəxanlar, Ordubadda ləqəblər, qadın ləqəbləri, ərzağın qiyməti" (s. 39-48) "Kəndlilər və mülkədarlar" (s. 49-51), "Ordubadda yeni üsulda məktəb" (s. 52-56), "Mən ipək zavodunda" (s. 57-65), "Qəflət" (s. 64-69), "1905-ci inqilabından sonra" (s. 70-76), "Culfada" (s. 77-96), "Əbdülbəhanın lövhi" (s. 97-106), "Xoy şəhəri" (s. 107-125), "Əbdürrəzzaq bəy gəldi" (s. 126-162), "İyul günləri" (s. 163-168), "Çar casusları" (s. 169-193), "Naxçıvan həbsxanasında" (s. 194-207), "Mələknisə" (s. 208-222), "Məhbus qadınların məktubu" (s. 222-265), "Tiflis həbsxanasında" (s. 266-276), "Çar casusları" (s. 277-282), "Bakının Bayıl həbsxanasında" (s. 283-291), "Qoçular odasında" (s. 292-314), "Yatab evi" (s. 315-346), "Saritsında" (s. 347-371), "Astraxanda" (s. 372-377), "Petrovski-Teymurxanşura" (s. 378-381).

"Culfada" bölməsinə qədərki hissələri müəllif rum rəqəmləri ilə nömrələnmişdir. On doqquzuncu və iyirmi dördüncü bölmələrin məzmunları müxtəlif olsa da, eyni adla – "Çar cəsusları" adı ilə adlandırılmışdır.

Təəssüf ki, ədibin ömrünün təxminən 48 ili haqqında məlumat aldığımız, dövrünün mühüm hadisələrinin heç birinin diqqətindən yayınmadığı, Azərbaycanın iqtisadi-siyasi mühitinin aynası olan, çar Rusiyasının, erməni daşnaqlarının özbaşınalıqlarını bütün reallığı ilə təsvir edən bu əsər nə ədibin sağlığında, nə də ölümündən sonra uzun illər nəşr olunmamışdır. Bununla belə, bir sıra ordubadişünaslar ədibin həyat və yaradıcılıqğına həsr etdikləri monoqrafiyalarda - Fəridə Vəzirova [15], Əkbər Məftun [5], Firidun bəy Köçərli, [4, 208], Hacı Fəqir Ordubadinin əsərlərini toplanmış Əsgər Qədimov "Ağlar qələm əlimdə" kitabının "İşığa həsrət şeirlər" adlı ön sözündə [6] "Həyatım və mühitim" memuarının əlyazma nüsxəsinə istinad etmişlər.

Qeyd etdiyimiz kimi, M.S.Ordubadi xatirələrini həbsxanada yazmağa başlamışdır və həmişə inanmışdır ki, nə vaxtsa bu xatirələr nəşr olunacaq. O özü bu barədə yazır: "Mən Bakıya qədər həbsxana xatiratını yazmışdım.

Bakı həbsxanasında tərtibə salmağa başladım... Mənim bu işlər ilə nə üçün maraqlandığımı soruşurdular. Mən isə: −Bir vaxt mən bu xatirəni kitab şəklində çap etdirəcəyəm. Bunu hər kəs oxuyub çar hökümətinin nə qədər həyasız və zalım bir hökumət olduğunu anlayacaqlar. Ağa Kərim bir az düşündü: −Hərgah bu cür şeyləri çap etdirməyə qoymasalar necə olsun? −dedi. İndi qoymasalar da bir vaxt buna imkan tapılar −dedim" (əlyazma).

Belə bir imkan XX əsrin 90-cı illərində yarandı. Ölkəmizin müstəqillik qazanması nəticəsində baş verən siyasi, ictimai, ideoloji dəyişikliklər digər sahələrdə olduğu kimi ədəbiyyatımıza da öz təsirin göstərdi. Bir çox klassiklərimiz kimi Məmməd Səid Ordubadinin irsinə də yenidən qayıtma zərurəti yarandı. Bunun nəticəsi olaraq, 1996-cı ildə filologiya üzrə elmlər doktoru Nailə Səmədova "Həyatım və mühitim" memuarını tərtib edib çapa hazırlamış, ön söz yazaraq kiril əlifbası ilə nəşr etdirmişdir. Buna baxmayaraq, ordubadişünas professor Yavuz Axundlu 1997-ci ildə nəşr etdirdiyi "Məmməd Səid Ordubadi" adlı monoqrafiyasında "Həyatım və mühitim" memuarının hələ də çap olunmadığını qeyd etmişdir [1, 6]. 2012-ci ildə professor Y.Axundlu həmin monoqrafiyanı təkmil-lləşdirib 2012-ci ildə yenidən nəşr etdirir. Bu nəşrdə də Y.Axundlu həmin fikrinin üzərində qalaraq yazır: - "Hər bir sənətkarın şəxsiyyətini, yaradıcılıq yolunu, ədəbi mühitini öyrənmək üçün ilk növbədə, onun həyatı ilə bağlı təfərrüatlara diqqət yetirmək lazımdır.

Ordubadinin "Həyatım və mühitim" adlı irihəcmli xatirəsi bu baxımdan tədqiqatçı üçün qiymətli bir mənbədir. İndiyədək çap olunmadığını nəzərə alaraq onun üzərində bir qədər ətraflı dayanmağı, sənətkarın ömür yolunu izləməyi məqsədəuyğun hesab edirik" [2, 16].

Onu da qeyd edək ki, hələ 1992-ci ildə Nailə Səmədova filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün "Məmməd Səid Ordubadinin "Həyatım və mühitim" memuarı" adlı dissertasiya yazmışdır. O, 2006-cı ildə "Azərbaycan memuar ədəbiyyatı tarixi" [13], 2011-ci ildə "İnsan, zaman və həyat həqiqəti" adlı monoqrafiyalarında [14] M.S.Ordubadinin "Həyatım və mühitim" memuarının təhlilinə xüsusi yer ayırmışdır.

Görkəmli tədqiaqtçı Nailə Səmədova memuarın mətnini tərtib edərək çapa hazırlayarkən bəzi cümlələri, "Birinci və axırıncı sevgim" adlı hissəni ixtisar edərək çap etdirmişdir. Bu barədə müəllif ön sözdə belə yazır: "Əsərin nəşrində müasir dövrün tələblərindən irəli gələn cüzi ixtisar aparılmışdır" [8, 4].

2000-ci ildə Ordubadinin 140 illiyi münasibətilə ədibin qardaşı qızı Nəzifə Məmmədovanın təşəbbüsü ilə memuar kiril əlifbası ilə və ön sözün müəllifi filologiya üzrə elmlər doktoru Nailə Səmədova olmaqla təkrar nəşr etdirilir [9].

2012-ci ildə Məmməd Səid Ordubadinin anadan olmasının 140 illik yubileyi ərəfəsində akademik İsa Həbibbəyli ustad qələm sahibinin irsinin nəşri sahəsində olduqca əhəmiyyətli addım ataraq onun indiyədək çap olunmamış "İki çocuğun Avropaya səyahəti" romanını, "Qəflət" və "Vətən və hürriyyət" şeir kitablarını, "Həyatım və mühitim" memuarını, "Qanlı sənələr" əsərini toplayıb, çapa hazırlamış, elmi cəhətdən əhəmiyyətli bir ön söz yazaraq birlikdə "Həyatım və mühitim" adı altında nəşr etdirmişdir. Akademik İsa Həbibbəyli professor Nailə Səmədovanın xatirələrdə ixtisar etdiyi "Birinci və axrıncı sevgim" adlı fəslini də əlavə edərək əsəri latın qrafikası ilə nəşr etdirmişdir [10]. Akademik İsa Həbibbəyli kitabın "Böyük ədəbiyyat nəhəngi" adlı ön sözündə memuarı belə qiymətləndirir: "Həyatım və mühitim" memuarını nəzərə almadan Məmməd Səid Ordubadinin dünyabaxışına, yaradıcılıq özünəməxsusluğuna qiymət vermək çətindir. "Həyatım və mühitim" Ordubadi dünyasına girişin açarıdır. Zəngin tarixi məlumatlarla, mürəkkəb siyasi proseslərin təsviri ilə "Həyatım və mühitim" əks edildiyi dövrün də açarı sayıla bilər" [10, 15].

2014-cü ildə "Həyatım və mühitim" yenə də "Birinci və axırıncı sevgim" fəsli ixtisar edilməklə latın qrafikası ilə nəşr olunur. Bunun da səbəbi odur ki, bu nəşr filologiya üzrə elmlər doktoru N.Səmədovanın 1996-cı ildə çap etdirdiyi kitab əsasında nəşr olunmuşdur. Kitabın redaktoru və ön sözün müəllifi Dilqəm Əhməd, mətni tərtib edən R.Yerfidir. Xatirə ədəbiyyatının nəşr olunması üzrə layihənin rəhbəri isə Şamil Sadiqdir [11].

2015-ci ildə "Həyatım və mühitim" memuarı respublika "Kitab" Cəmiyyətinin xətti ilə "İndiqo" nəşriyyatı tərəfindən miniatür formada çap olunmuşdur. 65x65 mm ölçüdə olan minikitaba memuarla yanaşı Məmməd Səid Ordubadinin müxtəlif illərdə çəkilmiş 12 fotoşəkli də yerləşdirilmişdir [12].

Müstəqillik qazandıqdan sonra – 1996, 2000, 2012, 2014, 2015-ci illərdə "Həyatım və mühitim" memuarı dəfələrlə nəşr olunması Məmməd Səid Ordubadi irsinə yenidən qaydışın bariz nümunəsidir.

Ədəbiyyat

1. Axundlu Y.İ. Məmməd Səid Ordubadi (həyati, dövrü, mühiti və yaradıcılığı). Bakı: Sabah, 352 səh.
2. Axundlu Y.İ. Məmməd Səid Ordubadi (həyati, dövrü, mühiti və yaradıcılığı). Bakı: Elm və təhsil, 2012, 384 səh.
3. Əliyev R.N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Mütərcim, 2008, 360 səh.
4. Köçərli F.Ə. Azərbaycan ədəbiyyatı. Iki cilddə. II cild. Bakı: Avrasiya-Press, 2005, 464 səh.
5. Məftun Ə. Məmməd Səid Ordubadi. Bakı: Yazıçı, 1987, 135 səh.
6. Ordubadi F.M. Ağlar qələm əlimdə. Bakı: Yazıçı, 1989, 232 səh.

7. Ordubadi M.S. Həyatım və mühitim. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi, F. 14, sax. vah. 448, 180 vər., sax. vah. 448, 188 vər.
8. Ordubadi M.S. Həyatım və mühitim. 1872-ci ildən 1920-ci ilə qədər (nəşrə hazırlayan və ön sözün müəllifi N.Səmədova). Bakı: Azərnəşr, 1996, 150 səh.
9. Ordubadi M.S. Həyatım və mühitim. 1872-ci ildən 1920-ci ilə qədər. Bakı: Nurlan, 200, 148 səh.
10. Ordubadi M.S. Həyatım və mühitim (Toplayanı, tərtib edəni, çapa hazırlayanı və öz sözün müəllifi İ.Həbibbəyli). Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poloqrafiya Birliyi, 2012, 336 səh.
11. Ordubadi M.S. Həyatım və mühitim (Redaktor D.Əhməd, layihə rəhbəri Ş.Sadiq, mətni tərtib edən R.Yerfi). Bakı: Xan, 2014, 205 səh.
12. Ordubadi M.S. Həyatım və mühitim (Miniatür Kitab Muzeyi). Bakı: İNDİQO, 2015, 242 səh.
13. Səmədova N.Ə. Azərbaycan memuar ədəbiyyatı tarixi. Bakı: Nurlan, 2006, 331 səh.
14. Səmədova N.Ə. İnsan, zaman və həyat həqiqəti. Bakı: Nurlan, 2011, 262 səh.
15. Vəzirova F. Məmməd Səid Ordubadi. Bakı: Gənclik, 1970, 174 səh.
16. Кознова Н.Н. Дневники, письма, мемуары: к вопросу о взаимодействии жанров // Вестник Московского государственного областного университета. Серия: Русская филология. 2009, № 1. с. 137-143.

Э.Гашимова

Рукопись и издания мемуаров Мамеда Саид Ордубади «Моя жизнь и среда»

Резюме

В настоящей статье исследуется история и издания мемуаров «Моя жизнь и среда» М.С.Ордубади, занимающее важное место в азербайджанской мемуарной литературе. Также в статье излагается подробная информация о рукописи мемуаров «Моя жизнь и среда» писателя, которая имеет особое значение среди произведений, написанных в этом жанре.Точность, соблюдение исторической правды является существенным признаком жанра мемуаров. Мемуары, написанные по ежедневникам, особо занимает внимание читателя своей точностью фактов и событий. Произведение «Моя жизнь и среда» одна из таких мемуаров. После краткой информации о содержании мемуаров писателя в статьи описывается композиция мемуаров.Мемуары «Моя жизнь и среда» не была опубликована в течение многих лет, ни при

жизни, ни после смерти писателя. В статье рассматривается краткая история публикации мемуаров. В результате независимости страны в 90-х годах XX века, политические, социальные и идеологические изменения также повлияли и в область литературы, как и в другие сферы. В это время возникла необходимость обратиться снова в наследие многих классиков, в том числе и в наследие Ордубади. В результате этого, в 1996, 2000, 2012, 2014, 2015 годах мемуары «Моя жизнь и среда» неоднократно публиковались. В статье приводится подробная информация об этих публикациях.

E.Hashimova

Manuscript and editions of memoirs by Mamed Said Ordubadi "My life and environment"

Summary

In this article, history and publications of M.S.Ordubadi`s memoirs "My life and environment", which occupies an important place in the Azerbaijani memoir literature, are examined. Also in the article the detailed information about the manuscript of memoirs "My life and environment" of the writer which has special value among the works written in this genre is stated.Accuracy, observance of historical truth is an essential feature of the genre of memoirs. Memoirs written on diaries, especially takes the attention of the reader by its accuracy of facts and events.

The work "My Life and the Environment" is one of such memoirs. After brief information about the contents of the writer's memoirs, the article describes the composition of memoirs.Memoirs "My Life and the Environment" has not been published for many years, either during life or after the death of the writer. The article is devoted to a brief history of the publication of memoirs. As a result of the country's independence in the 1990s, political, social and ideological changes also influenced literature, as well as in other spheres. At this time, there was a need to turn again to the legacy of many classics, including the legacy of Ordubadi. As a result, in 1996, 2000, 2012, 2014, 2015 the memoirs "My Life and Environment" were repeatedly published. The article provides detailed information on these publications.

Rəyçi: **Nailə Səmədova**
filologiya üzrə elmlər doktoru

GÜLNAR QASIMLI
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
gulnar0486@mail.ru

MÜASİRLƏRİMİZ ÇAĞDAŞ AZƏRBAYCAN POEMALARINDA

Açar sözlər: xalq şairi, insan taleyi, ziyalı obrazı, müstəqillik dövrü, poema janrı
Key words: folk poet, human destiny, intelligent image, the period of independence, the genre of poem,
Ключевые слова: народный поэт, человеческая судьба, интеллектуальная образ независимости, поэма жанр

Çoxəsrlik ənənəsi olan Azərbaycan poeması çağdaş dövrümüzdə də yaranıb inkişaf etməkdədir. Bu janra qədim dövr ədəbiyyatından müraciət edilsə də, janrın bir çox spesifik xüsusiyyətləri keçən əsrdə yeni-yeni özəlliklər qazanmağa başladı. İstər forması, istərsə də, mövzusu ilə yenilənən sovet dövrü poemaları bir sıra dünyəvi xüsusiyyətlərə də yiyələnirdi. Bu barədə Nərmin Cahangirova yazır ki, "XX əsr poemaları orijinal xüsusiyətlərlə zəngin olsa da, klassik Şərq ənənəsi və müasir Qərb ədəbiyyatının təsiri bu əsərlərdə olduqca aydın görünürdü". (2. 155) Bu səbəbdən də son yüzillikdə yaranan poemalar klassik mənzum romanlardan bəzi cəhətlərinə görə fərqlənirdi.

Eləcə də, müstəqillik dövrü Azərbaycan poemaları da özündən əvvəlki ənənəni davam etdirməklə yanaşı, bəzi novatorçuluğa meylli cəhətlər də ortaya çıxır. Belə cəhətlərin önündə poemanın müraciət etdiyi mövzuların gündəmlə və ya yaşantılarla birbaşa bağlı olması durur. Müəlliflər tarixi şəxsiyyətlərin simasında onun yaşadığı dövrə və mühitə münasibət bildirməyə can atmışlar. Bəzən bu şəxsiyyətlər çox yaxın tarixin insanları olub, müəllifin real olaraq tanıdığı adamlardır. Şairlər onlara zamanında və ya anındaca qiymət vermək fikrində olmuşlar. Nəzərə alsaq ki, zaman ötdükcə dövrün və ictimai-siyasi proseslərin təsiri ilə həmin şəxslərə qarşı fikir müxtəlifliyi yaranır, onda yazarların bu cür operativliyi başa düşüləndir. Bu barədə Fidan Abdurəhmanova da maraqlı mülahizə söyləyir: "Tarixi şəxsiyyətlərə müasir dövrün tələb və meyarları ilə qiymət vermək olmaz, onlara yaşayıb fəaliyyət göstərdiyi dövrün kontekstində yanaşmaq lazımdır". (3. 68) Həmçinin bu günün insanları da gələcəkdə gələcəyin prinsipləri ilə indi olduğu kimi dəyərləndirilə bilməzlər.

Bəlkə də, bu səbəblərdən müstəqillik illərində yazılmış poemalarda bir çox müasirlərimiz olan görkəmli şəxsiyyətlərin obrazları yaradılmışdır. XX əsrin seçilmiş simaları olan bu insanların həyat və fəaliyyətini mövzu

seçən yazarlardan sırasına Nəriman Həsənzadə də daxildir. N.Həsənzadənin "Nuru Paşa", "Cavid" (1995) kimi poemaları da həmin sıradan sayıla bilər.

Xalq şairinin bu mövzuda sanballı əsərlərindən biri də Nizani Cəfərova ithaf etdiyi "Nizami" poemasıdır. 2008-2010-cu illərdə yazılmış bu irihəcmli poemada şair baş qəhrəmanın timsalında azərbaycanlıların tarixi torpaqlarından köçürülməsinin səbəblərini və nəticələrini vermişdir. Əsərdən məlum olur ki, Nizami Cəfərovun ailəsi Qərbi Azərbaycan torpaqlarından çıxarılarkən Qazax mahalına pənah gətirmişdir. Çağdaşımız olan insanın nəsil şəcərəsinə nəzər salmaqla müəllif yaxın keçmişin bir sıra reallıqlarını göstərir. Şair qəhrəmanının simasında sovet dövrünün ölkəmizə vurduğu zərbələri gündəmə gətirir. Həmin ailənin köçürülərək Qazax mahalına yerləşdirilməsi zamanı yaşadığı problemləri digər ailələrin də çətinliyi kimi ümumiləşdirir.

Bununla belə, həmin vaxtlar rayonlarda tez-tez təsadüf edilən saxta plan doldurmalar, saxta seçkilər azmış kimi Azərbaycan ziyalısını da bunu dəstəkləyib əl çalmağa məcbur etdiklərini o dövrün gizlin saxlanılan reallığı kimi gündəmə gətirir. Lakin zamanında həmin hadisələr öz dövrünün söz adamları tərəfindən başqa cür də təqdim edilirdi. Bu barədə professor Rafiq Yusifoğlu qeyd edir ki, "Bütün sovet şairlərinin yaradıcılığında olduğu kimi, Azərbaycan şairləri də öz şeirlərində proletar inqilabının rəhbərini tərənnüm etmiş, epik əsərlərdə onun bədii obrazını yaratmaq yarışına girmişlər". (6. 111) Bəzi şairlərin dövlət başçılarının bədii obrazını yaratmaqla məşğul olduğu dönəmlərdə əhalinin sosial vəziyyəti olduğu kimi təqdim edilə bilməzdi. Lakin müstəqillikdən sonra sovet dövrünün hadisələrindən bəhs edilən əsərlərdə, xüsusilə poemalarda həmin problemlərə toxunulmağa başlandı."Nizami" poemasında aydınlıq gətirilən mətləblərdən biri də odur ki, güzəranı heç də yaxşı olmayan kənd camaatı onlara pənah gətirmiş yurddaşlarına da sahib çıxdı. O ailələrdən biri də əsərdə Atabəylər dövlətinin rəmzi kimi qələmə verilən Nizami Cəfərovun ailəsidir. Əsərdən məlum olur ki, onun Qardaşı Qızıl Arslanın, bacısı Afaqın, özü də Nizami Gəncəvinin adını daşımaqla Zəlimxan kəndində Atabəylər dövlətinin simvolu kimi tanınmışlar.Poemanın əsas qayəsi Nizami Cəfərovun fəal ictimai xadim kimi obrazını yaratmaq olsa da, müəllif sanki qəhrəmanıyla həmsöhbət olurmuş kimi tarixi problemlərimizi də qabardır, bir əsrdə bir neçə dəfə əlifba dəyişmək məcburiyyətində qaldığımızı vurğulayır. Bu xalqın hansı əlifbayla yazmasından asılı olmayaraq dahilər yetirməyi bacardığı etiraf edilir: "Əski"də Füzuli, "latın"da Cavad, "kiril"də Vurğunu yetirdi millət" (7. 522) misralarında bir əsrdə dəyişdiyimiz əlifbaların adları çəkilir və bu dəyişkənliyin problemləri ilə yanaşı, Azərbaycan ziyalısının özünütəsdiqi qarşısınada acizliyi də göstərilmiş olur. Şair poemada məqsədli şəkildə bir sıra toponimlərin adını çəkir: "Göyçəli" kəndi var Ağstafada, Göyçədə

"Kəsəmən" kəndi, Nizami". (7. 553) Bu da öz vətənlərinin sərhədləri daxilində köç edən və ya köçməyə məcbur edilən əhalinin qərar tutduqları yerdə doğma kəndlərinin adlarını əbədiləşdirdiyinə işarədir.

Müəllif qəhrəmanının deputat olandan sonra seçiciləri ilə görüşlərini də təsvir edir. Bu məqamda şair ədəbi priyomdan istifadə edərək, deputatın köhnə dostlarının zarafatlarıyla xalqın problemlərini işıqlandırır. Poema beş bəndlik "Salam" rədifli qoşmayla tamamlanır. Bu əsər də N.Həsənzadənin digər poemaları kimi, ayrı-ayrı şeirlərin bir mövzu və ideya ətrafında birləşməsi təsiri bağışlayır.

Xalq şairi Zəlimxan Yaqubun da müstəqillik illərində yazdığı poemaların əksəriyyətinin baş qəhrəmanı tarixi simalarla yanaşı, müasirlərimiz olan şəxsiyyətlərdir. Müəllif bu əsərlərdə sadəcə obrazlarının özəlliyini diqqətə çatdırmaqla kifayətlənmir, bir insanın həyat tarixçəsi işığında bir sıra mətləblərə aydınlıq gətirir. Musa Nəbioğlu bu barədə yazır ki, "Zəlimxan Yaqub poeziyasının böyüklüyü bir də ondadır ki, zəmanənin gərdişinə biganə qalmır, "tökülən yaşların, bəlalı başların, qanlı savaşların tarixini" yazır". (4. 27) Bu yazılan tarixlər isə daha çox kimlərinsə həyat hekayətlərinin fonunda üzə çıxır. Bu tipli bir neçə əsərinə nəzər sala bilərik. Onun "Ün" (2014) poeması İsa Muğannaya, "Borçalıda qalan izlər" poeması Səməd Vurğuna, "Cavidin qız balası" poeması isə Turan Cavidə həsr edilsə də, mərkəzi mövzu ilə bağlı olaraq şair bir sıra mətləblərə də toxunur. Hətta bəzi tarixi hadisələri insan taleyi ilə üzvi surətdə mənalandırır. Akademik İsa Həbibbəyli qeyd edir ki, "müşahidələr göstərir ki, Zəlimxan Yaqubun müstəqillik uğrunda mübarizəyə, qanlı yanvar hadisələrinə həsr olunmuş şeirlərində Xəlil Rza Ulutürkün poetik ruhu yaşamaqdadır". (5. 392) Xalq şairi bu poetik ruhu yaşatmaqdan ötrü hətta örnək seçdiyi şəxsiyyətə poema da həsr edib.Z.Yaqubun 2006-cı ilin 27 aprelində yazılmış "Lefortovo zindanı" poeması "Xaqanidən Xəlilə yol gəlir məhbəs yolu" (8. 213) kimi həqiqətlərin etirafı ilə başlayır. Şair Nazim Hikmətlərin, Musa Cəlillərin də yolunun həbsdən keçməsini haqqın zindana basdırılması kimi səciyyələndirir. Z.Yaqub Xəlil Rzanın "Lefortovo dəftəri"ni Xaqani "Həbsiyyə"sinin davamı adlandırır. Xəlil Rzanı baş əyməyə qoymayan vüqar, qətiyyət Əhməd Cavad xisləti, Cavid qətiyyətinin məntiqi nəticəsi kimi yozumlanır. Tarixi istisna kimi vurğulanır ki, qanlı imperiyanın şairə məhbus həyatı bəxş etməsi də, onu sındıra bilmədi, zindanbaşı Ulutürkün inadına mat qaldığını etiraf etmək məcburiyyətində qalmışdır.

Poemada əsas diqqət "Məğlub olur şairə Lefortovo zindanı" (8. 219) fikirlərinə yönəldilir. Zindan məğlubiyyətinin məhbus qarşısında etiraf edilməsinin ən böyük fədakarlarından biri kimi Xəlil Rzanın həyat yoldaşı Firəngiz xanım alqışlanır. Xəlil Rzanı tamamlayan bu qadının onu həmişə qoruyub, uca tutduğunu yada salan şair yazır ki, "Tarixində ilk dəfə Sevgiyə

məğlub olur, Şairə təslim olur, Lefortovo məhbəsi, Lefortovo zindanı!!!" (8. 221) Tarixi həqiqətdən də bildiyimiz kimi, ən amansız zindan olan Lefortovo Xəlil Rza-Firəngiz cütlüyünün əyilməzliyinə qalib gələ bilmir. Müəllif də məhz həmin zindanın məğlubiyyətini nümayiş etdirməklə sətiraltı fikirlərində gerçəklikləri ifadə etmişdir.

Müstəqilik illərində bir neçə poema həsr edilmiş şairlərdən biri də Rəsul Rzadır. Eyvaz Borçalının "Xoş macal" və Əhməd Qəşəmoğlunun "Rəsul Rza" poeması bu böyük sənətkara ithaf edilmişdir. Ə.Qəşəmoğlunun sərbəst şeir formasında yazdığı "Rəsul Rza" poeması "Hu!" başlıqlı parça ilə başlayır. "Ömrün pöhrə yaşı" bölümündə müəllif qəhrəmanının xan qürurlu, xan ədalı olmasının səbəbi kimi damarlarında nəcabətli bir nəslin qanının axdığını göstərir. Poemanın bu hissəsində əsərin qəhrəmanı haqqında bir sıra avtobioqrafik məlumatlar verilir.Poemanın "İnsan" adlı bölümündə insanın mənəvi kamilliyindən və bu kamilliyin tamamlayıcısı olan öz yarını düzgün seçməkdən bəhs edilir. Əsərdə reallıq olduğu kimi göstərilir ki, R.Rzanın qarşısına Nigar kimi əsl xanım çıxır. Müəllif yazır ki, "Nigarın sevgisi qorudu onu hər vədə bataqlıqdan". (10. 4) Poemanın "Müharibə" başlıqlı bölümündə R.Rzanın ikinci dünya müharibəsində iştirakından və əsl vətəndaşlıq mövqeyindən danışılır. Sözündə vətənpərvər olduğu kimi əməlində də vətənpərvər olduğu alqışa layiq bilinir."İlk imkan" adlı bölümdə şairin artıq 50-ci illərdə müdrik yaşına çatması və xalqın inamını qazanmış bir ziyalıya dönməsi vurğulanır. Onu daim bir sual maraqlandırdığı qeyd edilir: "çabalaya-çabalaya keçən dövran hara aparırsan Azərbaycanı?" (11. 11) Dövrana ünvanlanan bu sual əslində bir əlində represiya qılıncını dayandıran, o biri əlində isə qılıncını hazır saxlayan bir dövlətə ünvanlanmışdı. Belə bir dövlətin tərkibində yaşayan xalqımızın istiqbala gedən yolu minalanmış zəmi ilə müqayisə edilir. Çünki dövran adı ilə rəmzləşdirilən həmin hakimiyyətin vətən deyən kəslərin kəlləsindən vurduğu etiraf olunur. Hər kəs Rəsul Rzanı rənglərlə daha tez xatırlasa da, müəllif onun rəngli dünyasına poemanın sonlarına yaxın işıq salır. Onun adi boyalardan aldığı fəlsəfi təəsürat "rənglərdə rəng axtarırdı" (11. 11) fikirləri ilə çatdırılır. Poemada R.Rza nəhəngliyinə söz abidəsi qoyulmasına nail olunsa da, əsər poeziya nümunəsindən daha çox nəsri xatırladır. Qafiyələrdən son dərəcə qıtlıqla istifadə edilən poemada, yəqin ki, R.Rzanın da sərbəst şeir ölçüsündə yazmasına ehtiram göstərilib. Poema lirik təəsüratdan daha çox həmsöhbətlə düşüncələrini bölüşməyə oxşayır.

Görkəmli şairlərlə yanaşı aşıqların da tərcümeyi-hal xarakterli obrazları çağdaş poemalarda xüsusilə seçilən mövzulardandır. Onlardan biri də Məhərrəm Hüseynlinin heca vəznində dördlük şəklində yazdığı "Azaflı" poemasıdır. Əsər Aşıq Mikayıl Azaflıya həsr edilib. Poemada qismən də olsa, süjet xətti nəzərə çarpır. Poemadan məlum olur ki, gələcək aşıq martın

21-də Novruz bayramında doğulsa da, bir yaşı olanda atası ölür. Bir neçə ildən sonra Mikayılın anası Məmmərzə adlı biri ilə ailə qursa da, həmin kişi uşağın anası ilə gəlməsinə razılıq vermir. Əsərdə də təsvir edildiyi kimi Mikayıl kiçik yaşlarından Həsən adlı əmizadəsinin himayəsində böyüyür və ilk təhsilini ondan alır. Bununla da onun həyatının daha bir keşməkeşli çağına nəzər salınır. M.Hüseynli məqsədli şəkildə aşığın uşaqlıq təlim-tərbiyəsinə ətraflı şəkildə yer ayırır. Balaca Mikayılın babasından Məmmədəminlərin, 37-ci il həqiqətlərinin öyrənməsi onun həyatında əsaslı dəyişikliyə səbəb olur. Kiçik Mikayıl məktəbdə müəllimlərin və oxuduğu kitabların Stalin və Lenin haqqında verdikləri yalan məlumatları qəbul edə bilmir, "Stalin bu xalqa cəlladdı" – deyərək müəllimə etiraz edir və məktəbdən çıxmaq məcburiyyətində qalır.

Poemadan məlum olur ki, onu xilas etmək üçün Goranboydakı qohumugilə pənah gətirirlər. Gənc aşıq orada Məzahir Daşqının şeir dərnəyində iştirak edir. Üç il orada qalandan sonra xəbər eşidirlər ki, Səməd Vurğun Goranboyluların qonağı olacaq. Səməd Vurğunun qonağı olduğu söz məclisində Mikayılın oxuduğu "Oy amandı" rədifli təcnis Vurğunun xoşuna gəlir və o, Məzahir Daşqından bu gəncin kim olduğunu soruşur. Məzahir Daşqının, "sən bizim bu oğlana necə kömək edə bilərsən"- sualının cavabında S.Vurğun "Məktubu uzadıb Mikayıla döndü, Səninki Əsədtək şah sənətkardı" (9. 331) deyərək onu doğru istiqamətə yönəldir. Əsərdə göstərilir ki, böyük Səməd Vurğun həm də aşığın öz doğma Tovuzuna dönməsinə yardımçı olur. Mikayıl Azaflı Aşıq Əsəddən yetmişdən çox hava, iyirmi dastan öyrənir. Növbəti görüşlərində "Səməd Vurğun dedi: Aşıq Mikayıl, Bu gündən ləqəbin "Azaflı" olsun". (9. 335) beləliklə, böyük aşığa Mikayıl Azaflı təxəllüsünü də xalq şairi verir.

Müəllif Aşığın hərbi qulluq illərinin təsvirini də Azərbaycanın tarixi ilə əlaqəli şəkildə qələmə alır. "416"-nın harın zabiti rusca verdiyi əmri başa düşməyən əsgərləri güllələyir. Növbə Mikayıl Azaflıya çatanda o, zabitin əlindən silahı alıb üç zabitin bədəninə boşaldır. Oradan qaçıb vətəninə gəlir. Mir Cəfərin öz qəbuluna düşərək vəziyyəti ona izah edir. Bağırov da azərbaycanlı əsgərləri xilas etmək üçün lazımı tədbirlər görür. Qanuna görə, Mikayıl həbs edilir. Əsərin sonlarında aşığın layiqli davamçıları olan övladlarının da adları çəkilir. Bütövlükdə poemada bir aşığın həyatı timsalında XX əsr Azərbaycanının bir sıra gerçəklikləri ilə tanış olmuş oluruq.Bütün bu cəhətlərinə görə poemalarda reallığın təcəssümü qəbul ediləndir. Bu reallıq isə çox zaman tarixi mövzuların seçilməsi ilə baş tutur. Tarix bədiiləşdirilərkən bir sıra dəyişikliklər özünü göstərə bilər. Bu baxımdan Nazxanım Həsənova qeyd edir ki, "Tarixi poema üçün mövzu seçilən hadisə və gerçəkliklər uzaq və yaxın zaman müddətini əhatə edə bilər. Burada təsvir və inikas üsulundan asılı olaraq zaman anlayışı da şərti

xarakter daşıyır". (1. 213) Bu özəlliklər müstəqillik dövrü Azərbaycan poemalarına da aid edilə bilər. Həmin poemalarda da həyatları nəzmə çəkilən insanlara ən müxtəlif rakurslardan yanaşmışlar.

Çağdaş dövr Azərbaycan poemalarında əsasən XX əsrdə yaşayıb yaratmış elm və incəsənət adamlarının parlaq obrazları yaradılmışdır. Bu obrazların əksəriyyəti Azərbaycan insanlarıdır. Onların həyat salnamələri XX əsr Azərbaycan həqiqətləri ilə ayrılmaz tellərlə bağlıdır. Bu bağlılıq da şairlərə imkan verir ki, bir mövzu ətrafında bir neçə mətləbə aydınlıq gətirsinlər. Dövlət siyasətində nəzərə çarpan kəsirlərdən tutmuş, əhalinin sosial iqtisadi durumundakı çətinlikləri qarşılıqlı şəkildə təqdim edə bilsinlər. Bir insanın həyat tarixçəsi zəminində bir xalqın bir əsrlik tarixinə yer ayırsınlar. Bu baxımdan son illər yazılan poemalar diqqətə layiqdir və onların araşdırılması məqbul haldır.

Ədəbiyyat

1. AMEA Ədəbiyyatİnstitutu. Ədəbiyyatməcmuəsi. XXIX cild. "Elm vətəhsil". Bakı.2017
2. AMEA Ədəbiyyatİnstitutu. Poetika.izm. № 2. "Elm və təhsil". Bakı. 2016
3. AMEA Ədəbiyyat İnstitutu. Ədəbi proses 2015. "Hədəf" nəşrləri. Bakı. 2016
4. Musa Nəbioğlu. Sözün Zəlimxan zirvəsi. "Vətən" nəşriyyatı. Bakı. 2015
5. İsa Həbibbəyli. Ədəbi-tarixi yaddaş və müasirlik. "Nurlan". Bakı. 2007
6. Rafiq Yusifoğlu. Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri. ADPU nəşriyyatı. Bakı. 2010
7. Nəriman Həsənzadə. Seçilmiş əsərləri 7 cilddə. Poemalar. II cild. "Prometey". Bakı. 2010 8. Zəlimxan Yaqub. Əsərləri, 13 cilddə, XI cild. Bakı, "Şərq-Qərb", 2013.
9. Aşıq Məhərrəm Hüseynli. Azaflıdır şah ustadım. "Elm və təhsil". Bakı. 2013
10. "Ədəbiyyat qəzeti". 21 noyabr 2015
11. "Ədəbiyyat qəzeti". 16 iyul 2016. №26 (5045)

Гюлнар Гасымлы

Современном современников стихи

Резюме

В статье рассказывается о деятельности современников в периоде независимости Азербайджанской Республики. В поэмах вызывает внимание обращаемые темы, связанные впрямую с современностью и

повседневным бытом. В поэмах, написанных во времена выдающихся личностей, были воссозданы образы многих выдающихся личностей, которые являются нашими соотечественниками. Авторы высказывали свое отношение к среде и к той эпохе, в которой проживали исторические личности. Иногда этими образами были люди, относящиеся к недавней истории и являющиеся личностями, которых автор знал лично. В этих поэмах, в частности жизни одного лица мы знакомимся со многими реальностями XX- го века Азербайджанской Республики. Эти образами больше всего являются те, которых автор знает напрямую. Жизнь и деятельность этих людей выбрана в качестве темы художественному произведению. Несколько поэм, всех деталей образов которых воссоздал автор, привлечены к анализу. Предлагаются цитаты с поэм и со статьей, имеющих отношение к статьям.

Gulnar Gasimli

Our missions in contemporary azerbaijan poemes

Summary

The article deals with the activities of our contemporaries in Azerbaijani poems. It is noteworthy that the topics addressed by poems are directly related to the agenda or experiences. The poems written during the years of independence have created images of prominent personalities, many of our contemporaries. The authors commented on the period and the environment in the face of historical personalities. Sometimes these images are people who are very close in history and are the identities of the author. In the poems, we are familiar with a number of realities of the 20th century Azerbaijan in the life of a person. Most of these images are those people, who have been known directly by the authors. Those people's lives and creations have been choosen as a theme to the works. Some poems which talk about the people's images that have been known in more detail and created by the author, are involved to analize, some quotes from those poems and their articles are showed.

Rəyçi: Vaqif Yusifli
filologiya üzrə elmlər doktoru

KƏMALƏ İSLAMZADƏ
Bakı Dövlət Universiteti
kemale_67@mail.ru

DÜNYA XALQLARININ MİFOLOJİ VƏ FOLKLOR SÜJETLƏRİNDƏ TƏKGÖZLÜ OBRAZLAR

Açar sözlər: təkgözlü obrazlar, xtonik varlıqlar, şər qüvvələr, Lixo, Verlioka, Fomor, Siklop, arimasp, Təpəgöz
Key words: characters of the One-eyed, chthonic creatures, evil forces, Likho, Verlioka, Fomor, Cyclop, arimasp, Tepegoz
Ключевые слова: образы Одноглазых, хтонические существа, злые силы, Лихо, Верлиока, Фомор, Циклоп, аримасп, Тепегёз

Mifik təfəkkürün və sərhədsiz fantaziyanın məhsulu olan qeyri-adi obrazlar içərisində Təpəgöz xüsusilə diqqəti çəkir. Homerin "Odisseya"sındakı Politem təkgözlü siklopun yunan variantıdır. Lakin yunan mifologiyasından kənarda da bir çox mifoloji sistemlərdə təkgözlü divlərə və ya varlıqlara dair təsəvvürlər mövcuddur (4, 127; 551; 623). Hələ antik dövrdən məlum olan bu təkgözlü nəhəng haqqında süjetin Oğuz versiyası XV əsrə aid əlyazmada günümüzə gəlib çatmış və 1815-ci ildə **Henrix Fridrix fon Dits** tərəfindən elm aləminə bəlli edilmişdir. X.Koroğlunun yazdığı kimi, "bu süjetin oğuzlarla heç bir əlaqəsi olmayan fransızlarda, italyanlarda, almanlarda, Skandinaviya xalqlarında, eyni zamanda yunanlarda, finlərdə və slavyan xalqlarında iki yüzdən artıq variantı və versiyası qeydə alınıbdır. Hələ Orta Asiyanın, Qafqazın, Yaxın və Orta Şərqin oğuzlarla genetik qohumluğu və qonşuluğu olan xalqlarını demirik" (2, 135-136).

Xüsusi vurğulamalıyıq ki, təkgözlü mistik obrazlarla "Təpəgöz süjeti"ni ayırmaq lazımdır. Sözü gedən süjet həm N.P.Andreyevin A.Aarne sistemi əsasında tərtib etdiyi kataloqda (5, 76), həm də İ.Rüstəmzadənin hazırladığı "Azərbaycan nağıllarının süjet göstəricisi"ndə 1137 nömrəsi altında qeyd olunmuşdur. Süjetin qısa təsviri belədir: "Qəhrəman yoldaşları ilə birlikdə təpəgözün əlinə düşür. Onun gözünü kor edir, qoyun dərisində gizlənib ondan qaçır" (3, 292).

Dünya xalqlarının yaradıcılığı rəngarəng, fərqli, orijinal təkgözlü obrazlarını təqdim etmişdir ki, bu məqalədə onlardan bəhs etmək istərdik. Məsələn, Şərqi Slavyan mifologiyasında bədbəxt taleyin şəxsləndirilmiş təcəssümü sayılan təkgözlü **Lixo** obrazı vardır. Rus dilində Lixo – "bəla", "şər", "tək ədəd","nəhs" deməkdir. İlkin mənası "qalıq", "artıq" imiş. "Лишения" – "məhrumiyyətlər" sözü ilə eyni kökdəndir və müxtəlif fiziki

qüsurlarla təsvir olunur. Eləcə də "лишний" –"artıq" sözü ilə eyni kökdəndir və anormallığa malik (altı barmaqlı, normadan artıq dişləri olan və s.) insanlar haqqında deyilir. Xalq arasında belə bir inanc var ki, bu cür insanlar uğursuzluq gətirirlər (11, 170-171).

Nağıllarda Lixo daha çox "kədər" anlayışı ilə assosiasiya doğurur. İnsanın yanında Lixo olduqda onu müxtəlif bədbəxtliklər təqib etməyə başlayır. Çox zaman Lixo insandan əl çəkmir və ömrü boyu ona ziyan vurur. Bununla belə, rus nağıllarına görə, Lixonun insana yapışmasında həmin şəxs özü günahkardır. Görünür, o, zəifdir, gündəlik çətinliklərə sinə gərmək istəmir və şər ruhdan kömək umur.

"Təkgözlü Lixo" rus xalq nağılında o, nəhəng, arıq bircə gözü olan adamyeyən qadın kimi təsvir edilir (13, 340-341). Obrazın şər məzmunu həmin sözün işləndiyi atalar sözlərində də öz əksini tapmışdır. Məsələn: "Не буди лихо, пока оно тихо" (Hələ ki, lixo sakitdir, onu oyatma); "Не поминай лихом" (Pis sözlə anma (xatırlama)); "Лихое споро, не умрёт скоро" (Şərin toxumudur, belə tez ölməz).

Rus, Ukrayna və belorus xalq nağıllarında rast gəlinən digər təkgözlü varlıq mifik mənşəli **Verliokadır.** AA kataloqunda 210* nömrəsi altında verilmiş süjetə görə, Verlioka bir qarını və onun iki qız nəvəsini öldürür, qoca kişi, yaşılbaş ördək, toxmaq, kəndir və palıd qozası onu bu qətlə görə cəzalandırırlar. Süjetin səciyyəvi cəhəti ondan ibarətdir ki, Verliokaya qarşı mübarizə güc vasitəsi ilə deyil, hiylə ilə aparılır. A.N.Afanasyevin qeydində göstərilir ki, nağıl cənubi Rusiyada Tuxorski tərəfindən yazıya alınmışdır (8, 335-340). Nağılın üç rus, yeddi Ukrayna, bir belorus variantı məlumdur.

Verlioka alçaq boylu, təkgözlü, qarmağabənzər burunlu, bir çəngə saqqalı, yarım arşın bığları, başında cod qılları, taxta çəkmədə bir ayağı olan, çəliklə gəzən, qorxulu-qorxulu qımışan, dağıdıcı qatil obrazı kimi təsvir edilir. Olqa Aleksandrovna Çerepanova hesab edir ki, Verlioka qədim şər mücəssəməsi olan obrazın nağıl süjetində qorunub saxlanmış qalığıdır (15, 69).

Mari mifologiyasında öz əcəli ilə ölməmiş insanın təkgözlü ruhu olan **Tarqıltış** obrazı vardır. "Loktızo" adlanan mari cadugərləri tərəfindən çağırılır. O, insana cadu edə bilər. Onun təsiri altına düşməmək üçün bir çox yasaqlara, davranış qaydalarına riayət etmək vacibdir. Onun yaşadığı yer "Tarqıltış ilem" adlanır. Bu, anlaşılmaz söhbətlərin, araba cırıltısının, at kişnərtisinin, qışqırıq və gülüş səslərinin eşidildiyi meşələr, yarğanlar, yolayrıclarıdır. Belə yerlərdə asanlıqla səmti çaşdırmaq, psixoloji zərbə almaq, huşunu itirmək, qorxmaq mümkündür. Buralarda şər qüvvələr çox güclü olur (17).

Yapon folklorunda **Xitotsume-kodzo** adlı Təkgözlü oğlan obrazı vardır. Bu, sifətinin ortasında böyük gözü olan, uzun dilli, buddist rahibləri xatırladan daz başlı, qeyri-adi varlıqdır. Xitotsume-kodzo insanlara zərər verməz, yalnız onları qorxudardı. Lakin onunla qarşılaşmaq yaxşı əlamət

sayılmırdı. Onu qorxutmaq üçün insanlar evin qarşısında bambuk səbətlər qoyardılar. Təkgözlü oğlan səbətdəki çoxsaylı dəlikləri onun gözləri hesab edib özünün bir gözü olmasından utanaraq qaçacaqdı (19).

İrland mifologiyasına məxsus **Fomorlar** isə xaosun demonik şər qüvvələrini təmsil edən, o biri dünyanın sakinləri olan varlıqlardır. Onlardan ən məşhuru Balordur. Balor tək gözünün bir baxışı ilə böyük bir qoşunu elə zəiflədə bilərdi ki, o, bir dəstə əsgərin belə qarşısında məğlub olardı. Başqa versiyaya görə, onun baxışı ölümcül təsirə malik idi. Balor Danunun nəslindən olan, həm də özünün nəvəsi sayılan Luq adlı şəxs tərəfindən məğlub edilir.

Fomorlar zahirən eybəcər, nəhəng kişi və qadınlardır. Məsələn, fomor kralının Lot adlı anasının dodaqları sinəsinədək sallanırdı, fiziki gücü isə bir qoşununkundan da üstün idi. Fomorların, bir gözü, bir ayağı vardı. Çünki adi vaxtda onların bədəninin yarısı bu dünyada, digər yarısı isə o biri dünyada olurdu. Onlar məhz o biri dünyadan qüvvət alırdılar. Hətta fomorlar oraya qayıtdıqda bütün eybəcərlikləri keçib gedir. Beləliklə, fomorların eybəcərliyi onların bu dünyada tam materiyalaşa bilməməsi ilə bağlıdır, çünki onların bir hissəsi həmişə o biri dünyada qalır (18).

Herodota görə, qədim dünyanın şimal şərqində **arimasplar** yaşayırmış. Bu, təkgözlü insanlardan ibarət bütöv bir xalqdır. "Arimasp" sözünün mənası skifcədən tərcümədə "təkgözlü" deməkdir ("arima" – bir, "spu" – göz). İssedonlar və qriflərlə qonşuluqda yaşayan arimasplar hər iki tayfa ilə savaşırdılar. Onlar qrifonların qoruduğu qızılı ələ keçirməyə çalışırdılar (14, 20). Tədqiqatçıların bir qismi hesab edir ki, arimasplar deyərkən bürünc dövründə mövcud olmuş Cənubi Sibir köçəri skif tayfası nəzərdə tutulur. Herodot öz kitabında söhbət açdığı "Skif hekayəsi"ndə Prokonnesli Kaistrobiyin oğlu Aristeyin günümüzə gəlib çatmamış "Arimasplar haqqında epos" epik poemasına mənbə kimi istinad etmişdir. Güman olunur ki, ya arimasplar barədə əfsanələr Kiçik Asiyanın qərbinə kimmeriyalılar tərəfindən gətirilib, ya da təkgözlü xalq Aristeyin təxəyyülünün məhsuludur.

Yunan mifologiyasının dünya ədəbiyyatına bəxş etdiyi digər təkgözlü obrazlar "sikloplar" və ya "kikloplar" adı ilə məşhurdurlar. Bu adlar qədim yunan dilindən "yumrugözlülər" kimi tərcümə olunur. Yunan mifologiyasında onlar bəzən tanrı mənşəli varlıqlar kimi (Heya və Uranın övladları), bəzən də ayrıca bir xalq kimi təqdim olunurlar. İlkin sikloplar Heya və Uranın törəmələri hesab edilən üç təkgözlü nəhəngdir: Arq ("İşıq saçan"), Bront ("İldırım saçan") və Sterop ("Parıldayan"). Doğulan kimi ataları onların qollarını sarıyıb Tartara atır. Uran devrildikdən sonra siklopları titanlar azad etmiş, lakin Kronos tərəfindən yenidən məhkum edilmişlər.

Zevs Kronosla hakimiyyət uğrunda mübarizəyə başlarkən anası Heyanın məsləhəti ilə o, siklopları Tartardan çıxarır ki, onlar titanlara qarşı davada Olimpiya tanrılarının köməyinə gəlsinlər. Sikloplar Zevs üçün perunlar (ildırımsaçanlar) hazırladılar. Sikloplar Aid üçün dəbilqə, Poseydona üçbaşlı əsa düzəltdilər, Hefest və Afinaya isə sənətləri öyrətdilər. Tutanomaxiya bitdikdən sonra da sikloplar Zevs üçün silah hazırlayaraq ona xidmət edirdilər. Sikloplar Apollon tərəfindən öldürülmüşlər. Çünki Zevs ildırım saçaraq Apollonun oğlu Asklepini məhv etmişdi, həmin silah isə siklopların əl işi idi (12, 105).

Qazax alimi Ç.Ç.Vəlixanovun qırğız çöllərində yazıya aldığı mif həm türk tayfasına aidiyyatı baxımından, həm də şamanizm, təbiət kultları, doğuş zamanı qadının və körpənin qəniminə çevrilən albastı ruhları, cinlər, pərilər, şeytanlar və s. arxaik inanc və təsəvvürləri qoruyub saxlaması nöqteyi-nəzərindən qiymətlidir. "Təpəgöz süjeti" ilə əlaqəsi olmasa belə, burada da təkgözlü obrazı yer almışdır. Mifin mətni belədir: "Baksılardan baqanalili Koylubay məşhur idi, bütün baksıların başçısıydı... Doğuşa təzyiq göstərən albastı ruhlarından heç birinin Koylubayın yanında gücü yox idi. Koylubayın qamçı və papağını göndərməsi kifayət idi ki, dərhal albastı həmin yeri tərk etsin... Ona xidmət edən pəri ruhlarının başında Nadır Çulak, cinlərin başında Kokaman, şeytanların başında isə igid Çoylan dururdu. O öz ruhlarını ciddi nizam-intizamda saxlayırdı. Onun tələbi ilə ruhlar yaxşı silahlanmış üç qoşun hazır etməyə borclu idilər...

Bir dəfə pərilərin başçısı Nadır Çulak adəti üzrə gələcək barədə məruzə etmək üçün Koylubayın yuxusuna girir, deyir ki, bir neçə gündən sonra arvadlardan birinin doğuşunda albastılar padşahının özü olacaq və məsləhət görür ki, ora getməsin, onsuz da insan şıltaqlığına görə ruhları kifayət qədər üstümüzə qaldırmışıq. Səhər yerindən qalxan Koylubay söhbət arası bildirdi ki, yaxın günlərdə ağır doğuş gözlənilir. Doğrudan da, iki gün sonra hansısa bir bəydən çapar gəlib Koylubaydan kömək istədi. Bütün qırğızlar əmin idilər ki, nə qədər Koylubay var, onlar əcəldən başqa bütün həmlələrdən qorunublar və çapar da Koylubayın qüdrətinə ümid bəslədiyindən çox şən idi. Getməmək nüfuzunu itirmək, albastı kimi məlun şeytanların qarşısında gücsüzlüyünü göstərmək, getmək isə Nadırın xahiş və məsləhətlərinə hörmət etməmək və həyatını riskə atmaq demək idi. Lakin qırğız xalqının böyük öndərinin qüruru üstün gəldi. Koylubay yola düşdü, çaparı irəli buraxıb əmr etdi ki, xəstənin yurtasının (alaçığının – K.İ.) ətrafına iki yüz nəfər yığsınlar, yurtanın bütün qapılarını və üstünü açıq saxlasınlar. Kokaman və Çoylanın başçılığı altında tam silahlanmış iki qoşun isə onun yanında idi, Nadır yox idi, o təhqir olunduğundan getmədi. Koylubay yaxınlaşıb səs-küy qaldırır, qılıncını oynada-oynada yurtaya girir. Hirsli və qorxusuz gözlərini yurtanın bir küncünə dikir, qılıncını oynadır,

qılıncı nəyəsə dəyir, dəmir səsi eşidilir. Koylubay qışqırır, nəfəsi kəsilmiş vəziyyətdə atdan yıxılır, dəhşətli şəkildə qıvrılaraq əzab çəkir. Ağzından və qulaqlarından laxtalanmış qara qan axır. Əvvəlcə yatağında kefsiz uzanmış xəstə özündən gedir. Koylubay alaçıqda qara məxmərə bənzər, başdan-ayağa göy dəmirlə qandallanmış atın üstündə, geniş alnının ortasında kumıs kasası kimi iri təkgözü olan albastı padşahını görür. O, kinli-kinli gülərək Koylubaya deyir: "Sənə biz hörmət etmişik və çox şey vermişik, heç olmasa sən də bir dəfə bizə ver" - əlində isə o, qələbəsinin nişanəsi olan böyük qırmızı bayraq tutmuşdu. Dəmir səsi isə onun zirehinin səsi idi, o, Koylubaya qalib gəlir. Xalq dəhşət içində idi: Koylubay çöldə gəbərmiş at kimi yurtada yıxılıb qalmışdı; yurtaları bir cür qatı duman bürümüşdü və qeyri-adi səs-küy insanların ürəyini sıxırdı. Bu, Koylubayın ruhlarından ibarət qoşunlarla albastıların təkgözlü padşahı arasında gedən dəhşətli vuruşma idi. Qara köhlən ruhun altında oynayaraq fırlanır, öz yerində möhkəm dururdu. Birdən uzaqdan dəhşətli külək əsdi, böyük bir qara bulud gurultu ilə və sürətlə havada hərəkət edərək yurtanın üzərinə endi: qaranlıq çökdü, səs-küy artdı, səs gəldi və qara bulud sürətlə qərbə tərəf yönəldi. Bu, Nadır Çulak idi. O öz istəklisinin başına bəla gəlməsinə dözə bilməmiş, şam ağacından olan nizəsi, sinəparçalayanı ilə qoşununu da götürüb gəlmişdi. O, nizəsini təkgözlü şeytanın sinəsinə batırdı. Albastılar qaçdılar. Buludlar dağılışan kimi Koylubay yerindən sıçrayıb qışqırdı: "Aynalain (başına dönüm – K.İ.). Nadır Çulak, qurbanın olum!" Qobuzu götürüb var gücü ilə qışqıraraq çalmağa başladı: "Onu diri tut və yanıma gətir". Xəstə də özünə gəldi, "Tanrıya şükür" dedi. Albastılar darmadağın edildilər, padşahları isə qolubağlı Koylubayın yanına gətirildi: onu xidmətinə götürüb albastılara başçı təyin etdi (7, 213-215).

Bütün bu məlumatları ümumiləşdirməklə belə nəticəyə gəlirik ki, təkgözlü varlıqlar müxtəlif xalqların mifologiyasında və folklorunda xtonik aləmlə bağlılığı, şər mənşəli olması, insanlara zərər verməsi, qəddarlığı ilə yadda qalır. Tək göz şər xislətin fizionomiyada təzahürü kimi meydana çıxır. Ümumiyyətlə, asimmetriya, fiziki qüsurlar xtonik təbiətli varlıqların zahiri görkəminə xasdır. Göründüyü kimi, təkgözlü obrazlar içərisində həm qadın, həm kişi, həm də ruslarda mövcud olan orta cinsə (Лихо-оно) aid olanları, eləcə də insan gözünə görünməyən ruh (albastı) kimi təsəvvür edilənləri vardır. Onların ortaq əlaməti olan yeganə gözün sifətdəki yeri də fərqlidir. Göz alında, sifətin ortasında, yaxud normal halda yerləşməli olduğu hissədə qərarlaşmışdır. Lakin əsas etibarilə bunlar mənfi obrazlardır.

Təkgözlü obrazların prototipi ilə bağlı elmdə bir neçə nəzəriyyə formalaşmışdır. Botanik hipotezə görə, "bəyaz asırqal" (digər adları "Lobel asırqalı", Hippokrata belə məlum olan Veratrum lobelianum) adlı zəhərli bitki hamiləlik zamanı dölə təsir edərək bir gözün inkişafı kimi eybəcərliyə

gətirib çıxara bilərdi. Bəzi əczaçılar güman edirdilər ki, antik dövrdə belə uşaqların doğulması sikloplar haqqında əfsanənin yaranmasına səbəb olmuşdur (6, 52-53).

Ümumiyyətlə, müasir dövrün ginekoloji təcrübəsində belə patalogiyalı (təkgöz) uşaqların doğulması statistikası mövcuddur. Lakin bu körpələr, adətən, ölü doğulurlar. Bu isə hamilə qadının keçirdiyi xəstəliklərin, müxtəlif virusların nəticəsi kimi izah olunur.

Zooloji hipotez 1914-cü ildə Avstriya paleontoloqu Otenio Abel tərəfindən irəli sürülmüşdür. O ehtimal edir ki, sikloplar haqqında mifin meydana gəlməsi pleystotsen (800000-10300 il bundan öncə) dövründə Aralıq dənizi sahillərində yaşayan cırtdan fillərlə əlaqədardır. Paleontoloqlar bu fillərin sümüklərinə Siciliya, Sardiniya, Malta, Kipr, Krit, Egey dənizi adalarında tez-tez rast gəlirlər. Bu skeletlərin kəllə sümüklərində yeganə göz yuvası vardır ki, o da alın hissədə yerləşir (10).

Hətta Abşeron ərazisində qeyri-müəyyən qara-qəhvəyi rəngdə tüklə örtülmüş, üzündə qırmızı rəngli yeganə iri gözü olan, addımının eni insan addımından 3-4 dəfə böyük olan nəhəng varlığı görən şahidlərin izahatları qalmışdır. Bunu görənlər Xəzər dənizi ali məktəbinin kursantları və Kürdəxanı kəndinin sakinləri olmuşlar. Başqa sözlə, siklopun reallıqda mövcudluğuna inananlar da vardır (16).

H.F.f.Dits "Kitabi-Dədə Qorqud"a aid tədqiqatında siklopların üç növünü göstərir: a)mifoloji sikloplar; b)nəhəng tikintiləri tikən işçi sikloplar; c)Oğuzlarınkı ilə müqayisə olunan Homerin Polifemi (1, 62-63).

İkinci növ sikloplardan danışan Dits məhz real varlıqları nəzərdə tuturdu. Belə ki, Yer üzündəki müxtəlif ərazilərdə (Aralıq dənizi sahilləri, Qafqaz, Krım və s.) bəzi qədim, nəhəng tikililərin insan əli ilə tikilməsi şübhə doğurur. Texnikanın primitiv olduğu dövrdə belə inşaatların icrası yalnız çox böyük ölçülərə və fiziki gücə malik varlıqlar tərəfindən həyata keçirilə bilərdi. Elmi ədəbiyyatda yonulmuş nəhəng daşlardan birləşdirici məhlul olmadan inşa edilən tikililər siklopik tikililər adlanır və bürünc dövrünə (eramızdan iki-dörd min il əvvələ) aid edilir. Qədim yunan siklopларının nə üçün təkgözlü olduğunu izah etməyə çalışan Britaniya tədqiqatçısı Robert Qreyvs onları bürünc dövründə yaşamış dəmirçilər cəmiyyəti sanırdı. Onun fikrincə, dəmirçilər alınlarına Günəşin şərəfinə konsentrik dairələr şəklində döymələr elətdirirdilər. Çünki Günəşi onların ocağındakı odun mənbəyi hesab edirdilər. Bundan başqa, alov qığılcımlarından qorunmaq məqsədi ilə dəmirçilər bir gözünün üzərini bağlayırdılar. Bu isə Təkgöz mifini doğura bilərdi (9, 135).

Dünya xalqlarının mifologiyasında təkgözlü tanrıların olduğu da bəllidir. Məsələn, skandinav-german xalqlarına məxsus baş tanrı Odin təkgözlüdür. O, müdriklik quyusundan su içmək üçün gözünün birini nəhəng

Mimirə vermiş, keçmişi, indini və gələcəyi görmək bacarığına yiyələnmişdir. Bu, bir tərəfdən biliyin nə qədər dəyərli olduğunu göstərirsə, digər tərəfdən iki dünyanın idarə olunmasını rəmzləşdirir. Mifə əsasən, tək göz görmə funksiyası dəfələrlə güclənmiş, iki gözdən daha artıq imkanlara malik, hər şeyə nəzarət edən orqandır.

Misir panteonunda səma və Günəş tanrısı Qorun gözü və ya "hər şeyi Görən Göz" adlanan, üçbucaqlı içərisində tək göz kimi təsvir edilən işarə sonradan bir çox mədəniyyətlərə, eləcə də xristianlığa keçmiş, bəzi hakimiyyət və təşkilatların simvoluna çevrilmişdir. Qədim dövrlərdən "Hər şeyi Görən Göz" insan nəslinin və bütün kainatın yaradıcısının gücünü və biliyini rəmzləşdirir. Bu, insanın fövqündə duran, tək, bölünməz və azad abstrakt nəsnədir. O, maddi dünyada müvəqqəti səyahət edən bədənlərdə həbs olunmuş ruhlara nəzarəti həyata keçirir. Eyni zamanda o, susqun müşahidəçi kimi insanın bütün hərəkətlərinə baxır ki, həyatı sona çatdıqda onu dəyərincə qiymətləndirə bilsin.

Bütün bunların fonunda Oğuz Təpəgözünə nəzər saldıqda tamamilə fərqli bir münasibətlə qarşılaşırıq. Belə ki, Təpəgözün tək gözü süjetdə ayrıca götürülmüş obrazın sadəcə zahiri əlaməti deyil. O, burada konkret ictimai-mənəvi semantikaya malikdir. Tək göz səbəb deyil, nəticədir. Bu, bir tərəfdən təbiətlə harmoniyada, onunla iç-içə yaşayan, müxtəlif stixiyaların hami ruhlarına sayqı ilə yanaşan Oğuzların ənənələrinə etinasızlığın, digər tərəfdən isə cəmiyyətdaxili münasibətlərin tənzimlənməsində böyük rol oynayan, əsrlərlə formalaşan mənəvi-əxlaqi dəyərlərlə bağlı yasaqların pozulmasının sonucudur.

Ədəbiyyat

Azərbaycan dilində

1. Əlimirzəyeva F. "Kitabi-Dədə Qorqud" dastanları alman filoloji fikrində. Bakı: Elm, 1999, 332s.
2. Koroğlu X. Oğuz qəhrəmanlıq eposu. Bakı: Yurd, 1999, 243s.
3. Rüstəmzadə İ. Nağıllarının süjet göstəricisi. Bakı: Elm və təhsil, 2013, 368 s.

İngilis dilində

4. Coleman J.A. The Dictionary of Mythology An A-Z of Themes Legends and Heroes. London: Arcturus, 2007, 554 p.

Rus dilində

5. Андреев Н.П. Указатель сказочных сюжетов по системе А.Аарне. Ленинград: Изд.Государственного Русского Географического Общества, 1929, 119 с.
6. Асадов З. Диалог цивилизаций: Тепегёз и Полифем – миф или реальность? // «Полемика», 2011, 3(51), с. 50-54
7. Валиханов Ч. Собрание сочинений в пяти томах. Том I. Алма-Ата: Главная редакция казахской советской энциклопедии, 1984, 432 с.
8. Верлиока / Народные русские сказки А.Н.Афанасьева в 3-х томах. Т. II, Москва: Изд. Наука, 1985, 463 с.
9. Грейвс Р. Мифы Древней Греции. Москва: Прогресс, 1992, 320 с.
10. Громов В.И. География культурогенеза: эпоха плейстоцена. М.: Наука, 2005, 236 с.
11. Капица Ф.С. Лихо // Тайны славянских богов. М.: РИПОЛ классик, 2006, с. 170-171.
12. Киклопы // Большая советская энциклопедия в 30-ти томах. Том 12. Москва: Изд. Советская энциклопедия, 1973, с. 105
13. Лихо одноглазое / Народные русские сказки А.Н.Афанасьева в 3-х томах. Т. II. Москва: Изд. Наука, 1985, 463 с.
14. Хрестоматия по истории СССР с древнейших времён до конца XV века (под ред. М.Н.Тихомирова). Москва: Изд. Социально-экономической литературы, 1960, 736 с.
15. Черепанова О.А. Верлиока: слово и образ// Язык русского фольклора. Межвуз.сб. Петрозаводск, 1992, с. 42-55.

İnternet resusrları

16. Голубев М. Энциклопедия чудес, загадок и тайн // http: www.lib.rus.ec/b/207149/read
17. Таргылтыш//mythology.org.ua/Таргылтыш
18. Фоморы//ru.wikipedia.org/wiki/Фоморы
19. Хитоцуме-кодзо/ru.wikipedia.org/wiki/Хитоцуме-кодзо

K.Islamzadeh

The characters of the One-eyed in the world peoples' mythological and folklore plots

Summary

The article deals with the characters of the One-eyed, the result of boundless imagination and mythic thinking that attracts the special attention among the extraordinary characters. This character is traced in the different peoples' folklore: the East Slavs- Likho, Verlioka, the Mari people- Targiltish, the Japanese- Khitosume-kodzo, the Irish- Fomor, the Greeks- arimasp, Cyclop, the Kazakhs- albasti, the Oghuz Turks- Tepegoz. The article contains the detailed description of these characters' appearance, nature and functions. It is noted that these characters show themselves in the different genres. Thus the One-eyed occur in the myths, le-gends and eposes. The author differentiates the plot Tepegoz registered under the number 1137 in the catalogues and plots with the above-mentioned characters of the One-eyed. It is noted that the common peculiarity of all these characters is their connection with the chthonic world and they all are the results of evil. It is also emphasized that physical defects, asymmetry are typical features of the chthonic creatures' appearance.

The article also touches upon the characters of the One-eyed deities that take a special place in some peoples ' mythology. Such characters of deities occur in the Scandinavian- German peoples' and ancient Egyptians' pantheon.

К.Исламзаде

Образы Одноглазых в мифологических и фольклорных сюжетах народов мира

Резюме

В статье речь идет об образах Одноглазых, являющихся плодом безграничной фантазии, мифического мышления и привлекающих особое внимание среди необычных образов. Этот персонаж прослеживается в фольклоре различных народов: у восточных славян- Лихо, Верлиока, у марийского народа- Таргылтыш, у японцев- Хитоцуме-кодзо, у ирландцев- Фомор, у греков- аримасп, Циклоп, у казахов- албасты, у огузских тюрков- Тепегёз (Темеглазый). В статье подробно говорится о внешности, характере и функциях этих образов.

В частности, отмечается, что эти персонажи проявляются в различных жанрах. Так, Одноглазые встречаются в мифах, легендах, сказках и эпосах. Автор проводит разницу между сюжетом Тепегёза, зарегистрированным под номером 1137 в каталогах, и сюжетами с участием образов Одноглазых. Указывается, что все эти образы объединяет их связь с хтоническим миром и злом, порождением которого они являются. Подчеркивается также, что физические недостатки, асимметрия характерны для внешности хтонических существ.

В статье в то же время рассматриваются и образы одноглазых божеств, занимающих особое место в мифологии некоторых народов. Такие образы божеств наблюдаются в пантеоне скандинавско-германских народов и древних египтян.

Rəyçi: Səhər Orucova
filologiya elmləri doktoru, professor

AYTƏN MUŞKİYEVA
Gəncə dövlət Universiteti
Azərbaycan və dünya ədəbiyyatı kafedrası
Aytan@mail.ru

MİR CƏLALIN YARADICILIĞINDA MÖVZU RƏNGARƏNGLİYİ

Açar sözlər: ədəbiyyat, mövzu, ədəbi - tənqid, yaradıcılıq, hekayə, yazıçı.
Ключевые слова: литература, тема, литературная критика, творчество, рассказ, писатель.
Key words: literature, theme, literary criticism, creative activity, story, writer.

Ədəbiyyatımızda ilk növbədə gözəl romanlar, povestlər və hekayələr müəllifi kimi geniş şöhrət qazanan M.Cəlal daha mahir hekayə ustası kimi tanınmışdır. Hekayə janrı M.Cəlal yaradıcılığının əsas qayəsini təşkil edir. O, hekayə ilə ara-sıra yox, 30-cu ildən ömrünün sonunadək ardıcıl məşğul olmuş, Azərbaycan hekayəsinin bir sıra klassik nümunələrini yaratmışdır. Ədib çox vaxt hekayələrində həyatın dərin qatlarına enmiş, mahiyyəti görmüş, ziddiyyətlərdən yazmış, amma dolaşıq və dumanlı təsvirlərə uymamışdır.M.Cəlalın ideya-bədii məqsədi, fikir qayəsi həmişə aydın və işıqlı olmuşdur. Görkəmli tənqidçi M.Arif Mir Cəlal haqqında yazırdı: «Mir Cəlal mahir hekayə ustasıdır, onun hekayələri əksəriyyətlə yığcam və ibarətlidir. Yazıçı hər bir hekayəsində müəyyən ibrətli bir hadisədən bəhs edir və tərbiyəvi nəticə çıxarmağı oxucunun öz öhdəsinə buraxır».Yeniliyin köhnəliyə qarşı mübarizəsi, üstünlüyü, qələbəsi M.Cəlal hekayələrinin əsas leytmotivi idi. Görkəmli ədib əsərlərində mövzu rəngarəngliyinə, genişliyinə xüsusi fikir vermişdir. Boy atan, cana-qana dolan qüvvələrin yüksəlişi ilə hələ də əldən çıxmış əyyamlanmı qaytarmaq üçün fiirsət gözləyənlər, öz rahatlığını xalq mənafeyindən üstün tutanlar, şərəfli zəhmətə həqarətlə baxan, yeni həyatla ayaqlaşa bilməyənlər var idi və hər vasitə ilə yeniliyə mane olurdular. Belələri Mir Cəlalın gözündən qaça bilməmiş, onun izah və qəhredici gülüşündən yaxalarını qurtara bilməmişdilər. Öz vəzifəsindən sui-istifadə edən tənbəl həkimlər, zahiri bər-bəzək və təmtəraqa öz mənəvi boşluğunu gizlətməyə çalışan modapərəstlər, rüşvətxorlar və bürokratlar, ədabaz müəllimlər, xalq malına qəsd edən dələdüzlar, rahatlığı həyatın yeganə məqsədi hesab edənlər M.Cəlalın gulüş hədəfinə çevrilmişlər. Köhnəliyə qarşı amansız olan yazıçı, bu tör-töküntüləri rüsvay edərkən bütün gülüş vasitələrindən istifadə etmişdir. O, yeri gəldikcdə bir-birinin bostanına oğurluğa gedən doğma qardaşların köhnədən qalma miras davasını, acgözlüyünü də unutmamış, vaxtilə öz qonaqpərvərliyindən ağız dolusu

danışan, lakin fürsət düşəndə qonağın öz hesabına qonaqlıq verən köhnə dostlarını da xatırlamışdır. Yazıçı köhnəliyi təmsil edən bu qüvvələrin, Ə.Haqverdiyevin təbirilə desək, bu «maralların» mövqe və mənsəblərini puç, ayaqları altındakı zəminənin davamsız olduğunu, zahirən gəldi-gedər kimi görünsə də hələ də ciddi müqavimət göstərdiklərini bədii cəhətdən ümumiləşdirə bilmişdir. Həm də bu hekayələrdə yeniliyin üstünlüyü, qələbəsi, ictimai həyatın zəruri bir amili kimi, hər bir hekayənin mövzu və məqsədi ilə bağlı olan daxili zərurət kimi göstərilmişdir. M.Cəlal köhnəliyi tənqid edərkən öz əsas idealını-zəhmətkeş insanın xoşbəxtliyi məsələsini həmişə diqqət mərkəzində saxlamışdır. Onun satirik və yumoristik hekayələrində insana dərin məhəbbət, onun şəxsiyyətinə və ləyaqətinə sonsuz ehtiram hissi vardır. Yazıçı insan xarakterinin zahirən xoşa gələn, lakin diqqətlə müşahidə etdikdə zərəri aşkara çıxan cəhətlərini öyrənməyə çalışır.M.Cəlal köhnəliyi təmsil edən qüvvələr haqqında başdan-sovma, ötəri və könülsüz danışa bilmir. Müəllif təhkiyyəsinin son dərəcə sakitliyinə baxmayaraq yazıçının kinayəsini, addım-başı rişxənd və eyhamlarını, oxucunun diqqətini əhvalat və xarakterin mahiyyətinə, ən mühüm cəhətinə yönəltmək məqsədi ilə müdaxilə etdiyini görmək mümkündür. Lakin bu müdaxilədə nəsihət, didiaktika, ibrət dərsi deyil, yenə də bir səmimiyyət ahəngi üstünlük təşkil edir. M.Cəlal hekayələrində təkcə iqtisadi, mədəni, texniki yeniliyi, tərəqqi və yüksəlişi tərənnüm etməmiş, həm də insanların mənən dəyişdiyini «şüurlardakı inqilabı» da göstərmişdir. Əzəmətli binalara qoyulan hər bir kərpic, seçkilərdə ümumxalq sevincini ifadə edən kiçik bir dəvətnamə, baharın müjdəsini gətirən ağ sinəli qaranquşun sevinci, anasını kənddən şəhərə-öz xoşbəxt həyatını görməyə dəvət edən sadədil bir oğulun ürək döyüntüləri, məhsulun bolluğundan son dərəcə məsud olan bir kolxozçunun təbəssümü, əsgərliyə getmiş olan oğlunun nişanlısına baş çəkən xoşbəxt bir ananın narahatlığı və s. bütün bunlar həssas yazıçı Mir Cəlalın ürəyində dərin təəssürat buraxmış, öz oxucusunu da bu sevincə və narahatlığa şərik etməyə çalışmışdır. M.Cəlal yaradıcılığa XX əsrin 30-cu illərində başlamışdır. Bu dövrdə o, «Mirzə», «Həkim Cinayətov», «Mərkəz adamı», «Kəmtərovlar ailəsi», «Anket Anketov», «Təzə toyun nəzakət qaydaları», «Bostan oğrusu» və s. kimi dəyərli hekayələrini yazmışdır.Ədibin «Həkim Cinayətov» adlı hekayəsinin maraqlı süjet xətti vardır. Gənc tələbə Ramazan Əlizadə atasının başına gələn bədbəxt hadisədən bərk təşvişə düşmüşdür. Qoca quyu qazarkən yuxarıdan düşən daş çiynini əzmiş, hətta onu xəstəxanaya aparmaq mümkün olmamışdır. Ramazan xəstəxanaya qaçıb həkimlərdən təcili yardım göstərməyi xahiş edir. Həkim Cinayətov ona heç bir məhəl qoymayaraq, qızlarla söhbət edir, popiros çəkir, gərnəşir, cansıxıcı sualları ilə Ramazanı bezdirir. «Xəstənin vəziyyəti ağırdır, kömək etmək lazımdır, tələsin» sözlərini eşitdikdən sonra

həvəssiz halda ayağa qalxıb asta addımlarla yola düşür. Hekayə janrının kiçikliyinə baxmayaraq M.Cəlal obrazın varlığına işıq salan, qəlbini, psixologiyasını və niyyətini açan elə fərdi-ictimai keyfiyyəti əsas götürüb bədii boyalarla əks etdirmişdi ki, nəzərimizdə sanki bütöv xarakter canlanır. Məsələn, «Yollar» hekayəsində ədib Ədhəm və Nailənin ürək çırpıntılarını yüksək bədii ustalıqla qələmə almışdır. Ədhəm ananın bir oğludur, iki il olmaz ki, Nailə ilə evlənmişdir. Onların odlu məhəbbəti Sabah adlı uşağın simasında paylayıb. Ədhəm Nailəni və övladını qoyub gedir. O, ölkəsinə qəsbkarların hücum etdiyini eşidən kimi xalqm ilk çağırışı ilə vətən torpağını qorumağa yollanır. Azğın düşmənin cinayətlərinə son qoymaq istəyir. Öz körpə balasını cavan həyat yoldaşına əmanət edən Ədhəm Nailədən oğlu Sabahı vətənin sabahına hazır böyütməyi xahiş edir. Ədib bu hekayədə vətən azadlığını öz səadətindən üstün tutan əsgər obrazı yaratmaqla ədəbiyyatımızda yeni səhifə açmışdır. Böyük Vətən müharibəsi insanlarının - yüksək inam ilə süngüsünü yuxarı qaldıran əsgərlərin və qürurla həyat yoldaşını cəbhəyə yola salan qandınların ümumiləşdirilmiş surətləridir.M.Cəlalın müharibə dəhşətlərindən bəhs edən hekayələrindən biri də «Qardaş qanı» hekayəsidir. Yazıçı hekayədə xalqlara fəlakət gətirən qəsbkar təyyarələri, top, pulemyot səslərini, alovlar altında sim kimi titrəyən torpağı o qədər canlı təsvir etmişdir ki, sanki bu gürultu və dəhşətlər bir film kimi insanın gözü qarşısından keçir, düşmən tərəfə əl bombası atdıqda ayağından yaralanan Bəhramın öz uşaqlıq dostu tərəfindən xilas edilməsi hekayənin əsas məzmununu təşkil edir. Ədib bu əsərdə yalnız vətənin azadlığını düşünüb bu yolda ölümdən belə qorxmayan igid əsgər və öz vəzifəsinin öhdəsindən məharətlə gələn tibb işçiçsi surəti yaratmışdır. Düşmənin intiqam almağa çalışan vəfalı dost Bəhramın tüfənginin qundağından möhur kimi qalan bir damla qanı silmir, bu qardaş qanına baxdıqca onun düşmənə nifrəti birə on qat artır və daha əzmlə vuruşur. Əsərdə həm vətənpərvərlik, həmi də dostluq hissləri ilə səmimi boyalarla təsvir olunmuşdur ki, həmin qəhrəmanlar və hadisələr uzun müddət oxucunun yaddaşından silinmir.Müharibə mövzusunda yazılmış hekayələrdən biri də «Vətən harayları» hekayəsidir. Bu əsərdə bir-birinə bağlı olan üç dostun cəbhə günlərindən bəhs olunur. Əsər bir əsgərin təhkiyyəsi şəklində yazılmışdır. O, öz gənclik illərini tələbə yoldaşı Nəsrəddin və uşaqlıq dostu Lətiflə birlikdə cəbhədə keçirir. Döyüşlərin birində əsgər qəhrəmancasına vuruşur və ağır yaralanır. Yeddi gün səhra xəstəxanasmda müalicə olunur. Dostları onun yanına gəlir; təsəlli verir, dərdinə şərik olur, ağırlarını yüngülləşdirməyə çalışırlar. Eşidəndə ki, əsgəri evlərinə göndərəcəklər, onların da anasına baş çəkməyi rica edirlər. Hekayədə əsgərin anası ilə görüşü çox təsirli boyalarla təsvir edilmişdir.Əsərdə səmimi dlostluq hissləri, ana məhəbbəti, vətənpərvərlik,

vətənə sədaqət kimi mənəvi keyfiyyətlər ön plana çəkilir. Oğlunu cəbhəyə yola salan və gəlişini hər an səbirsizliklə hər an gözləyən ananın narahatlığı, keçirdiyi iztirablar təbii boyalarla təsvir olunur. Lakin bu hisslərin içərisində bir iftixar, qürur duyulur. Ana inanır ki o, oğlu düşməni ona mənsub olmayan vətən torpağından qovacaq və təcavüzkarları məhv edəcəkdir.Mir Cəlal xalq həyatının gözəlliyini, rahatlığını və asayişini pozmağa can atan hər hansı bir qəsbkarın, işğalçının amansız bir düşməni kimi çıxış etmişdir. Yazıçının Böyuk Vətən müharibəsi dövründə yazdığı hekayələr ədəbiyyatımız tarixində «qəzəbli hekayələri» kimi qiymətləndirmişdir. Çox diqqətəlayiq bir cəhətdir ki, müharibə illərində cəbhədə və arxada ümumi vəziyyətin, xalq psixologiyasının dəyişməsi ilə əqalədar olaraq M.Cəlalın hekayələrinin də hədəfləri, ahəngi dəyişmişdir. Onun müharibə dövründə yazdığı ilk əsərləri üçün çağırış, şəfərbərlik əhval-ruhziyyəsi xarakterik olsa da daha sonralar yazdığı hekayələrdə düşmən üzərində qəti qələbə çalmaq meyli çox güclü verilmişdir.

Ədəbiyyat

1.M.Cəlal. “Klassiklər və müasirlər”. Bakı, 1973.
2.M.Cəlal. “Xalqın ürək sözü”. Bakı, 1941. AN
3.M.Cəlal.”Vətən hekayələri”. Bakı, 1941.ADN
4.M.Cəlal. “Dirilən adam”. Bakı. 1978.
5.Məmməd Arif. “Sənətkar qocalmır”. Yazıçı, Bakı, 1980.
6.Y.İsmayılov. “M.Cəlalın yaradıcılığı”. Bakı, 1975. EN

A.Mushkiyeva

Motley of theme in Mir Jalal's creative activities
Summary

Mir Jalal had manner of specific, unique private style, writing. To liken him to anyone in this meaning is not possible. But to the literary principle of Mir Jalal, for description methods of the life possible count continuer of the XX century realists like Jalil Mammedguluzadeh, Abdurrahim bey Haqverdiyev.Mir Jalal was a hot propagandist of Azerbaijan national-moral values, which arose since centuries and survive the moral qualities. Stories written about the time of The II World War take important place in the M.Jalal's creative work. The II World War opened new page in the creative work of the writer, new important posts put front of him,turned pen to the more acute ideological and artistic weapon. If writer does not take part

personally the learning his rich idea strength in the war, with way of investigation, observation, life and he more increasesed with people in the result of unbreakable connection gradually, he wrote stories being rich with senses of patriotism and heroism adapting activities to necessary demand of the time. Basic purpose show in the some of these the stories the hate, mobilization spirit, resolve of to join to the country call and to join the army, real fighter fighting had created in other sort against the fascism for freedom and independence copy.To describe the physical heroism of the soldier this fighting of the work (business, but he is the side.

АМушкиева

Разноцветность тем в творчестве Мир Джалала

Резюме

У Мир Джалала был свойственный ему несравненный индивидуальный стиль, способ письма. В этом значении невозможно сравнить его с кем нибудь. Но Мир Джалала за его литературный принцип, способы и методы описания жизни можно считать последователем таких реалистов 20-го века, как Джалил Мамедкулизаде, Абдуррахим бека Аквердиева.Мир Джалал был огненым пропагандистом национально-моральных ценностей. Рассказы, написанные о периоде 2-ой Мировой Войны занимают важное место в творчестве Мир Джалала. 2-ая Мировая Война открыла в его творчестве новую страницу, поставила перед ним новые важные задачи, превратила его перо в еще более резкое идейно-художественное оружие. Хотя литератор лично не участвовал на войне, в результате он увеличил силу изучения своего богатого представления, путем исследования, наблюдения, непрерывной связи с жизнью и людьми, сопоставив свою деятельность с важными требованиями периода написал рассказы богатые чувствами патриотизма и героизма. Хотя в некоторых из них основной целью является показать ненависть людей к врагу, дух единогласия, усердие объединения на зов родины и участие на войне, в других рассказах он создал настоящего воина ведущего борьбу против фашизма ради свободы и независимости.

Rəyçi: Bədirxan Əhmədov
Filologiya elmləri doktoru, professor

KAFİYƏ MUSAYEVA
Gəncə Dövlət Universiteti
kafiye@mail.ru

30-40-CI İLLƏR AZƏRBAYCAN ƏDƏBİYYATI VƏ ƏDƏBİ TƏNQİD

Açar sözləri: ədəbiyyat, sənətkar, məzmun, forma, yaradıcılıq, ədəbi tənqid.
Ключевые слова: литература, мастер, содержание, форма, творчство, литературная критика.
Key words: Literature, craftsman, maintenance, form, creative activities, literary criticism.

30-cu illərin repressiyası öz başlanğıcını sovet hakimiyyətinin qurulduğu ilk aylardan götürmüşdü. Onun ilk ziyalı qurbanı erməni daşnaklarının Gəncə həbsxanasında güllələdikləri Qazax Müəllimlər Seminariyasının direktoru, görkəmli alim və ədəbiyyat tənqidçisi, ilk çoxcildlik Azərbaycan ədəbiyyatı tarixinin müəllifi, böyük maarifpərvər Firidun bəy Köçərli (1863-1920) olmuşdur. Ümumiyyətlə repressiya Azərbaycan ədəbiyyatının sovet dövrü tarixinin qan qarışıq qara səhifələrini təşkil edir. Bu zaman əsassız təqiblərə məruz qalanlar arasında günahsız fəhlə və kəndlilər də çox idi. Lakin bolşevik-daşnak təqiblərindən ən çox zərər çəkən ziyalılar olmuşdur. Bunun da səbəbi aydın idi. Stalinçilər Azərbaycan xalqının ziyalı övladlarını qırmaq, yaxud məhbəslərdə və sürgünlərdə çürütməklə millətin özünüdərk prosesinə mane olmaq, onu öz mənəvi köklərindən ayırmaq, kommunist ehkamlarının kor-koranə icraçısına çevirmək istəyirdilər. Xalqın tarixini, fəlsəfəsini, dilini, əlifbasını, mədəniyyətini, psixologiyasını, mentalitetini yaxşı bilən, bunları tədqiq edib soydaşları arasında təbliğ edən alimlər, öz doğma dilində və xalq ruhuna yaxın olan formalarda yazılmış bədii əsərləri ilə milli təfəkkürün öləziməsinə mane olan yazıçı, şair və dramaturqlar, bütünlükdə yaradıcı ziyalılar «yuxarı»dan verilmiş sərt və amansız «xüsusi» tapşırıqları yerinə yetirənlərin ən çox qorxduqları, buna görə də ən amansız rəftar etdikləri həmvətənlərimiz idilər. O dəhşətli illərdə repressiyaya məruz qalmış sənətkarlar arasında Azərbaycan ədəbiyyatı və incəsənətinin, ədəbiyyatşünaslıq və dilçilik elmlərinin çox görkəmli nümayəndələri olmuşlar: böyük dramaturq H.Cavid, parlaq istedadlı şair M.Müşfiq, görkəmli nasir və ədəbiyyat tənqidçisi S.Hüseyn, Azərbaycan Respublikasının ilk (və son) himninin müəllifi məşhur şair Ə.Cavad, məhsuldar ədib və alim Y.V.Çəmənzəminli, filologiya professoru, poliqlot alim B.Çobanzadə, Bakı Dövlət Universitetinin rektoru, yazıçı T.Ş.Simürğ, Bakıda ilk Şərq konservatoriyasını açmış Xədicə xanım Qayıbova, görkəmli teoloq-alim, Bakı qazisi Mir Məhəmməd Kazım ağa,

folklorçu-alim H.Zeynallı, faciəvi rolların səhnəmizdə ən görkəmli ifaçıları A.M.Şərifzadə, Ü.Rəcəb və onlarca başqaları… Sürgündə və məhbəsdə həlak olmuş Y.V.Çəmənzəminlidən və H.Caviddən başqa bu yaradıcı ziyalıların hamısı güllələnmişdi. Qatillər öz qurbanlarının yaşına fərq qoymadan onları tələm-tələsik mühakimə və edam edirdilər. Qurani-Kərimin Azərbaycan dilinə ilk tərcüməçilərindən olan Bakı qazisi Mir Məhəmməd Kazım ağanı 83 yaşında, M.Müşfiqi isə 29 yaşında güllələmişdilər. Mikayıl Müşfiq (1908-1937) mürəkkəb və ziddiyyətli ictimai quruluş şəraitində milli poeziyanı «Oxu, tar!» qəbilindən olan ölməz əsərlərlə zənginləşdirmişdir. Şairə dünya poeziyası təcrübəsində ən qısa bir vaxt ərzində (cəmi 10 il) yazıb-yaratmaq nəsib olmuşdur. Lakin bu qısa müddətdə nəşr etdirdiyi əsərlər ədəbiyyatda silinməz izlər buraxmışdır. Çoşğun hiss və duyğular, zəmanəsinə meydan oxuyan romantik ovqat, rəvan və oynaq dil Müşfiq sənətinin bədii dəyərini, uzunömürlülüyünü təmin edən yaradıcılıq xüsusiyyətləridir.Mühacir ziyalılarımızı bir cəhət həmişə birləşdirmişdir: onlar məskunlaşdıqları ölkələrdə Azərbaycan milli ədəbi, mədəni mentalitetini, azərbaycançılıq ideallarını yorulmaq bilmədən qorumuş, ləyaqətlə təmsil və təbliğ etmiş, sovet imperiyası məngənəsində sıxılan Azərbaycanın dərdini-odunu həmişə hakim dairələrin və ictimaiyyətin diqqət mərkəzində saxlamaq üçün səylə çalışmışlar. Bir qismi öz yaradıcılıq fəaliyyətini bu gün də davam etdirən Azərbaycan mühacirlərinin çox geniş, sanballı ədəbi, elmi-filoloji, publisist irsi mövcuddur. Bu müəlliflərin arasında Əlibəy Hüseynzadə, Əhmədbəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Mirzə Bala Məhəmmədzadə, Əlimərdanbəy Topçubaşov, Ceyhun Hacıbəyli, Səməd Ağaoğlu, Əhməd Cəfəroğlu, Əbdülvahab Yurdsevər, Almas İldırım, Bənin (Ümmülbanu), Nağı Şeyxzamanlı, Məmməd Sadıq Aran, Hüseyn Camal Yanar, Teymur Atəşli, Musa Zəyəm, İbrahim Arslan, Əli Azərtəkin və onlarla başqaları vardır. Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra Ümmülbanunun «Qafqaz günləri» romanı, A.İldırımın «Qara dastan» şeirlər toplusu, Ə.Hüseynzadənin «Siyasəti-fürusət», M.Ə.Rəsulzadənin «Azərbaycan şairi Nizami» monoqrafiyaları, C.Hacıbəylinin hekayələri, M.B.Məhəmmədzadənin publisistikası müəlliflərinə hörmət və ehtiramla Bakıda ayrıca kitablar şəklində nəşr edilmişdir.Ədəbiyyatın sərt direktivlərdən asılı vəziyyətdə qalması, söz azadlığının dönə-dönə pozulması, ədəbiyyatın dövlət siyasətinə tabe edilməsi və s. neqativ hallar uzun illər boyu ədəbi-mədəni həyatda müəyyən məyusluğa, ruh düşkünlüyünə, durğunluğa səbəb oldu. Amma bu dövrdə C.Cabbarlı, M.Müşfiq, S.Vurğun, O.Sarıvəlli, R.Rza kimi yüksək istedadlı və çox zaman ezop dili ilə ideoloji çərçivələrə təsir göstərən sənətkarlar da meydana çıxırdı ki, bunun özü də bütövlükdə ədəbiyyatın ictimai-siyasi şəraitdən mütləq asılılığı haqqında ifrat nəzəriyyələrin əleyhinə işləyən bir

fakt idi. Vaxtilə «Qızıl qələmlər» birliyinin ideologiyası altında komsomol şairi kimi fəaliyyətə başlamış Süleyman Rüstəmin (1906-1989) əsil vətənpərvərlik ruhunda yazılmış «cənub şeirləri» silsiləsi, «Ana və poçtalyon» şeiri, saf məhəbbət duyğularının tərənnümünə həsr edilmiş qəzəlləri də bu qənaəti bir daha təsdiq etməkdədir. Qəzəlin rəsmi dairələrdə vaxtı keçmiş, məhdud janr hesab edildiyi o illərdə görkəmli şair Əliağa Vahidin (1895-1965) dərin mənalarla zəngin olan zərif qəzəllərini də məhz xalqın məhəbbəti yaşatmışdı.Bu dövrdə Azərbaycan ədəbiyyatının roman, xüsusən tarixi roman janrını inkişaf etdirən tanınmış sənətkarlardan biri M.S.Ordubadi (1872-1950) olmuşdur. Onun Azərbaycan Atabəylər dövləti və həmin dövrdə yaşamış ən böyük sənətkarımız Nizami Gəncəvi haqqında yazdığı «Qılınc və qələm», eləcə də cənubdakı azadlıq hərəkatına həsr edilmiş «Dumanlı Təbriz» romanları bu gün də öz tarixi-estetik əhəmiyyətini itirməmişdir. Təxminən eyni dövrün nəsrində "İki od arasında" («Qan içində»), «Qızlar bulağı» kimi romanların müəllifi Y.V.Çəmənzəminlinin, "Şamo" epopeyası və «Saçlı» romanının müəllifi Süleyman Rəhimovun (1900-1983), «Açıq kitab» romanı və lakonik hekayələr yazarı Mir Cəlalın (1908-1978), «Dostluq qalası» epopeyası və «Yoxuşlar» romanlarının müəllifi Əbülhəsən Ələkbərzadənin (1904-1986), «Gələcək gün» və «Pərvanə» romanlarının müəllifi Mirzə İbrahimovun (1911-1993) da xüsusi xidmətləri qeyd olunmalıdır.Sovet dövrü dramaturgiyası Hüseyn Cavid, Süleyman Sani Axundov, Cəfər Cabbarlı, Mirzə İbrahimov, Səməd Vurğun, Sabit Rəhman, Ənvər Məmmədxanlı, İlyas Əfəndiyev, Şıxəli Qurbanov və b. adı ilə sıx bağlıdır «Ana», "Şeyx Sənan" və "İblis" əsərləri ilə dramaturq ədəbiyyatımızda mənzum faciə janrının əsasını qoymuşqdur. Sovet dövründə ədibin dramaturji yaradıcılığı «Peyğəmbər» (1922), «Topal Teymur» (1925), «Knyaz» (1929), «Səyavuş» (1933), «Xəyyam» (1935), "İblisin intiqamı" (1936) pyesləri, «Azər» (1923-1932) poeması ilə daha da zənginləşdi. Cəfər Cabbarlı (1899-1934) M.F.Axundzadə ilə təməli qoyulan milli dramaturgiyanın sadəcə varisi, davamçısı olmamış, eyni zamanda onu «Oqtay Eloğlu», «Od gəlini», «Sevil», «Almas» əsərlərindəki problem və qəhrəmanlarla zənginləşdirmişdir.Səməd Vurğun (1906-1956) sovet dövründə yetişmiş ən görkəmli şair-dramaturqlardan biridir. Azərbaycan təbiətinin ecazkar gözəlliklərini, xalqımızın qəhrəmanlıq tarixini, humanist dəyərlərimizi fəlsəfi dərinliklə qavrayıb romantik vüsətlə mənalandırmaq onun şeir və poemalarının əsas xüsusiyyətləridir. Keçən əsrin Azərbaycan poeziyası öz dilinin xəlqiliyi, ahəngdarlığı, obrazlılığı ilə ilk öncə S.Vurğunun yaradıcılığına, xüsusilə də onun «Azərbaycan» şeirinə, «Aygün», «Muğan» kimi epik poemalarına, «Vaqif», "İnsan" mənzum dramlarına borcludur. Sovet rejiminin hər cür təzyiqlərinə baxmayaraq Azərbaycan xalqının milli özünüdərki prosesində «Vaqif»in oynadığı rolu

ancaq dahi Üzeyir Hacıbəyovun «Koroğlu» operasının bu sahədəki böyük rolu ilə müqayisə etmək olar.Sovet dövründə Azərbaycan poetik fikrinin inkişafında Rəsul Rzanın (1910-1981) əsasən sərbəst vəzndə qələmə aldığı şeir və poemaların böyük rolu olmuşdur. Novator şair olan R.Rzanın poeziyası fəlsəfi lirizmi, fikir və emosiyaların canlılığı, orijinal poetik obrazları ilə seçilir. Onun «Rənglər» silsiləsindən fələsfi şeirləri, «Füzuli», «Qızılgül olmayaydı» və b. lirik poemaları Azərbaycan poeziyasının ən yaxşı örnəklərindəndir.Azərbaycan nəsrinin canlı, təravətli, bədii surətlər və əlvan təsvir vasitələri ilə zənginləşməsində, dramaturgiyamızda lirik-psixoloji üslubun inkişafında İlyas Əfəndiyevin (1914-1996) böyük yaradıcılıq xidmətləri olmuşdur. Yarım əsr ərzində onun səhnəmizə bəxş etdiyi 15 pyesi («Sən həmişə mənimləsən», «Məhv olmuş gündəliklər», «Mahnı dağlarda qaldı», «Büllur sarayda», «Xurşidbanu Natəvan» və s.) əsasında hazırlanmış tamaşalarda aktyor və rejissor kadrların bütöv bir nəsli yetişib püxtələşmiş, "İlyas Əfəndiyev teatrı" bərqərar olmuşdur. Azərbaycan nəsrinin yeni mövzu və qəhrəmanlarla zənginləşməsində Əli Vəliyev, Hüseyn İbrahimov, Hüseyn Abbaszadə, Bayram Bayramov, Cəmil Əlibəyov, Vidadi Babanlı, Ələviyyə Babayeva, Süleyman Vəliyev, Əzizə Əhmədova, Əfqan Əsgərov, Gülhüseyn Hüseynoğlu, Əlibala Hacızadə və başqalarının da xidmətləri vardır.

Ədəbiyyat:

1. Alışanov Ş. Tənqidi fikrimizin tarixi, «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1985, 31 may.
2. Arif M. Seçilmiş əsərləri (üç cilddə), I c., Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1967.
3. Arif M. Sənətkar qocalmır, Bakı, Yazıçı, 1980, 368 s.
4. Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, 1991, s.393; II c., 1994, s.432.
5. Talıbzadə K. Sənətkarın şəxsiyyəti, Bakı, Yazıçı, 1978, s.319.
6. Talıbzadə K. Tənqidimiz haqqında qeydlər, Bakı, Gənclik, 1967, s.166.

K.R.Musayeva

The 30-40th years Azerbaijan literature and literary criticism

Summary

Connected with global events and social shakings in the region in the first decade of the XX century, especially after overthrowing of the Azerbaijan Democratic Republic, time of repressions of the 30th years

creative intellectual of Azerbaijan undergone to political pursuits repeatedly, they had addressed the purpose of to get rid of and to continue literary activities as last way out to the migration. Persons which took refuge in abroad captivating in the war against the German fascism making a step because of to the country land for the prohibiting after fight, from the pursuit of the reign regime they live out of persons which were or their children today live in the far from our country - Asia, Africa, Europe, America, even Australia continents. In becoming rich of Azerbaijan prose with new theme and heroes Ali Valiyev, Huseyn İbrahimov, Huseyn Abaszadeh, Bayram Bayramov, Jamil Alibayov, Vidady Babanly, Eleviya Babayeva, Suleyman Veliyev, Aziza Ahmadova, Afghan Asgerov, Gulhuseyn Huseynoglu, Alibala Khadzizadeh and so on have services.

К.Р.Мусаева

Литература и литературная критика Азербайджана 30-40-х годов

Резюме

В связи с глобальными событиями первого десятилетия 20-го века и общественными потрясениями в регионе, особенно после крушения АДР , кроме того во время репрессий 30-х годов зодчие Азербайджана не раз подвергались политическим преследованиям , и чтобы спастись и с целью продолжить литературную деятельность вынуждены были уехать из страны. Из-за попадания в плен на войне против германского фашизма, из-за запрета во вступление на родную землю, нашедшие после войны приют за границей, оставившие свою родину из-за преследования шахского режима или их дети сегодня живут далеко от нашей страны – в Азии, в Африке, в Европе, в Америке, даже в Австралийском материке. В обогащении Азербайджанской прозы новыми темами и героями имеют заслуги Али Валиева, Гусейна Ибрагимова, Гусейна Аббасзаде, Байрам Байрамова, Джамиля Алибекова, Видади Бабанлы, Алавии Бабаевой, Сулемана Валиева, Азизы Ахмедовой, Афгана Аскерова, Гюлхусейна Гусейноглы, Алибабы Гаджизаде.

Rəyçi: Xəlil Yusifli
filologiya elmlər doktoru, professor

GÜLGƏZ SALMANOVA
BƏHRAM QULUZADƏ
AYNURƏ MƏSİMOVA
Bakı Slavyan Universiteti
Şamaxı Astrofizika Rəsədxanası
gulgaz@mail.ru

NİZAMİ VƏ ELM

Açar sözlər: elm, kainat, üsturlab, hərəkət
Ключевые слова: наука, вселенная, астролябия.
Key words: science, universe, astrolyaby.

Məlumdur ki, antik yunan və Şərq fəlsəfəsində kainatın yaranması haqqında çoxsaylı fikirlər mövcud olub. Yunan filosofu Empedokla görə kainatın əsasını dörd ünsür təşkil edir ki, bunlar od, su, hava və torpaqdır. Bu baxış antik ədəbiyyatda uzun müddət hakim mövqe tutub. Nizami bu baxışlara üstünlük verərək hətta onu əsaslandırıb.

Lakin şair daha uzağa gedərək materiyanın, kainatın və canlı həyatın yaranmasını bilavasitə hərəkətin əmələ gəlməsi, yaranması və mövcudluğu ilə bağlayır.

Şairin elmi irsi

"İskəndərnamə" poemasından aşağıdakı misralara diqqət yetirək:

Əvvəl mövcud oldu tək bir hərəkət,
Onu iki yerə ayırdı sürət.
Bu iki hərəkət gəlib bir yerə,
Yeni bir hərəkət doğurdu hərə.
Əvvəlki hərəkət ayrıldı yenə,
Bu üçü qoşuldu biri-birinə.
Üç xətt zahir oldu üç hərəkətdən,
Üç dövrə yarandı ondakı xətdən.
Mərkəzdən ayrıldı həmin dövrələr,
Yaranıb ortaya çıxdı bir çövhər.
Cövhər keşməkeşdən doğub parladı,
Hərəkət eyləyən cism oldu adı.

Bu beytlərdən göründüyü kimi, şair mövcudatın ilk amili kimi hərəkəti əsas götürür. Yaranmış hərəkətdə sürət dəyişməsi, yəni təcilin yaranmasının təsiri ilə dəyişən sürətli, sonra əyrixətli hərəkətin və ən nəhayət, fırlanma

hərəkətinin əmələ gəldiyini göstərir. Şairə görə bu hərəkət dəyişməsinin keşməkeşindən cövhər, yəni hərəkətdə olan cism, materiya yaranıb.

Elm aləmində mexaniki hərəkəti ətraflı tədqiq edib öyrənən, ilk dəfə təcilli hərəkətin qanunlarını kəşf edən məşhur italyan fiziki Qalileo Qaliley deyirdi ki, təbiətdə hərəkətdən qədim heç nə yoxdur. Göründüyü kimi, XII əsrdə yaşamış Nizaminin elmi fikirləri ondan beş əsr sonra yaşayan Qalileyi xeyli qabaqlayıb.

Məlumdur ki, çevrə boyunca hərəkət zamanı təcil yaranır və fırlanan cismə mərkəzəqaçma qüvvəsi təsir edir. XVII əsrdə yaşamış məşhur holland fiziki Xristian Hüygensin kəşf etdiyi bu qüvvənin analitik ifadəsi sonralar Nyutonun yaratdığı nəzəriyyənin – planetlərin hərəkəti nəzəriyyəsinin əsasını təşkil edib. Beləliklə məlum olub ki, böyük yunan filosofu Aristotelə görə, planetlərin "təbii və daim davam edən hərəkəti" üçün müəyyən qüvvənin təsir etməsi lazımdır.

Nizaminin əsərlərinin diqqətlə araşdırılması göstərir ki, orada fırlanma hərəkəti zamanı mərkəzəqaçma qüvvəsinin yarandığını və həmin qüvvənin mərkəzə doğru istiqamətləndiyini göstərən elmi fikirlər var. Şair bunu belə izah edir [3]:

Həmin cisim qərar tutmayıb bir an,
Dönür, hərlənirdi əsla durmadan.
Bu cismin parlayan saf parçaları
Həmişə qaçırdı mərkəzə sarı.

Məlumdur ki, əski zamandan XIX əsrədək dünya elmində qədim yunan filosofu və riyaziyyatçısı Evklidin (İqlidis) adı ilə bağlı olan Evklid həndəsəsi qüvvədə idi. Nizaminin yazdığı [2]:

Həndəsə elmində xarüqə saçar,
"Məcəsti", İqlidis sirrini açar. –

beytindən göründüyü kimi, o, antik dövrün əsərlərini araşdırmış, təhlil etmişdir. Böyük şair bunu "Leyli və Məcnun" poemasında belə təsvir edir:

Ən uca nöqtəni aşarsa bir xətt,
Öz əks halına meyl edər fəqət...

Bu kürə şəklində yalnız yer deyil,
O xətt ki fırlanır, yuvarlaqdı, bil.

Nizami və ulduzlar aləmi

Nizaminin yaradıcılığında astronomiyaya dair mətləblərin bədii təsvirini vermək, səma cisimlərinin hərəkət xüsusiyyətlərini qələmə almaq təşəbbüsü maraq doğurur.

Eşitmişəm ki, hər ulduz bir aləmdir,
Ayrıca yer və göy qədərdir. [2] –

deməklə şair səmada ulduzlar aləminin zəngin, rəngarəng olduğunu, hər ulduzun öz yeri, öz xassəsi olduğunu bildirir. XII əsrin nücunm elmində "səmada ulduzların hamısı eynidir" təsəvvürünün əksinə olaraq belə dərin elmi fikri söyləmək yalnız dərin astronomik məlumatlar əsasında mümkün idi. Daha doğrusu, bunu intibah sənətkarı deyə bilərdi.

Şair yazır [1]:

O vaxt ki mən qapını bağlamışdım,
Göylərdə sözə başlamışdım,
Gah mələklərin bürcünü kəsirdim,
Gah da ulduzların örtüyünü cırırdım.

Bu misralardan aydın olur ki, Nizami öz hücrəsinə çəkilərək səma cisimlərini müşahidə edən, onların sirrlərini öyrənməyə çalışan bir sənətkar olub.

Bir sıra tədqiqatçıların qeyd etdiyi kimi, orta əsrlər Şərqində ən geniş yayılan astronomik alət üsturlab-astrolyabiya olub. Üsturlablar formaca müxtəlif – xətti, müstəvi, universal, sferik və s. olur. Ümumiyyətlə, elmi cihazlar və alətlər elm və texnikanın inkişafında həmişə mühüm rol oynayıb. İntibah dövrünün də ən mühüm səciyyələrindən biri elmin təbiətini öyrənmək, kosmik aləmin eksperimental tədqiqi olub.

Beləliklə, orta əsrlərdə alətlərin və cihazların elmdə rolu artırdı. Şərqdə geniş yayılmış üsturlab Nizaminin bir alim kimi diqqətini cəlb etməyə bilməzdi [2]:

Biri on dənə arpanı mehrab edib,
Biri iki daşı üsturlab edibdir.

Bu sətirlərdə Nizami üz və əks tərəfi dairə olan sadə, müstəvi astrolyabiyadan danışır. Bu astrolyabiya dərəcələrə bölünmüş çevrədən və onun mərkəzinə bərkidilmiş əlidadadan-iki diaptrallı fırlanan xətkeşdən ibarətdir. Diaptrallar sadə bir borudur. Bu borunun içərisi boş olub, uclarında diametri boyunca tel asılmış və bunun qarşısında furan ucda isə yarıq

açılmışdır. Müşahidəçi işıqlanan cismin yüksəkliyini ölçmək istədikdə həmin göy cismini, diaptralları, onun yarığını və telini bir xəttə gətirir, beləliklə, diaptralların şkala üzərindəki vəziyyətinə görə həmin cismin yüksəkliyini asanca hesablayır.

O dövrdə təbiət hadisələrini dərk etmək üçün ən başlıcası astronomik müşahidələri elmi ümumiləşdirmələrlə birləşdirmək idi. Nizami fəxrlə yazırdı [3]:

Aləmin pərgarında bilici mənəm,
Aləmin gərdişini və sirrini bilən mənəm.
Bütün fələk ziccini cədvəl-cədvəl,
Təfəkkür üsturlabı ilə açmışam.
Kim məndən fələyin sirrini soruşdu ki,
Onları bir-bir ona başa salmadım?!

Bu, yəni təfəkkür üsturlabı ilə göy cisimlərini müşahidə etmək təbiətə, səma cisimlərinə, onların hərəkət qanunlarına yeni baxış – intibah baxışı idi.

Bu isə öz növbəsində İslam ölkələri alimlərinin mühüm astronomik əsərlərindən bizə gəlib çıxan ziclərdə, yəni astronomik cədvəllərdə və təqvimlərdə, dahi Nizami demişkən, müəyyən dəyişikliklər aparılmasına gətirib çıxarır.

Ədəbiyyat:

1. Nizami Gəncəvi. Leyli və Məcnun.
2. Nizami Gəncəvi. Xosrov və Şirin.
3. Nizami Gəncəvi. İskəndərnamə.

Гюльгез Салманова,
Бахрам Гулузаде,
Айнуре Масимова

Низами и наука
Резюме

Гениальный поэт Азербайджана Низами создал неповторимые литературные шедевры. В его произведениях прослеживается связь литературы и точных наук.

Он связывал создание материи, вселенной и жизни непосредственно с образованием движения. Согласно античной философии, основу вселенной составляют четыре элемента. Это – огонь, вода, воздух и земля. Низами обосновал эти взгляды. Низами также использовал данные астрономии.

Некоторые идеи великого поэта о звездном мире согласуются с современными теориями.

Единство поэзии с точными науками создавало вечно живой литературный материал. На этом материале Низами смог передать человеческие страдания и радость.

Gulgaz Salmanova,
Bahram Guluzade,
AynuraMasimova

Nizami and science

Sammary

The genial poet of Azerbaijan Nizami has created high-grade compositions. Wherein he relied on numerous scienses. Nizami related the creature of matter, universe and life direcly with formation of motion. According to antic philosophy the basis of univers account for four elements. These are fire, water, air and ground.

Nizami justified these views. He also used data of astronomy. Some idees of Nizami are consistent with modern teories.

The unity of poetry with the exact sciences created an eternally living literary material. On this material poet were able to describe the human suffering and joy.

Rəyçi: Fürudin Qurbanov
filologiya üzrə fəlsəfə doktoru

XƏYALƏ HÜSEYNOVA
AMEA Gəncə Bölməsi, Nizami Gəncəvi Mərkəzi
x_genceli@yahoo.com

NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA NƏFS VƏ ONUN SİFƏTLƏRİ

Açar sözlər:Qurani-Kərim, Nizami Gəncəvi, nəfs, nəfsin sifətləri, can
Ключевые слова: Коран, Низами Гянджави, страсть, обличия страсти, жизнь.
Keywords: Koran, Nizami Ganjavi, passion, guises passion, a life.

Dahi şairimiz Nizami Gəncəvi əsərlərində insanın kamillik mərtəbəsinə yüksəlməsi üçün keçdiyi yolları və bu yolda ona mane olan nəfsin pis yönlərini bir-bir izah etmişdir. Beləliklə, Allah dərgahında yüksək məqam sahibi olmaq üçün ən başlıca vasitə nəfsin tərbiyə edilməsidir. Nəfs kəlməsi lüğətdə "ruh, can, həyat, varlıq, nəfəs, insan, həva və həvəs, qan, bədən, bədəndən qaynaqlanan sufli arzular" və başqa mənalarda işlənmişdir (11, 75; 12, 940; 13, 1472). Qurani-Kərimdə isə "ruh, zat, nəfsə pis işlər görməyi əmr edən, nəfsi və etdiyi pislikləri qınama, hüzura çatmaq" kimi müxtəlif mənalarda istifadə edilmişdir (9, 526). Təsəvvüfdə isə nəfs şər və günahın qaynağı olan "pis əxlaq və sufli arzular" mənasında işlənib pisliyi əmr edən deməkdir (9, 527).

Nəfs kəlməsi iki mənada istifadə edilir. Bəzən "nəfsüş-şey" deyirlər ki, onunla, o şeyin həqiqətini və zatını nəzərdə tuturlar.Bəzən də nəfs sözü ilə insanın natiq nəfsini göstərirlər.Bu heyvani və təbii ruh olaraq adlandırılan bədənin əzalarının, insani və ülvi ruhdan ona enən nurun birləşməsindən ibarətdir.Bu nurla təqva ona ilham edər. Nəfsin bu növü hər an yeni bir rəng alar və hər saat başqa bir şəklə girər. Hər an bir işi pozar və hər nəfəs yeni bir pis iş görməyə başlayar. Görkəmli İslam alimi Əli b. Əbu Talib (a.s.) buyurduğu kimi: "Mənim və nəfsimin misalı, çoban və sürünün vəziyyəti kimidir. Çoban sürünün bir tərəfini yığıb nəzarətdə saxlasa, sürü digər tərəfdən dağılar" (10, 82) kəlamına istinad etsək belə bir nəticəyə gələ bilərik ki, İlahi mərifətlə nəfsi tanımaq və ona çatmaq heç bir məxluq üçün mümkün deyildir. Onu olduğu kimi tanımaq imkansız, layiqi ilə hallarını zəbt etmək çətindir. Hətta bu barədə Səhl b.Abdullah da belə buyurmuşdur: "Nəfsin bir sirri var ki, bu Firondan başqa birinə zahir olmamışdır. Buna görə də o, "Mən sizin uca rəbbinizəm" dedi (8, 181).

Nəfsin yeddi səmavi hicabı və yeddi zəmini hicabı vardır. Qul nəfsini yerin təbəqələrində nə qədər aşağı basırarsa, qəlbi o miqdarda göylərə yüksələr. Əgər nəfsini yerin altına dəfn edərsə, qəlbi ərşə yüksələr. Bu

haqda nəfsə dəyərli İslam mütəfəkkiri Əbu Yezid Bistami belə tərif vermişdir: "Kim nəfsini öldürərsə, rəhmət kəfəninə sarılar və kəramət zəmininde dəfn edilər. Kim də qəlbini öldürərsə, lənət kəfəninə bürünər və cəza torpağına dəfn edilər (8, 181). Bu ifadəyə istinad etsək görərik ki, onun fironluğu sübut etdi ki, bu vəziyyət əslində nəfsə uymağın fəlakətli nəticəsidir. Firon ölümlü, aciz bir varlıq olduğu halda mən sizin rəbbinizəm dedi. Onun fəlakətinin səbəbi elə məhz nəfsinə aldanıb Allaha şirk qoşması oldu.

Yuxarıda da qeyd etdiyimiz kimi, nəfs kəliməsi Qurani-Kərim və Hz.Peyğəmbərin (s.a.s.) hədislərində bir çox mənalarda işlənmişdir. Bizə lazım olan mənası "insanın bədənində mövcud olan bir şeydir, bir əmrdir, şər və fəsad törətməklə əmr olunan nəsnədir". Bu qüvvə insanı pis işlər görməyə sövq edər, əməli-saleh olmaqdan uzaqlaşdırar (14, 49). İslamın dəyərli alimlərindən Kuşeyrinin nəfsə verdiyi tərif bizə lazım olan mənada işlənmişdir: "Nəfsin (onu yaxşı işlər görməkdən uzaqlaşdıran) iki sifəti vardır. Birincisi-şəhvətdə israr etmək, ikincisi-itaət və ibadətlərdən uzaq düşmək (8, 181). Bu tərif bizə göstərir ki, günah və pis əməllərin rüşeymində nəfs dayanır.

Dahi şairimiz Nizami Gəncəvi də poemalarında nəfsi bu tərzdə, yəni insanı pis işlər görməyə vadar edən şəkildə göstərmişdir. Şairə görə nəfs insanın ən böyük düşmənidir. Eyni zamanda şair nəfsin hiylə və xainliklərindən, insana qurduğu oyunlardan, ona qarşı qorunmanın, nəfsi tərbiyə etməyin və nəzarətdə saxlamağın yollarından bəhs etmişdir.

Onun nəfs haqqındakı bir neçə beytinə nəzər salaq:

Bu köhnə cırıq xalçanı ver getsin,
(Günaha) bulanmış ətəyin haqqında fikirləş (1, 85).

Sənin yük daşıyan heyvanın irəlilədikcə,
Fələk də sənin əlavə yükünü artırar (3, 59).

Arzusuna tabe olan hər bir kəs isə,
Axırda yoxsulluğa (dilənçiliyə) düçar olar (4, 144).

Şair burada insanın arzusuna tabe olması ilə onun nəfsinin pis sifətlərini nəzərdə tutur. İnsanın nədən yaradıldığını yada salır, bununla da onun gücsüz bir varlıq olduğunu xatırladır. Nəfsə tabe olduğu zaman yükünün daha da artdığını və bu yükün altında əzildiyini bildirir.

Başqa beytlərdə deyilir:

Nə qədər qürrələnmək olar, ey torpaqlı dəğəl?

Nə qədər "mənəm, mənəmlik" olar ey iki-üç mən sümük? (2, 160).

Bu qəlibdə "mənəm, mənəm" deməkdən
Əl çək, onsuz da onun hərəkəti dodağa yetişənə qədərdir (2, 163).

Buradakı "mən" adı verilən zat və həqiqəti ilə insanın nəfsi başa düşülür (11, 76). Gördüyümüz kimi, mənəm deməklə insan nəfsinin ən çirkin sifətinə enir. Bu Allahın sevmədiyi, insanın malik olduğu ən pis keyfiyyətlərdəndir. Şair məsləhət görür ki, bu günah işdən əl çəkməlisən, çünki sənin ömrün ruhunun qəbz olunmasına qədərdir. Buna görə də, bu mənlik arzusundan uzaqlaşıb doğrularla həyatına yön verməlisən. Bu haqda İslam peyğəmbəri Hz.Muhammməd (s.a.s.) buyurmuşdur:

"-Allah nəfsi yaratdığı zaman ona belə sual verdi:

-Mən kiməm?" O da cavab verdi:

-Mən, mən kiməm?... Bundan sonra Allahu Təala onu müxtəlif sıxıntılarla tərbiyə etdi.

Nə vaxt ki, ona: "Mən kiməm?" deyə sual verdi, o, cavabında "bəs mən, mən kiməm?" cavabını vermişdir. Ən sonda onu təvazökarlıq və aclıqla tərbiyə etmiş, ancaq ondan sonra nəfsdən müsbət cavab almışdır:

"Sən elə bir Allahsan ki, Səndən başqa heç bir məbud yoxdur" (16, 109).

Deməli, Allahın tərbiyə etməsi ilə insan nəfsindən mənlik hissini ata bilər, yəni nəfs nə qədər tanınmaz, əlçatmaz da, Uca Yaradan onunla cilovlana bilməsi üçün bir çıxış yolu göstərib.

Eyni zamanda, islam alimləri və sufilər nəfs haqqında fərqli görüşlər söyləmişlər. Bəziləri nəfsin zat və ruh mənasına gəldiyini bildirirlər, bəziləri isə nəfsi ruhdan ayrı pis sifətlərin qaynağı, lətif bir varlıq olaraq göstərmişlər.

İslam alimlərindən Əbdülkərim Quşeyri sufilərin nəfsə zat və bədən mənalarından başqa bir məna daha söylədiklərini bildirir. Onlar nəfs ilə qulun sahib olduğu pis sifətləri və əxlaqları nəzərdə tuturlar. Bu mənada nəfsin pis əxlaqların başlanğıcı olaraq insan vücuduna qoyulmuş və ruhdan ayrı bir varlıq olduğunu bildirirlər (15, 129).

İmam Gəzzali nəfsin iki mənasının olduğunu bildirir. Birincisi, insanda olan qəzəb və şəhvət hisslərinin qaynağının nəzərdə tutulduğunu, ikincisi isə, onun lətif, gizli, sirli bir varlıq olub insanın həqiqəti, özü və zatı mənasında istifadə edilmiş, lakin fərqli hallarına görə, əmmarə, ləvvamə, mütməinnə kimi sifətlərinin olduğunu qeyd etmişdir (15, 129-130).

Sührəverdi isə nəfsi belə izah edir. O əvvəlcə ruhu ikiyə ayırır. Biri əmir aləminə aid insani ruh, digəri isə xalq aləminə aid heyvani ruhdur. Bəşəri olan heyvani ruh ülvi olan insani ruhun yeri və məkanıdır. Heyvani

ruh qəlbdən qaynaqlanan hiss və hərəkət gücünü daşıyan lətif bir cismdir. İnsani-ülvi ruhun bu ruh üstünə gəlməsi ilə heyvani ruh başqa bir xüsusilik qazanmış və heyvanların ruhlarından ayrılmış, başqa bir sifət qazanaraq nəfs meydana gəlmişdir. Qurani-Kərimin "And olsun nəfsə və onu yaradana (ona biçim verənə). Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə ki"…(1, 91/7-8) ayələri bu vəziyyətə işarət edir. Nəfsin formalaşması insani ruhun ona gəlməsi və onun heyvanların ruhlarının cinsindən ayrılması ilə olmuşdur.Beləcə nəfs Allahu Təalanın yaratması ilə ülvi ruhdan əmələ gəlmişdir.İnsandakı heyvani ruh olan nəfsin ülvi ruhdan əmələ gətirilməsi əmir aləmində olmuşdur. Beləliklə Adəm (a.s.) ilə Həvva anamız arasında olduğu kimi ruh ilə nəfs arasında da qarşılıqlı bir eşq və ülfət əmələ gəlmişdir. Onlardan biri digərindən ayrılması ilə ölümü dadmaqdadır (7, 582-583).

Dəyərli alimlərin nəfs haqqındakı təriflərindən görürük ki, insanı yolundan azdırmaq, onu dünyaya bağlamaq, ilahi əmirlərdən uzaqlaşdırmaq üçün nəfsin bir sıra pis sifətləri mövcuddur. Nizami Gəncəvi də bu fikirlərlə razılaşır və o, əsərlərinin hər birində nəfsin insanı azdıran sifətlərinin olduğunu bildirir.

Aşağıdakı beytdə deyilir:

Nəfsinin gözlərini bir-bir kor elə,
Bu yaxşı işinlə ağlına üzərik yandır (3, 28).

O, nəfsin gözləri deməklə elə ona xas olan pis sifətləri nəzərdə tutur. Nəfsin pis yönlərindən xilas olaraq, yaxşı əməl sahibi olacağını bildirir.

Başqa beytdə deyilir:

Hər bədəndə qəzəbdən qışqırtı (xisləti) var,
Hər insanda bir dirilik (vəhşilik) təbiəti var (5, 178).

Nizami Gəncəvi hər bir insanın xislətində nəfsin pis sifətlərinin var olduğunu bildirir.

Nəfsin əxlaqı çirkindir. Onun həcminin kiçik olmasına baxıb aldanma. Əslində o yeddi qat göy və yerlər qədər genişdir. O alovlu yanan bir atəşdir. Onda gözlə görünməyən bir çox canavarlar, şəhvət itləri, hiylə və tülkülər yatır (16, 120).

Nəfsin pis əxlaqlarından biri insanın həvasına uymasıdır. Nəfs hər zaman hissi ləzzətlərə və şəhvətə çatmağı arzulayır. İnsan həvasına tabe olması və ona itaət etməsi nəticəsində Allaha şirk qoşmuş olar (10, 84).

Nizami Gəncəvi də nəfsin bu sifətinə diqqət çəkmişdir:

Həva (həvəs) quşu ürəyimdə özünə yuva qurdu,

Mənim təsbehimin dənələrini çaldı (oğurladı) (2, 127).

Mənim bir qulum var adı həvəsdir
Mənim ürəyim o qula fərman verir (6, 495).

Şair bildirir ki, insanın həvası onun ürəyində özünə məskən salmış, onu özünə qul etmişdir. Ondan xilas olmağın tək yolu isə həva və həvəsini ürəyinə qul edərək, onun üzərində hökmdar olmaqdır. Qurani-Kərimdə bu haqda buyrulur: "(Ya Rəsulum) Nəfsini özünə tanrı edəni gördünmü? Onun vəkili (zəmini) sənmi olacaqsan? (Onu bəd əməllərdən sənmi çəkindirib saxlayacaqsan? O özü haqqı axtarıb tapmalı, ona nail olmalıdır!) (1, 25/43). Deməli, İlahi zühd və məhəbbət olmazsa, bu sifətin nəfsdən ayrılması mümkün deyildir.

Şairin də dediyi kimi:

Həva və həvəsdən baş qaçırmaq sərvərlik əlamətidir,
Həva və həvəsi tərk etmək peyğəmbərlərin qüdrətidir (2, 116).

İslam peyğəmbəri bir hədisində belə buyurmuşdur: "Qalib, insanlara deyil, öz nəfsinə qələbə çalan adamdır (10, 83).

Nəfsin digər bir sifəti nifaqdır.Çox hallarda bu sifətdə nəfsin zahiri batini ilə fərqlidir.İnsanların yanında olub-olmaması onun üçün bir deyildir.İnsanların yanında onu tərifləyər, gözəl sözlər deyər, ancaq onlar olmayanda başqa cür davranar. Bu sifət ancaq doğruluq olarsa,təmizlənər (10, 84-87).

Şair deyir:

Həsəd insanın ürəyini dərdə salar
İki xeyirxah insan arasına kölgə salar (6, 522).

Nəfsin bir sifəti də riyadır.Nəfsin bu növündə insanların tərifləyiyi şeylərdə özünü öyməyə çalışır. Mülk yığmaq, onunla fəxr etmək, kibir və s. buna misaldır. Nəfsin bu sifətində Allahu Təala qatında öyülmüş olsalar belə hər cür tərifdən uzaq olmalıdırlar. Nəfsin acizliyi bilinmədən nəfsdən uzaqlaşmaz. Hz.Muhammməd (s.a.s.) bu haqda buyurmuşdur: "İnsanın imanı, insanlar onun yanında keçi kimi olmayana qədər (yəni olub-olmamasına fikir verməyənədək) kamil olmaz". Əbu Bəkr Varraq demişdir: "Nəfs hər zaman riyakar, çox vaxt münafiq və bəzən də müşrikdir" (10, 84-87).

Şairin bu haqdakı beytləri aşağıdakılardır:

Gövhər də əldə etmiş olsan, sinəni gərmə,

Ondan da daha yaxşısını axtar, çünki sinəndə var (2, 55).

Vəfası olmayan mülklə öyünürsən,
Daimiliyi olmayan ömürlə dirisən (yaşayırsan) (2, 98).

Ömrünü heç vaxt sərvətlə ölçmə,
Çünki torpaq sərvət və sərvət sahibləri ilə doludur (6, 362).

O, nə qədər sərvət sahibi olursan ol, yenədə öz təvazökarlığını qorumasını insana məsləhət görür, çünki şair bildirir ki, sənin öyündüyün sənin sadəcə dünyadaykən bir yerdədir. Əgər sən öz ömrünü bunlarla ölçürsənsə, sənin kimilər torpaq altında çoxdur. O bununla insanın faniliyini əyani göstərərək, qəflətdə olanları oyandırmaq istəyir.

Nəfsin digər bir sifəti isə uluhiyyət davasıdır, Allah ilə ziddiyyət içindədir. Nəfs hər zaman insanların onu öyməsini, tərifləməsini, əmr və qadağalarına tabe olmasını, hamının onu sevməsini, ondan qorxmasını və rəhmətinə möhtac olmasını istəyir. Allahın qullarından bu halları tələb etməsi kimi. Bu isə o deməkdir ki, insan ilahlıq davasında və rububiyyət iddiasındadır. İlahi sifətlər təcəlli etməzsə, bu sifət nəfsdən ayrılmaz (10, 84-87).

"Atdan düş, özündən (çox) dəm vurma,-dedi,
Yoxsa səni öz mənliyindən çıxararam" (2, 64).

Nizami Gəncəvi nəfsinə tabe olma, Allahın səndən istədiyi davranışları sən insanlardan istəmə, mənliyini, nədən yaradıldığını unutma, belə olan halda sənə kimliyin unutdurular – deyə nəfsi xəbərdar edir.

Başqa beytlərdə bildirir:

Bir gün güzgünü əlinə götürərsənsə,
Həmin gün özünü sındır, xudpərəst olma! (2, 133).

Güzgü sənin şəklini (simanı) düz göstərirsə,
Özünü sındır, güzgünü sındırmaq isə səhvdir (2, 154).

Demək olmaz ki, mən varam, sən varsan
Onda xudpərəstlik ortalığa çıxar (3, 194).

Beləliklə, insan uluhiyyət davasından əl çəkib, şairin ifadəsi ilə desək, özünü sındırmalı, yəni nəfsinə qalib gəlib, onun əhatə olunduğu pis keyfiyyətləri, onu yoldan azdıracaq, hər vaxt günah iş görməyi əmr edən

heyvani xüsusiyyətləri tərk etməli, bununla da Allahın rizasını qazanaraq əbədi səadətə qovuşacağını bildirir.

Digər bir sifət isə özünü bəyənməkdir. Nəfs tez-tez öz sifətlərinin gözəlliyinə baxar və bu halından razı qalar. Əgər birinə bir yaxşılığı toxunsa onu böyüdər, illərlə yadından çıxartmaz və həmin insanın ona borclu olduğunu fikirləşər. Bu sifət öldürücü sifətlərdən biridir. Hətta Hz.Peyğəmbər (s.a.s.) bu haqda buyurmuşdur: "Üç şey insanı həlak edər. İtaət edilən xəsislik, tabe olunan həva və insanın nəfsini böyük görməsidir". Başqa bir hədisdə buyrulur: "İnsanın həlakı nəfsini böyük, əməlini çox və günahını az görməsindədir". Bu sifət də, nəfsin acizliyini bilmədən təmizlənməz (10, 84-87).

Ey (əlif) kimi öz qəddinə aşiq olan (insan),
Sənin "əlifin" öz sövdasının vəhşəti ilə aludədir (2, 150).

Bəli, şair insanın nəfsinin özü ilə öyünməsini necə də gözəl ifadə etmişdir. Nəfs elə bir qüvvədir ki, gördüyü ən xırda əməldə belə özü ilə fəxr edər, özünü uca hesab edər.

Şair aşağıdakı beytdə isə insanın torpaqdan yaradıldığını xatırladaraq qürrələnməyin ona heç bir faydasının olmadığını bildirmiş, nəfsin nə qədər təhlükəli bir anlayış olduğunu oxucusunun nəzərinə çatdırmışdır.

Bir daha qürrədən dəm vurma
Cövhərin torpaqdır oddan deyilsən (6, 137).

Nəfsin başqa bir sifəti xəsislikdir. Mal, mülk və qazancdan nə əldə edərsə, ona bağlanar və onu buraxmaz. Bu sifət nəfsdə güclənəndə qısqanclıq əmələ gələr. Çünki, həsəd başqalarının malını qısqanmaqdır. Yəqin nuru qələbə çalmadıqca, insanın nəfsi cimrilikdən azad olmaz (10, 84-87).

Tamahını azalt ki, çox tapdıqda,
Öz müvəffəqiyyətinə sevinəsən (3, 223).

O adamın xoş rüzgarı var ki,
Tamah bazarı o qədər gur olmasın (6, 69).

Belə nəticəyə gəlmək olar ki, insanı xəsisliyə gətirib çıxaran onun tamahıdır. Tamah hər zaman daha artığını tələb edər və beləliklə də, başqalarının sahib olduğu şeyləri qısqanma hissi oyadar. Lakin o adam xoşbəxt olar ki, tamahı o qədər də, çox olmasın.

Digər başqa bir sifət isə tələskənlikdir. Yəni, nəfs heç bir şeydə sabit qalmaz. Şəhvani hisləri oyandığı zaman heç bir dirənmə göstərməz, tez

həmin işləri görməyə tələsər. Səbr olmadığı zaman bu sifət ortadan qalxmaz (10, 84-87).

Şəhvəti tərk etmək dinin əlamətidir
Pəhrizkarlığın əlaməti elə budur (4, 168).

(Çünki) şəhvətə meyl etməkdən baş gicəllənər
Əgər baş sənə lazımsa, təhlükədən uzaq ol (6, 489).

Şair nəfsin ən pis sifətlərindən olan şəhvətə meyl göstərməyin nə qədər günah iş olduğunu bildirir. Ağıllı insanların bu işdən uzaq olduğunu, dinin əmrlərinə itaət etməklə də şəhvani hisslərdən əl çəkəcəyini deyir.

Nəfsin başqa bir sifəti halsızlıqdır.Nəfs şəhvani istək və arzularına çatmaq üçün tələskənlik göstərdiyi halda, itaət və günahlardan çəkinmək yolunda yorğundur. Bu sifət ancaq riyazət yolu ilə nəfsdən uzaqlaşar (10, 84-87).

Ötüb-getməkdə olan müqəddəmə (həyat),
Şəhvət, yeyib-yatmaq üçün deyil!

Yeyib-yatmaqdan çəkinə bilsən yaxşıdır,
Çünki bunlar öküz və eşşəklərdə də vardır (5, 29).

Şair insanın dünyaya ancaq yeyib-içməkdən ötrü gəlmədiyini qeyd edərək, bu işlə məşğul olanları öküz və eşşəyə bənzədir, yemək üçün deyil, yaşamaq üçün yeməyin lazımlığını və onun yerinə yetirəcəyi vəzifələrinin olduğunu xatırladır.

Başqa bir sifət isə tez yorulmaqdır. Nəfs hər şeydən tez yorulur. Yalançı zənn Allahın əmrlərindən uzaqlaşarsa və digər işlərlə məşğul olarsa rahatlanacağını, düzələcəyini söyləyər. Bu bəladan xilas olmağın yolu şükür vəzifəsini yerinə yetirməklə mümkündür (10, 84-87).

Hərisliyi at, yoxsa o, itaət yolunu kəsər,
Sənin hərisliyinin boynunu (yalnız) qənaət vura bilər (2, 162).

Tamah da nəfsin sifətlərindən biridir. Nəfs tez-tez müxtəlif və daimi şəhvət arzulayar, ehtiyacı olandan artığını istəyər. Onun ehtiyacı heç vaxt sona çatmaz. Bu sifət təqva ilə ortadan qalxar (10, 84-87).
Tamahdan əl çək, bu məhrum hambal (yəni dünya)
Qarğa ilə bayquş kimi ağılla uyuşmaz
Tamahdan, hiylədən gərək əl çəkəsən
Gör o pişik oruc tutmaqla necə ruzi tuturdu (3, 314).

Acgözlükdən nə ummaq olar ki,
O səni gah yandırar, gah da çiy saxlar (6,437).

Qurani-Kərimdə buyrulduğu kimi "Hər bir kəs (canlı) ölümü dadacaqdır. Şübhəsiz ki, mükafatlarınız qiyamət günü tamamilə veriləcəkdir. Oddan (Cəhənnəmdən) uzaqlaşdırılıb, Cənnətə daxil edilən kimsə muradına çatacaqdır. Dünya həyatı isə aldadıcı həzdən (əyləncədən) başqa bir şey deyildir" (1, 3/185). Bu ayədə dünyanın cazibəli yaradıldığından və daima bu ecazkarlığın insanı özünə çəkməsindən bəhs edilmişdir. O bu cazibəni tamaha bənzətmişdir. Bu pis huydan xilas olmağın bir yolunu isə oruc tutmaqda görmüşdür. Şair dünyanı təsadüfi olaraq qarğa və bayquşa bənzətmir. Əlbəttə burada bir hikmət vardır. O nə üçün şahin yox, qarğa və bayquş deyir. Bizim fikrimizcə, dahi şair dünyanın şahin qədər dəyərli olmadığına işarət edir. Qarğa uzun ömürlüdü, lakin ölümsüz deyil. Dünya da onun kimidi. Qarğanın uzunömürlü olmasını dünyaya bənzədir. Amma hər ikisi də fanidir. Şahin az ömür sürsə də qiymətli quşdur. Bu müqayisə, yəni qarğa ilə şahin, dünya-axirət həyatına işarədir. Şair burada bizlərə dünyanın kirli üzünü qarğa və bayquşa bənzədərək, dünya həyatına alüdəçiliyin mənasız olduğunu, dünyanın insanların düşündüyü qədər dəyərli, qiymətli olmadığını göstərməyə çalışır.

Başqa bir beytdə deyir:

Sənə tamahla bərabər ağılı ona görə veriblər ki,
Sənə göndərilməyən şeyi yeməyəsən (2, 122).

Nə eşqbazlıq edər, nə şərab içərdi
Çünki bunun hər ikisindən ağıl yox olar (2, 489).

Şairə görə, Allahu Təala digər məxluqlardan üstün tutduğu insana nəfslə bərabər ağıl da vermişdir. Bu vasitə ilə insan pisi yaxşıdan seçmə qabiliyyətinə malikdir. Onun sahib olduğu bu mükəmməl qüvvəsi sayəsində nəfsin pis sifətlərindən çəkinib, lazım olan qədəri ilə kifayətlənməsidir.

Şairin nəfslə bağlı fikirlərinə nəzər saldıqda biz görürük ki, o bu məsələnin lap kökünə müraciət etmişdir. Hələ Hz.Adəmin (a.s.) dövründən, yəni insanlığın başlandığı dövrdən nəfs məfhumu mövzusu var olmuş və əbədiyyətə qədər də var olacaqdır. Nizami Gəncəvi rəmzlərin, obrazların dili ilə oxucuya nəfsin hiylələrindən bəhs etmiş, eyni zamanda nəfsin lazımsız, artıq yüklərindən qorunmağın mümkünlüyünü izah etmişdir. O, nəfsin qulu olub hər hansı bir günaha düşmüş insanlara çıxış yollarını göstərmişdir. Nizami Gəncəvi bu məqamda Allahın bəndələrinə qarşı sonsuz mərhəmətini nəzərə çatdırır. Yuxarıda da gördüyümüz kimi, şairin

poemalarında nəfsin insanı yoldan çıxardan pis sifətləri açıq şəkildə öz əksini tapmışdır.

Ədəbiyyat

1. Qurani-Kərim məali. Bakı, İpək yolu nəşriyyatı, 2007.
2. N.Gəncəvi. "Sirlər xəzinəsi". Filoloji tərcümə. Bakı, "Elm" nəşriyyatı, 1983.
3. N.Gəncəvi. "Xosrov və Şirin". Filoloji tərcümə. Bakı, "Elm" nəşriyyatı, 1981.
4. N.Gəncəvi. "Yeddi gözəl". Filoloji tərcümə. Bakı, "Elm" nəşriyyatı, 1983.
5. N.Gəncəvi. "Leyli və Məcnun". Bakı, "Elm" nəşriyyatı, 1981.
6. N.Gəncəvi. "İskəndərnamə", "Şərəfnamə", "İqbalnamə". Filoloji tərcümə. Bakı, "Elm" nəşriyyatı, 1981.
7. İmam Gazali. Çeviren: Ahmet Serdaroğlu. İhyau ulumid-din rubul-muhlikat. Cilt:3. 879 səh.
8. Kuşeyri. Tasavvufun ilkeleri (Risale I). Çeviren: Tahsin Yazıcı. İstanbul, 1978. 191 səh.
9. Süleyman Uludağ. Diyanet İslam ansiklopedisi. Nefs maddesi. İstanbul, 2006. Səh. 526-529.
10. İzzeddin Mahmud bin Ali Natanzi Kaşani. Tasavvufun ana esasları (Misbahul-Hidaye ve miftahul-kifaye). Farscadan çeviren: Hakkı Uygur. İstanbul, 2010. 429 səh.
11. Abdurrahman Dodurgalı. Nefs ve eğitimi. Din eğitimi araşdırmaları dergisi, 1998, sayı:5, səh. 75-82.
12. Əl-Mucəmul Əl-Vasit. Səh. 940.
13. Ragıb el-İsfahani, Çevirən: Yusuf Türker. El-Müfredat, Kuran Kavramları Sözlüğü, İstanbul, Pınar
14. Mehmet Ali Ayni. Nefs kelimesinin manaları. Darülfünun İlahiyat fakültesi mecmuası. Sayı:14, İstanbul, Şehzadebaşı Evkaf Matbaası, 1930. Səh.46-52.
15. Dilaver Selvi. Beyzavi tefsirinde nefs tezkiyesi ve takva. Tasavvuf ilmi ve akademik araştırma dergisi. 2010. Səh.125-161.
16. İmam Gazali. Alemlerin sırrı. Tərcümə edən: Naim Erdoğan.

Х.Гусейнова

Страсть и её обличия в произведениях Низами Гянджави

Резюме

В статье Гусейновой Хаялы Расим кызы «Страсть и обличия страсти в творчестве Низами Гянджави» видно, что поэт, говоря о страсти, отправляется к самым истокам жизни. Еще в период Хазрети Адама со времен сотворения первого человека был поднят довольно важный вопрос о сущности страсти, который сохранился по сей день. Поэт глубоко анализирует проявления страсти в своих произведениях и демонстрирует своим читателям всю ее многогранность. В каждой поэме очень точно отражаются все отрицательные аспекты страсти, которые вводят человека в заблуждение. Низами Гянджави иллюстрирует страсть как нечто побуждающее человека к плохим поступкам. По его мнению, она является самым большим врагом человека. Поэт не забывает упомянуть и о хитростях и подлостях страсти, об играх, создаваемых ею против человека, о путях самозащиты, приручения страсти и удержания ее под контролем.

KhHuseynova

Passion and it's attributes in Nizami Ganjavi creation

Summary

In the article of Huseynova Khayala Rasim "Passion and its features in the creation of Nizami Ganjavi deals with the bad attributes of passion. It can be seen that the poet addressed the very root of the passion. The matter of passion even has been the series since the time of Adam and will be forever. Bad features of the passion that have the negative influence on humanity, were reflected in each poem of the poet. But poet tries to explain the humanity the trickles of passion and the possibility of being rid of it by the help of symbols and characters . For Nizami passion is an eternal enemy of mankind. At the same time, N.Ganjavi shows and recommends the way out of passion to the people fallen into the passion. At this point the great poet shows the eternal mercy of God to the people. N. Ganjavi also shows the 7 levels of upbringing from passion in his poems. Great thinker doesn`t forget to recommend purifying either.ə

Rəyçi: Professor Xəlil Yusifli

MÜNDƏRİCAT

DİLÇİLİK

NADİR MƏMMƏDLİ
DİLLƏRARASI ASİMMETRİYA --
"YALANÇI EKVİVALENTLƏR" 3
АБУЗАР БАГИРОВ
ИЗ ИСТОРИИ ИЗДАНИЙ АЗЕРБАЙДЖАНСКОЙ
ЛИТЕРАТУРЫ В ИЗДАТЕЛЬСТВЕ «ХУДОЖЕСТВЕННАЯ
ЛИТЕРАТУРА» В СОВЕТСКИЙ И ПОСТСОВЕТСКИЙ
ПЕРИОД 10
ƏLİHEYDƏR AĞAKİŞİYEV
MÜASİR KİV-lərin BƏZİ DİL VƏ ÜSLUB XÜSUSİYYƏTLƏRİ 23
QIZILGÜL ABDULLAYEVA
ZƏRF XVII ƏSRİN DİL MƏNZƏRƏSİNDƏ 29
FƏRİDƏ HÜSEYNOVA
TEXNIKİ ALİ MƏKTƏBLƏRDƏ XARİCI DİL KURSUNUN ƏSAS
MÜDDƏALARI 38
ТАРАНА ХАЛИЛОВА
ЭРГОНИМЫ КАК ОНОМАСТИЧЕСКИЕ ЕДИНИЦЫ 43
LEYLA MAHMUDOVA
MÜASİR FARS DİLİNDƏ QARIŞIQ TİPLİ TABESIZ
MÜRƏKKƏB CÜMLƏLƏR 48
НАИЛЯ ЮСИФОВА
ОБЩЕСТВЕННАЯ СУЩНОСТЬ, РАЗВИТИЕ И ПРОИСХОЖДЕНИЕ
ЯЗЫКА 53
MƏLAHƏT MUSTAFAYEVA
BAZAR MÜNASİBƏTLƏRİ VƏ MÜASİR SƏNƏDLƏŞMƏNİN TƏŞKİLİ:
RƏSMİ İŞGÜZAR MƏKTUBLAR 58
ALİYƏ HACIYEVA
RADİO DİLİ HAQQINDA 63
ZÜLFİYYƏ ƏLİBƏYOVA
ONOMASTİK VAHIDLƏRİN NORMALAŞDIRILMASININ
ORFOFONİK MƏSƏLƏLƏRİ 68
ŞƏFAQƏT MAHMUDOVA
DEYKSİSİN VERBALLIĞI EMOSİONAL
MÜNASİBƏTİN İFADƏSİ KİMİ 74
NAILƏ GASIMOVA
THE PLAIN ENGLISH GUIDE TO WRITING REPORTS AND
PROPOSALS 82
RAFAEL ƏLİYEV
ABDULLA ŞAİQİN UŞAQ ŞEİRLƏRİNİN DİL
VƏ ÜSLUB XÜSUSİYYƏTLƏRİ 87
AYNUR YUNSUROVA

STYLISTIC ASPECT OF TRANSLATION 93
GÜLAY QURBANOVA
TYPES OF BUSINESS WRITING AND ITS ROLE IN
COMMUNICATION 98
GÜLŞƏN CÜMŞÜDOVA
STYLISTIC DIFFERENTIATION OF ENGLISH VOCABULARY 103
ƏHRUZ MAHMUDOVA
NAXÇIVAN DİALEKT VƏ ŞİVƏLƏRİNDƏ RƏNGİNƏ GÖRƏ
İŞLƏDİLƏN ATÇILIQ LEKSİKASI 108
AYSEL SƏFƏROVA
DİSKURSDA METAFORALAŞMA PROSESİ 114
RƏHILƏ MƏMMƏDOVA
OLD ENGLISH 121
GÜNEL CƏLİLOVA
DİSKURS İNTONASİYASININ ÖZƏLLİKLƏRİ 126
ZİYA BƏHMƏNLİ
AZƏRBAYCANDA TERMİNOLOJİ LÜĞƏTÇİLİYİN TARİXİNDƏN 132
RƏNA ZÜLFÜQAROVA
WRITING IN THE ENGLISH LANGUAGE 140
LALANZAR MURADLI
TYPES AND FORMS OF SPEECH 145
LAMİYA BABAYEVA
SEMANTICS 150
MƏTANƏT İBRAHIMOVA
MEANING AND CONTEXT IN LANGUAGE TEACHING 155
ФИРАНГИЗ ЭЙВАЗОВА
ФРАЗЕОЛОГИЗМЫ АНГЛИЙСКОГО ЯЗЫКА 160
СААДАТ АСЛАНОВА
КОНЦЕПТ «CHALLENGE» И ЕГО ПРАГМАТИЧЕСКИЕ
ОСОБЕННОСТИ 165
AYNUR MAMMADOVA
TEACHING ENGLISH FOR
SPECİFİC PURPOSES 175
ƏLİCAN SULTANSOY
MÜXTƏLİF FƏNLƏR ÜZRƏ MƏNTİQİ
İNTEQRATİV ŞEİR NÜMUNƏLƏRİ 180
RANA BABAYEVA
CAREER DEVELOPMENT 191
SEVİNC ALLAHVERDİYEVA
FELİ BİRLƏŞMƏLƏR VƏ ONLARIN ALMAN DİLİNƏ
TƏRCÜMƏ VARİANTLARI 196
KƏMALƏ İMANOVA
ОБУЧЕНИЕ ВРАЧЕЙ АНГЛИЙСКОМУ ЯЗЫКУ 201

MƏHBUBƏ MƏMMƏDLİ
KONTEKSTDƏ FRAZEOLOJİ SİNONİMLƏRİN İŞLƏDİLMƏSİ XÜSUSİYYƏTLƏRİ 206
İZAURA ŞİRİNOVA
DİLİN MÜXTƏLİF SƏVİYYƏLƏRİNDƏ VARİATİVLİK PROBLEMİNİN TƏDQİQ OLUNMASINA DAİR 214
NÜŞABƏ ƏBDÜLRƏHİMOVA
İNGİLİS DİLİNDƏ ÜNSİYYƏT ZAMANI ETİK SAYILAN MƏQAMLAR VƏ ONLARIN AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ TƏSVİRİ 224
SAIDA UMBAY VERDIYEVA
PBL AND CASE STUDY METHODS IN TEACHING FOREIGN LANGUAGES 231
İNARA MÜTƏLLİMOVA
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ İNTERAKTİV METODUN TƏTBİQİ 236
SIMRUQ QASIMOVA
ASSISTING STUDENTS WITH FOREIGN LANGUAGE LEARNING DIFFICULTIES 244
SEVDA FƏTULLAYEVA
FELIN MÜXTƏLIF PRINSIPLƏRƏ GÖRƏ TƏSNIFATI 249
VÜSAL YÜZBAŞYEV
FARS DİLİNDƏ MƏKAN MƏNALI ŞƏKİLÇİLƏR 255
SƏADƏT QULİYEVA
MÜASİR DİLÇILİKDƏ FONEM NƏZƏRİYYƏSİNƏ DAİR 262
BÖYÜKXANIM EMİNLİ
EMOSİONALLIĞIN LEKSİK İFADƏ VASİTƏLƏRİ 267
AYGUN İBRAHİMOVA
İKINCİ DİLİNİN TƏDRİSİ ZAMANI MAHNILARDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ 273

ƏDƏBİYYATŞÜNASLIQ

SONA VƏLİYEVA
H.CAVİD ROMANTİZMİ: PEYĞƏMBƏRİN TANRI EŞQİ 279
DİLBƏR ZEYNALOVA
ÇAĞDAŞ AZƏRBAYCAN NƏSRİNDƏ FOLKLOR MOTİVLƏRİ (İsmayıl Şıxlı “Əfsanə və rəvayətlər”) 290
TÜRKAN ZEYNALOVA
SABİR POEZİYASININ İNGİLİS DİLİNƏ TƏRCÜMƏ XÜSUSİYYƏTLƏRİ 300
ELMİRA MƏMMƏDOVA-KEKEÇ
VÜCUDNAMƏLƏRDƏ TƏLMİH POETİK FİQURUNUN İFADƏ VASİTƏLƏRİ 306

AĞAVERDİ XƏLİİL
"KOROĞLU" DASTANINDA EVLƏNMƏ ŞƏKILLƏRI
(EPOSUN TÜRKMƏN VARIANTI ƏSASINDA) 318
AFƏT İSRAFILOVA
CORC HORDON NOEL BAYRON
(1788-1824) 326
ELMİRA HƏŞİMOVA
MƏMMƏD SƏİD ORDUBADİNİN "HƏYATIM VƏ MÜHİTİM"
MEMUARININ ƏLYAZMASI VƏ NƏŞRLƏRİ 332
GÜLNAR QASIMLI
MÜASİRLƏRİMİZ ÇAĞDAŞ AZƏRBAYCAN POEMALARINDA 340
KƏMALƏ İSLAMZADƏ
DÜNYA XALQLARININ MİFOLOJİ VƏ FOLKLOR SÜJETLƏRİNDƏ
TƏKGÖZLÜ OBRAZLAR 347
AYTƏN MUŞKİYEVA
MİR CƏLALIN YARADICILIĞINDA MÖVZU RƏNGARƏNGLİYİ 357
KAFİYƏ MUSAYEVA
30-40-CI İLLƏR AZƏRBAYCAN ƏDƏBİYYATI VƏ ƏDƏBİ TƏNQİD 362
GÜLGƏZ SALMANOVA
BƏHRAM QULUZADƏ
AYNURƏ MƏSİMOVA
NİZAMİ VƏ ELM 367
XƏYALƏ HÜSEYNOVA
NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA NƏFS VƏ
ONUN SİFƏTLƏRİ 372

***«Elm və təhsil»* nəşriyyatının direktoru:**
***professor* Nadir MƏMMƏDLİ**

Dizayn: Zahid Məmmədov
Texniki redaktor: Yadigar Mirbağırzadə

Çapa imzalanmış **23.08.2017.**
Şərti çap vərəqi **57,** Sifariş **№ 11.**
Kağız formatı **70x100 1/16.** Tiraj **300.**

*Kitab **"Elm və təhsil"** nəşriyyat-poliqrafiya müəssisəsində*
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.